













DAYANIQLILIQ HESABATI 2025

HESABATLILIQ VASİTƏSİLƏ *TƏSİRİN* GENİŞLƏNDİRİLMƏSİ

32-59
Dürüst idarəetmə
KEÇİD ET

60-79
Ətraf mühitə təsirlərin minimuma endirilməsi
KEÇİD ET

80-99
İnsanlara qayğı
KEÇİD ET

SOCAR

MÜNDƏRİCAT

SOCAR-a giriş 1
Prezidentin müraciəti 3
Hesabat haqqında 4
Qısa tarix 5
SOCAR qısa baxışda 6
ESG fəaliyyətinin əsas nəticələri 10
İkiqat əhəmiyyətlilik qiymətləndirilməsi 14
Əməliyyatlarımız və dəyər zəncirimiz 19
İqtisadi təsir və fəaliyyət 22
SOCAR-ın 2025-ci il portfelinə daxil olan əsas birləşmə və satınalma əməliyyatları 24
Xalis sıfıra doğru yol 25
Aşağı karbonlu biznesin inkişafı 28
İnnovasiya və rəqəmsal transformasiya 30
Dayanıqlı idarəetmə yanaşması 31
Dürüst idarəetmə 32
İdarəetmə strukturu və nəzarət 33
Etik biznes davranışı 38
Vergi dürüstlüyü 44
Risklərin İdarə olunması və nəzarət 45
Təchizat zəncirində məsuliyyətli yanaşma 53
Keyfiyyət təminatı və laboratoriyaların idarə edilməsi 57
Kibertəhlükəsizlik 58
Ətraf mühitə təsirlərin minimuma endirilməsi 60
Ətraf mühitin idarə edilməsi 61
İstixana qazı emissiyalarının idarə edilməsi 63
Dekarbonizasiya proqramı 69
Enerji idarə edilməsi və səmərəliliyi 71
Qrup üzrə suyun idarə edilməsi 74
Materiallardan istifadə, tullantılar və dairəvi iqtisadiyyat 75
Havanın keyfiyyəti 76
Torpaqla bağlı təsirlər və neft dağılmalarının idarə olunması 78
İnsanlara qayğı 80
Sağlamlıq və əməyin təhlükəsizliyi 81
Əmək təcrübələri və işçi qüvvəsinin idarə edilməsi 85
Müxtəliflik, bərabərlik və inklüzivlik 88
Əməkhaqqı və imtiyazlar 95
Əməkdaşların işə bağlılığı və rifahı 96
Sosial dəyərin yaradılması 98
Səmərəlilik göstəriciləri 100
GRI məzmun indeksi 131
Əminlik bəyannaməsi 151
Hesabatın əsasları 153

PREZİDENTİN MÜRACİƏTİ

Hörmətli tərəfdaşlar,

2025-ci ildə qlobal enerji sektoru dəyişən bazar dinamikaları və iqlimlə bağlı artan gözləntilərin təsiri ilə sürətli transformasiyasını davam etdirdi. SOCAR olaraq biz bu prioritetləri bir-biri ilə sıx bağlı hesab edirik. Missiyamız yalnız iqtisadi dəyər yaratmaq və enerji təhlükəsizliyinə töhfə verməklə məhdudlaşmır. Eyni zamanda, fəaliyyətimizi təhlükəsiz, şəffaf və uzunmüddətli dayanıqlı inkişafa sadiqlik prinsipləri əsasında həyata keçirməyə çalışırıq.

Hesabat ili ərzində əsas diqqətimizi əməliyyat dayanıqlığının qorunmasına və strateji prioritetlərimizin ardıcıl həyata keçirilməsinə yönəltdik. Fəaliyyət portfelimiz üzrə sabit əməliyyatları təmin etdik, bazarlarımızın etibarlı enerji təchizatını dəstəklədik və sürətlə dəyişən enerji mühitində inteqrasiya olunmuş enerji şirkəti kimi SOCAR-ın mövqeyini daha da möhkəmləndirdik.

Bu prioritetlərə uyğun olaraq, seçilmiş investisiya qərarları, strateji tərəfdaşlıqlar və "upstream", "midstream" və "downstream" istiqamətləri üzrə eləcə də bərpa olunan enerji istiqamətləri üzrə əldə etdiyimiz irəliləyişlər vasitəsilə fəaliyyət portfelimizi daha da şaxələndirdik. Bu addımlar daha çevik, aşağı karbonlu və beynəlxalq bazarlarla daha sıx inteqrasiya olunmuş biznes modelinin formalaşdırılmasına xidmət edir. Bu çərçivədə Şərqi Aralıq dənizində yerləşən Tamar yatağında 10% iştirak payının əldə edilməsi SOCAR-ın yeni "upstream" istiqaməti üzrə regionda fəaliyyətə başlamasını təmin etdi. Eyni zamanda, İtaliyanın Italiana Petroli şirkətinin səhmlərinin 99.82% əldə edilməsinə dair razılaşma Avropada "downstream" istiqaməti üzrə fəaliyyətimizin genişləndirilməsində mühüm addım oldu. Bununla yanaşı, neft-kimya sənayesi və enerji keçidi layihələri üzrə beynəlxalq tərəfdaşlarımızla əməkdaşlığımızı daha da genişləndirdik.

Geosiyasi gərginliyin bazarlarda qeyri-sabitlik və qiymət dəyişkənliyini artırdığı bir şəraitdə etibarlı və əlçatan enerji təchizatının təmin edilməsi qlobal enerji sektorunun əsas prioritetlərindən biri olaraq qalır. Enerji təhlükəsizliyinin möhkəmləndirilməsi ilə yanaşı, enerji keçidini dəstəkləyən investisiyalarımızı genişləndiririk. Bu istiqamətdə SOCAR Green MMC mühüm rol oynayır. 2025-ci ildə SOCAR tərəfindən 200 milyon ABŞ dolları həcmində yaşıl istiqrazların buraxılması şirkətimizin dayanıqlı maliyyə bazarına ilk çıxışı oldu. Cəlb olunan vəsaitin SOCAR Green MMC vasitəsilə bərpa olunan enerji layihələrinin maliyyələşdirilməsinə yönəldilməsi nəzərdə tutulur. Bu addımı yalnız maliyyələşdirmə aləti deyil, həm də investisiya qərarlarımızın uzunmüddətli dayanıqlılıq məqsədlərinə uyğunlaşdırılmasına sadiqliyimizin göstəricisi kimi qiymətləndiririk.

Eyni zamanda, dayanıqlı həllərin əməliyyat fəaliyyətimizə inteqrasiyası istiqamətində işlərimizi davam etdirdik. Fəaliyyətimizin bütün istiqamətləri üzrə bioyanacaqdan istifadə, karbonun faydalı istifadəsi, əməliyyat səmərəliliyinin artırılması, eləcə də aşağı karbonlu enerji həllərini dəstəkləyən rəqəmsal texnologiyaların tətbiqi sahəsində təşəbbüsləri irəli apardıq.

İqlim dəyişikliyi ilə mübarizə SOCAR-ın uzunmüddətli inkişaf strategiyasının əsas istiqamətlərindən biri olaraq qalır. Bununla yanaşı, dayanıqlı inkişafın yalnız ekoloji göstəricilərlə məhdudlaşmadığını yaxşı anlayırıq. Dayanıqlı inkişaf əməkdaşlarımızın sağlamlığının və təhlükəsizliyinin təmin edilməsini, insan kapitalının inkişafına investisiyaların artırılmasını, icmalarla məsuliyyətli əməkdaşlığın qurulmasını, eləcə də etik davranış, uyğunluq və hesabatlılıq sahəsində yüksək standartların qorunmasını da əhatə edir. Bu istiqamətlərin hər birini SOCAR-ın fəaliyyət modelinin və uzunmüddətli dəyər yaratmaq yanaşmasının ayrılmaz hissəsi kimi daha da inkişaf etdirməyə sadiqik.

Bu yanaşma Azərbaycanın Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr (NDC 3.0) çərçivəsində müəyyən edilmiş prioritetlərə əsaslanır. Neft və qaz sektorunun əsas iştirakçılarından biri kimi biz milli emissiyaların azaldılması hədəflərinə təsirimizi və bu istiqamətdə daşıdığımız məsuliyyəti dərk edirik. NDC 3.0 sənədi 2035-ci ilədək emissiyaların 40 faiz azaldılması hədəfini müəyyən etməklə yanaşı, metan emissiyalarının azaldılması, məşəldə qazın yandırılmasının minimuma endirilməsi və aşağı karbonlu texnologiyaların tətbiqi kimi əsas prioritetləri müəyyən edir.

Hesabat ili ərzində əldə etdiyimiz nəticələr beynəlxalq qiymətləndirmələrdə də öz əksini tapmışdır. MSCI tərəfindən əvvəlki ildə aparılmış ESG qiymətləndirilməsinin ardından, 2025-ci ildə SOCAR Sustainable Fitch tərəfindən ESG Müəssisə Reytinqi üzrə qiymətləndirilmişdir. Bu qiymətləndirmələr fərqli metodologiyalara əsaslansa da, risklərin idarə edilməsinin gücləndirilməsi, şəffaflığın artırılması və dayanıqlılıq prinsiplərinin strategiyamıza və qərar qəbuletmə proseslərimizə inteqrasiyası istiqamətində əldə olunan irəliləyişi əks etdirən mühüm beynəlxalq göstəricilərdir.

Gələcəyə baxışımız dəyişməz olaraq qalır. Prioritetimiz enerji təhlükəsizliyi, əməliyyat dayanıqlığı, strateji inkişaf və dayanıqlılıq məqsədləri arasında balansın məsuliyyətli və praktik yanaşma əsasında qorunmasıdır. Maraqlı tərəflərin gözləntilərinin gələcəkdə də dəyişəcəyini anlayır və sürətlə dəyişən enerji sektorunda fəaliyyət göstərməyin yaratdığı məsuliyyəti tam şəkildə bölüşürük. Məqsədimiz bütün maraqlı tərəflərimiz üçün ölçülə bilən nəticələr əldə etmək, şəffaflığı daha da artırmaq və uzunmüddətli dəyər yaratmağa davam etməkdir.

Rövşən Nəcəf
SOCAR-ın prezidenti



HESABAT HAQQINDA

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (bundan sonra – "SOCAR" və ya "Şirkət") özünün 15-ci Dayanıqlılıq Hesabatını (bundan sonra – "Hesabat") təqdim edir. Hesabat 31 dekabr 2025-ci il tarixində başa çatan hesabat ili üzrə dayanıqlı inkişaf fəaliyyətinin nəticələrini əhatə edir və 2026-cı ildə dərc olunmuşdur. Hesabat maraqlı tərəflərə Şirkətin ekoloji, sosial, korporativ idarəetmə (ESG) və iqtisadi fəaliyyəti barədə maraqlı tərəflərə şəffaf və ardıcıl məlumat təqdim etmək məqsədilə hazırlanmışdır.

Bu Hesabatın məqsədi ölçülə bilən irəliləyişləri, əhəmiyyətli təsirləri və gələcəyə yönəlmiş prioritetləri strukturlaşdırılmış, ardıcıl və beynəlxalq səviyyədə müqayisə oluna bilən yanaşma əsasında təqdim etməkdir. 2025-ci il üzrə Hesabat Qlobal Hesabatlılıq Təşəbbüsünün (GRI) Standartlarına uyğun olaraq hazırlanmışdır. Hesabatda həmçinin neft və qaz sektoru üçün spesifik risk və təsirləri əhatə edən GRI 11: Neft və Qaz sektoru 2021 standartı tətbiq edilmişdir. GRI Standartları əsas hesabatlılıq çərçivəsi kimi istifadə olunur, eyni zamanda Hesabat digər çərçivə sənədlərinin tövsiyələrini də əhatə edir:

- BMT-nin Qlobal Sazişinin On Prinsipi;
- BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri (DİM);
- Neft və Qaz sənayesi üzrə Dayanıqlılıq Mühasibat Uçotu Standartları Şurasının (SASB) Standartları.

2025-ci ildə Şirkət Avropa Dayanıqlılıq Hesabatlılığı Standartlarının (ESRS) prinsiplərinə uyğun olaraq, təsir və maliyyə baxımından əhəmiyyətli dayanıqlılıq mövzularının müəyyən edilməsi və prioritetləşdirilməsi məqsədilə ikiqat əhəmiyyətlilik qiymətləndirməsi həyata keçirmişdir. Bu qiymətləndirmənin metodologiyası, prosesi və nəticələri barədə daha ətraflı məlumat Hesabatın müvafiq bölməsində təqdim olunur. Bu çərçivə sənədlərinin birgə tətbiqi hesabat məlumatlarının ardıcıllığını, müqayisəliliyini və aktuallığını təmin edərək, qlobal səviyyədə bütün maraqlı tərəflər tərəfindən məlumatların analitik qiymətləndirilməsi üçün əsas yaradır.

Bu Hesabat SOCAR-ın Azərbaycan Respublikasındakı əməliyyatları və beynəlxalq törəmə şirkətləri üzrə konsolidə edilmiş dayanıqlı inkişaf göstəricilərini əks etdirir. Əgər Hesabatda başqa hal nəzərdə tutulmayıbsa, "SOCAR" və "SOCAR (Azərbaycan)" dedikdə, Baş Ofis və onun strukturuna birbaşa daxil olan qurumların Azərbaycan Respublikasındakı fəaliyyəti nəzərdə tutulur. Həmçinin, başqa hal nəzərdə tutulmayıbsa, "SOCAR Qrup" və ya "SOCAR Qlobal" terminləri Şirkətin hesabatın əhatə dairəsinə daxil olan ölkədaxili və beynəlxalq əməliyyatlarına istinad edir. Müvafiq hallarda (məsələn, istixana qazı emissiyaları üzrə) hesabat sərhədlərinə SOCAR-ın qismən mülkiyyət payına malik olduğu və ya əməliyyat təsirinə sahib olduğu müəssisələr də daxil edilə bilər. Tətbiq olunan hesabat sərhədləri müvafiq bölmələrdə göstərilmişdir. "SOCAR Qrup" və ya "SOCAR Qlobal" ifadələri müəyyən edilmiş hesabat sərhədlərinə daxil olan və Şirkətin əməliyyat nəzarəti altında fəaliyyət göstərən həm ölkədaxili, həm də beynəlxalq əməliyyatları əhatə edir. Bu Hesabatda, başqa hal nəzərdə tutulmayıbsa, "SOCAR Türkiyə" dedikdə Şirkətin Türkiyədəki əməliyyatları, o cümlədən Petkim, STAR Neft Emalı Zavodu, SOCAR Terminal, SOCAR Depolama və Korporativ Baş Ofisi nəzərdə tutulur.

Hesabatın əhatə dairəsinə daxil olan əsas beynəlxalq törəmə müəssisələr aşağıdakılardır:

- SOCAR Türkiyə Enerji A.Ş., o cümlədən Petkim Petrokimya Holding A.Ş. və STAR Rafineri A.Ş.;
- SOCAR Energy Georgia LLC;
- SOCAR Energy Ukraine LLC;
- SOCAR Energy Holdings AG, o cümlədən SOCAR Energy Austria GmbH və SOCAR Energy Switzerland GmbH;
- SOCAR Trading SA.

Şirkətin şəffaflığın və hesabatlılığın əhatəliliyinin mərhələli şəkildə artırılması öhdəliyinə uyğun olaraq, 2025-ci il üzrə hesabat sərhədləri ilk dəfə olaraq SOCAR Trading SA-nı da əhatə edəcək şəkildə genişləndirilmişdir. Bu dəyişiklik Qrupun kommersiya fəaliyyəti və risk profilinin daha əhatəli şəkildə təqdim olunmasına imkan verir. SOCAR Trading SA 2025-ci ildə Qrupun gəlirlərinin təxminən 58% formalaşdırmışdır. Bu genişləndirmə Qrupun konsolidə edilmiş ESG açıqlamalarının təmsilçilik səviyyəsini və əhatəliliyini artırmaq məqsədilə həyata keçirilmişdir. Beynəlxalq əməliyyatlara dair bütün məlumatlar müvafiq törəmə müəssisələrlə koordinasiya əsasında toplanmış, yoxlanılmış və təsdiq edilmiş, bununla da Qrupun hesabat metodologiyası, daxili nəzarət çərçivə sənədləri və məlumatların idarə olunması prosedurları ilə uyğunluq təmin edilmişdir.

SOCAR-ın fəaliyyət portfelinin şaxələndirilmiş strukturu nəzərə alınaraq, bu Hesabatda təqdim olunan davamlı inkişaf göstəriciləri ilə ayrı-ayrı törəmə müəssisələr tərəfindən dərc edilən müstəqil açıqlamalar (məsələn, SOCAR Türkiyə) arasında müəyyən fərqlər yarana bilər. Bu fərqlər hesabat sərhədləri və müvafiq hesabat çərçivələrinə daxil edilən əməliyyat vahidlərinin fərqlənməsi ilə əlaqədardır. SOCAR öz daxili idarəetmə və nəzarət strukturuna uyğun konsolidə edilmiş hesabat yanaşmasını tətbiq edir. Əvvəlki hesabat dövrləri ilə müqayisədə əhəmiyyətli mövzular, sərhədlər və ya metodologiyalar dəyişdikdə, illər üzrə müqayisəliliyi və şəffaflığı təmin etmək məqsədilə müvafiq bölmələrdə zəruri izahatlar təqdim olunur.

Dayanıqlılıq Hesabatı hər il Şirkətin İdarə Heyəti tərəfindən nəzərdən keçirilir və təsdiq olunur ki, bu da ESG fəaliyyəti və açıqlamaları üzrə idarəetmə səviyyəsində nəzarəti gücləndirir. Etibarlılıq və dəqiqliyin təmin edilməsi məqsədilə müvafiq məlumatlar məsul biznes vahidləri tərəfindən yoxlanılır və təsdiqlənir, hesabat vahidləri üzrə daxili nəzarət mexanizmləri tətbiq edilir və müstəqil əminlik proseduru həyata keçirilir.

Müstəqil əminlik bəyannaməsi Hesabatın tətbiq olunan beynəlxalq hesabat standartlarına uyğun hazırlandığını, əhəmiyyətli mövzuların düzgün əhatə olunduğunu və açıqlanan məlumatların dəqiq və etibarlı olduğunu təsdiqləyir. Hesabatda əks olunan gələcəyə dair bəyanatlar hesabat tarixinə Şirkət üçün mövcud olan məlumatlar əsasında hazırlanmışdır və gələcək nəticələrə dair zəmanət kimi qəbul edilməməlidir. Onlar fəaliyyətin əhatə dairəsində baş verə biləcək dəyişikliklər, coğrafi mövcudluğun dəyişməsi, eləcə də geoiqtisadi mühitdə baş verən proseslərdən asılı olaraq yenilənə və ya dəyişə bilər.

QISA TARİX

1846

Dünyanın ilk sənaye neft quyusu Bakı şəhərinin Bibiheybət qəsəbəsində qazılıb, burada neft 21 metr dərinlikdən çıxarılıb və bu, ABŞ-dakı ilk neft quyusunun qazılmasından 13 il əvvəl baş vermişdir.

1875

Nobel qardaşları — Robert, Lüdviq və Alfred Azərbaycanın neft sənayesində fəaliyyətə başladılar.

1941-1945

İkinci Dünya müharibəsinin ilk ilində Azərbaycan 23,5 milyon ton neft hasil etmişdir. Ümumilikdə cəbhəyə 75 milyon ton neft çatdırılmış, Bakı neft emalı zavodlarında istehsal olunan məhsullar hərbi aviasiyanın yanacaq tələbatının 90%-ni təmin etmişdir.

1949

Neft Daşları açıq dənizdə istismara verilən ilk dəniz neft yatağı olmuşdur.

1992

Prezidentin fərmanı ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) "Azərneft" Dövlət Konserni və "Azərneftkimya" İstehsalat Birliyinin bazasında yaradılmışdır.

1994

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqları və "Günəşli" yatağının dərinsulu hissəsinin birgə işlənilməsi üzrə Hasilatın Pay Bölgüsü Sazişi imzalanmışdır.

1998

Ankara Bəyannaməsi Bakı–Tbilisi–Ceyhan (BTC) neft kəməri layihəsinin həyata keçirilməsinə siyasi dəstək və strateji təkan verdi.

2010

"Ümid" qaz və kondensat yatağı kəşf olunmuşdur.

2020

Tarixdə ilk dəfə olaraq Azərbaycan təbii qazı birbaşa Avropa bazarlarına çatdırılmışdır. Martın 19-da SOCAR və Equinor Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra ölkədə kəşf edilmiş ilk neft yatağı olan Qarabağ yatağının aşkar edildiyini təsdiqləmişlər.

2025

SOCAR İtaliyanın "Italiana Petroli" şirkətinin 99,82%-lik payının alınmasına dair saziş imzalamışdır. Bu razılaşma nəticəsində SOCAR İtaliyada iri neft emalı gücü və təxminən 4 600 yanacaqdoldurma məntəqəsindən ibarət ümummilli şəbəkə əldə etmişdir. Bu, SOCAR-ın indiyədək həyata keçirdiyi əsas böyük beynəlxalq əməliyyat olmaqla yanaşı, şirkətin Avropanın "downstream" istiqaməti üzrə bazardakı mövqeyini əhəmiyyətli dərəcədə gücləndirmişdir.







SOCAR QISA BAXIŞDA

SOCAR Azərbaycan Respublikasının milli neft şirkətidir və ölkənin enerji sektorunda əsas rol oynayır. Şirkət Azərbaycan ərazisində fəaliyyət göstərir və Türkiyə, Gürcüstan, Rumıniya, İsveçrə, Avstriya, Ukrayna və İtaliya da daxil olmaqla bir sıra ölkələrdə əhəmiyyətli beynəlxalq mövcudluğa malikdir. Şaquli inteqrasiya olunmuş enerji şirkəti kimi, SOCAR-ın dəyər zənciri kəşfiyyat və hasilatdan başlayaraq emal, nəqletmə, marketinq, neft emalı, neft-kimya və digər əlaqəli enerji fəaliyyətlərini əhatə edir. Bu inteqrasiya olunmuş model daxili və ixrac bazarlarında əməliyyatların fasiləsizliyini, xərclərin səmərəliliyini və təchizatın etibarlılığını dəstəkləyir.

MİSSİYA

Zəngin neft-qaz əməliyyatları təcrübəmizi müasir texnologiya və sərişteliklərlə təkmilləşdirərək yerli, regional və beynəlxalq müstəvidə dayanıqlı inkişafa və enerji təhlükəsizliyinə töhfə vermək.

MƏRAM

Enerji keçidi, innovasiyalar və rəqəmsallaşdırma vasitəsilə əməliyyatlarımızı inkişaf etdirərək qabaqcıl enerji şirkəti olmaq.

Qayğı
Hesabatlılıq
Təhlükəsizlik
Davamlı İnkişaf
Vahid Komanda

2025-Cİ İLDƏ HƏYATA KEÇİRİLMİŞ ƏHƏMİYYƏTLİ TƏŞƏBBÜSLƏR

01. Bərpa Olunan Enerji Potensialının İnkişafı və Dekarbonizasiya
445 MVt gücündə Biləsuvar Günəş Elektrik Stansiyası (GES) layihəsi üzrə maliyyə bağlanışı tamamlanmış və tikinti işlərinə başlanılmışdır. Bununla yanaşı, 240 MVt gücündə Şəfəq GES layihəsi üzrə 2027-ci ildə istismara verilməsini nəzərdə tutan Yekun İnvestisiya Qərarı (FID) qəbul edilmişdir.

02. Yaşıl Maliyyə
SOCAR bərpa olunan enerji layihələrinin maliyyələşdirilməsini dəstəkləmək məqsədilə 200 milyon ABŞ dolları həcmində yaşıl istiqrazlar buraxmış və onların ticarətinə başlamışdır. Bu addım Şirkətin dayanıqlı maliyyələşmə gündəliyinin və aşağı karbonlu iqtisadiyyata keçid strategiyasının irəlilədilməsi baxımından mühüm mərhələ olmuşdur.

MİSSİYA VƏ MƏRAMA TÖHFƏSİ

Enerji portfelini şaxələndirir, karbon intensivliyini azaldır və enerji keçidi strategiyasına uyğun olaraq uzunmüddətli enerji təhlükəsizliyini gücləndirir.

Bərpa olunan enerji layihələrinin maliyyələşdirilməsini təmin etməklə aşağı karbonlu iqtisadiyyata keçidi sürətləndirir və uzunmüddətli maliyyə dayanıqlığını gücləndirir.

SOCAR neft, qaz, neft-kimya, nəqliyyat, ticarət və bərpa olunan enerji dəyər zənciri boyunca fəaliyyət göstərən enerji şirkətidir. Şirkət uzunmüddətli dəyər yaradılmasını dəstəkləmək məqsədilə ESG amillərinin biznes planlaşdırılmasına, risklərin idarə edilməsinə və kapitalın bölüşdürülməsinə inteqrasiyasını gücləndirir.

Davam edən rəqəmsal transformasiya çərçivəsində SOCAR Qrup üzrə ESG məlumatlarının keyfiyyətini, ardıcıllığını və izlənilə bilənliyini əhəmiyyətli dərəcədə artırmışdır. Hesabatlılıq çərçivəsi GRI və SASB standartlarına uyğun sahəvi göstəriciləri əhatə edir və seçilmiş göstəricilər müstəqil kənar əminlik prosedurundan keçirilir.

2025-ci ildə SOCAR həm təsir, həm də maliyyə əhəmiyyətliliyi baxımından ən aktual ESG mövzularını müəyyən etmək məqsədilə İkiqat Əhəmiyyətlilik Qiymətləndirilməsi həyata keçirmişdir. Qiymətləndirmə SOCAR-ın ətraf mühit və sosial təsirlərini, eləcə də şirkətin dəyərinə təsir edən dayanıqlılıqla bağlı risk və imkanları əhatə etmişdir. Aşağıda təqdim olunan göstəricilər qiymətləndirmə nəticəsində müəyyən edilmiş ən əhəmiyyətli mövzuları əks etdirir və SOCAR-ın ESG açıqlamaları və hesabatlılıq çərçivəsinin əsasını təşkil edir.



Xalis Mənfəət
2 949
Milyon AZN

İstixana qazlarının ümumi emissiyaları
17.1
Milyon ton CO_2ekv

LTIR
0,07
SOCAR (Azərbaycan) üzrə 200 000 işlənmiş saata görə

Neft ixracı
3 088
Min ton

"Upstream" istiqaməti üzrə metan İntensivliyi[1]
2.5
%

Korrupsiya Halları
0
2025-ci ilin sonuna qədər

Qaz ixracı
2 895
Milyon m³

Ümumi işçi sayı
70 159
Qrup üzrə, birgə müəssisələr və aidiyyəti şirkətlər istisna olmaqla

Daxili Bərpa Olunan Enerji İstehsalı
132 211
MVt · s, SOCAR Qrupu

1. Əməliyyat nəzarəti (operational control) prinsipinə əsasən hesablanır.

SOCAR TÜRKİYƏ

SOCAR Türkiyə neft emalı, neft-kimya, təbii qaz, logistika və enerji infrastrukturu sahəsində fəaliyyət göstərir. Türkiyənin ən böyük xarici birbaşa investorlarından biri kimi Petkim, STAR Neft Emalı Zavodu və TANAP kimi strateji aktivlər vasitəsilə yüksək inteqrasiya olunmuş enerji dəyər zənciri formalaşdırmış, bununla da Türkiyənin enerji təhlükəsizliyinə və sənaye inkişafına mühüm töhfə vermişdir.

SOCAR ENERGY GEORGIA

2006-cı ildə SOCAR-ın ilk beynəlxalq törəmə müəssisəsi kimi təsis edilmiş SOCAR Energy Georgia neft və qaz məhsullarının idxalı, topdansatışı və pərakəndə satışı, həmçinin təbii qazın təchizatı sahələrində fəaliyyət göstərir.

SOCAR ENERGY UKRAINE


2008-ci ildən fəaliyyət göstərən SOCAR Energy Ukraine neft məhsulları, təbii qaz və aviasiya yanacağının topdan və pərakəndə satışını həyata keçirir. Ölkə üzrə fəaliyyət göstərən 50-dən çox premium yanacaqdoldurma məntəqəsi şəbəkəsi vasitəsilə şirkət Ukraynada davam edən çətinliklərə baxmayaraq etibarlı xidmət göstərməyə və yerli icmaları dəstəkləməyə sadiqdir.

SOCAR ENERGY SWITZERLAND

Baş ofisi İsveçrədə yerləşən SOCAR Energy Switzerland İsveçrə və Avstriyada pərakəndə yanacaq satışı sahəsində fəaliyyət göstərir. Yanacaqdoldurma məntəqələri şəbəkəsi vasitəsilə şirkət yüksəkkeyfiyyətli yanacaq, rahat və əlçatan pərakəndə xidmətlər və müştəriyönümlü enerji həlləri təqdim edir.

SOCAR TRADING

2007-ci ildə təsis edilmiş və baş ofisi İsveçrənin Cenevrə şəhərində yerləşən SOCAR Trading SOCAR-ın beynəlxalq ticarət qoludur. Azərbaycanın Azeri Light markalı xam neftinin əsas tədarükçüsü olan şirkət Cenevrə, London, Sinqapur, Dubay və Hyustondakı ofisləri vasitəsilə xam neft, neft məhsulları, LNG, təbii qaz və karbon məhsullarının ticarətini həyata keçirir.



BAKI–TBİLİSİ–CEYHAN BORU KƏMƏRİ

BTC boru kəməri əsasən Azərbaycanın AÇG və Şahdəniz yataqlarından hasil olunan xam neft və kondensatı Ceyhan limanı vasitəsilə dünya bazarlarına nəql edir. 2025-ci ildə BTC vasitəsilə 283 tanker ilə ümumilikdə 27 milyon ton neft ixrac edilmişdir.

CƏNUBİ QAFQAZ BORU KƏMƏRİ

SCP Azərbaycandakı Şahdəniz yatağından hasil olunan təbii qazı Gürcüstan üzərindən Türkiyəyə nəql edir. Boru kəməri Xəzər təbii qazının regional və beynəlxalq bazarlara ixracını təmin etməklə yanaşı, enerji mənbələrinin şaxələndirilməsinə və enerji təhlükəsizliyinin gücləndirilməsinə töhfə verir. 2025-ci ildə SCP vasitəsilə 23.2 milyard kubmetr təbii qaz ixrac edilmişdir.

TANAP

TANAP Şahdəniz Mərhələ 2 və Xəzər hövzəsinin digər yataqlarından hasil olunan təbii qazı Türkiyə ərazisi boyunca nəql edərək SCP-nin mərkəzi hissəsini təşkil edir. Gürcüstan–Türkiyə sərhədindən Türkiyənin qərb sərhədinədək uzanan boru kəməri TAP ilə birləşərək Avropa və region bazarlarının uzunmüddətli enerji təchizatının etibarlılığını dəstəkləyir. 2025-ci ildə TANAP vasitəsilə Avropa və regional bazarlara 17.04 milyard kubmetr təbii qaz nəql edilmişdir.

TAP

TAP Cənubi Qafqaz Boru Kəmərini tamamlayaraq təbii qazı Türkiyə–Yunanıstan sərhədindən Şimali Yunanıstan və Albaniya ərazisi, daha sonra Adriatik dənizi vasitəsilə Cənubi İtaliyaya nəql edir və burada Snam Rete Gas şəbəkəsinə qoşulur. Əlavə təchizat marşrutu təmin etməklə TAP Cənubi Avropada enerji təhlükəsizliyini və bazarın dayanıqlığını gücləndirir. 2025-ci ildə TAP vasitəsilə Avropa bazarlarına 11,04 milyard kubmetr təbii qaz çatdırılmışdır.

SOCAR

BEYNƏLXALQ FƏALİYYƏT COĞRAFİYASI

2025-ci ildə fəaliyyətimizin səmərəliliyinin artırılması ilə yanaşı, aktivlər portfelimizi genişləndirməyə davam etdik. Bu çərçivədə hesabat dövründə üç iri satınalma əməliyyatı həyata keçirildi. Həmin əməliyyatlar portfelimizin gücləndirilməsi ilə yanaşı, dayanıqlı və etibarlı enerji təchizatının təmin edilməsi üzrə imkanlarımızı genişləndirməyə və uzunmüddətli enerji təhlükəsizliyinə töhfəmizi artırmağa imkan verdi.

- Italiana Petroli (İtaliya, "downstream" istiqaməti və pərakəndə satış) – 2025-ci ilin sentyabr ayında SOCAR API Holding ilə Italiana Petroli S.p.A. və MIP S.p.A. şirkətlərinin 99,82%-lik payının alınmasına dair müqavilə imzaladı. Bu əməliyyat nəticəsində SOCAR İtaliyanın ən böyük yanacaqdoldurma məntəqələri şəbəkələrindən birinə və əlaqəli logistika aktivlərinə nəzarət əldə edərək Avropada "downstream" istiqaməti mövqeyini daha da gücləndirdi.
- GAMMA Enerji CCGT (Türkiyə, qazdan elektrik enerjisi istehsalı) – 2025-ci ilin dekabr ayında keçirilən II Azərbaycan–Türkiyə İnvestisiya Forumu çərçivəsində SOCAR Türkiyə Enerji Mərkəzi Anadoluda yerləşən, gücü 870 MVt olan kombinə edilmiş tsiklli qaz turbinli elektrik stansiyasının Gama Enerji şirkətindən 100% payının alınmasına dair razılıq əldə etdi. Bu satınalma SOCAR-ın Türkiyədə qazdan elektrik enerjisi istehsalı dəyər zəncirində mövqeyini daha da möhkəmləndirdi.
- Tamar Qaz Yatağı (İsrail, "upstream" istiqaməti) – 2025-ci il 31 yanvar tarixində SOCAR Union Energy şirkəti ilə Union Energy və Tamar Petroleum şirkətlərindəki paylar vasitəsilə dənizdə yerləşən Tamar qaz yatağında effektiv 10%-lik iştirak payının əldə edilməsinə dair müqavilə imzaladı. Bu əməliyyat SOCAR-ın Aralıq dənizi hövzəsində "upstream" istiqaməti üzrə qaz layihələrinə ilk investisiyasını ifadə edir.

İsveçrə
- Marketinq və satış
- Yanacaqdoldurma məntəqələri

Avstriya
- Yanacaqdoldurma məntəqələri

Rumıniya
- Yanacaqdoldurma məntəqələri

Ukrayna
- Yanacaqdoldurma məntəqələri

Rusiya
- Marketinq və satış
- Boru kəmərləri

Gürcüstan
- Terminal və boru kəmərləri
- Marketinq və satış
- Yanacaqdoldurma məntəqələri

Azərbaycan
- Kəşfiyyat, istismar və hasilat
- Neft və qaz emalı zavodları
- Neft-kimya məhsulları və gübrələr
- Terminallar və boru kəmərləri
- Marketinq və satış
- Bərpa olunan enerji
- Yanacaqdoldurma məntəqələri

İtaliya
- Neft emalı zavodu
- Yanacaqdoldurma məntəqələri
- Boru kəmərləri

Yunanıstan

Albaniya
- Boru kəmərləri

İsrail
- Kəşfiyyat və hasilat

Türkiyə
- Neft emalı zavodu
- Neft-kimya məhsulları
- Bərpa olunan enerji mənbələri
- Marketinq və satış
- Terminallar və boru kəmərləri
- Yanacaqdoldurma məntəqələri
- Qazdan elektrik enerjisi

SOCAR TRADING DİGƏR OFİSLƏRİ

Birləşmiş Ərəb Əmirlikləri
Sinqapur
Birləşmiş Krallıq
ABŞ

ESG FƏALİYYƏTİNİN ƏSAS NƏTİCƏLƏRİ

2025-ci ildə SOCAR və onun beynəlxalq müəssisələri ətraf mühit, sosial və korporativ idarəetmə istiqamətləri üzrə əsas prioritetlərdə ölçülə bilən irəliləyiş əldə etmişdir. Aşağıda təqdim olunan göstəricilər hesabat dövründə həyata keçirilmiş ən mühüm təşəbbüsləri və əldə olunmuş nəticələri əks etdirir. Bu nailiyyətlər həm Azərbaycandakı Baş Ofisdə, həm də müxtəlif coğrafiyalarda – Xəzər hövzəsində metan emissiyalarının azaldılması layihələrindən İsveçrədə bərpa olunan dizel üzrə pilot layihələrə və İndoneziyada biomüxtəlifliyin qorunması təşəbbüslərinə qədər – reallaşdırılmışdır.

XARİCİ ESG REYTİNQLƏRİ

8

S&P · MSCI · Fitch · FTSE · LSEG · EcoVadis · BIST · WEF

METAN EMİSSİYALARININ AZALDILMASI

44.5 KT

2024-cü illə müqayisədə CH_4 emissiyalarının azaldılması (LDAR proqramı)

CƏLB OLUNMUŞ MARAQLI TƏRƏFLƏR

1 100+

ESRS-ə uyğun ilk ikiqat əhəmiyyətlilik qiymətləndirilməsi

ƏHATƏ OLUNMUŞ COĞRAFİYALAR

9

Azərbaycan, Türkiyə, İsveçrə, Gürcüstan, Ukrayna, Birləşmiş Krallıq, Birləşmiş Ərəb Əmirlikləri, ABŞ, Sinqapur

ESG ÜZRƏ XARİCİ REYTİNQLƏR VƏ TƏQDİRLƏR

SOCAR (AZƏRBAYCAN)

BAŞ OFİS

S&P Global CSA	Qiymətləndirilib 2025-ci il – məlumatları açıqlanmayıb
MSCI ESG Reytinqi	Qiymətləndirilib 2025-ci il – məlumatları açıqlanmayıb
Fitch ESG Score	3/5 2025-ci il – məlumatları açıqlanıb

İlk dəfə Fitch ESG Score əldə edilib

SOCAR TÜRKİYƏ

TÖRƏMƏ MÜƏSSİSƏ - TR

S&P Global CSA:	45 Türkiyənin kimya sənayesi üzrə alt sektorunda 1-ci yer
MSCI ESG Rating:	BB 2025-ci il qiymətləndirilməsi
FTSE Russell:	3.9 FTSE4Good indeksinə daxil edilmişdir
LSEG ESG Score:	74 Yüksək məlumat açıqlanması

- BIST Dayanıqlılıq 25 indeksinə daxil edilmişdir
- Petrokimya sektorunda bu göstəriciyə malik ilk və yeganə şirkət

SOCAR TRADING

TÖRƏMƏ MÜƏSSİSƏ - QLOBAL

EcoVadis Sustainability	69/100 Əvvəlki illə müqayisədə 4 bal artım
Sektor üzrə mövqe	Top 12% Qiymətləndirilmiş sektor arasında

Gümüş medal səviyyəsinə uyğunluq

COĞRAFİ BÖLGÜ ÜZRƏ DAYANIQLILIQ SAHƏSİNDƏ ƏSAS NƏTİCƏLƏR

SOCAR (AZƏRBAYCAN)

- 2024-cü illə müqayisədə 44.5 min ton CH_4 emissiyası azaldılmışdır. Bu nəticə əsasən quru və dəniz aktivlərində genişmiqyaslı Sızmaların Aşkarlanması və Təmiri (LDAR) fəaliyyətləri hesabına əldə edilmişdir.
- Şimal İxrac Boru Kəmərində 14580 kVt·saat günəş enerjisi istehsal edilmiş, qaz əməliyyatları üzrə obyektlərdə isə 65 günəş enerjisi sistemi quraşdırılmışdır.
- ESRS-ə uyğun ilk ikiqat əhəmiyyətlilik qiymətləndirilməsi həyata keçirilmiş, 1100-dən çox maraqlı tərəfin iştirakı ilə 120 ESG təsiri, riski və imkanları müəyyən edilmişdir.
- OGMP 2.0 təşəbbüsündə iştirak genişləndirilmiş, Aİ tələblərinə uyğun hesabatlılıq təmin edilmiş və 2025-ci ildə ilk metan emissiyaları hesabatı təqdim olunmuşdur.
- Metan məlumatlarının mərkəzləşdirilmiş idarə edilməsini və beynəlxalq hesabatlılığı dəstəkləmək məqsədilə, o cümlədən OGMP 2.0 çərçivəsində hesabatların hazırlanması üçün Methane AI platforması 2025-ci ildə istifadəyə verilmişdir.

SOCAR TÜRKİYƏ

- 2050-ci ilədək Əhatə dairəsi 1 və Əhatə dairəsi 2 emissiyaları üzrə Xalis sıfır hədəfi müəyyən edilmişdir.
- Dekarbonizasiya layihələri nəticəsində 52000 ton CO_2 ekvivalenti (tCO_2e) emissiyanın qarşısı alınmış, STAR zavodunda məşəl qazının optimallaşdırılması hesabına əlavə olaraq 21000 ton CO_2 ekvivalenti azalma əldə edilmişdir.
- Petkim layihələri nəticəsində 356000 Gkal enerji qənaəti təmin edilmişdir.
- Dayanıqlı aviasiya yanacağı (SAF) standartları üzrə ISCC CORSIA sertifikatı əldə edilmişdir.
- SAF, birbaşa havadan karbon tutma (DAC), CO_2-nin tutulması, süni fotosintez və plastiklərin pirolizi sahələrində layihələr Aİ tərəfindən dəstəklənən proqramlar çərçivəsində irəliləmişdir.
- STAR Neft Emalı Zavodu WEF-in Global Lighthouse Network şəbəkəsində yerini qorumuş, SOCAR Türkiyə isə Fast Company tərəfindən İnnovatorlar üçün Ən Yaxşı 50 İş Yeri siyahısına daxil edilmişdir.

SOCAR TRADING

- 2024-cü il üzrə ilk karbon sertifikatları əldə edilmişdir. Sertifikatlar Azərbaycanda LDAR əsaslı emissiyaların azaldılması layihəsi çərçivəsində formalaşdırılmışdır.
- Laçın su elektrik stansiyaları üzrə beynəlxalq səviyyədə tanınan Gold Standard standartına uyğun ilk bərpa olunan karbon kreditlərinin buraxılması təmin edilmiş və bu, Azərbaycanda karbon bazarlarının inkişafı baxımından mühüm mərhələ olmuşdur.
- Enerji Səmərəliliyi Əməliyyat Göstəricisinə (EEOI) əsaslanan və IMO-nun 2050-ci il dekarbonizasiya hədəflərinə uyğun aşağı karbonlu gəmiçiliyi təşviq edən maliyyə stimullaşdırma mexanizmi tətbiq edilmişdir.
- 9 gəmidən ibarət donanma üzrə Əməyin Mühafizəsi, Təhlükəsizlik və Ətraf Mühit (EHS) məlumatlarının toplanması və hesabatlılığına başlanılmışdır.
- Azərbaycanda nərə balığı və Xəzər qızılbalığının təbiətə buraxılması təşəbbüsü və "Xəzəri qoru!" sahil təmizləmə təşəbbüsü daxil olmaqla iki biomüxtəliflik layihəsinə birgə dəstək göstərilmişdir.
- Dayanıqlılıq sahəsində tənzimləyici tələblərin izlənilməsi məqsədilə "Regulatory Compass" aləti hazırlanmış, gəmiçiliyin karbon intensivliyi hədəfi üzrə qiymətləndirmə işləri davam etdirilmişdir.

SOCAR ENERGY SWITZERLAND

2025-ci ildə şəbəkə üzrə minik avtomobilləri üçün 20, yük avtomobilləri üçün isə 1 elektrik enerjisi doldurma (EV) məntəqəsi istifadəyə verilərək aşağı emissiyalı mobillik infrastrukturu genişləndirilmişdir.

Ənənəvi dizellə müqayisədə CO_2 emissiyalarını 90%-dək azaltmağa imkan verən HVO100 bərpa olunan dizel yanacağı tətbiq edilmiş və məhsul 9 yanacaqdoldurma məntəqəsində istifadəyə verilmişdir.

Yanacaq istehlakı ilə əlaqəli 485344 litr həcm üçün iqlimin mühafizəsi tədbirlərinə 12 286,50 İsveçrə frankı (CHF) ayrılmış, bununla təxminən 1214 ton CO_2 emissiyasının kompensasiyası təmin edilmişdir.

“Maumere Bay Reef Project” (İndoneziya) layihəsinə dəstək göstərilərək mərcan riflərinin bərpasına, biomüxtəlifliyin qorunmasına və sahilyanı ekosistemlərin dayanıqlılığının gücləndirilməsinə töhfə verilmişdir.

SOCAR ENERGY GEORGIA

Cənubi Qafqazda ilk tam elektrik enerjisi doldurma məntəqəsinin yaradılması istiqamətində işlərə başlanılmışdır. Məntəqə eyni vaxtda 6 avtomobilin enerji ilə doldurulmasına imkan verən 4 enerji doldurma qurğusu ilə təchiz ediləcək.

Altı stansiya üzrə günəş enerjisi istehsalı 1.73 GVt·saat təşkil etmiş və bu, ölkənin ümumi elektrik enerjisi istehlakının 11%-ni qarşılamışdır. 2030-cu ilədək günəş enerjisinin payının 40%-ə çatdırılması hədəflənir.

Qadınların iqtisadi səlahiyyətləndirilməsinə verdiyi 10 illik töhfəyə görə UN Women Georgia tərəfindən Təşəkkür Sertifikatı ilə təltif edilmişdir.

SOCAR ENERGY UKRAINE

"Embrace the Wings" layihəsi çərçivəsində psixi sağlamlığın və rifahın dəstəklənməsi xidmətləri üçün 2 milyon Ukrayna qrivnası (UAH) məbləğində vəsait toplanmışdır.

2025–2026-cı illər üzrə Dayanıqlı İnkişaf Siyasəti təsdiq edilmiş və icrasına başlanılmışdır.

2025-ci ildə SOCAR Energy Ukraine “Shelter Project” təşəbbüsünə başlamışdır. Layihə çərçivəsində raket və pilotsuz uçuş aparatı (PUA) hücumları zamanı əməkdaşların və müştərilərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə seçilmiş yanacaqdoldurma məntəqələrində mobil sığınacaqlar quraşdırılmışdır. Prioritet olaraq aktiv münaqişə zonalarına ən yaxın yerləşən yanacaqdoldurma məntəqələri müəyyən edilmişdir.

2025-Cİ İLDƏ DAYANIQLILIQ SAHƏSİNDƏ ƏSAS NAİLİYYƏTLƏR

2025-ci ildə SOCAR dayanıqlılıq sahəsində iki mühüm nailiyyət əldə etmişdir. İki karbon kompensasiyası layihəsinin həyata keçirilməsi nəticəsində Şirkətin istixana qazı emissiyalarının azaldılması səylərinə töhfə verilmiş və 63 697 tCO_2e emissiyanın azaldılmasına nail olunmuşdur.

Hesabat ili ərzində SOCAR həmçinin dayanıqlılıq üzrə məlumatların mərkəzləşdirilməsi və Şirkət üzrə hesabatvermə proseslərinin optimallaşdırılması məqsədilə ESG Məlumat Platformasını istifadəyə vermişdir. Platforma məlumatların avtomatlaşdırılmış qarşılıqlı yoxlanılmasını təmin edir, izlənilə bilənliyi artırır və hesabatvermə ilə qərarqəbuletmə məqsədləri üçün dayanıqlılıq məlumatlarına çıxışı asanlaşdırır.

KARBON KREDİTLƏRİ PORTFELİNİN İCMALI

	SOCAR "Hydro Bundle -3" hidroenerji layihəsi	"Neft Daşları" NQÇİ qabaqcıl LDAR texnologiyası
Layihənin növü	Bərpa olunan enerji istehsalı	Metan emissiyalarının azaldılması
Yerləşmə	Laçın rayonu, Azərbaycan	Neft Daşları dəniz yatağı, Xəzər dənizi
Məqsəd	Gücü 7,1 MVt olan kiçik su elektrik stansiyası vasitəsilə fosil yanacaq əsaslı elektrik enerjisinin əvəz edilməsi	Neft hasilatı obyektlərində metan sızmalarının aşkar edilməsi və aradan qaldırılması
Əsas məqsəd	Bərpa olunan elektrik enerjisinin istehsalı və fosil yanacaq əsaslı elektrik enerjisindən asılılığın azaldılması	Neft hasilatı obyektlərindən yaranan metan sızmalarının aşkar edilməsi, ölçülməsi və aradan qaldırılması
İstixana qazı emissiyalarının azaldılması	**5 872 tCO_2e** Təmiz enerji istehsalı hesabına qarşısı alınmış emissiyalar	**57 825 tCO_2e** Hasilat prosesində metan emissiyalarının azaldılması
Əlavə faydalar	Enerji təhlükəsizliyinin gücləndirilməsi, yerli məşğulluğun artırılması	Əməliyyat səmərəliliyinin artırılması

BMT-NİN DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİNƏ TÖHFƏ



ESG MƏLUMAT PLATFORMASI



Şirkət üzrə tətbiq olunan ESG Məlumat Platforması ESG məlumatlarının idarə edilməsini mərkəzləşdirərək məlumatların keyfiyyətini və şəffaflığını artırır, dayanıqlılıq üzrə hesabatvermə, təminat və qərarqəbuletmə proseslərinin daha səmərəli həyata keçirilməsini dəstəkləyir.

- ESG məlumatları üzrə vahid etibarlı mənbə
- Məlumatların avtomatlaşdırılmış qarşılıqlı yoxlanılması
- Məlumatların izlənilə bilənliyinin artırılması

İKİQAT ƏHƏMİYYƏTLİLİK QİYMƏTLƏNDİRMƏSİ

SOCAR-ın ilk İkiqat Əhəmiyyətlilik Qiymətləndirməsi Şirkətin dayanıqlılıq üzrə korporativ idarəetməsinin gücləndirilməsi və hesabatvermə təcrübələrinin Korporativ Dayanıqlılıq Hesabatlılığı Direktivi (CSRD) və Avropa Dayanıqlılıq Hesabatlılığı Standartları (ESRS) ilə uyğunlaşdırılması istiqamətində mühüm addımdır.
Aİ-dən kənarda qeydiyyatdan keçmiş ana şirkət olmaqla, Aİ-dən kənarda qeydiyyatdan keçmiş ana şirkət olaraq, Aİ-də fəaliyyət göstərən 2-ci dalğa (Wave 2) şirkəti kimi SOCAR ekoloji, sosial və idarəetmə məsələləri ilə bağlı geniş təsir spektrinə, eləcə də bununla əlaqəli maliyyə riskləri və imkanlarına məruz qalır. Bu qiymətləndirmə əməliyyatlarımız, maraqlı tərəflərimiz və uzunmüddətli dəyər yaradılması baxımından ən əhəmiyyətli dayanıqlılıq mövzularının müəyyənləşdirilməsi və prioritetləşdirilməsi üçün sistemli və perspektivyönümlü yanaşma təmin edir.

TƏSİR ƏHƏMİYYƏTLİLİYİ

SOCAR-ın ətraf mühitə və cəmiyyətə faktiki və potensial təsirlərini, o cümlədən əməliyyat fəaliyyətindən, icmalar üçün nəticələrdən və dəyər zənciri boyunca yaranan təsirləri əhatə edir.

ƏTRAF MÜHİT · CƏMİYYƏT

MALİYYƏ ƏHƏMİYYƏTLİLİYİ

Dayanıqlılıqla bağlı məsələlərin SOCAR-ın maliyyə göstəricilərinə, davamlılıq (resilience) və kapitala çıxış imkanlarına təsirinə yönəlir.

FƏALİYYƏT NƏTİCƏLƏRİ · DAYANIQLILIQ · KAPİTAL

İKİ BAXIŞ BUCAĞI · VAHİD QİYMƏTLƏNDİRMƏ

Mövzu hər iki baxış bucağından və ya onlardan hər hansı biri üzrə əhəmiyyətli hesab edildikdə əhəmiyyətli mövzu kimi qiymətləndirilir.



EFRAG TƏLİMATI · 2025-Cİ İL DÖVRÜ

QİYMƏTLƏNDİRMƏ NECƏ APARILMIŞDIR

01

ƏHATƏ DAİRƏSİNİN MÜƏYYƏN EDİLMƏSİ VƏ KONTEKST

Qiymətləndirmənin əhatə dairəsi SOCAR-ın şaquli inteqrasiya olunmuş fəaliyyətləri və Aİ-dəki əməliyyatlarını əhatə edəcək şəkildə müəyyən edilmiş, CSRD və ESRS tələbləri əsasında formalaşdırılmışdır.

02

İRO-LARIN İLKİN SİYAHISININ HAZIRLANMASI

EFRAG-ın tematik standartları və sənaye üzrə müqayisəli meyarlar nəzərə alınmaqla aparılmış funksiyalararası qiymətləndirmə prosesi nəticəsində 120 Təsir, Risk və İmkan (IRO) müəyyən edilmişdir.

03

MARAQLI TƏRƏFLƏRLƏ ƏMƏKDAŞLIQ

Təsirlər, risklər və imkanlar barədə praktiki baxışların əldə edilməsi məqsədilə daxili və xarici maraqlı tərəflər cəlb edilmiş, metodoloji ardıcıllığa və məlumat keyfiyyətinə xüsusi diqqət yetirilmişdir.

04


TƏSİR VƏ MALİYYƏ ƏHƏMİYYƏTLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Hər bir mövzu hər iki perspektiv üzrə qiymətləndirilmiş, təsir əhəmiyyətliliyi baxımından təsirin miqyası, əhatə dairəsi və aradan qaldırılma imkanı, maliyyə əhəmiyyətliliyi baxımından isə başvermə ehtimalı və maliyyə təsirinin miqyası nəzərə alınmışdır.

Qiymətləndirmə prosesi strukturlaşdırılmış ardıcıllıq əsasında həyata keçirilmişdir. Prosesin ilk mərhələsində əhatə dairəsinin müəyyənləşdirilməsi və müvafiq dayanıqlılıq alt mövzularının seçilməsi məqsədilə tənzimləyici tələblər, analoji şirkətlərin təcrübələri və daxili sənədlər ətraflı şəkildə nəzərdən keçirilmişdir. ESRS çərçivəsinə uyğun olaraq, SOCAR ilkin mərhələdə 37 dayanıqlılıq alt mövzusunu ilkin qiymətləndirmədən keçirmiş və onlardan 23-nü sonrakı təhlil üçün müvafiq hesab etmişdir. Bu əsas üzərində SOCAR funksiyalararası ekspertlərin iştirakı ilə Təsirlər, Risklər və İmkanları (IRO-ları) müəyyən etmiş və qiymətləndirmiş, nəticədə ekoloji, sosial və korporativ idarəetmə istiqamətləri üzrə ümumilikdə 120 IRO hazırlanmışdır. Tərəfdaşların cəlb olunması qiymətləndirmə prosesinin əsas sütunlarından birini təşkil etmişdir. Daxili və xarici tərəfdaşlar xüsusi təşkil olunmuş seminarlar və sorğular vasitəsilə prosesə cəlb edilmiş, bununla da təsirə məruz qalan tərəflərin və dayanıqlılıq açıqlamalarının istifadəçilərinin müxtəlif baxışlarının qiymətləndirməyə daxil edilməsi təmin edilmişdir. Cəlbetmə prosesində 1 100-dən çox tərəfdaş iştirak etmişdir. Əldə olunan məlumatlar məlumatların təsdiqi və keyfiyyətə təminat prosedurlarından keçirilmiş, yekun təhlildə etibarlılığın və nəticələrin dayanıqlığının təmin edilməsi məqsədilə 750 etibarlı sorğu cavabından istifadə olunmuşdur.

Yekun qiymətləndirmə ekspertlərin keyfiyyət xarakterli rəyləri ilə tərəfdaşlardan əldə edilmiş kəmiyyət məlumatlarının birgə təhlili əsasında aparılmış, hər bir mövzu təsir və maliyyə əhəmiyyətliliyi aspektləri üzrə miqyası, başvermə ehtimalı və potensial nəticələri nəzərə alınmaqla qiymətləndirilmişdir. Qiymətləndirmə yanaşması EFRAG-ın təlimatlarına uyğun şəkildə həyata keçirilmiş və həm təsir əhəmiyyətliliyi, həm də maliyyə əhəmiyyətliliyi üzrə müəyyən edilmiş hədləri özündə əks etdirmişdir. Bu hədlər tərəfdaşların cavablarının ümumi bölgüsü əsasında kalibrləşdirilmiş və yekun qiymətləndirmənin həm mövzuların nisbi əhəmiyyətini, həm də iştirakçıların qiymətləndirmələrindəki ümumi çəkini əks etdirməsi təmin edilmişdir. Nəticələr ikiqat əhəmiyyətlilik matrisi şəklində ümumiləşdirilmiş, dayanıqlılıq və risklərin idarə edilməsi funksiyaları tərəfindən birgə nəzərdən keçirilmiş və İdarə Heyəti səviyyəsində təsdiq edilmişdir. Qiymətləndirmənin aktuallığını və dəyişən şəraitə uyğunluğunu təmin etmək məqsədilə bu proses hər iki ildən bir təkrarlanacaqdır.

Şəkil 1. ESG və Risklərin İdarə Edilməsi funksiyaları — dayanıqlılıq prioritetləri, müəssisə üzrə risklərin idarə edilməsi prosesləri və strateji qərarqəbuletmə arasında uyğunluğun təmin edilməsi, habelə əldə edilmiş təcrübənin növbəti qiymətləndirmə dövrünə inteqrasiyası.



İQLİM DƏYİŞİKLİYİ

İstilik effekti yaradan qazlar və enerji keçidi məsələlərinin əhəmiyyətinə görə SOCAR-ın fəaliyyəti üçün əsas mövzulardan biridir. Emissiyaların idarə olunması və səmərəliliyin artırılması uzunmüddətli rəqabət qabiliyyətini və kapitala çıxışı dəstəkləyir.

ÇİRKLƏNMƏ

Hava, su və torpaq çirklənməsi sənaye fəaliyyətləri ilə birbaşa bağlıdır. Effektiv nəzarət ətraf mühitə mənfi təsirləri, tənzimləyici riskləri və bərpa xərclərini azaldır.

DAİRƏVİ İQTİSADİYYAT

Resurslardan səmərəli istifadə, tullantıların azaldılması və təkrar emal ətraf mühitə təsirin azalmasına və xərclərə qənaətə töhfə verir.

DƏYƏR ZƏNCİRİNDƏ İŞÇİLƏR

Təchizatçılar və podratçılar üzrə əmək şəraiti ümumi sosial təsirə və reputasiya risklərinə təsir göstərir. Ədalətli əmək təcrübələrinin təmin olunması təchizat zəncirinin dayanıqlığını gücləndirir.

BİZNES DAVRANIŞI

Güclü korporativ idarəetmə, korrupsiyaya qarşı mübarizə və etik biznes təcrübələri etimadın qorunması, uyğunluğun təmin edilməsi, beynəlxalq tərəfdaşlıqların və bazarlara çıxış imkanlarının genişləndirilməsi üçün vacibdir.

İŞÇİ HEYƏTİ

Əməkdaşların sağlamlığı, təhlükəsizliyi və iş şəraiti, xüsusilə yüksək riskli sənaye mühitlərində əməliyyatların davamlılığı və məhsuldarlıq üçün mühüm əhəmiyyət daşıyır.

BİOMÜXTƏLİFLİK VƏ EKOSİSTEMLƏR

Fəaliyyətlər təbii yaşayış mühitlərinə və ekosistemlərə təsir göstərə bilər. Biomüxtəlifliyin qorunması ekoloji dayanıqlılığı və tənzimləyici tələblərə uyğunluğu dəstəkləyir.

TƏSİRƏ MƏRUZ QALAN İCMALAR

Yerli icmalar əməliyyatlar nəticəsində müəyyən təsirlərə məruz qala bilər. İcmalarla əlaqələrin qurulması və məsuliyyətli fəaliyyət sosial fəaliyyət lisenziyasının qorunması üçün vacibdir.

İSTEHLAKÇILAR VƏ SON İSTİFADƏÇİLƏR

Məhsulun keyfiyyəti, təhlükəsizliyi və şəffaflığı, xüsusilə dəyişən enerji bazarlarında müştəri etimadına və bazardakı mövqeyə təsir göstərir.

İQLİM DƏYİŞİKLİYİ

Qiymətləndirmənin nəticələrinə əsasən İqlim dəyişikliyi, Çirklənmə və Biznes etikası SOCAR üçün əhəmiyyətli dayanıqlılıq mövzuları kimi müəyyən edilmişdir. Bu mövzular SOCAR-ın dayanıqlılıq üzrə prioritetlərinin və açıqlama yanaşmasının əsasını təşkil edir. Müəyyən edilmiş əhəmiyyətli mövzular fəaliyyətlərin prioritetləşdirilməsinə istiqamət verir, risklərin idarə edilməsi proseslərini dəstəkləyir və dayanıqlılıq amillərinin əsas biznes qərarlarına inteqrasiyasını təmin edir. Bu yanaşma SOCAR-ın tənzimləyici dəyişikliklərə, maraqlı tərəflərin gözləntilərinə və qlobal enerji sektorunda baş verən dinamik dəyişikliklərə operativ cavab vermək qabiliyyətini gücləndirir, eyni zamanda dayanıqlılıq sahəsində fəaliyyətinin şəffaflığını və hesabatlılığını təmin edir.

İqlim dəyişikliyi həm təsir, həm də maliyyə baxımından əhəmiyyətli mövzu kimi qiymətləndirilmişdir. Təsir baxımından SOCAR-ın kəşfiyyat və hasilat, emal, neft-kimya və ticarət fəaliyyəti əhəmiyyətli həcmdə istixana qazı emissiyalarının yaranmasına səbəb olur ki, bu da milli və qlobal iqlim nəticələrinə birbaşa təsir göstərir. Maliyyə baxımından isə karbon qiymətləndirilməsi mexanizmlərinin inkişafı, tənzimləyici tələblərin sərtləşdirilməsi, eləcə də investor və alıcıların üstünlüklərinin dəyişməsi ilə bağlı keçid riskləri Şirkətin xərc bazası, maliyyə resurslarına çıxışı və aktivlərinin uzunmüddətli dəyəri üçün əhəmiyyətli risklər yaradır.

Bu mövzu çərçivəsində metan emissiyalarının idarə olunması xüsusi əhəmiyyət kəsb edən istiqamət kimi müəyyən edilmişdir. Beynəlxalq kapital bazarlarında və məhsul alıcıları arasında metan emissiyalarının səviyyəsi neft-qaz şirkətlərinin fəaliyyətini qiymətləndirən əsas göstəricilərdən biri hesab olunur. SOCAR-ın OGMP 2.0 kimi könüllü metan emissiyalarının azaldılması təşəbbüslərində iştirakı, mövcud metan emissiyalarının azaldılması çərçivəsi və müəyyən edilmiş hədəflər Şirkətə şəffaflığı artırmağa, emissiyalar üzrə nəticələrini yaxşılaşdırmağa və enerji keçidinə hazır enerji təchizatçısı kimi mövqeyini gücləndirməyə imkan verir.

Şirkət səviyyəsində müəyyən edilmiş CO_2 emissiyaları üzrə əsas fəaliyyət göstəricisi (ƏSG) və hasilat seqmenti üzrə metan intensivliyi göstəriciləri metan emissiyalarının azaldılması məqsədləri və daha geniş iqlim strategiyası üzrə irəliləyişin monitorinqi üçün əsas göstəricilər kimi istifadə olunur. Maliyyələşdirmə şərtləri və kommersiya münasibətlərində istehsalçıların metan intensivliyinə əsaslanan fərqləndirmənin artdığı şəraitdə metan emissiyalarının səmərəli idarə olunması həm risklərin azaldılması vasitəsi, həm də Şirkət üçün real rəqabət və maliyyə üstünlüyü yaradır.

Bununla yanaşı, ölçmə texnologiyalarının, aşkarlama üsullarının və kəmiyyətləşdirmə metodlarının davamlı inkişafı metanın ölçülməsi və hesabatlılığı sahəsində yanaşmaların da daim təkmilləşdirilməsini tələb edir. Beynəlxalq metodologiyalar və hesabatlılıq təcrübələri inkişaf etdikcə, SOCAR monitorinq imkanlarını gücləndirməyə və metan emissiyalarının hesabatlılığında dəqiqliyi, ardıcıllığı və şəffaflığı daha da artırmağa davam edir.

ÇİRKLƏNMƏ

İkiqat əhəmiyyətlilik qiymətləndirilməsi çərçivəsində SOCAR-ın sənaye fəaliyyətlərinin miqyası və xarakteri, habelə bununla əlaqədar təsirlər, risklər və imkanlar nəzərə alınaraq, çirklənmə əhəmiyyətli mövzu kimi müəyyən edilmişdir. Atmosferə emissiyalar, çirkab suların axıdılması və torpağın çirklənməsi həm ətraf mühitə bilavasitə təsir göstərir, həm də normativ tələblərə uyğunluq xərcləri, bərpa öhdəlikləri və tənzimləyici tədbirlərin tətbiqi riskləri vasitəsilə davamlı maliyyə öhdəlikləri formalaşdırır.

Mövcud nəzarət mexanizmləri, o cümlədən atmosfer emissiyalarının fasiləsiz monitorinqi, torpaqların rekultivasiyası və neft dağılmalarının idarə olunması planları bu risklərin sistemli şəkildə idarə olunduğunu nümayiş etdirir, eyni zamanda onların yaratdığı davamlı tənzimləyici və əməliyyat yükünü əks etdirir. Atmosferə emissiyalar və neft dağılması halları çirklənmənin qarşısının alınması və nəzarət tədbirlərinin effektivliyini qiymətləndirən əsas göstəricilər kimi davamlı monitorinq edilir.

Hesabat ili ərzində neft dağılmaları üzrə hesabatvermə metodologiyası, məlumatların toplanması prosesləri və açıqlamaların şəffaflığı daha da təkmilləşdirilmişdir. Bunun nəticəsində fəaliyyət üzrə neft dağılması hallarının müəyyən edilməsi, ölçülməsi və açıqlanmasının keyfiyyəti artırılmışdır. Çirklənmənin azaldılması ilə bağlı hədəflər hazırda hazırlanma mərhələsindədir və onların növbəti hesabat dövrlərində təsdiqlənərək açıqlanması nəzərdə tutulur.

BİZNES DAVRANIŞI

Biznes etikası, korrupsiya və rüşvətxorluq altmövzusu ilə birlikdə, həm təsir, həm də maliyyə baxımından əhəmiyyətli mövzu kimi müəyyən edilmişdir. Təsir baxımından idarəetmə ilə bağlı risklər SOCAR-ın fəaliyyətinin bütövlüyünə və maraqlı tərəflərin etimadına mənfi təsir göstərə bilər. Maliyyə baxımından isə tənzimləyici tələblərin pozulması, hüquqi öhdəliklər və reputasiya riskləri cərimələrə, maliyyə sanksiyalarına və uyğunluq xərclərinin artmasına səbəb ola bilər. Eyni zamanda kreditorların daha geniş araşdırmaları və kredit riskinin daha ciddi qiymətləndirilməsi maliyyələşdirmə şərtlərinin sərtləşməsinə gətirib çıxara bilər.

Bu risklər təsdiq proseslərinin uzanması və kommersiya baxımından həssas əməkdaşlıqlarda tərəfdaşların daha ciddi qiymətləndirmələr aparması səbəbindən Şirkətin strateji əhəmiyyət daşıyan əməliyyatları həyata keçirmək imkanlarını da məhdudlaşdıra bilər. SOCAR Avropa bazarlarında kommersiya fəaliyyətini genişləndirdikcə korporativ idarəetmə sahəsində investor və tənzimləyici orqanların artan gözləntiləri bu riskləri daha da artırır və yeni ticarət əlaqələrinin, eləcə də gələcək kommersiya imkanlarının inkişafına mənfi təsir göstərə bilər.

Bu risklərin azaldılması məqsədilə SOCAR korrupsiyaya qarşı mübarizə sistemini daha da gücləndirmiş, uyğunluq funksiyalarına cavabdeh rəhbər şəxslər üçün ISO 37001 və ISO 37301 standartlarının tətbiqi ilə əlaqələndirilmiş əsas fəaliyyət göstəriciləri (ƏSG) müəyyən etmişdir. Bu yanaşma hesabatlılığın gücləndirilməsinə və risklərin effektiv idarə olunmasına xidmət edir. Təsdiqlənmiş korrupsiya halları Şirkətin korrupsiyaya qarşı nəzarət mexanizmlərinin effektivliyinin qiymətləndirilməsi üçün əsas göstəricilərdən biri kimi monitorinq olunur.


MARAQLI TƏRƏFLƏRİN CƏLB EDİLMƏSİ

SOCAR korporativ strategiyasının, dayanıqlılıq yanaşmasının və uzunmüddətli prioritetlərinin formalaşdırılmasında hökumət qurumları, investorlar, müştərilər, təchizatçılar, əməkdaşlar, yerli icmalar və maliyyə institutları da daxil olmaqla geniş maraqlı tərəf dairəsinin mövqeyini nəzərə alır. Maraqlı tərəflər Şirkətin fəaliyyətinə təsir səviyyəsi və strateji əhəmiyyətinə əsasən prioritetləşdirilir.

Maraqlı tərəflərlə əlaqələr sorğular, müsahibələr, seminarlar və çoxtərəfli platformalar vasitəsilə həyata keçirilir və davamlı dialoq təmin edilir. Bütün qarşılıqlı əlaqələr SOCAR-ın Etika Məcəlləsinə uyğun olaraq şəffaflıq, ədalətlilik, qanunvericiliyin tələblərinə riayət və insan hüquqlarına hörmət prinsipləri əsasında qurulur. Bu yanaşma etimadın möhkəmləndirilməsinə, hesabatlılığın gücləndirilməsinə və maraqlı tərəflərin baxışlarının əməliyyat və investisiya qərarlarına inteqrasiyasına töhfə verir.

Rüblük Strateji İcmallar (RSİ) bu qarşılıqlı əlaqə mexanizmlərini tamamlayaraq, biznes və funksional istiqamətlər üzrə strateji təşəbbüslərin icrasının qrup səviyyəsində monitorinqi üçün vahid platforma rolunu oynayır. Strateji Təşəbbüslərin Monitorinqi Bölməsi tərəfindən əlaqələndirilən RSİ-lər ardıcıl nəzarətin, hesabatlılığın təmin edilməsini və funksiyalararası məsələlərin vaxtında həllini dəstəkləyir.

- İSTİXANA QAZI EMİSSİYALARI
- SU EHTİYATLARININ QORUNMASI VƏ SƏMƏRƏLİ İSTİFADƏSİ
- TORPAQ VƏ DƏNİZ RESURSLARINDAN İSTİFADƏ
- TƏHLÜKƏLİ MADDƏLƏR
- HAVANIN KEYFİYYƏTİ
- MATERİALLARDAN İSTİFADƏ, TULLANTILAR VƏ DAİRƏVİ İQTİSADİYYAT
- BİOMÜXTƏLİFLİK VƏ EKOLOJİ RİFAH
- İNSAN HÜQUQLARI
- ƏMƏK TƏCRÜBƏLƏRİ
- MÜXTƏLİFLİK, BƏRABƏRLİK VƏ İNKLÜZİVLİK
- MÜŞTƏRİLƏRİN SAĞLAMLIĞI VƏ RİFAHI





- MÜŞTƏRİLƏRİN TƏHLÜKƏSİZLİYİ VƏ CƏLB OLUNMASI
- İCMALARLA TƏRƏFDAŞLIQ
- RƏQƏMSAL HÜQUQLAR VƏ MƏSULİYYƏTLƏR
- KORPORATİV İDARƏETMƏNİN ƏSASLARI
- ÜÇÜNCÜ TƏRƏFLƏRLƏ MÜNASİBƏTLƏR
- ŞƏFFAFLIQ VƏ RİSKLƏRİN İDARƏ EDİLMƏSİ
- BİZNES ETİKASI
- VERGİ TƏCRÜBƏLƏRİ
- DOLAYI İQTİSADİ TƏSİRLƏR
- MİLLİ VƏ BEYNƏLXALQ SİYASƏT

ƏMƏLİYYATLARIMIZ VƏ DƏYƏR ZƏNCİRİMİZ

- XAMMAL VƏ MATERİALLAR 41%
- KOMMUNAL XİDMƏTLƏR 11%
- TEXNİKİ XİDMƏTLƏR 61%
- NƏQLİYYAT XİDMƏTLƏRİ 56%
- SIĞORTA XİDMƏTLƏRİ 32%
- DİGƏR ƏMƏLİYYAT XİDMƏTLƏRİ 54%

SOCAR (Azərbaycan) üzrə daxili təchizatçılara yönəldilən xərclərin payı









"UPSTREAM" İSTİQAMƏTİ

Şəkil 2. 2025-ci ildə quru yataqları üzrə Hasilatın Pay Bölgüsü və Risk Xidməti Sazişlərində SOCAR-ın payı, %




Şəkil 3.[1] 2025-ci ildə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən yataqlar üzrə Hasilatın Pay Bölgüsü və Risk Xidməti Sazişlərində SOCAR-ın iştirak payı, %




1. Əvvəllər təqdim edilmiş məlumatlarda müəyyən edilmiş səhvlərin düzəldilməsi məqsədilə bəzi məlumatlar yenilənmişdir.

Şəkil 4. 2025-ci ildə Azərbaycanda neft hasilatı, min ton



Digər	20 572,4
SOCAR	7 098,7

Şəkil 5. 2025-ci ildə Azərbaycanda qaz hasilatı, milyon m^3



Digər	43 648
SOCAR	7 823,4

Şəkil 6. 2025-ci ildə Azərbaycanda SOCAR-ın təsdiqlənmiş neft-qaz ehtiyatları

Neft ehtiyatları (10^3mt) — *Cəmi **86 927**


Kondensat ehtiyatları (10^3mt) — *Cəmi **12 526**

Qaz ehtiyatları (10^6m^3) — *Cəmi **126 508**

* 2025-ci il üzrə SOCAR-ın təsdiq edilmiş neft və qaz ehtiyatları DeGolyer & MacNaughton şirkətinin tədqiqat və qiymətləndirmə hesabatına əsaslanır.

“MIDSTREAM” İSTİQAMƏTİ


Şəkil 7. SOCAR (Azərbaycan) tərəfindən təhvil verilmiş neft və qazın həcmi, 2023-2025



1. "Qaz İxrac" İdarəsinin boru kəmərləri vasitəsilə nəql edilmiş qazın ümumi həcmi

“DOWNSTREAM” İSTİQAMƏTİ

Şəkil 8. 2023-2025-ci illər ərzində SOCAR (Azərbaycan) üzrə neft və qazın emalı



Cədvəl 1. 2023-2025-ci illər üzrə SOCAR Qrupu emal müəssisələrinin ümumi istehsalı, min ton

	MÜƏSSİSƏLƏR	2023	2024	2025
Azərbaycan	Heydər Əliyev adına Neft Emalı Zavodu	6 165	5 343	5 927
	“Azərikimya” İB	582	448	516
	Metanol	494	516	408
	Karbamid	453	652	587
Türkiyə	STAR	12 500	9 900	12 900
	Petkim	2 300	2 050	2 300


İQTİSADİ TƏSİR VƏ FƏALİYYƏT

SOCAR vergilər, məşğulluğun yaradılması, satınalma fəaliyyəti və infrastruktur investisiyaları vasitəsilə ölkənin iqtisadi inkişafına mühüm töhfə verir. Şirkətin fəaliyyətinin miqyası və davamlılığı, xüsusilə xidmət, logistika və tikinti sektorlarında yerli sahibkarlığın inkişafını dəstəkləyərək daha geniş iqtisadi fəallığın formalaşmasına şərait yaradır. Eyni zamanda, davamlı kapital investisiyaları ölkənin enerji təhlükəsizliyini gücləndirməklə yanaşı, sənayenin şaxələndirilməsinə töhfə verir, iqtisadiyyatın dayanıqlığını və rəqabət qabiliyyətini artırır.


Bu nəticələr SOCAR-ın ölkənin iqtisadi inkişaf prioritetləri ilə güclü uyğunluğunu və dayanıqlı inkişafa sadiqliyini nümayiş etdirir. 2025-ci ildə SOCAR milli və ya yerli dövlət orqanlarından hər hansı maliyyə yardımı, subsidiya və ya təşviq tədbiri almamışdır.

Şəkil 9. 2023–2025-ci illər üzrə əsas göstəricilər


SOCAR-ın dövlət büdcəsinə töhfəsi, milyon AZN




SOCAR (Azərbaycan) üzrə işçilərin sayı




SOCAR-ın nizamnamə kapitalı, milyon AZN



SOCAR (Azərbaycan) üzrə yerli təchizatçılara xərclənən vəsaitin nisbəti, %



Ümumi sosial xərclər, milyon AZN



Cədvəl 2. SOCAR Qrupunun əsas iqtisadi göstəriciləri 2023-2025-ci illər üçün, milyon AZN

	2023	2024	2025
Ümumi gəlirlər	85 201	84 689	86 309
Satışın maya dəyəri	(76 639)	(77 296)	(73 702)
Paylanma xərcləri	(2 206)	(2 045)	(2 508)
Ümumi və inzibati xərclər	(1 939)	(2 252)	(3 289)
Digər əməliyyat xərcləri	(2 561)	(1 869)	(2 457)
Maliyyə xərcləri	(1 833)	(2 074)	(2 682)
Digər ümumi gəlirlər/(xərclər)	2 050	3 774	1 278
İllik mənfəət (itki)	2 073	2 927	2 949
Digər illik yekun itkilər (vergi istisna olmaqla)	(103)	(879)	175
İllik yekun ümumi gəlirlər/(itkilər)	1 970	2 048	3 124
Mənfəət vergisi xərci	(606)	(912)	(760)

1 AZN = 0.59 USD

KAPİTAL XƏRCLƏR[1]
↙ 40%
2 784
milyon AZN

PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ[2]
(1 552)
milyon AZN

XALİS MƏNFƏƏT
2 949
milyon AZN

EBITDA MARJASI
ƏVVƏLKİ İL: 10,2%
12,7%

1. CAPEX hesablama prinsipi əsasında tanınmış Əsas Vəsaitlərə (Property, Plant and Equipment – PPE) edilən əlavələri əks etdirir.
2. Əvvəlki illə müqayisədə xalis pul vəsaitlərinin hərəkətinin azalması əsasən investisiya fəaliyyəti və borc öhdəliklərinin ödənilməsi ilə əlaqədar olmuşdur.

SOCAR-IN 2025-Cİ İL PORTFELİNƏ DAXİL OLAN ƏSAS BİRLƏŞMƏ VƏ SATINALMA ƏMƏLİYYATLARI

↔ Satınalma

Italiana Petroli S.p.A.-nın satın alınması

Coğrafiya
İtaliya

Aktivin növü
İnteqrasiya olunmuş "downstream" istiqaməti (neft emalı, logistika, pərakəndə satış)

Aktivin təsviri
İnteqrasiya olunmuş neft emalı aktivləri, geniş pərakəndə yanacaq şəbəkəsi, logistika infrastrukturu, topdansatış və xüsusi təyinatlı yanacaq əməliyyatlarına malik aparıcı İtaliya "downstream" istiqamətinin operatoru.

Miqyas göstəriciləri

10	~4 600	~40%	Roma hava limanı üçün strateji aviasiya yanacağı infrastrukturu
milyon ton illik emal gücü	yanacaq doldurma məntəqəsi	pərakəndə yanacaq bazarında pay	

Strateji əsaslandırma
SOCAR-ın Avropadakı "downstream" istiqamətini genişləndirir və Aralıq dənizi regionunun əsas bazarlarından birində neft emalı, logistika və yanacaq paylanmasına inteqrasiya olunmuş çıxış təmin edir

Enerji təhlükəsizliyinə təsiri
İnteqrasiya olunmuş neft emalı və logistika infrastrukturu ilə İtaliyada yanacaq təchizatının etibarlılığını, strateji hava limanı təchizat zənciri vasitəsilə isə aviasiya yanacağı təhlükəsizliyini gücləndirir

Diversifikasiya təsiri
Avropada coğrafi mövcudluğu genişləndirir və pərakəndə, topdansatış və xüsusi təyinatlı yanacaq seqmentləri üzrə gəlirləri diversifikasiya edir.

Portfelə təsiri
SOCAR-ın inteqrasiya olunmuş "downstream" istiqamətinin aktiv bazasını və Avropa bazarındakı mövcudluğunu genişləndirir

↔ Satınalma

Tamar qaz yatağının satın alınması

Coğrafiya
Şərqi Aralıq dənizi

Aktivin növü
"Upstream" istiqaməti, təbii qaz

Aktivin təsviri
Mövcud sualtı hasilat infrastrukturu və uzunmüddətli ehtiyat bazasına malik fəaliyyətdə olan dəniz təbii qaz yatağı

Miqyas göstəriciləri

286	6	250	2013
BCM P2 ehtiyatı	hasilat quyusu	mln ft³/gün hər quyu üzrə hasilat gücü	ildən hasilat

Strateji əsaslandırma
Uzunmüddətli təbii qaz aktivlərində iştirakını və regional "upstream" istiqaməti üzrə mövqeyini gücləndirir

Enerji təhlükəsizliyinə təsiri
Regional qaz təchizatının diversifikasiyasını və Şərqi Aralıq dənizində uzunmüddətli qaz təminatını gücləndirir

Diversifikasiya təsiri
Portfeldə təbii qazın payını və dəniz qaz hasilatı aktivləri üzrə coğrafi mövcudluğu artırır

Portfelə təsiri
"Upstream" istiqamətində qaz aktivlərini gücləndirir və neft-qaz portfelini balanslaşdırır

↔ Satınalma

İÇAN CCGT Elektrik Stansiyasının satın alınması

Coğrafiya
Türkiyə

Aktivin növü
Elektrik istehsalı (Qazdan elektrikə)

Aktivin təsviri
Türkiyə elektrik sistemini baza yükü ilə təmin edən iri miqyaslı kombinə dövrlü qaz turbinli elektrik stansiyası

Miqyas göstəriciləri

870	~4 100	>20%	~0,65
MVt quraşdırılmış güc	GVt·saat illik istehsal	Ankaranın elektrik tələbatı	BCM illik qaz istehlakı

Strateji əsaslandırma
İnteqrasiya olunmuş qaz-elektrik platformasını genişləndirir və qaz-elektrik dəyər zənciri üzrə mövqeyini gücləndirir

Enerji təhlükəsizliyinə təsiri
Türkiyədə elektrik təchizatının etibarlılığını və qaz-elektrik sisteminin çevikliyini artırır

Diversifikasiya təsiri
Elektrik istehsalındakı mövcudluğu və qaz-elektrik inteqrasiyasını genişləndirir

Portfelə təsiri
Şaquli inteqrasiyanı və qaz-elektrik biznes modelini gücləndirir

↔ Aktivin satışı

Kayserigas və Bursagas şirkətlərinin satışı

Coğrafiya
Türkiyə

Aktivin növü
Qaz Paylanması

Aktivin təsviri
Türkiyədə tənzimlənən "downstream" istiqaməti üzrə qaz paylama şəbəkələrini idarə edən regional qaz paylama şirkətləri

Miqyas göstəriciləri

Regional paylama infrastrukturu aktivləri (SOCAR Türkiyə portfeli üzrə əsas fəaliyyətə aid olmayan)

Strateji əsaslandırma
Portfeli optimallaşdırır və kapitalı daha yüksək gəlirli emal, neft-kimya və inteqrasiya olunmuş enerji investisiyalarına yönəldir

Enerji təhlükəsizliyinə təsiri
Türkiyənin qaz paylanması bazarında konsolidasiya və əməliyyat səmərəliliyini dəstəkləyir

Diversifikasiya təsiri
İnteqrasiya olunmuş emal və neft-kimya dəyər zəncirinə strateji fokusunu artırır

Portfelə təsiri
Qeyri-əsas tənzimlənən paylama aktivlərinə məruz qalmanı azaldır və kapital bölgüsünün səmərəliliyini artırır

XALİS SIFIRA DOĞRU YOL

SOCAR-ın xalis sıfır emissiyalara nail olmaq istiqamətindəki yolu enerji təhlükəsizliyinin təmin edilməsi və aşağı karbonlu enerji həllərinin inkişafı ilə yanaşı, Şirkətin uzunmüddətli enerji strategiyasının əsas sütunlarından birini təşkil edir. Şirkətin iqlim məsuliyyəti yanaşması SOCAR-ın qlobal enerji keçidinin inkişaf edən mənzərəsində gələcəyə yönəlmiş enerji şirkəti kimi mövqeyini əks etdirir. SOCAR hesab edir ki, onun xalis sıfır emissiya hədəfi, bərpa olunan və aşağı karbonlu enerji həllərinin inkişafı ilə birlikdə, milli enerji təhlükəsizliyi prioritetlərinə uyğun balanslaşdırılmış və mərhələli enerji keçidini təmin etməklə yanaşı, Paris Sazişinin məqsədlərinə nail olunmasına yönəlmiş qlobal səyləri dəstəkləyir.


İQLİM HƏDƏFLƏRİ

COP28 çərçivəsində elan edilmiş SOCAR-ın dekarbonizasiya hədəfləri qısa, orta və uzunmüddətli dövrləri əhatə edən aydın fəaliyyət istiqaməti müəyyən edir və əsas emissiya mənbələri və göstəriciləri üzrə strukturlaşdırılmışdır. SOCAR 2030-cu ilədək istismar etdiyi bütün müəssisələr üzrə rutin məşəl yandırılmasının sıfıra endirilməsini və 2022-ci il səviyyəsi ilə müqayisədə iştirak payı əsasında "upstream" istiqaməti üzrə emissiya intensivliyinin 30% azaldılmasını hədəfləyir. 2035-ci ilədək Şirkət korporativ emissiya intensivliyinin 30%, ümumi istilik effekti yaradan qaz emissiyalarının isə 20% azaldılmasını planlaşdırır. Hər iki hədəf 2022-ci il baza göstəricisi ilə müqayisədə iştirak payı əsasında hesablanır. Eyni zamanda, SOCAR 2035-ci ilədək "upstream" istiqamətində əməliyyatlarında metan intensivliyinin sıfıra yaxın səviyyəyə endirilməsini və 2050-ci ilədək xalis sıfır emissiyalara nail olunmasını uzunmüddətli məqsəd kimi müəyyən etmişdir.

Bu hədəflərə nail olmaq məqsədilə SOCAR bütün dəyər zəncirini əhatə edən uzunmüddətli dekarbonizasiya yol xəritəsi hazırlamışdır. "Upstream" istiqamətinin əməliyyatlarında əsas diqqət LDAR proqramlarının və qazın atmosferə birbaşa atılmasının azaldılması texnologiyalarının tətbiqi vasitəsilə metan emissiyalarının idarə edilməsinə, enerji səmərəliliyinin artırılmasına, kompressorların və qızdırıcıların elektrikləşdirilməsinə yönəldilmişdir. "Midstream" istiqaməti əməliyyatlarında prioritetlər boru kəmərlərinin bütövlüyünün artırılması və ötürmə itkilərinin azaldılmasını əhatə edir. "Downstream" istiqamətində isə məşəl qazlarının bərpası sistemləri, qazanxanaların elektrikləşdirilməsi, yanacaq sərfiyyatının optimallaşdırılması və karbonun idarə olunması texnologiyalarının tətbiqi nəzərdə tutulur. Qalıq emissiyaların isə Şirkətin uzunmüddətli xalis sıfır çərçivəsi daxilində kompensasiya və karbonun çıxarılması mexanizmləri vasitəsilə aradan qaldırılması planlaşdırılır.

2022-ci il baza ili məlumatların tamlığı, müəyyən edilmiş təşkilati sərhədlər və Şirkətin emissiyaların idarə olunması və hesabatlılıq yanaşması ilə uyğunluq nəzərə alınaraq seçilmişdir. 2023-cü ildə SOCAR beynəlxalq məsləhətçi şirkətlə əməkdaşlıq çərçivəsində geniş emissiya inventarlaşdırılması prosesinə başlamış, bununla da əməliyyatlar üzrə məlumatların əlçatanlığını və ardıcıllığını artırmışdır. Bu iş müəssisələr səviyyəsində emissiya profillərinin və əsas emissiya mənbələrinin müəyyən edilməsinə, emissiya intensivliyi yüksək olan sahələrin xəritələndirilməsinə və məqsədyönlü azaldılma tədbirlərinin hazırlanmasına imkan vermişdir. Emissiyaların ölçülməsi üzrə etibarlılığın artırılması SOCAR-ın dekarbonizasiya proqramının əsasını təşkil edən prioritet istiqamətlərdən biridir.

Şəkil 10. SOCAR-ın Xalis Sıfır Hədəfi üzrə Vaxt Qrafiki



1. Bu hədəfin əhatə dairəsi SOCAR-ın Azərbaycandakı fəaliyyətləri ilə məhdudlaşır ("upstream", "midstream" və "downstream" istiqamətlərin fəaliyyətləri daxil olmaqla).
2. Bu hədəfin əhatə dairəsinə SOCAR-ın Azərbaycan, Türkiyə və Gürcüstandakı fəaliyyətləri daxildir.

MİLLİ İQLİM ÖHDƏLİKLƏRİNƏ DƏSTƏK


SOCAR-ın iqlim hədəfləri Paris Sazişi çərçivəsində Azərbaycanın yenilənmiş Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrini (NDC 3.0) dəstəkləyir. Yenilənmiş çərçivəyə əsasən Azərbaycan emissiyaların azaldılması üzrə ambisiyalarını artıraraq, əvvəllər 2050-ci il üçün müəyyən edilmiş hədəfi 2035-ci ilə irəli çəkmiş və 1990-cı il səviyyəsi ilə müqayisədə istixana qazı emissiyalarının 40% azaldılmasını hədəfləmişdir. Azərbaycanın istixana qazı emissiyaları hazırda 1990-cı il baza göstəricisindən aşağı səviyyədə qalsa da, NDC 3.0 çərçivəsində müəyyən edilmiş milli hədəflərə nail olmaq üçün əlavə azaldılmalar tələb olunur. Milli dekarbonizasiya yolu enerji istehsalı, neft-qaz əməliyyatları, nəqliyyat və sənaye fəaliyyəti kimi əsas emissiya yaradan sektorlar üzrə tədbirlərlə dəstəklənir. Bu tədbirlər enerji səmərəliliyinin artırılmasına, metan emissiyalarının azaldılmasına, bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi və infrastrukturun modernləşdirilməsinə yönəlmişdir.

Azərbaycanın milli iqlim və enerji hədəfləri çərçivəsində SOCAR ölkənin enerji sisteminin əsas operatorlarından biri kimi mühüm rol oynayır. Şirkət öz əməliyyat fəaliyyətini inkişaf edən tənzimləyici və strateji istiqamətlərlə uyğunlaşdırmaqla milli iqlim prioritetlərinin həyata keçirilməsini dəstəkləyir. SOCAR-ın iqlim hədəfləri və dekarbonizasiya təşəbbüsləri Azərbaycanın Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrinə (NDC 3.0) birbaşa töhfə verir və ölkənin enerji sisteminin aşağı karbonlu inkişaf yoluna keçidini dəstəkləyir.

BEYNƏLXALQ TƏRƏFDAŞLIQLAR VƏ ÖHDƏLİKLƏR

SOCAR beynəlxalq neft-qaz sektorunda dekarbonizasiya və emissiyaların azaldılması təşəbbüslərində fəal iştirak edərək, əməkdaşlıq, məlumat mübadiləsi və qabaqcıl texnologiyaların tətbiqi vasitəsilə iqlim hədəflərinin həyata keçirilməsini dəstəkləyir. Şirkət metan emissiyalarının azaldılması, qazın məşəldə yandırılmasının aradan qaldırılması və emissiya hesabatlılığında şəffaflığın artırılmasına yönəlmiş OGMP 2.0 (Oil and Gas Methane Partnership), OGDC (Oil and Gas Decarbonization Charter), OGCI (Oil and Gas Climate Initiative), AGMR (Advancing Global Methane Reduction) və IOGP (International Association of Oil & Gas Producers) kimi təşəbbüslərdə iştirak edir. Bu platformalarda iştirak ölçmələrə əsaslanan emissiya hesablanması sisteminə keçidi dəstəkləyir, monitorinq, hesabatlılıq, təsdiq proseslərinin daha da təkmilləşdirilməsinə imkan yaradır.

2025-ci ildə SOCAR bu təşəbbüslər çərçivəsində birgə fəaliyyətlərdə, texniki müzakirələrdə və hesabatlılıq proseslərində fəal iştirak etməklə əməkdaşlığını daha da genişləndirmişdir. Bu fəaliyyətlərə OGMP 2.0 çərçivəsində emissiya məlumatlarının təqdim edilməsi, OGDC işçi sessiyalarında iştirak və peyk əsaslı aşkarlama sistemləri də daxil olmaqla metan monitorinqi texnologiyaları üzrə beynəlxalq tərəfdaşlarla əməkdaşlıq daxildir. SOCAR həmçinin region üzrə emissiyaların azaldılmasına yönəlmiş birgə səyləri dəstəkləyən "Xəzər Regionunda Metan Emissiyalarının Azaldılmasının Sürətləndirilməsi" (Caspian Methane Emissions Abatement Accelerator) təşəbbüsünə də öz töhfəsini vermişdir. Bu fəaliyyətlər vasitəsilə Şirkət beynəlxalq qabaqcıl təcrübələrlə uyğunluğunu gücləndirir, qlobal iqlim təşəbbüslərinin həyata keçirilməsini dəstəkləyir və dekarbonizasiya hədəflərinə ardıcıl və şəffaf şəkildə nail olmaq imkanlarını artırır.



MİLLİ İQLİM ÖHDƏLİKLƏRİNƏ TÖHFƏ

Azərbaycanın NDC 3.0

40%

2035-ci ilədək İXQ emissiyalarının azaldılması

Paris Sazişinin məqsədlərinə uyğunluq

SOCAR-ın iqlim strategiyası Azərbaycanın NDC 3.0 sənədi ilə uzlaşır və 1990-cı il səviyyəsi ilə müqayisədə 2035-ci ilədək istixana qazı emissiyalarının 40% azaldılması hədəfini dəstəkləyir.



"Upstream" istiqaməti üzrə emissiya intensivliyi

AZƏRBAYCAN

tCO2ekv. / NET məhsul

Baza il				Hədəf ili
2022	2023	2024	2025	2030
0.21 →	0.22 →	0.43 →	0.36 →	0.15
	▲ 5%	▲ 105%	▲ 71%	▼ 30%

▼ ▲ Baza ili göstəricisi ilə müqayisədə

Korporativ emissiya intensivliyi

AZƏRBAYCAN

tCO2ekv. / NET məhsul

Baza il				Hədəf ili
2022	2023	2024	2025	2035
0.46 →	0.52 →	0.77 →	0.70 →	0.32
	▲ 13%	▲ 67%	▲ 52%	▼ 30%

▼ ▲ Baza ili göstəricisi ilə müqayisədə

"Upstream" istiqaməti üzrə metan emissiyası intensivliyi[1]

AZƏRBAYCAN

tCH4 qaz hasilatının tCH4 payı

Baza il				Hədəf ili
2022	2023	2024	2025	2035
0.92% →	0.86% →	1.9% →	1.4% →	<0.2%
	▼ 7%	▲ 107%	▲ 52%	

▼ ▲ Baza ili göstəricisi ilə müqayisədə

Mütləq emissiyalar

AZƏRBAYCAN + TÜRKİYƏ + GÜRCÜSTAN

Mt CO2ekv.

Baza il				Hədəf ili
2022	2023	2024	2025	2050
12.6 →	16.3 →	17.9 →	17.0 →	Xalis-0
	▲ 29%	▲ 42%	▲ 35%	▼ ~100%

▼ ▲ Baza ili göstəricisi ilə müqayisədə

İQLİM TƏŞƏBBÜSLƏRİ

01 **OGMP 2.0**
Neft və Qaz üzrə Metan Tərəfdaşlığı

02 **OGDC**
Neft və Qazın Dekarbonizasiyası Xartiyası

03 **OGCI**
Neft və Qaz üzrə İqlim Təşəbbüsü

04 **AGMR**
Qlobal Metan Emissiyalarının Azaldılması Təşəbbüsü

05 **IOGP**
Beynəlxalq Neft və Qaz İstehsalçıları Assosiasiyası

06 **Xəzər Regionunda Metan Emissiyalarının Azaldılmasının Sürətləndirilməsi**
Regional emissiyaların azaldılması üzrə əməkdaşlıq

1. COP29 çərçivəsində elan edilmiş "Upstream" istiqaməti üzrə metan intensivliyi hədəfi pay iştirakına (equity share) əsaslanan təşkilati sərhədi əhatə edir.

AŞAĞI KARBONLU BİZNESİN İNKİŞAFI

Bərpa olunan enerjinin artan rolu qlobal enerji sistemlərini getdikcə daha çox formalaşdırır və bu, elektrik enerjisi istehsalında, investisiya meyillərində və uzunmüddətli enerji təchizatı dinamikasında baş verən struktur dəyişikliklərini əks etdirir. Beynəlxalq Enerji Agentliyinin "Elektrik Enerjisi 2025" hesabatına əsasən, növbəti illərdə bərpa olunan enerjinin qlobal elektrik enerjisi istehsalının artımında aparıcı mənbəyə çevrilməsi gözlənilir, belə ki, artan tələbatın ödənilməsində günəş və külək enerjisi mərkəzi rol oynayacaqdır. Azərbaycanın milli enerji strategiyası da növbəti onillikdə günəş və külək layihələrinin genişmiqyaslı inkişafı vasitəsilə bərpa olunan enerjinin tətbiqinin əhəmiyyətli dərəcədə artırılmasını nəzərdə tutur. Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən müəyyən edilmiş hədəflərə əsasən, quraşdırılmış elektrik enerjisi gücündə bərpa olunan enerjinin payının 2027-ci ilədək 33.7%-ə, 2030-cu ilədək 38%-ə və 2035-ci ilədək 42.5%-ə çatdırılması, eyni zamanda 2027-ci ilədək 2 GW, 2032-ci ilədək isə 6 GW günəş və külək enerjisi gücünün yaradılması planlaşdırılır.

Belə inkişaf edən mühitdə SOCAR bərpa olunan və aşağı karbonlu enerjinin genişlənməsini gələcək enerji bazarlarını formalaşdıran, investisiya prioritetlərinə və uzunmüddətli portfel inkişafına təsir edən mühüm tendensiya kimi dəyərləndirir. Aşağı karbonlu enerjinin inkişafı SOCAR-ın enerji keçidi yanaşmasının əsas istiqamətlərindən biridir və bu yanaşma bərpa olunan və daha aşağı karbonlu enerji sistemləri üzrə yeni biznes istiqamətlərinin yaradılmasına yönəlmişdir. Sözügedən portfel SOCAR Green MMC vasitəsilə inkişaf etdirilir və layihələr tədricən strukturlaşdırma və maliyyələşdirmə mərhələlərindən icra mərhələsinə keçir.

Belə ki, hazırda SOCAR Green-in portfeli ümumi gücü təxminən 1,7 QVt olan irimiqyaslı bərpa olunan enerji layihələrindən ibarətdir. Bu layihələrdən bir neçəsi artıq inkişaf və tikinti prosesində əhəmiyyətli irəliləyiş əldə etmişdir.

Sözügedən istiqamətdə Masdar şirkəti ilə birlikdə üç layihə - Bankə Günəş Elektrik Stansiyası (315 MVt), Biləsuvar Günəş Elektrik Stansiyası (445 MVt) və Abşeron-Qaradağ Külək Elektrik Stansiyası (200 MVt) - inkişaf etdirilir və SOCAR Green bu layihələrdə 25% paya malikdir. 2025-ci il etibarilə layihələr icra və tikinti mərhələsinə daxil olmuşdur. Belə ki, Biləsuvar GES və Bankə GES layihələri üzrə tikinti işləri davam etdirilir, Abşeron–Qaradağ KES layihəsi isə inkişaf və maliyyələşdirmə mərhələsindədir. Günəş enerjisi layihələrinin ilkin istismara verilməsinə 2026-cı ildən, kommersiya istismarına isə 2027-ci ildən etibarən mərhələli şəkildə başlanması planlaşdırılır. Külək enerjisi layihəsinin isə 2028-ci ildə istismara verilməsi gözlənilir.

Əlavə olaraq, 240 MVt gücündə Şəfəq GES layihəsi Azərbaycanın Cəbrayıl rayonunda həyata keçirilir və SOCAR Green bu layihədə 39,99% paya malikdir. Layihə üzrə Yekun İnvestisiya Qərarı (YİQ) 2025-ci ildə qəbul edilmişdir. Elektrik stansiyasının ildə 500 QVt saatdan çox elektrik enerjisi istehsal edəcəyi gözlənilir. Layihənin 2027-ci ildə istismara verilməsi planlaşdırılır və onun Səngəçal Terminalının elektrikləşdirilməsinə töhfə verməsi nəzərdə tutulur.



Eyni zamanda, Energy China və PowerChina Resources şirkətləri ilə birlikdə inkişaf etdirilən, hər biri 160 MVt gücündə iki irimiqyaslı GES layihələri də portfelə daxildir. Sözügedən layihələr üzrə layihə və maliyyələşdirmə sazişlərinin imzalanması istiqamətində işlər fəal şəkildə davam etdirilir.

Bununla paralel olaraq, hesabat dövründə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi (ADSEA) ilə su infrastrukturu və nasos sistemlərində enerji səmərəliliyinin artırılması və bərpa olunan enerjinin inteqrasiyası imkanlarının qiymətləndirilməsi istiqamətində əməkdaşlıq təşəbbüsləri irəliləmişdir.

Əlavə fəaliyyətlərə SOCAR-ın əməliyyat obyektlərinin, yanacaqdoldurma məntəqələrinin və sənaye aktivlərinin günəş enerjisi ilə təmin olunmasına dair texniki-iqtisadi əsaslandırmaların hazırlanması, habelə özəl sektor tərəfdaşları ilə kommersiya və sənaye təyinatlı günəş fotovoltaik layihələri üzrə imkanların qiymətləndirilməsi daxil olmuşdur.

Aşağı karbonlu və dairəvi iqtisadiyyat layihələri SOCAR Green portfelinin mühüm tərkib hissələrindən birini təşkil edir. Hacıqabulda planlaşdırılan bioqaz qurğusu kənd təsərrüfatı və heyvandarlıq tullantılarının emalı yolu ilə bioqaz, bərpa olunan elektrik enerjisi və üzvi gübrə istehsalı, eyni zamanda metan emissiyalarının azaldılması və karbon kreditlərinin yaradılması məqsədilə qiymətləndirilir. Bununla paralel olaraq, SOCAR Green pambıq emalı tullantılarının biokömürə və uzunmüddətli karbon kreditlərinə çevrilməsinə yönəlmiş biokömür təşəbbüsünün inkişafını davam etdirir. SOCAR Green, həmçinin istilik və elektrik enerjisi istehsalı məqsədilə geotermal enerji layihələrinin həyata keçirilməsi imkanını qiymətləndirir. Bu layihələr hazırda texniki-iqtisadi əsaslandırma və təsdiqləmə mərhələsindədir və Azərbaycanda aşağı karbonlu və dairəvi dəyər zəncirlərinin inkişafına töhfə vermək məqsədi daşıyır.

Portfel səviyyəsində SOCAR Green-in 2025–2030-cu illər üzrə investisiya planına ümumi planlaşdırılan gücü təxminən 1,7 QVt AC (85%-i günəş və 15%-i külək enerjisi) olan altı günəş və iki külək layihəsi daxildir. Bu layihələr üçün tələb olunan ümumi investisiya həcminin təxminən 1,5 milyard ABŞ dolları təşkil edəcəyi qiymətləndirilir. Bunun təxminən 590 milyon ABŞ dollarının səhmdar kapitalı hesabına maliyyələşdirilməsi, o cümlədən təxminən 203 milyon ABŞ dollarının SOCAR Green tərəfindən təmin edilməsi nəzərdə tutulur. Bu layihələr portfel üzrə ən inkişaf etmiş və prioritet istiqamətləri təmsil edir.

İnvestisiya fəaliyyətinin əsasən 2025–2027-ci illər ərzində cəmləşəcəyi gözlənilir. Bu dövrdə davam edən kapital qoyuluşları səbəbindən xalis pul axınının mənfi olaraq qalacağı proqnozlaşdırılır. Layihələr 2027-ci ildən etibarən mərhələli şəkildə istismara verildikcə pul daxilolmalarının artacağı və 2028-ci ilədək portfel üzrə xalis pul axınının müsbət olacağı gözlənilir. SOCAR Green birgə müəssisələrdə iştirak payını artırmaqla layihələr portfelini genişləndirdikcə və birgə layihələr çərçivəsində istismar və texniki xidmət (O&M) xidmətləri də daxil olmaqla əlavə əməliyyat funksiyalarını öz üzərinə götürdükcə maliyyə göstəricilərinin daha da yaxşılaşacağı gözlənilir.

İNNOVASIYA VƏ RƏQƏMSAL TRANSFORMASIYA

İNNOVASİYA

2025-ci ildə SOCAR şirkət miqyasında İnnovasiyaların İdarə Edilməsi Çərçivəsini tətbiq etmiş və Daxili İnnovasiya Proqramını istifadəyə vermişdir. Proqram çərçivəsində 220 ideya təqdim edilmiş, onlardan 36-sı ekspert qiymətləndirilməsi mərhələsinə keçmişdir. Tətbiqi dəstəkləmək məqsədilə İnnovasiya üzrə İşçi Qrupu yaradılmış, 31 İnnovasiya Koordinatoru təyin edilmiş və 77 ekspertdən ibarət ekspert bazası formalaşdırılmışdır.

İnnovasiya potensialının gücləndirilməsi məqsədilə SABAH.HUB İnnovasiya Mərkəzində SOCAR İnnovasiya Laboratoriyasının yaradılmasına başlanılmış, inkubasiya, akselerasiya, vençur tərəfdaşlıqları və kommersiyalaşdırmanı əlaqələndirəcək SOCAR Innovation MMC-nin yaradılması barədə razılıq əldə edilmişdir. 16 biznes vahidi üzrə aparılan Pain & Gain təhlili innovasiya portfelinin formalaşdırılmasına dəstək vermişdir.

İnnovasiya təşəbbüsləri karbonun tutulması, tullantı sularının təmizlənməsi və karbonun istifadəsi texnologiyaları üzrə tədqiqatları, robotlaşdırılmış yoxlamalar, PUA-lar, proqnozlaşdırıcı texniki xidmət və obyektlərin üçölçülü modelləşdirilməsi kimi rəqəmsal həlləri əhatə etmişdir. SOCAR 150-dən çox startapla əməkdaşlıq imkanlarını qiymətləndirmiş, seçilmiş tərəfdaşlıqları inkişaf etdirmiş və SOCAR Hackathon 2025 vasitəsilə süni intellekt və məlumat mühəndisliyi sahəsində innovasiya və istedadların inkişafını dəstəkləmişdir.

Qrup səviyyəsində SOCAR Türkiyənin Tədqiqat və İnnovasiya Mərkəzi dayanıqlı texnologiyalar, dairəvi iqtisadiyyat, rəqəmsal transformasiya və proseslərin optimallaşdırılması üzrə 36 layihə həyata keçirmiş, bu fəaliyyətlərə 4,2 milyon ABŞ dolları həcmində R&D xərcləri yönəldilmişdir. Mərkəz həmçinin ISO EN 56001 İnnovasiyaların İdarə Edilməsi Sistemi sertifikatını əldə edən dünyada ilk sənaye şirkəti olmuşdur.

RƏQƏMSAL TRANSFORMASİYA

SOCAR məlumat platformaları, ERP sistemlərinin modernləşdirilməsi, İT xidmətlərinin idarə olunması, maliyyə konsolidasiyası, QHSE sistemləri, RPA və API inteqrasiyası istiqamətlərində rəqəmsal həllər portfelini genişləndirmişdir. Bu təşəbbüslər proseslərin avtomatlaşdırılmasına, məlumat əsaslı qərarvermənin və korporativ idarəetmənin təkmilləşdirilməsinə töhfə vermişdir.

SOCAR Karbamid Zavodu rəqəmsal transformasiyanın əsas nümunələrindən biri olmuş, istehsal həcmi, enerji səmərəliliyi, təhlükəsizlik, emissiyalar, məhsul keyfiyyəti və məhsuldarlıq göstəricilərini yaxşılaşdırmışdır. Təşəbbüslərin nəticələrinin standart ƏSG-lərlə əlaqələndirilməsi idarəetmə hesabatlığının daha da gücləndirilməsinə imkan verəcəkdir.

SOCAR-ın 2025-ci il rəqəmsal transformasiya portfeli beş strateji istiqamət üzrə formalaşdırılmışdır. Layihələr proses səmərəliliyinin, korporativ idarəetmənin, uyğunluğun, avtomatlaşdırmanın və əməkdaş təcrübəsinin yaxşılaşdırılmasına mühüm töhfə vermişdir.

Məlumatların idarə olunması, ESG və hesabatlılıq

Rəqəmsallaşdırılmış məlumatların toplanması, hesabatlılıq dövrlərinin sürətləndirilməsi və qərarvermə prosesinin şəffaflığının artırılması vasitəsilə məlumatların idarə olunması və ESG hesabatlılığı gücləndirilmişdir.

ERP və əsas biznes sistemləri

Rəqəmsallaşdırılmış məlumatların toplanması, hesabatlılıq dövrlərinin sürətləndirilməsi və qərarvermə prosesinin şəffaflığının artırılması vasitəsilə məlumatların idarə olunması və ESG hesabatlılığı gücləndirilmişdir.

Avtomatlaşdırma və inteqrasiya

Proseslərin avtomatlaşdırılması, sistem inteqrasiyası, avtomatlaşdırılmış uzlaşdırmalar və əl əməyinin azaldılması vasitəsilə əməliyyat səmərəliliyi artırılmışdır.

QHSE və uyğunluq

Mərkəzləşdirilmiş QHSE iş axınları, insidentlər üzrə daha operativ hesabatlılıq, risklərin və sənədlərin idarə edilməsinin gücləndirilməsi vasitəsilə uyğunluğun idarə olunması təkmilləşdirilmişdir.

Əməkdaş və xidmət təcrübəsi

Özünəxidmət imkanlarının genişləndirilməsi, müraciətlərin daha operativ həlli və xidmətlərin daha səmərəli göstərilməsi vasitəsilə əməkdaş təcrübəsi yaxşılaşdırılmışdır.


RƏQƏMSAL TRANSFORMASİYA NÜMUNƏSİ – SOCAR KARBAMİD ZAVODU

Zavod səviyyəsində həyata keçirilən rəqəmsal transformasiya proqramı əməliyyat səmərəliliyinin, aktivlərin etibarlılığının, təhlükəsizlik göstəricilərinin, emissiyaların idarə olunmasının və işçi qüvvəsinin potensialının artırılmasına yönəlmişdir. Proqram Caspian Innovation Center komandası ilə layihədə birbaşa iştirak edən 72 əməkdaşın sıx əməkdaşlığı çərçivəsində həyata keçirilmişdir.

Proqram süni intellekt əsaslı istehsal optimallaşdırılması, Digital Twin texnologiyası, proqnozlaşdırıcı texniki xidmət, ağıllı yataq əməliyyatları və mərkəzləşdirilmiş virtual idarəetmə qülləsini özündə birləşdirərək real vaxt rejimində qərarverməni təmin edir, resurslardan istifadəni optimallaşdırır və əməliyyat dayanıqlılığını gücləndirir.

+21% İstehsal	**+24%** Enerji səmərəliliyi	**+15%** Ümumi avadanlıq səmərəliliyi	**+14%** Əmək məhsuldarlığı
+10% Məhsul keyfiyyəti	**-71%** Təhlükəsizlik insidentləri	**-78%** Risk zonasında qalma müddəti	**70%** İşçi qüvvəsinin rəqəmsal bacarıqlarının inkişafı

Proqram istehsal, texniki xidmət və aktivlərin idarə edilməsi proseslərində qabaqcıl rəqəmsal texnologiyaların tətbiqi nəticəsində əməliyyat səmərəliliyinin, aktivlərin etibarlılığının, təhlükəsizliyin və dayanıqlılığın ölçülə bilən şəkildə yaxşılaşdırılmasını təmin etmişdir. Real vaxt rejimində məlumatların əlçatanlığı, süni intellekt əsaslı optimallaşdırma və proqnozlaşdırıcı texniki xidmət qərarvermə prosesini təkmilləşdirmiş, əməliyyat risklərini azaltmış və zavodun ümumi fəaliyyət göstəricilərini və dayanıqlılığını gücləndirmişdir.



DAYANIQLI İDARƏETMƏ YANAŞMASI

2024-cü ildə başlanmış fəaliyyətlər davamlı inkişafın SOCAR-ın korporativ idarəetmə sisteminə və əsas biznes proseslərinə strukturlaşdırılmış və ardıcıl şəkildə inteqrasiyası üçün zəmin yaratmışdır. Bu inteqrasiyanın nəticəsi olaraq, 2025-ci il ESG yanaşmasının konseptual mərhələdən sistemli tətbiq mərhələsinə keçidi ilə xarakterizə olunmuşdur. Tətbiq olunacaq prioritet mövzular ikiqat əhəmiyyətlilik qiymətləndirməsi vasitəsilə müəyyən edilmiş və sonradan həm biznes planlaşdırılması dövrlərinə, həm də gündəlik əməliyyat qərarlarının qəbul edilməsi proseslərinə inteqrasiya olunmuşdur. Bu çərçivədə davamlı inkişaf məsələləri layihələrin qiymətləndirilməsi, risklərin qiymətləndirilməsi və resursların bölüşdürülməsi proseslərinə daxil edilmişdir. Bu yanaşma ESG prioritetlərini uzunmüddətli biznes məqsədləri ilə əlaqələndirən Davamlı İnkişaf Siyasətində öz əksini tapmışdır.

SİYASƏTLƏR, STANDARTLAR VƏ ÖHDƏLİKLƏR

Davamlı inkişaf üzrə nəzarət yüksək rəhbərlik səviyyəsində həyata keçirilir və qərar qəbuletmə prosesinə vitse-prezidentlər və biznes seqmentlərinin rəhbərləri cəlb olunur ki, bu da bütün funksiyalar və əməliyyatlar üzrə uyğunlaşdırmanı təmin edir. İdarəetmə aktivlər səviyyəsində fəaliyyət göstərən davamlı inkişaf komitələri və xüsusi təyin olunmuş davamlı inkişaf üzrə məsul şəxslər tərəfindən dəstəklənir ki, bu da əməliyyat səviyyəsində sahəyə uyğun idarəetməni və daha güclü icranı təmin edir. Bu struktur ekoloji və sosial məsələləri strateji planlaşdırma və müəssisə risklərinin idarəolunması proseslərinə inteqrasiya edir və daha mərkəzləşdirilmiş idarəetmə modelinə mərhələli keçidi nəzərdə tutur.

Bu inteqrasiya olunmuş yanaşmanı dəstəkləmək məqsədilə SOCAR-ın davamlı inkişaf üzrə çərçivə sənədləri aşağıdakı əsas korporativ siyasət və strateji sənədlər vasitəsilə müəyyən edilir:

- Ətraf Mühit Siyasəti
- Ətraf Mühitin Mühafizəsi Məqsədləri üzrə Bəyanat
- Biomüxtəlifliyin Qorunması üzrə Bəyanat
- 2021–2030-cu illər üzrə Aşağı Karbonlu İnkişaf Strategiyası
- Keyfiyyət üzrə Bəyanat
- İnsan Hüquqları üzrə Bəyanat

2025-ci ildə SOCAR dəyişən tənzimləyici tələblərə və bazar gözləntilərinə uyğun olaraq ESG ilə bağlı siyasətlərin tətbiqini daha da gücləndirmişdir. Bu çərçivədə iqlimlə bağlı açıqlamaların genişləndirilməsi, ətraf mühitin mühafizəsi təşəbbüslərinin artırılması və insan hüquqları üzrə lazımi araşdırma (due diligence) proseslərinin gücləndirilməsinə xüsusi diqqət yetirilmişdir. Beynəlxalq öhdəliklər daxili proseslərə və əməliyyat fəaliyyətinə daha geniş şəkildə inteqrasiya edilmişdir. Bu yanaşmanın tərkib hissəsi olaraq insan hüquqları ilə bağlı məsələlər SOCAR-ın Uyğunluq üzrə Lazımi Araşdırma (Compliance Due Diligence) prosesinə daxil edilmişdir. Bu proses biznes münasibətlərinə daxil olmamışdan əvvəl qarşı tərəflərə, biznes tərəfdaşlarına və əməliyyatlara tətbiq olunur. SOCAR-ın İnsan Hüquqları üzrə Bəyanatında əks olunan prinsip və öhdəliklərə uyğun insan hüquqları risk göstəriciləri müxtəlif məlumat mənbələri və skrininq alətləri vasitəsilə digər uyğunluq risk amilləri ilə birlikdə qiymətləndirilir. Bu qiymətləndirmələrin nəticələri riskəsaslı qərar qəbuletməni dəstəkləyir, o cümlədən zəruri hallarda risklərin azaldılması tədbirlərinin tətbiqinə və yüksək riskli qarşı tərəflərlə əməkdaşlığa məhdudiyyətlərin qoyulmasına əsas yaradır.

TƏŞKİLATİ STRUKTUR VƏ ESG-NİN İNTEQRASİYASI

SOCAR-da ESG funksiyası davamlı inkişaf məsələlərinin investisiya planlaşdırılması, layihələrin qiymətləndirilməsi və biznes qərarlarının qəbul edilməsinə inteqrasiyasını təmin etmək məqsədilə Korporativ Maliyyə funksiyası çərçivəsində yerləşdirilmişdir. Bu yanaşma ESG ilə bağlı risklərin, imkanların və fəaliyyət nəticələrinin maliyyə və əməliyyat aspektləri ilə yanaşı qiymətləndirilməsinə imkan verir, eyni zamanda layihələrin həyata keçirilməsini investor gözləntiləri və uzunmüddətli biznes məqsədləri ilə uyğunlaşdırır. ESG və maliyyə məlumatlarının inteqrasiyası, əsas məlumat bazalarının təsdiqlənməsi ilə dəstəklənərək, təsirlərin qiymətləndirilməsi, qərar qəbuletmə və xarici hesabatlılıq üçün ardıcıl əsas yaradır.

Davamlı təkmilləşməni təmin etmək məqsədilə ESG Bölməsi tətbiq olunan standartlar, qabaqcıl sənaye təcrübələri və reytinq agentliklərinin metodologiyaları ilə mütəmadi qiymətləndirmələr apararaq prioritet inkişaf sahələrini müəyyən edir. Bu qiymətləndirmələrin nəticələri ESG göstəricilərinin və məlumat arxitekturasının təkmilləşdirilməsinə, o cümlədən gəlir əsaslı intensivlik göstəricilərinə keçidə və maliyyə və qeyri-maliyyə məlumatlarının vahid hesabat çərçivəsində inteqrasiyasına istiqamət verir. Bu təkmilləşdirmələr ekoloji, sosial və korporativ idarəetmə sahələri üzrə məqsədyönlü tədbirlərə çevrilir. 2025-ci ildə SOCAR məlumatların keyfiyyətinin, hesabatlılığın ardıcıllığının və ümumi ESG fəaliyyətinin gücləndirilməsinə yönəlmiş 80-dən çox təşəbbüs həyata keçirmişdir.

DAXİLİ POTENSİAL VƏ TƏTBİQ

ESG təcrübələrinin səmərəli tətbiqini təmin etmək məqsədilə təşkilat üzrə hədəflənmiş potensialın artırılması proqramları həyata keçirilir. Xüsusi təlim təşəbbüsləri yalnız daxili bacarıqları gücləndirmir, eyni zamanda funksiyalararası koordinasiyanı da inkişaf etdirərək davamlı inkişaf məsələlərinin satınalma, insan resursları və əsas əməliyyat proseslərində ardıcıl şəkildə tətbiq olunmasını təmin edir. Davamlı təkmilləşdirmənin və dəyişən bazar gözləntilərinin əhəmiyyətini nəzərə alaraq, ESG üzrə İşçi Qrupunun mandatı mütəmadi olaraq yenilənir, o cümlədən onun strukturu və üzvlərinin mükafatlandırılması ilə bağlı yanaşmalar təkmilləşdirilir.

Davamlı inkişafın təşkilatın bütün səviyyələrində qərar qəbuletmə proseslərində əks olunmasını təmin etmək məqsədilə ESG prioritetləri ölçülə bilən fəaliyyət göstəricilərinə çevrilir. Şirkət Müşahidə Şurası tərəfindən təsdiqlənmiş və fəaliyyətin qiymətləndirilməsi sisteminə inteqrasiya olunmuş korporativ səviyyəli "CO_2 Emissiyaları" ƏSG göstəricisindən istifadə etməklə biznes prosesləri üzrə emissiya intensivliyini izləyir. Bu yanaşma ən yüksək idarəetmə səviyyəsində davamlı inkişaf üzrə baxışın və öhdəliklərin həyata keçirilməsini dəstəkləyir, eyni zamanda siyasət öhdəlikləri ilə onların əməliyyat səviyyəsində praktiki icrası arasındakı fərqi əhəmiyyətli dərəcədə azaldır.

SOCAR kimi mürəkkəb təşkilatda ESG-nin mühüm komponentlərindən birinin məlumatların idarə olunması olduğunu nəzərə alaraq, 2025-ci ildən etibarən Xəzər İnnovasiya Mərkəzi (CIC) ilə əməkdaşlıq çərçivəsində ESG məlumat platformasının hazırlanmasına başlanılmışdır. Bu platforma ESG fəaliyyətinə birbaşa və dolayı təsir göstərən göstəricilər də daxil olmaqla bütün ESG göstəricilərinin izlənilməsini və təsdiqlənməsini təmin edəcəkdir. Platformanın tam tətbiqinin 2026-cı ildə başa çatdırılması planlaşdırılır.



DÜRÜST İDARƏETMƏ

İDARƏETMƏ STRUKTURU VƏ NƏZARƏT


SOCAR regionun enerji təhlükəsizliyinin təmin edilməsində və enerji mənbələrinin şaxələndirilməsinin dəstəklənməsində mühüm rol oynayır. Bu məsuliyyətin miqyasını nəzərə alaraq, Şirkət öz fəaliyyətini yüksək məsuliyyət hissi ilə həyata keçirir. Enerji istehsalçısı olmaqla yanaşı, əsas maraqlı tərəfi geniş ictimaiyyət olan dövlət şirkəti kimi SOCAR korporativ və idarəetmə təcrübələrində yüksək standartların müəyyən edilməsinə, nümunə göstərməyə, eləcə də məsuliyyətli, şəffaf və gələcəyə yönəlmiş prinsipləri bütün fəaliyyətinə inteqrasiya etməyə sadiqdir.

Bu öhdəlik SOCAR-ın korporativ idarəetmə çərçivəsində öz əksini tapır. Həmin çərçivə Şirkətdə hesabatlılığın, nəzarətin və qərar qəbuletmə proseslərinin necə təşkil olunduğunu müəyyən edir. O, strategiyanın və davamlı inkişaf prioritetlərinin, o cümlədən risklərə nəzarətin və uzunmüddətli planlaşdırmanın həyata keçirilməsini dəstəkləyir. Çərçivə SOCAR-ın biznes davranışı, şəffaflıq və müvafiq ESG standartları ilə uyğunluq sahəsində yanaşmasını əks etdirir. Dövlət müəssisəsi kimi SOCAR enerji sektorundakı milli rolundan irəli gələn idarəetmə strukturu çərçivəsində fəaliyyət göstərir.

Ümumi Yığıncaq Şirkətin ali idarəetmə orqanıdır. Onun səlahiyyətləri Azərbaycan Respublikası Prezidentinin 23 yanvar 2021-ci il tarixli 1258 nömrəli "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı ilə müəyyən edilmişdir. Həmin Fərmana uyğun olaraq, Şirkətin yenidən təşkili və ləğvi, habelə Müşahidə Şurasının və İdarə Heyətinin üzvlərinin təyin edilməsi və vəzifədən azad olunması ilə bağlı qərarlar Azərbaycan Respublikası Prezidentinin səlahiyyətinə aiddir.

Ümumi Yığıncağın səlahiyyətlərinə aid olan, lakin onun müstəsna səlahiyyətinə aid edilməyən digər məsələlər Azərbaycan Respublikası Prezidenti ilə razılaşdırılmaqla Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasına həvalə edilmişdir. SOCAR-ın idarəetmə strukturuna, həmçinin, fəaliyyətin səmərəliliyinin artırılması və idarəetmə təcrübələrinin müasir korporativ idarəetmə standartlarına uyğunlaşdırılması məqsədilə strateji rəhbərliyi və nəzarəti həyata keçirən Müşahidə Şurası, eləcə də SOCAR Prezidenti tərəfindən rəhbərlik edilən, Şirkətin idarə olunmasına və strategiyanın icrasına cavabdeh olan İdarə Heyəti daxildir. Bu idarəetmə modeli səlahiyyət və məsuliyyətlərin aydın bölgüsünü təmin edir, hesabatlılığı gücləndirir və Şirkətin məsuliyyətli idarəetmə və davamlı dəyər yaradılması üzrə yanaşmasını dəstəkləyir.

İDARƏETMƏ STRUKTURU



1. Nizamnaməyə uyğun olaraq, İdarə Heyəti 15 üzvdən ibarətdir. Hesabat dövründə isə İdarə Heyəti 11 üzvdən ibarət tərkibdə fəaliyyət göstərmişdir.

MÜŞAHİDƏ ŞURASI

№	Üzv	Vəzifə	C	Təcrübə (il)	Vəzifə (il)
1	Mikayıl Cabbarov SƏDR	Azərbaycan Respublikasının İqtisadiyyat Naziri	K	31	5
2	Anar Axundov	Azərbaycan Respublikası İqtisadiyyat Nazirinin Müavini	K	32	3
3	Azər Bayramov[3]	Azərbaycan Respublikası Maliyyə Nazirinin Birinci Müavini	K	36	5
4	Elnur Soltanov	Azərbaycan Respublikası Energetika Nazirinin Müavini	K	22	5
5	Emin Hüseynov	Azərbaycan Respublikası Birinci Vitse-Prezidentinin Köməkçisi	K	28	5
6	İsrafil Məmmədov	Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı Direktoru	K	31	5
7	Ruslan Əlixanov	Azərbaycan İnvestisiya Holdinqinin Baş İcraçı Direktoru	K	28	5

İDARƏ HEYƏTİ

№	Üzv	Vəzifə	C	Təcrübə (il)	Səlahiyyət müddəti (il)
1	Rövşən Nəcəf PREZİDENT	Prezident	K	25	4
2	Əfqan İsayev	Enerji Keçidi, Ətraf Mühit və Dekarbonizasiya seqmenti üzrə vitse-prezident	K	29	3
3	Anar Məmmədov	Neft-kimya seqmenti üzrə vitse-prezident	K	31	3
4	Arzu Cavadova	Təbii Sərvətlərin Kəşfiyyatı seqmenti üzrə vitse-prezident	Q	41	3
5	Babək Hüseynov	İnkişaf və Hasilat Əməliyyatları seqmenti üzrə vitse-prezident	K	21	3
6	Elşad Nəsirov	İnteqrə edilmiş Qaz seqmenti üzrə vitse-prezident	K	45	20
7	Fuad Musayev	Əməliyyat Dəstəyi, Sağlamlıq və Əməyin Təhlükəsizliyi seqmenti üzrə vitse-prezident	K	28	3
8	İsmayıl Zərgərli	Hüquq və Uyğunluq seqmenti üzrə vitse-prezident	K	29	3
9	Kənan Nəcəfov	Strategiya və Rəqəmsallaşma seqmenti üzrə vitse-prezident	K	30	5
10	Zaur Qurbanov	Maliyyə seqmenti üzrə vitse-prezident	K	21	5
11	Ziba Mustafayeva	İnsan Kapitalı və İnklüzivlik seqmenti üzrə vitse-prezident	Q	26	3

ŞURA İCLASLARINDA İŞTİRAK GÖSTƏRİCİSİ

Müəssisə	Müşahidə Şurasının üzvləri	İclasların sayı	İştirak faizi[1]
SOCAR	7	14	99%
SOCAR Energy Türkiyə	7	1	71%
SOCAR Energy Georgia	5	2	80%
SOCAR Energy Holdings AG[2]	7	2	100%
SOCAR Trading	7	5	100%
SOCAR Energy Ukraine	5	-	–

1. İştirak faizi iclaslarda faktiki iştirak edən üzvlərin ümumi sayının, iştirak etməsi gözlənilən ümumi yerlərin (üzvlərin) sayına bölünməsi yolu ilə hesablanmışdır.
2. SOCAR Energy Switzerland və SOCAR Energy Austria SOCAR Energy Holdings AG şirkətinin tərkibində fəaliyyət göstərir.
3. 2026-cı ilin aprel ayında hesabat dövrü başa çatdıqdan sonra Azərbaycan Respublikası Prezidentinin 23 yanvar 2021-ci il tarixli 2446 nömrəli Fərmanına uyğun olaraq Müşahidə Şurasının tərkibinə dəyişiklik edilmiş, Azər Bayramov Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini Anar Kərimov ilə əvəz olunmuşdur.

SOCAR-IN İDARƏETMƏ ÇƏRÇİVƏSİNİN ƏSAS KOMPONENTLƏRİ

AZƏRBAYCAN İNVESTİSİYA HOLDİNQİ

Azərbaycan İnvestisiya Holdinqi dövlət müəssisələrində korporativ idarəetmənin, şəffaflığın və əməliyyat səmərəliliyinin gücləndirilməsi məqsədilə yaradılmış publik hüquqi şəxsdir. Onun mandatına dövlət müəssisələri, habelə idarəetməsinə verilmiş dövlətin nəzarət zərfinə malik olduğu şirkətlər üzərində nəzarətin həyata keçirilməsi daxildir.

Holdinq həmçinin bu təşkilatların fəaliyyətini beynəlxalq korporativ idarəetmə və fəaliyyət standartlarına uyğunlaşdırmaqla onların maliyyə dayanıqlılığının və rəqabət qabiliyyətinin gücləndirilməsinə cavabdehdir. Mərkəzləşdirilmiş nəzarət modeli vasitəsilə Azərbaycan İnvestisiya Holdinqi portfelinə daxil olan şirkətlərin milli strateji prioritetlərə uyğun fəaliyyət göstərməsində və uzunmüddətli dəyərin yaradılmasına töhfə verməsində mühüm rol oynayır.

MÜŞAHİDƏ ŞURASI

Müşahidə Şurası Azərbaycan Respublikası Prezidenti tərəfindən üç il müddətinə təyin edilən və vəzifədən azad olunan yeddi üzvdən ibarətdir. Bu yanaşma strateji nəzarətdə davamlılığı və idarəetmə baxışlarının dövri yenilənməsini təmin edir. 2025-ci il ərzində Şuranın tərkibində dəyişiklik baş verməmişdir. Şura üzvləri enerji, maliyyə, bankçılıq və investisiya sahələrində geniş peşəkar təcrübəyə malik olmaqla, Şirkətin uzunmüddətli məqsədlərinə və milli idarəetmə tələblərinə uyğun balanslaşdırılmış və əsaslandırılmış qərarların qəbul edilməsini təmin edirlər.

Müşahidə Şurası SOCAR-ın korporativ idarəetmə sistemində mərkəzi rol oynayır, strateji prioritetləri müəyyən edir və onların icrasına strukturlaşdırılmış çərçivə vasitəsilə nəzarət edir, həmçinin İdarə Heyətinin fəaliyyətini qiymətləndirir. Bu çərçivədə korporativ strukturda dəyişikliklər, mühüm investisiya və maliyyələşdirmə əməliyyatlarının təsdiq edilməsi, eləcə də törəmə müəssisələrin rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad etməklə bağlı qərarlar qəbul edir. Bu qərarlar Qrupun strateji istiqamətinə, korporativ idarəetmə standartlarına və əməliyyat ehtiyaclarına uyğunluq əsasında həyata keçirilir.

Şəffaflığın, hesabatlılığın və risklərə effektiv nəzarətin gücləndirilməsi məqsədilə Müşahidə Şurası risklərin idarə edilməsi, daxili audit və uyğunluq da daxil olmaqla əsas nəzarət funksiyalarının yaradılmasına və fəaliyyətinə nəzarət edir. Bu funksiyalar əməliyyat intizamını dəstəkləyən və qərar qəbuletmə proseslərində aydınlığı təmin edən inteqrasiya olunmuş idarəetmə sistemini formalaşdırır. Bundan əlavə, Şura əsas maliyyə və əməliyyat siyasətlərini təsdiq etməklə maliyyə sabitliyini, biznesin fasiləsizliyini və maraqlı tərəflərin etimadını dəstəkləyir, eyni zamanda məsuliyyətli və davamlı biznes fəaliyyəti üzrə beynəlxalq gözləntilərə uyğunluğu təmin edir.

SOCAR-ın Nizamnaməsinə uyğun olaraq, Müşahidə Şurasının fəaliyyətini onun üzvlərindən formalaşdırılmış üç ixtisaslaşmış komitə dəstəkləyir: Audit Komitəsi, Təyinat və Mükafatlandırma Komitəsi, həmçinin Strategiya və İnvestisiyalar Komitəsi. Bu çərçivədə korporativ strukturda dəyişikliklər, mühüm investisiya və maliyyələşdirmə əməliyyatlarının təsdiq edilməsi, eləcə də törəmə müəssisələrin rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad etməklə bağlı qərarlar qəbul edir. Bu qərarlar Qrupun strateji istiqamətinə, korporativ idarəetmə standartlarına və əməliyyat ehtiyaclarına uyğunluq əsasında həyata keçirilir.

İDARƏ HEYƏTİ

SOCAR-ın İdarə Heyəti Müşahidə Şurası tərəfindən təsdiq edilmiş strategiya və siyasətlərin icrasına, onların bütün biznes istiqamətləri üzrə həyata keçirilməsinə və Şirkətin gündəlik fəaliyyətinin idarə olunmasına cavabdehdir. Şirkətin Nizamnaməsinə uyğun olaraq, İdarə Heyətinə SOCAR-ın Prezidenti (sədr qismində), iki birinci vitse-prezident və on iki vitse-prezident daxildir. Azərbaycan Respublikası Prezidentinin 21 iyul 2022-ci il tarixli 3376 nömrəli Sərəncamı ilə Rövşən Nəcəf SOCAR-ın Prezidenti təyin edilmiş və bununla Şirkətin icraedici rəhbərliyində davamlılıq təmin edilmişdir.

Hesabat ilinin sonuna İdarə Heyəti 11 üzvdən ibarət olmuşdur; onların 18%-ni qadınlar, 82%-ni isə kişilər təşkil etmişdir. İdarə Heyətinə təyinatlar milli qanunvericiliyə uyğun olaraq həyata keçirilir və Şirkətin əməliyyat ehtiyacları, eləcə də rəhbərlik tələbləri nəzərə alınır. Hesabat dövrü ərzində İdarə Heyətinin tərkibində dəyişiklik baş verməmişdir ki, bu da idarəetmədə sabitliyi və davamlılığı əks etdirir.

Rəhbər heyətin mükafatlandırılması SOCAR-da tətbiq olunan "Fəaliyyətin İdarə Edilməsi Prosesi" çərçivəsində tənzimlənir. Bu sistemdə fəaliyyət dörd istiqamət üzrə qiymətləndirilir: maliyyə, əməliyyat fəaliyyəti, təhlükəsizlik və davamlı inkişaf, həmçinin təşkilat və korporativ mədəniyyət. Bu çərçivə ESG ilə bağlı məsələləri rəhbər heyətin fəaliyyətinin qiymətləndirilməsi və mükafatlandırılması prosesinə inteqrasiya edərək, rəhbərlik üçün müəyyən edilmiş təşviqlərin effektiv idarəetməni, uzunmüddətli dayanıqlılığı və davamlı dəyər yaradılmasını dəstəkləməsini təmin edir.

KOMİTƏLƏR

Müşahidə Şurasının komitələri Şirkətin ən mühüm korporativ idarəetmə sahələri üzrə fəaliyyətini dəstəkləyən ixtisaslaşmış idarəetmə mexanizmi rolunu oynayır. Nəzarət, audit, mükafatlandırma və strategiya funksiyalarının ayrılması məsələlərin daha ətraflı nəzərdən keçirilməsinə, hesabatlılığın artırılmasına və qərar qəbuletmə prosesinin təkmilləşdirilməsinə imkan yaradır. Bu səlahiyyət bölgüsü risklərin obyektiv qiymətləndirilməsini, fəaliyyət nəticələrinin qərəzsiz dəyərləndirilməsini və strateji təşəbbüslərin uzunmüddətli prioritetlərlə uyğunlaşdırılmasını təmin etməklə daha ardıcıl və səmərəli idarəetmə çərçivəsinin formalaşmasına töhfə verir.

AUDİT KOMİTƏSİ

Audit Komitəsi SOCAR-ın maliyyə və iqtisadi fəaliyyətinin dürüstlüyünə, audit və nəzarət sistemlərinin effektivliyinə, habelə daxili nəzarət və risklərin idarə edilməsi sistemlərinin etibarlılığına nəzarət etməklə Müşahidə Şurasının fəaliyyətini dəstəkləyir. Komitənin əsas funksiyalarına daxili və xarici audit proseslərinə nəzarət, maliyyə hesabatlarının düzgünlüyünün qiymətləndirilməsi, hüquqi və daxili korporativ idarəetmə tələblərinə uyğunluğun monitorinqi, risk reyestrlərinin və risk tolerantlığı göstəricilərinin nəzərdən keçirilməsi, həmçinin Müşahidə Şurasına düzəldici tədbirlərin, araşdırmaların və əsas nəzarət mexanizmlərinin tətbiqi ilə bağlı tövsiyələrin təqdim edilməsi daxildir.

- Ruslan Əlixanov
- Emin Hüseynov
- İsrafil Məmmədov

TƏYİNAT VƏ MÜKAFATLANDIRMA KOMİTƏSİ

Təyinat və Mükafatlandırma Komitəsi Müşahidə Şurası yanında məşvərətçi orqan kimi fəaliyyət göstərir və korporativ idarəetmədə davamlılığın təmin edilməsi, fəaliyyətin qiymətləndirilməsi və insan kapitalının idarə olunması ilə bağlı məsələlərə dəstək verir. Komitənin əsas məqsədi Müşahidə Şurası və icra rəhbərliyi üçün səmərəli varisliyin planlaşdırılmasını təmin etmək, Şuranın, rəhbərliyin və əməkdaşların fəaliyyətinin obyektiv qiymətləndirilməsini həyata keçirmək, habelə mükafatlandırma, təşviqetmə, sosial təminat, təlim və peşəkar inkişaf sahələrində effektiv yanaşmaların formalaşdırılmasına töhfə verməkdir.

- Anar Axundov
- Emin Hüseynov
- Elnur Soltanov

STRATEGİYA VƏ İNVESTİSİYALAR KOMİTƏSİ

Strategiya və İnvestisiyalar Komitəsi SOCAR-ın uzunmüddətli inkişafı, strateji prioritetləri və investisiya gündəliyi ilə bağlı məsələlər üzrə Müşahidə Şurasına məşvərətçi dəstək göstərir. Komitənin əsas məqsədi strateji məqsədlərin nəzərdən keçirilməsi, investisiya cəlbediciliyinin artırılması, maliyyə və biznes planlaşdırmasının gücləndirilməsi, prioritet fəaliyyət istiqamətlərinin və iri investisiya layihələrinin müəyyən edilməsi, habelə maliyyə və əməliyyat fəaliyyətinin monitorinqi, o cümlədən dividendlər və digər ödənişlərlə bağlı məsələlər üzrə Müşahidə Şurasına dəstək verməkdir.

- Mikayıl Cabbarov
- Anar Axundov
- Ruslan Əlixanov
- Elnur Soltanov
- Azər Bayramov



RİSKLƏRİN İDARƏ EDİLMƏSİ KOMİTƏSİ

Risklərin İdarə Edilməsi Komitəsi (RİK) risklərin effektiv idarə olunmasına və bu prosesinin müvafiq çərçivəyə uyğun həyata keçirilməsinə nəzarət edən orqandır. İdarə Heyəti yanında fəaliyyət göstərən və 5 üzvdən ibarət olan Komitəyə SOCAR Prezidenti sədrlik edir. Komitənin digər üzvləri ikinci müdafiə xəttini təmsil edən yüksək vəzifəli rəhbərlərdir.

Əsasnaməyə uyğun olaraq, RİK-in iclasları rüblük əsasda keçirilir. Bununla yanaşı, təxirəsalınmaz diqqət tələb edən məsələlərin müzakirəsi və qərarların qəbulu məqsədilə plandankənar iclaslar da təşkil oluna bilər.

RİK-in səlahiyyətlərinə Risklərin İdarə Edilməsi Siyasəti, risklərə dözümlülük səviyyələri və illik risk qiymətləndirmələrinin nəticələri kimi yüksək səviyyəli risk sənədlərinin ilkin baxış qaydasında nəzərdən keçirilməsi daxildir. Həmin sənədlərə növbəti mərhələdə baxılması və onların təsdiqi Audit Komitəsi və Müşahidə Şurası tərəfindən həyata keçirilir.

RİK rüblük əsasda yüksək və kritik səviyyəli risklərin vəziyyətini, eləcə də tətbiq olunan risklərin idarə edilməsi tədbirlərinin effektivliyini nəzərdən keçirir. Komitə qəbul edilmiş risklərin SOCAR-ın Risklərin İdarə Edilməsi Siyasətinə və Strategiyasına uyğunluğuna davamlı nəzarət edir. RİK-in iclaslarının vaxtında təşkili və inzibati təminatı Baş Ofisin Risklərin İdarə Edilməsi Departamenti (RİED) tərəfindən həyata keçirilir.

KADRLARIN İDARƏ EDİLMƏSİ KOMİTƏSİ

Komitə əsas kadr qərarlarını, o cümlədən təqaüd proqramları çərçivəsində ixtisas kvotalarının dəyişdirilməsi və namizədlərin təsdiq edilməsi ilə bağlı məsələləri idarə edir. Komitə vəzifə dərəcələri və mükafatlandırma sistemində edilən dəyişiklikləri nəzərdən keçirir, işçilərin sayının artırılması və struktur dəyişiklikləri ilə bağlı müraciətləri qiymətləndirir, həmçinin işçi qüvvəsinin optimallaşdırılması təşəbbüslərini müzakirə edir.

Komitə, həmçinin təhlükəli əmək şəraitinə görə artırılmış əməkhaqqı əmsallarının tətbiqini təsdiq edir, daxili sorğuların nəticələrinə əsaslanan əməkdaş təcrübəsinin inkişafı təşəbbüslərini nəzərdən keçirir, iş vaxtı standartlarını təsdiq edir, Baş Ofisə təyinatları qiymətləndirir, SOCAR Prezidentinə tövsiyələr təqdim edir və insan resursları üzrə qərar qəbuletmə prosesinin təkmilləşdirilməsini dəstəkləyir.

SATINALMALAR KOMİTƏSİ

Komitə satınalma strategiyalarını, iştirakçı siyahılarını, tender nəticələrini, rəqabətsiz satınalmaları və müqavilə dəyərinin artırılması ilə bağlı qərarları təsdiq edir, eyni zamanda struktur bölmələri arasında əlaqələndirməni təmin edir.

Komitə tənzimləyici tələblərə uyğunluğa nəzarət edir, satınalma ilə bağlı mübahisələri həll edir və təchizatçı siyahılarının təsdiqini və ya onlara səlahiyyətlərin verilməsini həyata keçirir. Zəruri hallarda Komitə müqavilələrin yekunlaşdırılmasından əvvəl prosedurları dayandıra, müvafiq metodologiya və təlimatları qəbul edə, səlahiyyət limitlərini müəyyən edə, çərçivə sazişlərini təsdiq edə, ilkin hesablamalardan əhəmiyyətli dərəcədə fərqlənən satınalma nəticələrini ləğv edə və yeni satınalma proseslərinə başlanılması barədə qərar qəbul edə bilər.

ETİK BİZNES DAVRANIŞI

SOCAR-ın Biznes Etikası və Davranış Kodeksi əməkdaşlardan və maraqlı tərəflərdən gözlənilən prinsipləri, normaları və davranış standartlarını müəyyən edən əsas sənəddir.

SOCAR etik biznes davranışını qanunvericiliyin tələblərinə riayət olunması, dürüstlük və korporativ məsuliyyət prinsipləri əsasında qurur. Bu prinsiplər Şirkətin korporativ idarəetmə təcrübələrinin əsasını təşkil edir, qanunun aliliyinə hörmətin təmin edilməsinə xidmət edir və bütün fəaliyyət istiqamətləri üzrə yüksək peşəkar davranış standartlarının tətbiqini təşviq edir.

Dəyişən tənzimləyici mühitə uyğun olaraq, SOCAR-ın Müşahidə Şurası bir sıra yeni sənədləri təsdiq etmiş və onların tətbiqinə başlamışdır. Bunlara Hədiyyələr, Əyləncə, Həvəsləndirmələr, Qonaqpərvərlik və Qonaqlama Prosedur, Yardım xətti və qisas tədbirlərinə qarşı təminatlara dair Prosedur, Uyğunluğun Kompleks Ekspertizası Proseduru və Sanksiyalara Uyğunluq Proseduru daxildir. Bu yeni siyasət və prosedurların qəbul edilməsi ilə SOCAR yüksək etik standartlara sadiqliyini bir daha təsdiqləmiş, öz dəyərlərinə və nüfuzuna xələl gətirə biləcək təhdid və risklərin azaldılmasını təmin etmişdir.

Əvvəlki versiyadan fərqli olaraq, yeni Biznes Etikası və Davranış Kodeksi bütün əməkdaşlara şamil olunan ümumi öhdəliklərlə yanaşı, rəhbərlik üçün əlavə məsuliyyətlər müəyyən edir. Eyni zamanda, daxili məlumatlardan istifadə, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi, vergidən yayınma, beynəlxalq ticarət məhdudiyyətləri və insan hüquqları kimi sahələri əhatə edən yeni müddəaları özündə ehtiva edir.

SOCAR-da etik davranış və uyğunluq sistemini tənzimləyən əsas sənəd Biznes Etikası və Davranış Kodeksi olmaqla yanaşı, onun müddəalarından irəli gələn ayrı-ayrı mövzular üzrə qəbul edilmiş müxtəlif daxili siyasətlər, prosedurlar, bəyanatlar (gözləntilər) və standartlarla tamamlanır.

ƏSAS SƏNƏD
2025 · Yenilənmiş Format
İstifadə səmərəliyini artırmaq məqsədilə Biznes Etikası və Davranış Kodeksi

SİYASƏT ÇƏRÇİVƏSİ
12
Siyasətlər, standartlar və bəyanatlar

UYĞUNLUQ SAHƏLƏRİ
4
Davranış Kodeksi · Korrupsiyaya qarşı mübarizə · Korporativ qonaqpərvərlik · Uyğunluğun kompleks ekspertizası

ƏHATƏ DAİRƏSİ
100%
Davranış Kodeksi üzrə təlim və sertifikatlaşdırma proqramı

DAVRANIŞ KODEKSİ

Əməkdaşlardan, biznes tərəfdaşlarından və podratçılardan gözlənilən prinsipləri və davranış standartlarını müəyyən edən əsas sənəd.

- A — Biznes Etikası və Davranış Məcəlləsi
- B — Biznes tərəfdaşları, o cümlədən təchizatçılar, iş və xidmət podratçılarından Gözləntilər
- C — İnsan Hüquqları üzrə Bəyanat

KORRUPSİYAYA VƏ MALİYYƏ CİNAYƏTLƏRİNƏ QARŞI MÜBARİZƏ

Dəyər zənciri boyunca korrupsiyanın, o cümlədən rüşvətxorluğun, maliyyə cinayətlərinin, sanksiya pozuntularının və maraqların toqquşmasının qarşısının alınması.

- A — Korrupsiya, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, Cinayətlərin maliyyələşdirilməsi və Vergidən Yayınma ilə Mübarizə Siyasəti
- B — Maraqların Toqquşması Siyasəti
- C — Qlobal Sanksiyalar Siyasəti və Sanksiyalara Uyğunluq Proseduru

KORPORATİV QONAQPƏRVƏRLİK VƏ TƏMSİLÇİLİK

Hədiyyələr, qonaqpərvərlik, korporativ kartlardan istifadə, eləcə də SOCAR-ın sosial xarakterli sərmayələr və sponsorluq sahəsində fəaliyyəti üzrə korporativ idarəetmə.

- A — Hədiyyələr, Əyləncə, Həvəsləndirmələr, Qonaqpərvərlik və Qonaqlama Siyasəti və Proseduru
- B — Təmsilçilik və ezamiyyət xərcləri, eləcə də korporativ kartların istifadəsi haqqında Standart
- C — Sosial xarakterli sərmayələr, Xeyriyyəçilik və Sponsorluq Siyasəti

UYĞUNLUĞUN KOMPLEKS EKSPERTİZASI VƏ HESABATLILIQ

Qarşı tərəflərin və rəhbər vəzifələrə namizədlərin yoxlanılması, eləcə də ehtimal olunan pozuntuların bildirilməsi üçün Yardım xətti və qisas tədbirlərinə qarşı təminatlara dair Prosedur kanalları.

- A — Uyğunluğun Kompleks Ekspertizası Proseduru
- B — Rəhbər vəzifələrə namizədlərin yoxlanılması haqqında Standart
- C — Yardım xətti və qisas tədbirlərinə qarşı təminatlara dair Prosedur

UYĞUNLUQ

SOCAR-da daxili uyğunluq tənzimləmələrinin daha da təkmilləşdirilməsi istiqamətində aparılan işlər çərçivəsində 2025-ci ildə Uyğunluq Monitorinqi Proseduru və Rəqabət Uyğunluğu Proseduru layihələri hazırlanaraq baxılması və təsdiq edilməsi üçün SOCAR Prezidentinə təqdim edilmişdir.

Bundan əlavə, 2025-ci ildən etibarən Etika və Uyğunluq üzrə Yardım Xətti fəaliyyət göstərir. Bu mexanizm SOCAR-ın Biznes Etikası və Davranış Kodeksi, əlaqəli uyğunluq siyasətləri və digər etika və uyğunluq tələblərinin pozulması halları ilə bağlı anonim müraciətlərin təqdim edilməsinə və araşdırılmasına imkan yaradır. SOCAR əməkdaşları, biznes tərəfdaşları və digər maraqlı tərəflər üçün müraciət imkanlarını asanlaşdırmaq məqsədilə Yardım Xəttinə keçidlər, həmçinin SOCAR-ın Yardım Xətti və qisas tədbirlərinə qarşı təminatlar barədə daxili Proseduruna dair Bəyanat SOCAR-ın rəsmi internet səhifəsinin əsas səhifəsində yerləşdirilmişdir.

Bununla yanaşı, SOCAR-da ISO 37001 "Rüşvətxorluğa Qarşı İdarəetmə Sistemi" standartı üzrə sertifikatlaşdırma prosesinə başlanılmış və onun 2026-cı ildə tamamlanması planlaşdırılmışdır. Beynəlxalq səviyyədə tanınan bu uyğunluq standartına uyğunluğun təmin edilməsi SOCAR-ın uyğunluğun idarə olunması sisteminə maraqlı tərəflərin etimadını daha da gücləndirəcəkdir.

Əhəmiyyətli üç uyğunsuzluq halı

Əməliyyat fəaliyyəti zamanı ətraf mühitə təsirlər

İnfrastruktur və sahə işləri zamanı yaranan ətraf mühitə zərər, o cümlədən bitki örtüyünün pozulması və torpaqdan istifadəyə təsirlərlə bağlı uyğunsuzluq halları.

Resursların və infrastrukturun idarə olunması sahəsində normativ tələblərin pozulması

İcazə verilən əməliyyat limitlərindən kənara çıxma halları, o cümlədən yerin təkindən istifadə, habelə kommunal infrastrukturun köçürülməsi və ya quraşdırılması ilə bağlı pozuntular nəticəsində tənzimləyici orqanların müəyyən etdiyi uyğunsuzluqlar və tətbiq edilən cərimələr.

Fövqəladə hallara hazırlıq və ekoloji risklərin idarə olunması

Ətraf mühit üzrə fövqəladə hallara hazırlıq tədbirlərinin tətbiqi və davamlı təkmilləşdirilməsi, o cümlədən insidentlərin qarşısının alınması, cavab tədbirlərinin planlaşdırılması, monitorinq, təlimlər, fövqəladə hallar üzrə təlim məşqləri, kök səbəb təhlili və əməliyyat dayanıqlılığının gücləndirilməsi, eləcə də ətraf mühitə təsirlərin minimuma endirilməsi istiqamətində həyata keçirilən tədbirlər.

Müəyyən edilmiş bütün hallar üzrə düzəldici tədbirlər həyata keçirilmiş və müvafiq cərimələrin ödənilməsi yolu ilə aradan qaldırılmışdır.

Korrupsiyaya, o cümlədən rüşvətxorluğa və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı Mübarizə

Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş korrupsiyaya qarşı mübarizə prinsiplərinə və tələblərinə, biznes etikası standartlarına, beynəlxalq hüquqi və tənzimləyici aktlara, xarici ölkələrin qanunvericiliyinə və qabaqcıl beynəlxalq təcrübələrə uyğun olaraq SOCAR korrupsiyanın bütün formalarına qarşı "sıfır tolerantlıq" yanaşmasını tətbiq edir. Bu öhdəliyə uyğun olaraq, Şirkət 2024-cü ildə Korrupsiya, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, Cinayətlərin maliyyələşdirilməsi və Vergidən Yayınma ilə Mübarizə Siyasətini qəbul etmiş və 2012-ci ildən qüvvədə olan anti-korrupsiya siyasətini əvəz etmişdir.

Bu siyasətin tətbiqi çərçivəsində SOCAR korrupsiyaya qarşı mübarizəni gücləndirmək və şəffaflığı artırmaq məqsədilə milli qanunvericiliyə, beynəlxalq prinsiplərə və tətbiq olunan hüquqi tələblərə tam uyğun olan əhatəli daxili tənzimləmə çərçivəsi formalaşdırmışdır. Bu siyasətlə yanaşı, yeni qəbul edilmiş Biznes Etikası və Davranış Kodeksi, eləcə də təchizatçılar, iş və xidmət podratçıları daxil olmaqla biznes tərəfdaşlarından Gözləntilər bütün qarşı tərəflər üçün aydın tələblər müəyyən edir. Biznes Etikası və Davranış Kodeksinin, Gözləntilər sənədinin və SOCAR-ın Korrupsiyaya, o cümlədən rüşvətxorluğa qarşı mübarizə sistemi üzrə Bəyanatın Azərbaycan və ingilis dillərindəki versiyaları Şirkətin rəsmi korporativ internet səhifəsində ictimaiyyət üçün açıq şəkildə yerləşdirilmişdir.

Hesabat dövrü ərzində Şirkətin struktur qurumlarında korrupsiya halları müəyyən edilməmişdir. SOCAR daxili nəzarət mexanizmlərinin və uyğunluq prosedurlarının effektivliyinin artırılmasına, həmçinin təşkilatın bütün səviyyələrində dürüstlük və şəffaflıq prinsiplərinin qorunmasına yönəlmiş davamlı səylərini həyata keçirir.

Korrupsiyaya qarşı fəaliyyətin əsas prinsipləri

- Korrupsiya hallarına qarşı sıfır tolerantlıq
- İyerarxik maneələrin olmaması
- Cəzanın qaçılmazlığı

AZƏRBAYCAN RESPUBLİKASININ KORRUPSİYAYA QARŞI MÜBARİZƏNİN GÜCLƏNDİRİLMƏSİNƏ DAİR 2022-2026-CI İLLƏR ÜÇÜN MİLLİ FƏALİYYƏT PLANI İLƏ UYĞUNLAŞMA

Regionun enerji və iqtisadi sektorunun aparıcı iştirakçılarından biri olaraq, korporativ idarəetmə təcrübələrinə göstərdiyimiz təsirin fərqindəyik. Bu baxımdan, SOCAR-ın Korrupsiyaya, o cümlədən Rüşvətxorluğa qarşı Mübarizə dövlət orqanları, dövlətə məxsus və dövlətin nəzarətində olan hüquqi şəxslər, habelə vətəndaş cəmiyyəti arasında korrupsiyaya qarşı mübarizə tədbirlərini əlaqələndirən, şəffaflığın, xidmət keyfiyyətinin və ictimai nəzarətin gücləndirilməsini hədəfləyən Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair Milli Fəaliyyət Planı ilə sıx şəkildə uyğunlaşdırılmışdır.

SOCAR-ın Korrupsiyaya, o cümlədən Rüşvətxorluğa qarşı Mübarizə sistemi Milli Fəaliyyət Planı ilə sıx uyğunlaşdırılmışdır və onun məqsədlərinin həyata keçirilməsini fəal şəkildə dəstəkləyir. Güclü korporativ idarəetmə, risklərin idarə edilməsi təcrübələri, hədəflənmiş təlimlər, etibarlı hesabatlılıq mexanizmləri və üçüncü tərəflər üzrə hərtərəfli uyğunluq kompleks ekspertizaları vasitəsilə Şirkət özəl sektorda dürüstlük prinsiplərinin möhkəmləndirilməsinə, satınalma proseslərində şəffaflığın artırılmasına, beynəlxalq standartlara uyğunluğun təmin edilməsinə və korrupsiyaya qarşı sıfır tolerantlıq mədəniyyətinin təşviqinə töhfə verir.

KORRUPSİYAYA QARŞI TƏLİMLƏR

Təlim keçmiş əməkdaşlar

5 898

Onlayn və əyani formatda keçirilmiş təlimlər

KORRUPSİYA HALLARI

Təsdiq edilmiş hallar

0

Sıfır tolerantlıq prinsipi qorunmuşdur

MARAQLI TƏRƏFLƏRLƏ ƏLAQƏLƏR

Keçirilmiş görüşlər vasitəsilə

18

Qeyri-hökumət təşkilatının iştirakı ilə

KORRUPSİYAYA QARŞI MAARİFLƏNDİRMƏ

2022–2025-ci illər ərzində

İctimai açıqlama

Tədbirlər və əməkdaşlıqlar vasitəsilə

Milli Fəaliyyət Planı çərçivəsində həyata keçirilən tədbirlər

FƏALİYYƏT	İCRA TƏFƏRRÜATLARI	NƏTİCƏ
01 Risklərin idarə edilməsi **Korrupsiya riskləri üzrə hesabatlılıq**	▪ Korrupsiya və əlaqəli riskləri əhatə edən illik risk xəritəsi hazırlanmışdır. Potensial ISO 37001 standartı üzrə sertifikatlaşdırılmasına hazırlıq məqsədilə risklərin müəyyənləşdirilməsi üçün müstəqil məsləhətçi cəlb edilmişdir. ▪ Müəyyən edilmiş korrupsiya riskləri başvermə ehtimalı və təsir səviyyəsi əsasında qiymətləndirilmişdir. ▪ Korrupsiya və digər əlaqəli qanuna zidd əməllərə (dələduzluq, vəzifə səlahiyyətlərindən sui-istifadə, vergidən yayınma və s.) səbəb ola biləcək halların izlənilməsi üçün risk göstəriciləri hazırlanmışdır. ▪ İl ərzində müəyyən edilmiş risklər üzrə mütəmadi monitorinqlər aparılmış, korrupsiya riskləri daşıyan fəaliyyət sahələrinə xüsusi diqqət yetirilmişdir. Hesabat dövründə korrupsiya halı qeydə alınmamışdır. ▪ Müstəqil məsləhətçinin dəstəyi ilə korrupsiya və digər uyğunluq risklərinin idarə edilməsinə dair yeni monitorinq proseduru hazırlanmışdır.	**0** korrupsiya halı

FƏALİYYƏT	İCRA TƏFƏRRÜATLARI	NƏTİCƏ
02 Şəffaflıq **İşə qəbul prosesində şəffaflıq və ictimai nəzarət**	▪ SOCAR nümayəndələri, azad edilmiş ərazilərdə keçirilən tədbir də daxil olmaqla, 15 əmək yarmarkası və karyera sərgisində iştirak etmiş, xüsusi stendlər, posterlər, bukletlər və digər məlumatlandırıcı materiallar vasitəsilə karyera imkanları barədə məlumat vermişlər. ▪ Hesabat dövründə vətəndaşlara işə qəbul prosedurları ilə bağlı 235 qəbul zamanı, 2 497 yazılı müraciət və 1 046 qaynar xətt zəngi vasitəsilə məlumat təqdim edilmişdir. ▪ Azərbaycan Milli QHT Forumu, Azərbaycan Jurnalistlər Şəbəkəsi, "Prioritet" Sosial-İqtisadi Araşdırmalar Mərkəzi və "ForCitizens" Sosial Rifah İctimai Birliyi daxil olmaqla vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinə işə qəbul müsabiqələrini müşahidə etmək imkanı yaradılmışdır.	**15** tədbir
03 Maraqlı tərəflərlə əməkdaşlıq **Korrupsiyaya qarşı tərəfdaşlıq təşəbbüsləri**	▪ QHT nümayəndələrinin iştirakı ilə "Vətəndaş Cəmiyyəti İnstitutları ilə Əməkdaşlığın Gücləndirilməsi" mövzusunda görüş keçirilmişdir. ▪ İştirakçılar SOCAR-ın daxili nəzarət mexanizmləri, o cümlədən məlumatvermə (whistleblowing) kanalları və əməkdaşların pozuntuların bildirilməsi üzrə maarifləndirilməsi təşəbbüsləri barədə məlumatlandırılmışdır.	**18** QHT cəlb olunmuşdur
04 Təlim **Korrupsiyaya qarşı mədəniyyətin inkişafı**	▪ 2025-ci ildə SOCAR üzrə 5 898 əməkdaş korrupsiyaya qarşı mübarizə mövzusunda təlimlərdə iştirak etmişdir. ▪ Təlimlər korrupsiyaya qarşı fəaliyyət üzrə hüquqi çərçivəni, eləcə də risklərin qiymətləndirilməsi və idarə edilməsini əhatə etmişdir. ▪ Təlimlər onlayn və əyani formatda keçirilmiş, xüsusi hazırlanmış maarifləndirici videoçarxlarla dəstəklənmişdir.	**5 898** təlim keçmiş əməkdaş
05 Məlumatların ictimai açıqlanması **Korrupsiyaya qarşı ictimai maarifləndirmə kampaniyaları**	▪ Korrupsiya, digər qanunazidd əməllər və etik pozuntuların vaxtında aşkarlanmasına yönəlmiş yeni uyğunluq sistemi üzrə təlimlər barədə məlumatlar SOCAR-ın rəsmi internet səhifəsi və sosial media platformaları vasitəsilə geniş ictimaiyyətə çatdırılmışdır. ▪ Rəsmi internet səhifəsində "Yardım xətti və qisas tədbirlərinə qarşı təminatlara dair Prosedur", "Korrupsiyaya, o cümlədən rüşvətxorluğa qarşı mübarizə sistemi üzrə Bəyanat", eləcə də "Biznes tərəfdaşları, o cümlədən təchizatçılar, iş və xidmət podratçılarından Gözləntilər" dərc edilmişdir. ▪ İşə qəbul prosesində korrupsiya və dələduzluğun qarşısının alınmasına həsr olunmuş maarifləndirici poster hazırlanaraq əsas sosial media platformalarında paylaşılmışdır.	Məlumatın ictimaiyyətə açıqlanması



ŞƏXSİ VƏ KORPORATİV MARAQLARIN TOQQUŞMASININ TƏNZİMLƏNMƏSİ

Siyasətlərin mütəmadi yenilənməsi çərçivəsində SOCAR Maraqların Toqquşması Siyasəti də daxil olmaqla daxili çərçivə sənədlərini davamlı olaraq nəzərdən keçirir və təkmilləşdirir. Bu məqsədlə SOCAR-ın Baş Ofisində və SOCAR Qrup şirkətlərində xüsusi işçi qrupları (komissiyalar, komitələr və s.) yaradılmışdır.

Siyasətin müddəalarına uyğun olaraq əməkdaşlar üçün konkret hal üzrə və yarımillik bəyannamə formaları, eləcə də vəzifələrə namizədliyini irəli sürən şəxslər üçün bəyannamə formaları hazırlanmış və doldurulması üçün müvafiq şəxslərə təqdim edilmişdir. Bundan əlavə, maraqların toqquşması, hədiyyələr, əyləncə, həvəsləndirmələr, qonaqpərvərlik və qonaqlama ilə bağlı qeydiyyat və təsdiqləmə proseslərini, eləcə də illik uyğunluq sertifikatlaşdırılması və təlimlərini əhatə edən yeni daxili Etika və Uyğunluq üzrə elektron Reyestrinin hazırlanması və istifadəyə verilməsi istiqamətində işlər davam etdirilir və bu prosesin növbəti il ərzində tamamlanması gözlənilir.

ETİK RİSKLƏRİN İDARƏ OLUNMASINA VƏ HESABATLILIĞA YANAŞMA

Şirkət dürüstlük və şəffaflıq üzrə yüksək standartların qorunmasını təmin etmək məqsədilə etik və uyğunluq risklərini mütəmadi olaraq qiymətləndirir. Bu qiymətləndirmələr müəyyən edilmiş etik nəzarət prosedurlarına əsaslanan uyğunluq auditləri və risk qiymətləndirmələri vasitəsilə dəstəklənir. Bu prosesdə əsas alətlərdən biri “Korrupsiyaya Qarşı Mübarizə Sisteminin Qiymətləndirilməsi Metodologiyası üzrə Standart” sənədidir və onun 2026-cı ildə Uyğunluq Monitorinqi Proseduru ilə əvəz edilməsi nəzərdə tutulur. Bu daxili sənədlər nəzarət tədbirləri, audit planlaşdırılması, hesabatlılıq, qərar qəbuletmə və düzəldici tədbirlər daxil olmaqla əsas istiqamətləri və qiymətləndirmə metodlarını müəyyən edir.

SOCAR etik hesabatlılığı strukturlaşdırılmış uyğunluq proqramları və əlçatan məlumatvermə mexanizmləri vasitəsilə təmin edir. Bütün əməkdaşlar Biznes Etikası və Davranış Kodeksi ilə tanış olduqlarını öz imzaları ilə təsdiq edirlər. Bundan əlavə, onlar hər il Kodeksin prinsiplərinə əməl etdiklərini təsdiqləyən sertifikatlaşdırma prosesindən keçirlər.

KONFİDENSİAL MƏLUMATLARIN VƏ FƏRDİ MƏLUMATLARIN QORUNMASI

SOCAR konfidensial məlumatların və fərdi məlumatların qorunmasına biznes etikası sisteminin ayrılmaz hissəsi kimi xüsusi önəm verir. Şirkət həssas məlumatların qorunmasını tətbiq olunan qanunvericiliyin tələblərinə və beynəlxalq qabaqcıl təcrübələrə uyğun şəkildə təmin edir. Bu yanaşma SOCAR və onun Qrup şirkətlərində tətbiq olunan Konfidensial İnformasiyasının və Fərdi Məlumatların Qorunması üzrə Siyasət vasitəsilə rəsmiləşdirilmişdir. Siyasət fəaliyyət göstərilən bütün yurisdiksiyalarda hüquqi və tənzimləyici tələblərə, eləcə də geniş şəkildə qəbul olunmuş standartlara uyğunluğu təmin edir.

KORPORATİV ETİKA, UYĞUNLUQ VƏ KORRUPSİYAYA QARŞI MÜBARİZƏ ÜZRƏ TƏLİMLƏR VƏ MAARİFLƏNDİRMƏ

SOCAR təşkilatın bütün səviyyələrində korporativ etika, uyğunluq və korrupsiyaya qarşı mübarizə üzrə məlumatlılığın artırılması məqsədilə strukturlaşdırılmış təlim proqramları həyata keçirir. Yeni işə qəbul olunan əməkdaşlar da daxil olmaqla bütün işçilər Korrupsiya, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, Cinayətlərin maliyyələşdirilməsi və Vergidən Yayınma Siyasəti, Biznes Etikası və Davranış Kodeksi ilə tanış edilir. Həm əyani, həm də distant formatda keçirilən təlimlər zamanı Biznes Etikası və Davranış Kodeksi, siyasətlər, prosedurlar və əməkdaşların öhdəlikləri izah olunur.

2025-ci ildə SOCAR "2022–2026-cı illər üzrə Korrupsiyaya Qarşı Mübarizənin Gücləndirilməsinə dair Milli Fəaliyyət Planı" ilə uyğunlaşdırılmış məqsədyönlü təlimlər keçirmişdir. Təlimlər "SOCAR-ın yeni Biznes Etikası və Davranış Kodeksinə və korrupsiyaya qarşı mübarizə üzrə digər yeni siyasətlərə uyğun Davranış Modeli" proqramı əsasında təşkil edilmiş və onlayn və əyani təlimlər, eləcə də maarifləndirici video materiallar vasitəsilə 5 898 əməkdaşı əhatə etmişdir. Təlimlərin effektivliyi qiymətləndirilmiş və proqramların daha da təkmilləşdirilməsi üzrə tövsiyələr hazırlanmışdır.

Korrupsiyaya qarşı mübarizə təlimləri ilə yanaşı, SOCAR mütəmadi olaraq biznes etikası üzrə təlimlər də keçirir. Bu təlimlər vasitəsilə əməkdaşlar Şirkətin Biznes Etikası və Davranış Kodeksi ilə bağlı biliklər əldə edir və həmin bilikləri mütəmadi olaraq yeniləyirlər. Təlimlər hər ay həm onlayn, həm də əyani formatlarda təşkil olunur.

2026-cı il üçün, yenilənmiş Biznes Etikası və Davranış Kodeksi, yeni qəbul edilmiş uyğunluq siyasətləri və prosedurları üzrə təlimləri əhatə edən yeni iş planı və genişləndirilmiş təlim proqramları nəzərdə tutulmuşdur.

UYĞUNLUQ NƏZARƏTİ, LAZİMİ ARAŞDIRMA VƏ HESABATLILIQ MEXANİZMLƏRİ

Uyğunluq sisteminin ümumi effektivliyini gücləndirmək məqsədilə Şirkət fəaliyyətində şəffaflıq, hesabatlılıq və dürüstlüyü təmin etməyə yönəlmiş qabaqlayıcı və nəzarət mexanizmlərinin kombinasiyasını tətbiq edir. Bu çərçivədə Şirkət qanunsuz halların qarşısının alınması məqsədilə daxili nəzarət və maliyyə şəffaflığı mexanizmlərindən istifadə edir. Xüsusilə qeyri-rəsmi uçot hesabları, saxtalaşdırılmış sənədlər və maliyyə məlumatlarının təhrif edilməsinin digər formaları qəti şəkildə qadağandır. Bütün əməliyyatlar müvafiq qaydada təsdiqlənməli, düzgün uçota alınmalı və əsaslandırıcı sənədlərlə dəstəklənməlidir. Maliyyə və qeyri-maliyyə qeydləri qanunvericiliyin və tənzimləyici tələblərin müəyyən etdiyi müddətlər ərzində saxlanılır, yüksək riskli ödənişlər və ya vasitəçilərlə bağlı əməliyyatlar isə əlavə yoxlamaya məruz qalır.

Daxili fəaliyyətlərlə yanaşı, SOCAR kənar tərəflərlə münasibətlərdən yarana biləcək riskləri də nəzərə alır və qəbul edir ki, korrupsiya və maliyyə cinayətləri ilə bağlı risklər biznes əlaqələri vasitəsilə də yarana bilər. Bu səbəbdən təchizatçılar, podratçılar, agentlər və birgə müəssisə tərəfdaşları da daxil olmaqla biznes tərəfdaşları və üçüncü tərəflər üzrə risk əsaslı lazımi araşdırma prosedurları tətbiq edilir. Yoxlama prosesləri potensial korrupsiya riskləri, benefisiar mülkiyyət, maraqların toqquşması, sanksiyalar, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması riskləri, eləcə də rəqabət və vergi qanunvericiliyinə uyğunluq məsələlərini əhatə edir. Zəruri hallarda müqavilələrə standart uyğunluq müddəaları daxil edilir və pozuntu hallarında əməkdaşlığın dayandırılması hüququ nəzərdə tutulur.

Bu qabaqlayıcı tədbirləri erkən aşkarlama mexanizmləri ilə tamamlamaq məqsədilə əməkdaşlar və xarici maraqlı tərəflər narahatlıqlarını müxtəlif kanallar vasitəsilə bildirə bilərlər. Bu kanallara rəhbərlik xətti üzrə müraciətlər, birbaşa Uyğunluq Departamentinə müraciət və anonim məlumat təqdim etmək imkanı yaradan Etika və Uyğunluq üzrə Yardım Xətti daxildir. SOCAR vicdanla məlumat verən şəxslərə qarşı hər hansı təqib formasına yol vermir. Müraciətlər mümkün olduğu hallarda konfidensial qaydada araşdırılır və qərəzsiz daxili prosedurlar çərçivəsində qiymətləndirilir, zəruri hallarda isə müvafiq düzəldici tədbirlər həyata keçirilir.

Şəkil 11. Kateqoriyalar üzrə qəbul edilmiş müraciətlər

Əməyin mühafizəsi və təhlükəsizliyi üzrə daxil olmuş müraciətlərin ümumi sayı	10
Əmək münasibətləri üzrə daxil olmuş müraciətlərin ümumi sayı	945
Ətraf mühit üzrə daxil olmuş müraciətlərin ümumi sayı	23
Uyğunluq məsələləri üzrə Yardım Xəttinə daxil olmuş müraciətlərin ümumi sayı	60

2025-ci ildə korrupsiya ilə bağlı heç bir müraciət daxil olmamışdır.

VERGİ DÜRÜSTLÜYÜ

SOCAR vergi təcrübələrini yalnız qanunvericiliyə uyğunluq məsələsi kimi deyil, həm də cəmiyyət qarşısında daha geniş məsuliyyətinin ifadəsi kimi qiymətləndirir. Dövlət müəssisəsi olaraq Şirkət fiskal öhdəliklərinin Azərbaycan Respublikasının davamlı inkişafı, o cümlədən ictimai infrastrukturun, sosial xidmətlərin və uzunmüddətli iqtisadi dayanıqlılığın maliyyələşdirilməsi ilə birbaşa əlaqəsini anlayır. Bu baxımdan məsuliyyətli vergi davranışı SOCAR-ın davamlı inkişaf yanaşmasının əsas elementlərindən biri kimi inteqrasiya olunmuşdur və hesabatlılığın nümayiş etdirilməsinə, ictimai etimadın möhkəmləndirilməsinə, eləcə də ümumi milli dəyərin yaradılmasına töhfə verir.

SOCAR vergi məsələlərini dürüstlük, şəffaflıq prinsipləri əsasında və Azərbaycan Respublikasının Vergi Məcəlləsinin, müvafiq beynəlxalq vergi qanunvericiliyinin, eləcə də OECD-nin (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) prinsipləri daxil olmaqla beynəlxalq səviyyədə tanınmış çərçivələrin tələblərinə uyğun şəkildə idarə etməyə sadiqdir. Bu öhdəlik Şirkətin Nizamnaməsinə və daxili çərçivə sənədlərinə riayət olunması ilə daha da möhkəmləndirilir, bütün fəaliyyət istiqamətləri üzrə ardıcıllığın və intizamın təmin edilməsinə xidmət edir. Eyni zamanda, SOCAR kommersiya baxımından həssas məlumatların məxfiliyini qorumaqla öz qanuni biznes maraqlarını təmin edir.

Şirkət fəaliyyət göstərdiyi bütün yurisdiksiyalarda vergi qanunvericiliyinə əməl edir və bütün vergi öhdəliklərinin tam, düzgün və vaxtında yerinə yetirilməsini təmin edir. SOCAR aqressiv vergi planlaşdırmasından, süni sxemlərdən və vergi sisteminin bütövlüyünə xələl gətirə biləcək digər zərərli vergi təcrübələrindən çəkinir. Bunun əvəzinə, Şirkət vergi ödənişlərinin hər bir yurisdiksiyada yaradılan iqtisadi dəyəri ədalətli şəkildə əks etdirməsini təmin etməyə çalışır və bununla da vergitutmanın real iqtisadi fəaliyyətə əsaslanmalı olması prinsipini dəstəkləyir.

Şirkət hərtərəfli və audit edilə bilən uçot sənədlərini saxlayır, vergi orqanlarına müntəzəm və düzgün hesabatlar təqdim edir. Tənzimləyici qurumlarla qarşılıqlı əlaqələr açıqlıq, qarşılıqlı etimad və konstruktiv dialoq prinsipləri əsasında qurulur ki, bu da vergi məsələlərinin vaxtında aydınlaşdırılmasına və uyğunluq risklərinin azaldılmasına imkan verir. SOCAR vergi ilə bağlı məsələlərin operativ və şəffaf şəkildə həllinə xüsusi əhəmiyyət verir və vergi qanunvericiliyinin şərhi ilə bağlı məsələlərin aidiyyəti dövlət orqanları ilə açıq müzakirəsini təmin edir.

SOCAR-ın Əməliyyat Modeli vergi funksiyası da daxil olmaqla Qrup üzrə biznes proseslərinin funksional idarə edilməsini nəzərdə tutur. SOCAR Baş Ofisinin təşkilati strukturunda Qrup üzrə vergi qanunvericiliyinin tətbiqi sahəsində ekspertiza mərkəzi kimi fəaliyyət göstərən Korporativ Vergilər Departamenti yer alır. Departamentin strukturuna vergi rejimləri və beynəlxalq vergitutma üzrə ixtisaslaşmış bölmələr daxildir. Bu mərkəzləşdirilmiş yanaşma Qrupun bütün hüquqi şəxsləri üzrə ardıcıllığın, nəzarətin və vergi siyasətlərinin effektiv tətbiqinin təmin edilməsinə imkan yaradır.

SOCAR strukturlaşdırılmış proseslər və rəqəmsal həllər vasitəsilə vergi idarəetmə sistemlərini davamlı olaraq təkmilləşdirir. Qrup üzrə vergi məlumatları Baş Ofisdə konsolidasiya olunur ki, bu da vergi öhdəliklərinin hərtərəfli illik təhlilinə və nəzarətinə imkan verir. Müntəzəm hesabatlar ali rəhbərliyə təqdim olunur və bununla məlumatlı qərar qəbuletmə və effektiv nəzarət təmin edilir.

Çoxmillətli müəssisə kimi üzərinə düşən öhdəliklərə uyğun olaraq SOCAR fəaliyyət göstərdiyi bütün ölkələrdə OECD-nin BEPS (Vergi Bazasının Aşınması və Mənfəətin Köçürülməsi) təşəbbüsü kimi beynəlxalq tələblərə uyğunluğu izləyir. Şirkət bu tələblərə əməl olunmasını təmin etmək üçün mərkəzləşdirilmiş sistemlər qurur və öz təcrübələrinin inkişaf edən qlobal standartlarla uyğunluğunu təmin edir.

Vergi prosesləri yenidən təşkilatlanma, investisiyalar və struktur dəyişiklikləri, o cümlədən birləşmə, satınalma və aktivlərin satışı kimi digər korporativ proseslərə də inteqrasiya olunur. Belə hallarda vergi məsələləri əməliyyatlardan əvvəl və sonra nəzərə alınır, bununla da uyğunluq təmin edilir, risklər azaldılır və Şirkətin ümumi strateji məqsədləri ilə uyğunluq qorunur.

Nəticə etibarilə, SOCAR məsuliyyətli vergitutmanı davamlı inkişafın və ictimai dəyər yaradılmasının əsas amillərindən biri hesab edir. Sabit, şəffaf və qanunvericiliyə uyğun vergi yanaşmasını qorumaqla Şirkət dövlət maliyyəsinin dayanıqlılığına töhfə verir və milli inkişaf prioritetlərini dəstəkləyir. Daxili siyasətlərin davamlı təkmilləşdirilməsi, beynəlxalq qabaqcıl təcrübələrlə uyğunlaşma və güclü etik əsaslar SOCAR-ın vergi strategiyasının gələcəyə yönəlmiş, məsuliyyətli və davamlı inkişaf öhdəliklərinə tam inteqrasiya olunmuş şəkildə qalmasını təmin edir.

Şəkil 12. SOCAR tərəfindən 2025-ci ildə fəaliyyət göstərdiyi ölkələr üzrə ödənilmiş mənfəət vergisi[1], milyon AZN

Azərbaycan	180
İsveçrə[2] 1 CHF = 2.05 AZN 2025-ci il üzrə orta məzənnə	69
Türkiyə 1 TRY = 0.04 AZN 2025-ci il üzrə orta məzənnə	16
Digər ölkələr[3] 1 USD = 1.70 AZN 2025-ci il üzrə orta məzənnə	9

1. Gürcüstanda ödənilmiş mənfəət vergisi sıfır olmuşdur, çünki bu ölkədə yalnız bölüşdürülmüş mənfəətə vergi tətbiq edilməsini nəzərdə tutan Estoniya modeli tətbiq olunur. 2025-ci ildə dividend elan edilmədiyindən və ödənilmədiyindən hesabat dövrü üzrə mənfəət vergisi öhdəliyi yaranmamışdır. Avstriyada pul vəsaiti əsasında ödənilmiş mənfəət vergisi də sıfır olmuşdur, çünki hesabat dövründə vergiyə cəlb olunan gəlir əldə edilməmişdir. Buna görə də mənfəət vergisi öhdəliyi yaranmamışdır.
2. İsveçrə üzrə vergi göstəricisinə SOCAR Trading SA və SOCAR Energy Switzerland şirkətlərinin İsveçrədə ödədiyi vergilər, eləcə də SOCAR Energy Ukraine şirkətinin vergi göstəricisi daxildir.
3. Digər ölkələr üzrə göstəriciyə SOCAR Trading tərəfindən Lüksemburq, Malta, Sinqapur, BƏƏ, Böyük Britaniya və ABŞ-da ödənilmiş vergilər daxildir.

RİSKLƏRİN İDARƏ OLUNMASI VƏ NƏZARƏT

SOCAR ISO 31000 və COSO prinsiplərinin inteqrasiya olunmuş tətbiqinə əsaslanan, fəaliyyət xüsusiyyətlərinə və biznes proseslərinə uyğunlaşdırılmış, müəssisə miqyaslı risklərin idarə edilməsi çərçivə sənədlərini formalaşdırmışdır. Bu çərçivə sənədləri risklərin idarə edilməsinə vahid, strukturlaşdırılmış və proaktiv yanaşmanı dəstəkləməklə yanaşı, SOCAR-ın strateji məqsədlərinə nail olunmasına və uzunmüddətli dayanıqlılığının təmin edilməsinə töhfə verir.
İdarəetmə səviyyəsində Müşahidə Şurası risklərin idarə edilməsi siyasətlərini təsdiq edir, İdarə Heyəti isə risklərin idarə edilməsini tənzimləyən prosedur və metodoloji sənədləri təsdiqləyir və onların Qrup üzrə tətbiqinə nəzarət edir. Risklərin İdarə Edilməsi Komitəsi İdarə Heyətinin nəzdində fəaliyyət göstərir və ona SOCAR Prezidenti sədrlik edir. Baş Ofisin Risklərin İdarə Edilməsi Departamenti (RİED) əsas risklər, risklərin azaldılması üzrə tədbirlər planları və onların icra vəziyyəti barədə mütəmadi olaraq RİK-ə hesabat təqdim edir. Yüksək səviyyəli risklər üzrə tədbirlər planlarının təsdiqi müvafiq seqment rəhbərinin səlahiyyətinə daxildir, kritik risklər üzrə tədbirlər planları ilə bağlı qərarlar isə RİK tərəfindən qəbul edilir.

ÇƏRÇİVƏ
ISO 31000
COSO çərçivəsi ilə inteqrasiya olunmuşdur

SƏVİYYƏLƏR
4
Nəzarət – Əməliyyatlar

RİSKLƏRİN İDARƏ EDİLMƏSİ KOMİTƏSİNİN SƏDRİ
SOCAR-ın Prezidenti

QƏRARVERMƏ SƏVİYYƏLƏRİ
2
Yüksək səviyyəli ▪ Kritik

SƏVİYYƏ 01 ▪ NƏZARƏT
Siyasətlərin təsdiqi və nəzarət təminatı

- **Müşahidə Şurası**
  Risklərin idarə edilməsi siyasətlərini təsdiq edir
- **Audit Komitəsi**
  Risk təminatı və daxili nəzarət sisteminə nəzarəti həyata keçirir

SƏVİYYƏ 02 ▪ İDARƏETMƏ
Prosedurlar və metodologiya

- **SOCAR-ın Prezidenti**
  Risklərin İdarə Edilməsi Komitəsinə sədrlik edir
- **İdarə Heyəti**
  Prosedurları təsdiq edir və Qrup üzrə icraya nəzarət edir
- **Risklərin İdarə Edilməsi Komitəsi (RİK)**
  Kritik risklərin azaldılması üzrə tədbirlər planlarını təsdiq edir

SƏVİYYƏ 03 ▪ KOORDİNASİYA
Seqment səviyyəsində icra

- **Seqment üzrə Vitse-Prezident**
  Yüksək səviyyəli risklərin azaldılması üzrə tədbirlər planlarını təsdiq edir
- **Baş Ofis RİED**
  Əsas risklər və tədbirlər planları barədə RİK-ə mütəmadi hesabat təqdim edir

SƏVİYYƏ 04 ▪ ƏMƏLİYYATLAR
Əməliyyat səviyyəsində məsuliyyət

MÜƏSSİSƏ A:
SOCAR strukturuna daxil olan qurumlar — Risk Meneceri — Ali Rəhbərlik

MÜƏSSİSƏ B:
SOCAR strukturuna daxil olan qurumlar — Risk Meneceri — Ali Rəhbərlik — Müşahidə Şurası

RİSK ÜZRƏ QƏRARVERMƏ SƏLAHİYYƏTİ

YÜKSƏK SƏVİYYƏLİ RİSKLƏR → Risklərin azaldılması üzrə tədbirlər planları müvafiq Seqment Rəhbəri (VP) tərəfindən təsdiq edilir

KRİTİK RİSKLƏR → Risklərin azaldılması üzrə tədbirlər planları Risklərin İdarə Edilməsi Komitəsi tərəfindən təsdiq edilir


→ RİED əsas risklər və görülən tədbirlərin icrası barədə hesabat təqdim edir

SOCAR risklərin idarə edilməsi çərçivəsi istiqamətində "Üç müdafiə xətti" modelini tətbiq edir. Birinci müdafiə xəttini Qrupun müəssisələri və struktur bölmələri üzrə əməliyyat funksiyaları, o cümlədən müvafiq seqment rəhbərləri və təyin edilmiş risk sahibləri təşkil edir. Risk sahibləri öz məsuliyyət sahələri üzrə risklərin müəyyən edilməsi, qiymətləndirilməsi, idarə olunması və monitorinqinə, effektiv daxili nəzarət mexanizmlərinin təmin edilməsinə, eləcə də razılaşdırılmış risklərin azaldılması tədbirləri planlarının icrasına cavabdehdirlər.

İkinci müdafiə xəttini Baş Ofisin Risklərin İdarə Edilməsi Departamenti, SOCAR Qrupunun müəssisələri üzrə təyin olunmuş risk funksiyaları və digər müvafiq nəzarət funksiyaları, o cümlədən Ətraf Mühit, Uyğunluq, İnformasiya Təhlükəsizliyi (İT) və Əməyin Mühafizəsi və Təhlükəsizlik funksiyaları təşkil edir. RİED Qrup üzrə risklərin idarə edilməsi fəaliyyətlərini əlaqələndirir, SOCAR risklərin idarə edilməsi çərçivəsi istiqamətində "Üç müdafiə xətti" modelini tətbiq edir. Törəmə müəssisələr üzrə təyin edilmiş risk funksiyaları funksional olaraq RİED-ə tabedir, digər ikinci müdafiə xətti funksiyaları isə öz məsuliyyət sahələri çərçivəsində fəaliyyət göstərirlər.

Bu funksiyalar çərçivəsində RİED müvafiq ikinci müdafiə xətti funksiyaları ilə birlikdə risk sahiblərinə effektiv daxili nəzarət mexanizmlərinin təmin edilməsində dəstək göstərir və risklərin növü və xarakterindən asılı olaraq onlarla birgə qiymətləndirmələr aparır. Bu inteqrasiya olunmuş ikinci müdafiə xətti strukturu SOCAR-ın potensial riskləri proqnozlaşdırmaq, idarə etmək və onlara operativ reaksiya vermək imkanlarını gücləndirir

Şəkil 13. Risklərin idarə edilməsi prosesində ikinci müdafiə xəttinə aid olan funksiyalar.



Üçüncü müdafiə xəttini Daxili Nəzarət Departamentinin tərkibində fəaliyyət göstərən audit funksiyası təşkil edir. Müstəqil nəzarət isə Müşahidə Şurasının nəzdində fəaliyyət göstərən Audit Komitəsi tərəfindən həyata keçirilir. Audit Komitəsi SOCAR-ın daxili nəzarət və risklərin idarə edilməsi sistemlərinin etibarlılığına və effektivliyinə nəzarət edir, korporativ idarəetmə çərçivə sənədlərinin və göstərişlərin icrasını izləyir, xarici və daxili auditin müstəqilliyinə nəzarəti həyata keçirir, həmçinin Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə riayət olunmasının təmin edilməsi prosesinə nəzarət edir.

Bu idarəetmə mexanizmləri birlikdə Qrup üzrə hesabatlılığın gücləndirilməsinə xidmət edir və risklərin idarə edilməsi proseslərinin, daxili nəzarət mexanizmlərinin, eləcə də risklərin azaldılması tədbirlərinin effektiv tətbiqinə etibarlı təminat yaradır.

RİSKLƏRİN İDARƏ EDİLMƏSİ ÜZRƏ ÇƏRÇİVƏ SƏNƏDLƏRİ VƏ METODOLOGİYA

SOCAR-ın risklərin idarə edilməsi üzrə çərçivə sənədləri risklərin müəyyən edilməsi, qiymətləndirilməsi, təhlili, monitorinqi, hesabatlılığı və nəzarəti daxil olmaqla risklərin idarə edilməsi prosesinin bütün mərhələlərini əhatə edir. Bu çərçivə sənədləri struktur bölmələr və Qrup şirkətləri üzrə risklərin idarə edilməsinə ardıcıl və sistemli yanaşmanın tətbiqini təmin etmək, həmçinin əməliyyat və strateji səviyyələrdə vaxtında qərar qəbulunu dəstəkləmək məqsədilə hazırlanmışdır.

İqtisadi, əməliyyat, ekoloji və sosial risklər müəssisə miqyasında hər il keçirilən risk qiymətləndirməsi prosesinin tərkib hissəsi kimi, zəruri hallarda isə ayrıca məqsədyönlü qiymətləndirmələr vasitəsilə təhlil edilir. Risklərin idarə olunması üzrə ümumi siyasət və prosedurlarla yanaşı, SOCAR ətraf mühit risklərinin idarə olunmasını tənzimləyən əlavə prosedurlar da tətbiq edir. Bu sənədlər rəhbərliyin və aidiyyəti struktur bölmələrin məsuliyyətlərini müəyyən edir və təşkilat üzrə risklərin idarə edilməsi təcrübələrinin davamlı şəkildə tətbiqini dəstəkləyir.

İkinci müdafiə xətti çərçivəsində Əməyin Mühafizəsi və Təhlükəsizlik, İnformasiya Texnologiyaları və Uyğunluq funksiyaları daxil olmaqla xüsusi istiqamətlər üzrə risklərin idarə olunması metodologiyaları hazırlanmışdır. İnformasiya Texnologiyaları və Əməyin Mühafizəsi və Təhlükəsizlik funksiyaları üzrə risk metodologiyaları hazırlanaraq təsdiqlənmiş, uyğunluq riskləri üzrə metodologiya isə hazırlanmış və hazırda təsdiqlənmə mərhələsindədir. Risklərin xarakterindən asılı olaraq, zəruri hallarda müvafiq ikinci müdafiə xətti funksiyaları ilə birgə qiymətləndirmələr də aparılır. Bu yanaşma Qrup üzrə risklərin idarə edilməsində daha inteqrasiya olunmuş və vahid sistemin formalaşdırılmasına imkan verir.

SOCAR həmçinin risklərin idarə edilməsi proseslərində mühüm rol oynayan strukturlaşdırılmış İnsidentlərin İdarə Edilməsi Sistemini formalaşdırmışdır. Bu mexanizm baş vermiş risklər barədə məlumatların vaxtında və dəqiq şəkildə toplanması, təhlil olunması və aidiyyəti maraqlı tərəflərə çatdırılması, eləcə də gələcəkdə oxşar hadisələrin qarşısının alınması məqsədilə yaradılmışdır. Baş vermiş risklər üzrə məlumatlar toplandıqca onlar gələcək risk təhlilləri və strateji planlaşdırma üçün dəyərli məlumat bazasına çevrilir. Hadisələrdən əldə olunan dərslər sistemli şəkildə risklərin idarə olunması təcrübələrinə inteqrasiya edilir ki, bu da əməliyyatların davamlı təkmilləşdirilməsinə və təşkilat daxilində ümumi təhlükəsizlik və idarəetmə mədəniyyətinin gücləndirilməsinə töhfə verir.

Hesabat dövründə SOCAR risklərin idarə olunması metodologiyasını nəzərdən keçirmiş və təkmilləşdirmişdir. Paralel olaraq Risklərin İdarə Edilməsi Siyasəti yenilənmiş və təsdiq olunması üçün Müşahidə Şurasına təqdim edilmişdir. SOCAR eyni zamanda struktur bölmələr və törəmə müəssisələr üzrə prosesin əhatə dairəsini genişləndirməklə və vahid metodologiyanın tətbiqini dəstəkləyən sistemli tədbirlər həyata keçirməklə Qrup üzrə risklərin idarə edilməsi sisteminin gücləndirilməsini davam etdirmişdir.

Rəqəmsallaşma gündəliyinin tərkib hissəsi kimi SOCAR risklərin idarə olunması prosesinin bütün mərhələlərini vahid proqram təminatı çərçivəsində əhatə edən xüsusi platformanın tətbiqi istiqamətində

ilkin addımlar atmışdır. Bu platformanın Qrup üzrə risklərin müəyyən edilməsi, qiymətləndirilməsi, monitorinqi və hesabatlılığı sahəsində ardıcıllığı, şəffaflığı və səmərəliliyi artıracağı gözlənilir.

RİSKLƏRİN MÜƏYYƏN EDİLMƏSİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Risklər SOCAR-ın bütün Qrup üzrə biznes fəaliyyətlərini və proseslərini əhatə edən müəssisə miqyaslı risklərin idarə edilməsi prosesi vasitəsilə müəyyən edilir və qiymətləndirilir. Bu proses tarixi risk hadisələri, audit nəticələri, biznes planları, tənzimləyici orqanların tövsiyələri, eləcə də öz fəaliyyət sahələrində və digər şirkətlərdə müşahidə olunan inkişaf meyilləri daxil olmaqla, həm daxili, həm də xarici məlumat mənbələrinə əsaslanır. Strukturlaşdırılmış ehtimal və təsir metodologiyasından istifadə etməklə SOCAR hər bir risk üzrə onun ehtimalını, nəticələrini, kök səbəblərini, qarşılıqlı təsirlərini və risklərin azaldılması tədbirlərini qiymətləndirir, eyni zamanda risk sahibini müəyyən edir və ilkin, eləcə də qalıq risk səviyyələrini nəzərə alır.

Risklərin qiymətləndirilməsi prosesinin nəticəsində SOCAR orta və uzunmüddətli perspektivdə biznes fəaliyyətinə əhəmiyyətli təsir göstərə biləcək bir sıra riskləri müəyyən etmişdir. Bunlara qlobal enerji keçidinin sürətlənməsi, aşağı karbonlu iqtisadiyyatla bağlı daha sərt tənzimləyici tələblər, ixrac, təchizat və tərəfdaşlıq mühitinə təsir göstərən geosiyasi gərginliklər, kritik avadanlıqlar və texnologiyalar üzrə qlobal təchizat zəncirlərində struktur qeyri-müəyyənliklər, eləcə də rəqəmsallaşma, avtomatlaşdırma və süni intellektlə əlaqədar texnologiyaya uyğunlaşma ehtiyaclarının artması ilə bağlı risklər daxildir. Ekstremal hava hadisələri və su ehtiyatları üzərində artan təzyiq kimi iqlimlə əlaqəli fiziki risklər də əməliyyatların və infrastrukturun dayanıqlılığına potensial təsirləri səbəbindən əhəmiyyətli risklər kimi müəyyən edilmişdir. Bundan əlavə, quyulardan gözləniləndən aşağı hasilatın əldə olunması, təmir, tikinti və yenidənqurma layihələrində gecikmələr, emal müəssisələrində qəzalar və planlaşdırılmamış dayanmalar kimi mühüm əməliyyat riskləri də müəyyən edilmişdir. Bu risklər həm ehtimal, həm də təsir baxımından qiymətləndirilmiş və onların başvermə ehtimalını və ya potensial nəticələrini azaltmaq məqsədilə müvafiq tədbirlər planları hazırlanmışdır.

Risklərin qiymətləndirilməsi strukturlaşdırılmış 6×6 risk matrisi əsasında həyata keçirilir. Bu metodologiya çərçivəsində hər bir risk ehtimal və təsir göstəriciləri üzrə 1-dən 6-dək olan şkala əsasında qiymətləndirilir; burada 1 ən aşağı, 6 isə ən yüksək göstəricini ifadə edir. Qiymətləndirmə zamanı riskin əsas səbəbləri və mümkün nəticələri də nəzərə alınır. Risklərin qiymətləndirilməsi iki mərhələdə aparılır və həm ilkin, həm də qalıq risk səviyyələrini əhatə edir. Hər iki göstərici Risk = Ehtimal göstəricisi × Təsir göstəricisi düsturu əsasında hesablanır.

Əldə olunan nəticələrə əsasən risklər səviyyələr üzrə təsnif edilir və müvafiq eskalasiya hədləri müəyyən olunur. Aşağı səviyyəli risklər üzrə eskalasiya tələb olunmur və mövcud nəzarət mexanizmlərinin saxlanılması ilə idarə edilir. Orta səviyyəli risklər daha ətraflı təhlil və əlavə tədbirlərin nəzərdən keçirilməsini tələb edir və müəssisə rəhbərliyi səviyyəsinə eskalasiya olunur. Yüksək səviyyəli risklər üzrə təkmilləşdirmə tədbirlərinin hazırlanması tələb olunur və onlar daha yüksək rəhbərlik səviyyələrinə təqdim edilir. Kritik risklər isə dərhal tədbir görülməsini tələb edir və Risklərin İdarə Edilməsi Komitəsinə eskalasiya olunur. Bu metodologiya SOCAR üzrə risklərin qiymətləndirilməsinə ardıcıl, şəffaf və eskalasiya əsaslı yanaşmanın təmin edilməsinə xidmət edir.

YENİ YARANAN RİSKLƏR

EKSTREMAL HAVA HADİSƏLƏRİ VƏ İQLİM DƏYİŞİKLİYİ RİSKİ

Ekstremal hava hadisələrinin tezliyinin və intensivliyinin artması dənizdə və quruda həyata keçirilən əməliyyatların pozulmasına səbəb olaraq istehsalın fasiləsizliyinə və infrastrukturun etibarlılığına mənfi təsir göstərə bilər. İqlim dəyişikliyi ilə bağlı daha geniş dəyişikliklərlə yanaşı, 2025-ci ildə Türkmənistanın Qaraqum səhrasından qaynaqlanan təkrarlanan toz fırtınaları Xəzər dənizini keçərək Abşeron yarımadasına və hətta Mahaçqalaya qədər yayılmışdır. Ən intensiv aktivlik avqust-oktyabr aylarında müşahidə edilmişdir ki, bu da daha yaxından monitorinq tələb edən təkrarlanan mövsümi tendensiyanın mövcudluğunu göstərir. Bu hadisələr yalnız ayrı-ayrı hava şəraiti pozuntuları deyil, həm də havanın keyfiyyətini pisləşdirə, sağlamlıq və əməyin təhlükəsizliyi bağlı narahatlıqlar yarada, görünüş məsafəsini azalda, logistika və sahə əməliyyatlarını poza, eyni zamanda regional iqlim şəraitinə təsir göstərə bilər. Dəyişən iqlim şəraiti ilə birlikdə bu amillər ətraf mühit şəraiti ilə bağlı uzunmüddətli qeyri-müəyyənlik yaradır, aktivlərin layihələndirilməsinə, texniki xidmətinə və investisiya planlaşdırılmasına təsir göstərir.. Bu dəyişikliklər dayanıqlılığın qorunması məqsədilə əməliyyat modellərində və infrastruktur standartlarında müəyyən düzəlişlər tələb edə bilər. Bu risk dəyişən iqlim və ekoloji dinamika ilə əlaqədar olduğundan ekoloji risk kimi təsnif edilmişdir. Qiymətləndirmənin nəticələrinə əsasən riskə 3 ehtimal və 6 təsir balı verilmiş, ümumi risk göstəricisi 18 olmuş və kritik risk kimi qiymətləndirilmişdir.

RİSKLƏRİN AZALDILMASI TƏDBİRLƏRİ

SOCAR ekstremal hava hadisələri və iqlimlə əlaqəli risklər nəticəsində yaranan fasilələrə operativ cavab verilməsi və bərpa proseslərinin təmin olunması məqsədilə hərtərəfli Biznesin Davamlılığının İdarə Edilməsi çərçivə sənədlərini formalaşdırmağı hədəfləyir. Bu çərçivəyə xüsusi böhran idarəetmə qruplarının yaradılması, aydın eskalasiya prosedurlarının müəyyən edilməsi və əlverişsiz şəraitdə kritik əməliyyatların davamlılığının təmin olunması daxildir. Paralel olaraq, dayanıqlılığı artırmaq məqsədilə iqlim amilləri infrastrukturun layihələndirilməsi, monitorinq sistemləri və uzunmüddətli investisiya planlaşdırılmasına inteqrasiya ediləcək.

TEXNOLOGİYADAN QAYNAQLANAN İNFRASTRUKTUR RİSKİ

Qabaqcıl texnologiyaların, xüsusilə süni intellekt və yüksək səviyyədə inteqrasiya olunmuş idarəetmə sistemlərinin tətbiqinin genişlənməsi SOCAR-ın fiziki infrastrukturunda sıx əlaqələndirilmiş və mürəkkəb əməliyyat mühitinin formalaşmasına səbəb olur. Bu texnoloji inteqrasiya sistemlər arasında əhəmiyyətli qarşılıqlı asılılıqlar yaradır və rəqəmsal

komponentlərdə baş verən nasazlıqlar, pozuntular və ya məhdudiyyətlər fiziki əməliyyatlara birbaşa təsir göstərə bilər. Avtomatlaşdırma və real vaxt rejimində məlumatlara əsaslanan qərar qəbuletmə prosesləri genişləndikcə sistemlərin mürəkkəbliyi və şəffaflığın azalması insan nəzarəti və operativ reaksiya imkanlarını məhdudlaşdıra bilər. Nəticədə bu hallar zəncirvari əməliyyat nasazlıqlarına səbəb ola və kritik infrastrukturun təhlükəsiz, sabit və etibarlı şəkildə idarə olunmasını çətinləşdirə bilər. Risk əsasən texnoloji transformasiya və rəqəmsal sistemlərdən qarşılıqlı asılılıqların artması ilə əlaqədar olduğundan texnoloji risk kimi qiymətləndirilmişdir. Qiymətləndirmənin nəticələrinə əsasən riskə 3 ehtimal və 6 təsir balı verilmiş, ümumi risk göstəricisi 18 olmuş və kritik risk kimi təsnif edilmişdir.

Risklərin azaldılması tədbirləri

SOCAR rəqəmsal sistemlər və fiziki əməliyyatlara təsir göstərən hadisələr nəticəsində yaranan pozuntuların idarə olunmasını təmin etmək məqsədilə Biznesin Davamlılığının İdarə Edilməsi çərçivə sənədlərini genişləndirməyi planlaşdırır.

Dayanıqlılıq etibarlı sistem layihələndirilməsi, fəaliyyətin davamlı monitorinqi, kritik infrastrukturda təhlükəsizlik mexanizmlərinin və əl ilə idarəetmə imkanlarının tətbiqi vasitəsilə gücləndiriləcəkdir. Bundan əlavə, yüksək səviyyədə inteqrasiya olunmuş və texnologiyadan asılı əməliyyat mühitlərində mürəkkəb zəncirvari nasazlıqlara hazırlığın artırılması məqsədilə ssenari əsaslı təlimlər və stress-testlər keçiriləcəkdir.

ŞİRKƏTƏ MƏXSUS RİSKLƏR

Kritik infrastrukturun köhnəlməsi riski

Aktivlərin istismar müddəti artdıqca köhnə sistemlərlə müasir texnologiyaların (məsələn, rəqəmsal monitorinq və avtomatlaşdırma sistemlərinin) qarşılıqlı əlaqəsi yeni və daha az proqnozlaşdırılan nasazlıq növlərinin yaranmasına səbəb olur. Bu, SOCAR-ın əməliyyatlarında ayrı-ayrı hadisələrdən daha çox sistem xarakterli pozuntuların başvermə ehtimalını artıraraq əməliyyat dayanıqlılığının azalmasına gətirib çıxara bilər. Gözlənilməz nasazlıq halları sağlamlıq, əməyin mühafizəsi və ətraf mühit sahəsində ciddi nəticələrə, o cümlədən sızmalara və ya konstruksiyaların dağılmasına səbəb ola bilər ki, bu da əhəmiyyətli tənzimləyici cərimələr və reputasiya itkiləri ilə nəticələnə bilər. Köhnəlmiş aktivlərin saxlanılması ilə gələcəyə yönəlmiş enerji keçidi təşəbbüslərinin maliyyələşdirilməsi arasında investisiya prioritetlərinin müəyyənləşdirilməsi çətinliyi səbəbindən risk daha da artır. Qiymətləndirmənin nəticələrinə əsasən bu risk strateji risk kimi təsnif edilmiş, ona 6 təsir və 5 ehtimal balı verilmiş, ümumi risk göstəricisi 30 olmuş və kritik risk kimi qiymətləndirilmişdir.

Risklərin azaldılması tədbirləri:

Köhnəlmiş infrastruktur korroziyaya uğramış çən elementlərinin məqsədyönlü təmiri, dib çöküntülərinin təmizlənməsi, yeni çənlərin tikintisi və hidrotexniki qurğuların kompleks bərpası vasitəsilə yenilənəcəkdir. İstismar müddətini başa vurmuş aktivlərin müəyyən edilməsi üçün hərtərəfli diaqnostika aparılacaq, bundan sonra köhnəlmiş və nasaz boru xətləri və avadanlıqlar dəyişdiriləcək və ya modernləşdiriləcəkdir. Zədələnmiş elementlərin bərpası, şaquli dayaq borularının dəyişdirilməsi və gücləndirilmiş korroziyadan mühafizə tədbirlərinin tətbiqi ilə konstruktiv bütövlük möhkəmləndiriləcəkdir. Bundan əlavə, korroziyadan mühafizə qruplarının potensialının və resurslarının artırılması davamlı texniki xidmət işlərinin həyata keçirilməsinə və aktivlərin istismar müddətinin uzadılmasına dəstək verəcəkdir.

Dəniz səviyyəsinin enməsi

Xəzər dənizinin səviyyəsinin davamlı azalması SOCAR üçün dənizdə əlçatanlığa və kritik infrastrukturun bütövlüyünə təsir göstərən sistem xarakterli strateji risk hesab olunur. Suyun səviyyəsinin azalması dəniz nəqliyyatını məhdudlaşdırır, bununla da yük daşımaları, avadanlıqların çatdırılması və işçi heyətin daşınması kimi vacib loqistika əməliyyatlarını çətinləşdirir, eyni zamanda əlaqədar xərcləri və əməliyyat risklərini artırır. Bundan əlavə, suyun dərinliyinin azalması mövcud dəniz platformalarının və estakadaların konstruktiv dayanıqlılığına və əməliyyat səmərəliliyinə mənfi təsir göstərir, həmçinin dənizaltı boru kəmərlərinin dəniz dibinin eroziyası və qoruyucu təbəqələrin aşınması nəticəsində daha həssas vəziyyətə düşməsinə səbəb olur. Bu dəyişən ekoloji şərait yeni yataqların işlənməsi və uzunmüddətli kapital planlaşdırılması ilə bağlı əhəmiyyətli qeyri-müəyyənlik yaradır. Bu məhdudiyyətlərin idarə edilməsi əlavə əməliyyat xərcləri tələb edəcəkdir ki, bunlara davamlı dibdərinləşdirmə işləri, daha tez-tez batimetrik ölçmələr və suyun dayazlaşmasına uyğunlaşdırılması üçün ticarət donanmasına edilən dəyişikliklər daxildir. Qiymətləndirmənin nəticələrinə əsasən bu risk strateji risk kimi təsnif edilmiş, ona 6 təsir və 4 ehtimal balı verilmiş, ümumi risk göstəricisi 24 olmuş və kritik risk kimi qiymətləndirilmişdir.

Risklərin azaldılması tədbirləri:

Dəyişən şəraitdə gəmiçiliyin təmin olunması məqsədilə limanlarda, kanallarda və əsas gəmiçilik marşrutlarında dibdərinləşdirmə işləri həyata keçirilməlidir. Platformalar və estakadalar üzrə infrastruktur uyğunlaşdırılmalı, o cümlədən giriş nöqtələri uzadılmalı və konstruktiv elementlər təkmilləşdirilməlidir. Dənizaltı boru kəmərlərinin mühafizəsi gücləndirilmiş korroziyadan mühafizə tədbirləri və təkmilləşdirilmiş fiziki qoruma mexanizmləri vasitəsilə təmin edilməlidir. Bundan əlavə, yaranan təhdidlərin qabaqlayıcı şəkildə idarə olunmasına imkan vermək üçün risk əsaslı planlaşdırma ilə dəstəklənən kompleks monitorinq sistemi tətbiq edilməlidir.

Emal müəssisələrində qəzalar və planlaşdırılmamış dayanmalar

Yanğınlar, avadanlıq nasazlıqları və mexaniki sıradan çıxmalar daxil olmaqla emal müəssisələrində baş verən qəzalar və planlaşdırılmamış dayanmalar istehsalın qismən və ya tam dayandırılmasına səbəb ola bilər ki, bu da əhəmiyyətli əməliyyat, maliyyə və reputasiya nəticələri yaradır. Fəaliyyətinin miqyası və mürəkkəbliyi nəzərə alınaraq, SOCAR 2025-ci ildə bu hadisələrin başvermə ehtimalını “demək olar ki, qaçılmaz” kimi qiymətləndirmişdir ki, bu da emal mühitində mövcud olan yüksək risk səviyyəsini əks etdirir. Potensial nəticələr insan həyatı və sağlamlığı üçün riskləri, ətraf mühitə vurulan zərəri, uzunmüddətli əməliyyat fasilələrini və əhəmiyyətli maliyyə itkilərini əhatə edir. Qiymətləndirmənin nəticələrinə əsasən bu risk əməliyyat riski kimi təsnif edilmiş, ona 6 təsir və 6 ehtimal balı verilmiş, ümumi risk göstəricisi 36 olmuş və kritik risk kimi qiymətləndirilmişdir.

Risklərin azaldılması tədbirləri:

Bu çağırışların aradan qaldırılması məqsədilə SOCAR texnoloji avadanlıqların planlaşdırılmış əsaslı təmirlərini və istehsalat sahələrində müəyyən edilən texniki problemlərin vaxtında aradan qaldırılmasını əhatə edən ciddi preventiv texniki xidmət sistemi tətbiq edir. Bu proaktiv texniki xidmət strategiyası avadanlıq nasazlıqlarının başvermə ehtimalını minimuma endirməyə və əməliyyatların fasiləsizliyini artırmağa yönəlmişdir. Bundan əlavə, SOCAR proses təhlükəsizliyi standartlarının pozulmasına və ya insan sağlamlığını təhlükə altına alan, əməliyyatları pozan və ya ətraf mühitə zərər vuran hər hansı fəaliyyətə qarşı sıfır risk tolerantlığı tətbiq edir. Bu intizamlı yanaşma qəzalar və planlaşdırılmamış dayanmalarla bağlı risklərin ən yüksək səviyyədə nəzarət, sayıqlıq və hesabatlılıq çərçivəsində idarə olunmasını təmin edir.

Qazma prosesində mürəkkəbləşmələr və qəzalar

Qazma əməliyyatları quyuya nəzarət problemləri və avadanlıq nasazlıqları kimi spesifik əməliyyat riskləri ilə müşayiət olunur ki, bu da qəzalara və əhəmiyyətli əməliyyat gecikmələrinə səbəb ola bilər. 2025-ci ildə belə hadisələrin başvermə ehtimalı çox yüksək qiymətləndirilmişdir ki, bu da qazma fəaliyyətinin təbiət etibarilə yüksək riskli olmasını əks etdirir. Potensial təsirlər işçi heyətin təhlükəsizliyi üçün təhdidləri, ətraf mühitin çirklənməsini, aktivlərin zədələnməsini və ya itirilməsini, eləcə də əhəmiyyətli maliyyə nəticələrini əhatə edir. Qiymətləndirmənin nəticələrinə əsasən bu risk əməliyyat riski kimi təsnif edilmiş, ona 5 təsir və 5 ehtimal balı verilmiş, ümumi risk göstəricisi 25 olmuş və kritik risk kimi qiymətləndirilmişdir.

Risklərin azaldılması tədbirləri:

Bu risklərin azaldılması məqsədilə kompleks əməliyyat nəzarəti tədbirləri tətbiq edir. Bu tədbirlərə zərurət yarandıqda quyu lüləsinin genişləndirilməsi işlərinin aparılması, qazma məhlulunun parametrlərinin davamlı monitorinqi, lay xüsusiyyətlərinə uyğun olaraq qazma məhlulunun sıxlığının optimallaşdırılması və təsdiq edilmiş sementləmə proqramlarına ciddi riayət olunması daxildir. Bundan əlavə, Şirkət sementləmə əməliyyatları zamanı dövriyyə təzyiqinə ciddi nəzarət edir, uyğun məhlul sıxlığı və kimyəvi əlavələr vasitəsilə quyunun dayanıqlığını təmin edir, həmçinin geoloji fərqlərdən irəli gələn diferensial təzyiq təsirlərini minimuma endirir. SOCAR qazma əməliyyatlarında proses təhlükəsizliyi və əməyin mühafizəsi tələblərinə hər hansı uyğunsuzluğa qarşı sıfır risk tolerantlığı tətbiq edir. İşçi heyətin qorunması və ətraf mühitin mühafizəsi məqsədilə milli qanunvericiliyin, beynəlxalq qabaqcıl təcrübələrin və daxili təhlükəsizlik standartlarının tələblərinə tam riayət olunması tələb edilir..

Risk mədəniyyəti və potensialın gücləndirilməsi

2025-ci ildə SOCAR beynəlxalq səviyyədə tanınmış ISO 31000 Risklərin İdarə Edilməsi Standartına uyğun rəsmi təlim proqramları təşkil etməklə risk mədəniyyətinin gücləndirilməsi istiqamətində mühüm addım atmışdır. Bu proqramlar yalnız risklərin idarə edilməsinin əsas prinsiplərinin izah edilməsinə deyil, həm də onların iştirakçılar tərəfindən praktiki şəkildə başa düşülməsi və tətbiq edilməsinə dəstək vermək məqsədi daşıyırdı. Təlimlərdən sonra iştirakçıların bilik səviyyəsini və bu prinsipləri öz vəzifələri çərçivəsində effektiv tətbiq etmək bacarıqlarını qiymətləndirmək məqsədilə imtahan keçirilmişdir.

Müəssisə miqyasında risklərə həssas mühitin formalaşdırılmasında rəhbərliyin mühüm rolunu nəzərə alaraq, SOCAR vitse-prezidentlər, müəssisə rəhbərləri və departament rəhbərləri də daxil olmaqla üst rəhbərlik üçün xüsusi təlim proqramı hazırlamış və həyata keçirmişdir. Bu rəhbər heyət üçün nəzərdə tutulmuş təlimlər risklərin idarə edilməsinin həm strateji, həm də əməliyyat qərar qəbuletmə proseslərinə inteqrasiyasının əhəmiyyətini vurğulamışdır. Bundan əlavə, SOCAR Korporativ Strategiya çərçivəsində strateji çağırışların rüblük qiymətləndirilməsini həyata keçirir. Bu proses risk meyarlarının yeni məhsul və xidmətlərin hazırlanmasına inteqrasiyasını dəstəkləyir və yeni layihələrin qərar qəbuletmə prosesinin tərkib hissəsi kimi müvafiq risk amilləri baxımından qiymətləndirilməsini təmin edir.

Risk əsaslı qərar qəbuletməni dəstəkləmək məqsədilə SOCAR maliyyə risklərinin idarə edilməsi çərçivəsində stress-test və həssaslıq təhlillərini tətbiq edir. Bu təhlillər valyuta məzənnəsi riski, əmtəə qiyməti riski və faiz dərəcəsi riski daxil olmaqla bazar risklərinin Qrupun maliyyə nəticələrinə potensial təsirini qiymətləndirir ki, bu da risklərin qabaqlayıcı şəkildə azaldılmasına və maliyyə dayanıqlılığının gücləndirilməsinə imkan yaradır.

SOCAR risklərin idarə edilməsini maliyyə stimullaşdırma sisteminə inteqrasiya edir. 2025-ci ildən etibarən SOCAR orta və yüksək səviyyəli rəhbər heyət üçün səriştə modelinin tətbiqinə başlamışdır. Risklərin idarə edilməsi həmin əsas səriştələrdən biridir və bu əməkdaşların illik fəaliyyət qiymətləndirilməsi çərçivəsində dəyərləndirilir. Rəhbər heyətin səriştələrinin qiymətləndirilməsi ilə yanaşı, müxtəlif fərdi risk əsaslı göstəricilər də bütün əməkdaşların illik əsas fəaliyyət göstəricilərinə inteqrasiya edilmişdir.

Bu təşəbbüslər vasitəsilə SOCAR təşkilat üzrə güclü və proaktiv risk mədəniyyətinin formalaşdırılmasını, risklər barədə məlumatlılığın yalnız uyğunluq tələbləri ilə məhdudlaşmayaraq gündəlik biznes proseslərinin ayrılmaz hissəsinə çevrilməsini hədəfləyir. Şirkət hesab edir ki, ön xətt əməkdaşlarından ali rəhbərliyə qədər bütün səviyyələrdə məlumatlı və fəal əməkdaşların mövcudluğu yeni yaranan risklərin erkən müəyyən edilməsində, onların effektiv idarə olunmasında və dayanıqlı inkişafın dəstəklənməsində həlledici rol oynayır.

MONİTORİNQ VƏ DAVAMLI TƏKMİLLƏŞDİRMƏ

SOCAR ümumi risk profilinin illik nəzərdən keçirilməsini həyata keçirir və zərurət yarandıqda

risklərin idarə olunmasına yanaşmasını yeniləyir. Bundan əlavə, Şirkət qəzalar, dayanmalar və qazma əməliyyatları ilə bağlı mürəkkəbləşmələr də daxil olmaqla əməliyyat risklərinin idarə olunması üzrə tədbirlərin effektivliyini qiymətləndirmək məqsədilə risklərin azaldılması tədbirlərinin icrasını rüblük əsasda monitorinq edir. Bu davamlı monitorinq prosesi yeni yaranan risklərin vaxtında müəyyən edilməsini və risk nəzarəti mexanizmlərinin davamlı şəkildə təkmilləşdirilməsini dəstəkləyir.

Davamlı təkmilləşdirmə öhdəliyinin bir hissəsi olaraq SOCAR akkreditasiya olunmuş müstəqil təşkilatlar tərəfindən həyata keçirilən müntəzəm xarici auditlərdən də keçir. Bu auditlər ISO sertifikatları, qanunvericiliyin tələblərinə uyğunluq, əməliyyat dayanıqlığı və maliyyə hesabatlılığı daxil olmaqla geniş sahələri əhatə edir. Bu proses çərçivəsində təqdim olunan müstəqil əminlik SOCAR-ın əməliyyat dayanıqlılığının və ümumi risklərin idarə edilməsi çərçivə sənədlərinin daha da gücləndirilməsini dəstəkləyir.

GƏLƏCƏK İNKİŞAF ÜZRƏ PRİORİTETLƏR

SOCAR risklərin idarə edilməsi prosesinin təkmilləşdirilməsi üçün bir sıra prioritet istiqamətlər müəyyən etmişdir. Əsas diqqət yetirilən sahələrdən biri risklərin idarə edilməsi prosesinin bütün mərhələlərini əhatə edən vahid proqram təminatının tam şəkildə tətbiqidir. Üç müdafiə xətti modelinə uyğun olaraq, SOCAR ikinci müdafiə xətti funksiyaları üzrə vahid metodoloji çərçivəyə əsaslanan risklərin idarə edilməsi siyasət və prosedurlarını daha da inkişaf etdirməyi və tətbiq etməyi planlaşdırır.


Paralel olaraq, SOCAR xarici tərəflərlə münasibətlərdən irəli gələn risklərin daha sistemli şəkildə idarə olunmasını təmin etmək məqsədilə üçüncü tərəf risklərinin idarə edilməsi üzrə çərçivə sənədləri və prosedurlar formalaşdırmağı nəzərdə tutur. Digər prioritet istiqamət struktur bölmələr və müəssisələr üzrə risklər barədə məlumatlılığın daha da artırılması və əməkdaşlar üçün rəqəmsal təlim proqramlarının tətbiqi vasitəsilə daha yetkin risk mədəniyyətinin təşviq edilməsidir.

Digər mühüm təşəbbüslərdən biri risklərin idarə edilməsi üzrə ümumi çərçivənin xarici və müstəqil keyfiyyət qiymətləndirilməsinin həyata keçirilməsidir. SOCAR 2022-ci ildə risklərin idarə edilməsi çərçivə sənədlərinin yetkinlik səviyyəsini qiymətləndirmək məqsədilə diaqnostika və müqayisəli təhlil aparmışdır. Bunun nəticəsində yol xəritəsi hazırlanmış və sonrakı illər ərzində mərhələli şəkildə həyata keçirilmişdir. Növbəti xarici keyfiyyət qiymətləndirilməsinin məqsədi icra edilmiş layihələrin keyfiyyətini və çərçivə sənədlərinin yetkinlik səviyyəsində baş vermiş dəyişiklikləri qiymətləndirməkdir.

İQLİM RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

ABŞERON YARIMADASI VƏ XƏZƏR DƏNİZİ ÜZRƏ FİZİKİ İQLİM RİSKLƏRİNİN XƏRİTƏSİ

- SOCAR tərəfindən istismar olunan aktivlər
- Neft hasilatı aktivləri
- Neft terminalı
- Neftsaxlama obyektləri
- Neft təhvilvermə sahəsi
- Neft aşırma sahəsi
- Emal və neftayırma



MÜƏYYƏN EDİLMİŞ FİZİKİ İQLİM RİSKLƏRİ

SOCAR-ın əməliyyatları üzrə beş prioritet fiziki iqlim təhlükəsi

"Upstream" istiqaməti əməliyyatlarının cəmləşməsi – xam neft hasilatının təxminən 95%-i dəniz aktivlərinin payına düşür – TCFD-yə uyğun

01 DAŞQINLAR — KƏSKİN

"Midstream" istiqamətinin aktivləri orta səviyyəli daşqın riski ilə üzləşir və bu baxımdan relyefi qeyri-bərabər olan ərazilərdə yerləşən yerüstü boru kəmərləri daha həssas hesab olunur.

02 DƏNİZ SƏVİYYƏSİNİN AZALMASI — XRONİKİ

Əsrin sonunadək Xəzər dənizinin səviyyəsinin 8–14 m azalması proqnozlaşdırılır ki, bu da korroziya, texniki xidmət və platformalara çıxış imkanlarına təsir göstərir.

03 EKSTREMAL İSTİLƏR — XRONİKİ

Temperatur dəyişkənliyinin artması neft emalının səmərəliliyinə, avadanlıqların soyudulmasına və işçilərin təhlükəsizliyinə təsir göstərir.

04 SU QITLIĞI — XRONİKİ

Quraqlıq sudan asılı neft emalı proseslərinə təsir göstərərək proses sabitliyi və əməliyyat səmərəliliyi üçün risk yaradır.

05 GÜCLÜ KÜLƏKLƏR VƏ FIRTINALAR — KƏSKİN

Dənizdə proqnozlaşdırılan ~230 km/saat külək sürətləri konstruktiv zədələnmə və əməliyyatların pozulması riskini artırır.

ÇƏRÇİVƏ	SENARİLƏR	ZAMAN ÜFÜQLƏRİ
TCFD-YƏ UYĞUN	**3 SSP**	**2030 - 2050**
Qrup üzrə iqlim proqramı	1-2.6 · 2-4.5 · 5-8.5	Orta və uzunmüddətli

İQLİM RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ VƏ FİZİKİ RİSKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

SOCAR-ın iqlim risklərinin idarə olunmasına yanaşması uzunmüddətli əməliyyat dayanıqlılığı üçün həm keçid, həm də fiziki iqlim risklərinin artan əhəmiyyətini əks etdirir. İqlimlə bağlı risklərin strukturlaşdırılmış şəkildə müəyyən edilməsi və qiymətləndirilməsini təmin etmək məqsədilə beynəlxalq səviyyədə tanınmış çərçivə sənədlərinə, o cümlədən İqlimlə bağlı Maliyyə Açıqlamaları üzrə İşçi Qrupunun (TCFD) tövsiyələrinə uyğunlaşdırılmış və xarici dəstək əsasında Qrup səviyyəsində iqlim riskləri proqramı hazırlanmışdır. Proqram mövcud və yaranan tənzimləyici tələblər, bazar riskləri və həm kəskin, həm də xroniki xarakter daşıyan fiziki iqlim riskləri daxil olmaqla geniş risk faktorlarını əhatə edir. Bu risklər daxili qiymətləndirmələr və müqayisəli təhlillər əsasında analiz edilir və mərhələli şəkildə strateji planlaşdırma və qərar qəbuletmə proseslərinə inteqrasiya olunur.

SOCAR-ın aktivlərinin yüksək kapital tutumlu və coğrafi baxımdan sabit xarakter daşımasını nəzərə alaraq, fiziki iqlim riskləri əməliyyat dayanıqlılığı və aktivlərin bütövlüyü üçün əsas risk amillərindən biri hesab olunur. Mövcud risk çərçivə sənədlərinə uyğun olaraq, fiziki risklər təhlükə, məruz qalma və həssaslıq amillərinin qarşılıqlı təsiri nəticəsində yaranır və daşqınlar və fırtınalar kimi kəskin hadisələr və ya temperatur artımı, quraqlıq və dəniz səviyyəsində dəyişikliklər kimi xroniki proseslər vasitəsilə özünü göstərə bilər. Hasilatın məhdud sayda aktivlərdə cəmləşməsi bu risklərə məruz qalmanı daha da artırır və iqlimlə bağlı pozuntulara, eləcə də uzunmüddətli ekoloji dəyişikliklərə həssaslığı artırır.

FİZİKİ İQLİM RİSKLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ METODOLOGİYASI

SOCAR əməliyyat nəzarətində olan "upstream", "midstream" və "downstream" istiqamətləri üzrə fəaliyyətlərini əhatə edən ilk strukturlaşdırılmış fiziki iqlim riskləri qiymətləndirilməsini həyata keçirmişdir. Qiymətləndirmə aktivlər üzrə əməliyyat məlumatlarını xarici iqlim məlumat bazaları ilə birləşdirərək iqlim təhlükələrinin təsirini qiymətləndirməyə və nəticələrin daxili risklərin idarə olunması proseslərinə inteqrasiyasını dəstəkləməyə xidmət edir. Qiymətləndirmənin əsas elementlərindən biri IPCC-nin Paylaşılan Sosial-İqtisadi Ssenarilərinə (SSP1-2.6, SSP2-4.5 və SSP5-8.5) əsaslanan perspektiv yönümlü ssenari təhlilidir. Bu təhlil 2030 və 2050-ci illər üzrə zaman horizontları əsasında aparılmış və müxtəlif iqlim ssenariləri əsasında risklərin inkişaf dinamikasını əhatə etmişdir.

Metodologiya təhlükələrə məruz qalma və aktivlərin həssaslığını birləşdirən strukturlaşdırılmış yanaşmaya əsaslanır. Təhlükələrə məruz qalma kəskin və xroniki risklər üzrə ssenari əsaslı proqnozlar vasitəsilə qiymətləndirilir və daşqınlar, güclü küləklər, yağıntılar, temperatur dəyişkənliyi, quraqlıq və dəniz səviyyəsinin azalması kimi riskləri əhatə edir. Həssaslıq isə aktivlərin dizaynı, yerləşməsi və əməliyyat şərtləri əsasında qiymətləndirilir. Bu göstəricilər yüksək əməliyyat pozuntusu riski ilə üzləşən aktivlərin müəyyən edilməsi və risklərin azaldılması və uyğunlaşma tədbirlərinin prioritetləşdirilməsi məqsədilə vahid risk qiymətləndirmə çərçivəsində birləşdirilir.

AKTİVLƏR SƏVİYYƏSİNDƏ MƏRUZ QALMA VƏ RİSKLƏRİN TƏSİRİ

SOCAR-ın əməliyyatları üzrə fiziki iqlim risklərinə məruz qalma həm aktivlərin konsentrasiyasını, həm də əməliyyat xüsusiyyətlərini əks etdirir və "upstream", "midstream" və "downstream" istiqamətləri üzrə fərqli təsirlərlə xarakterizə olunur. "Upstream" istiqamətində risklər hasilatın məhdud sayda dəniz aktivlərində cəmləşməsi ilə bağlıdır. Belə ki, dörd əsas hasilat aktivinin ümumi xam neft hasilatının 95%-dən çoxunu təmin etdiyi müəyyən edilmişdir. Bu seqment üzrə Xəzər dənizində su səviyyəsinin azalması müxtəlif iqlim ssenariləri çərçivəsində əsas xroniki risklərdən biri hesab olunur. Proqnozlara əsasən əsrin sonuna qədər su səviyyəsinin 8–14 metr azalması mümkündür. Bu vəziyyət dəniz infrastrukturlarında korroziyanın artmasına, texniki xidmət tələblərinin yüksəlməsinə və platformalara çıxış imkanlarının zamanla məhdudlaşmasına səbəb ola bilər.

Xroniki risklərlə yanaşı, güclü küləklər kimi kəskin risklər də dəniz əməliyyatları üçün əhəmiyyətli hesab olunur. Proqnozlara əsasən küləyin sürəti təxminən 230 km/saatadək çata bilər ki, bu da struktur zədələnmələri və müvəqqəti əməliyyat dayanmaları riskini artırır.

"Midstream" istiqaməti əməliyyatlarında risklər əsasən infrastruktur asılılıqları ilə əlaqədardır. Boru kəmərləri və nəqliyyat sistemləri daşqınlar, torpaq sabitsizliyi və ekstremal hava hadisələri nəticəsində təsirlənə bilər ki, bu da nəqliyyat və saxlama fəaliyyətlərinin davamlılığını poza bilər. Downstream seqmentində isə quraqlıq əsas xroniki risk kimi müəyyən edilmişdir, çünki emal prosesləri su ehtiyatlarından yüksək dərəcədə asılıdır və dəyişən iqlim şəraitində bu vəziyyət əməliyyat sabitliyi və səmərəliliyinə təsir göstərə bilər.

Bu risklərin əsasən 2030–2050-ci illəri əhatə edən orta və uzunmüddətli dövrdə özünü göstərəcəyi gözlənilir. Dəniz səviyyəsinin azalması və quraqlıq kimi xroniki risklər texniki xidmət xərclərinin artmasına və əməliyyat səmərəliliyinin tədricən azalmasına səbəb ola bilər. Kəskin risklər isə hadisənin miqyasından asılı olaraq qısamüddətli, lakin əhəmiyyətli əməliyyat pozuntularına gətirib çıxara bilər. Buna cavab olaraq, SOCAR əməliyyat dayanıqlılığını dəstəkləmək məqsədilə texniki xidmət proqramlarının gücləndirilməsi, infrastrukturun möhkəmləndirilməsi, proseslərin optimallaşdırılması və su idarəetməsi həlləri daxil olmaqla uyğunlaşma tədbirləri həyata keçirir.

TƏCHİZAT ZƏNCİRİNDƏ MƏSULİYYƏTLİ YANAŞMA

NORMATİV SƏNƏDLƏR
50 hazırlanmaqda olan
1 Çərçivə Sənədi · 1 Siyasət · 13 Prosedur · 35 Blok-sxem

E-TENDER PLATFORMASINA KEÇİD
100 %
2024-cü ilin aprel ayında tamamlanmışdır · Kağız əsaslı proseslər tam ləğv edilmişdir

SAP PR-PO İNTEQRASİYASI
13 Biznes Vahidi
2025-ci il ərzində · Əlavə inteqrasiyalar 2026-cı il üçün planlaşdırılmışdır

BÜTÜN BİZNES VAHİDLƏRİ
+6 müəssisə
Bütün Biznes Vahidləri · 2 SOCAR-a tam məxsus müəssisə · 4 birgə müəssisə

SATINALMA ÜZRƏ İDARƏETMƏ VƏ ƏMƏLİYYAT MODELİ

SOCAR təchizat zənciri fəaliyyətlərini yerli qanunvericiliyə, beynəlxalq standartlara, habelə daxili normativ və texniki tələblərə uyğunlaşdırılmış satınalma idarəetməsi çərçivə sənədləri vasitəsilə idarə edir. Satınalma fəaliyyətlərinə nəzarət Satınalmalar Komitəsi, Satınalma Kateqoriyalarının İdarə Edilməsi Departamenti, Satınalma Əməliyyatlarına Dəstək Departamenti və Satınalmanın İnkişafı və Mükəmməlliyi Departamenti daxil olmaqla xüsusi idarəetmə və əməliyyat funksiyaları vasitəsilə həyata keçirilir. Bu struktur SOCAR müəssisələri üzrə hesabatlılığın, şəffaflığın, əməliyyat bütövlüyünün və standartlaşdırılmış satınalma təcrübələrinin təmin edilməsinə xidmət edir.

Satınalma sahəsində transformasiya gündəliyinin tərkib hissəsi olaraq SOCAR 2025-ci ildə vahid daxili Satınalma üzrə Normativ Sənədlər paketinin hazırlanmasına başlamışdır. Bu sənədlər təşkilat üzrə satınalma rollarını, məsuliyyətləri, idarəetmə prinsiplərini və əməliyyat proseslərini aydın şəkildə müəyyən etməklə şəffaf və standartlaşdırılmış satınalma əməliyyat modelinin formalaşdırılmasına xidmət edir.

Hazırlanan sənədlər paketi aşağıdakılardan ibarətdir:

- **1** SATINALMA ÇƏRÇİVƏ SƏNƏDİ
- **1** SATINALMA SİYASƏTİ
- **13** PROSEDUR
- **35** DƏSTƏKLƏYİCİ BLOK-SXEM

Bu sənədlər şəffaf və standartlaşdırılmış satınalma əməliyyat modelini formalaşdırır. Yekun sənəd paketinin 2026-cı ildə təsdiq üçün təqdim edilməsi gözlənilir.

SATINALMA PROSESLƏRİNİN RƏQƏMSAL TRANSFORMASİYASI

Rəqəmsallaşma SOCAR-ın təchizat zəncirinin transformasiyası strategiyasının əsas komponentlərindən biri olaraq qalır. Şəffaflığın, səmərəliliyin və nəzarət imkanlarının artırılması məqsədilə SOCAR e-Tender platforması, SAP əsaslı satınalma modulları, analitik hesabatlılıq sistemləri və Power BI panel alətləri daxil olmaqla rəqəmsal satınalma həllərinin tətbiqini genişləndirmişdir.
2024-cü ilin aprel ayında başa çatan iki illik tətbiq dövrü çərçivəsində SOCAR-ın bütün Biznes Vahidləri, tam mülkiyyətində olan iki müəssisə və dörd birgə müəssisə üzrə satınalma (tender) prosesləri e-Tender platformasına köçürülmüşdür. Nəticədə kağız əsaslı proseslər tamamilə ləğv edilmiş, satınalma fəaliyyətləri üzrə mərkəzləşdirilmiş görünürlük, standartlaşdırılmış iş axınları, təkmilləşdirilmiş izlənilə bilənlik və təşkilat üzrə daha güclü satınalma analitikası təmin edilmişdir.
Rəqəmsal satınalma iş axınlarına keçid kağız istehlakının və əl əməyinə əsaslanan inzibati fəaliyyətlərin azalması vasitəsilə SOCAR-ın davamlı inkişaf məqsədlərinə də dəstək verir.
Rəqəmsal transformasiya proqramı aşağıdakı dörd əsas məqsədin həyata keçirilməsi üçün icra edilmişdir:

- SOCAR üzrə satınalma proseslərinin şəffaflığını artırmaq;
- Təchizatçıların tender imkanlarına çıxışını yaxşılaşdırmaq;
- Mərkəzləşdirilmiş satınalma analitikası imkanlarını formalaşdırmaq;
- Standartlaşdırılmış sistem və proseslər vasitəsilə satınalma fəaliyyətlərinin səmərəliliyini artırmaq.

İdarəetmə və hesabatlılığı gücləndirmək məqsədilə platformada ali rəhbərliyə satınalma fəaliyyətlərini real vaxt rejimində izləməyə imkan verən xüsusi audit giriş səlahiyyətləri yaradılmışdır. Təchizatçılarla qarşılıqlı əlaqə mexanizmləri də 2025-ci ilin noyabr ayında müraciətlər təqdim edildikdən sonra keçirilən təchizatçı məmnunluğu sorğusunun tətbiqi ilə təkmilləşdirilmişdir. Sorğu platformanın və satınalma proseslərinin davamlı təkmilləşdirilməsini dəstəkləmək məqsədilə həm kəmiyyət əsaslı qiymətləndirmə, həm də açıq rəy bildirmək imkanını özündə birləşdirir.
Bununla yanaşı, SOCAR SAP sisteminin satınalma proseslərinə inteqrasiyasını genişləndirməyə davam etmişdir. 2025-ci il ərzində SAP PR-PO prosesi 13 Biznes Vahidində uğurla inteqrasiya edilmiş, əlavə inteqrasiyaların isə 2026-cı il ərzində həyata keçirilməsi planlaşdırılmışdır.

Ali rəhbərliyin nəzarət imkanlarını gücləndirmək məqsədilə real vaxt rejimində audit giriş səlahiyyətləri tətbiq edilmişdir.

2025-ci ilin noyabr ayında müraciətlər təqdim edildikdən sonra rəy toplamaq məqsədilə təchizatçı məmnunluğu sorğusu tətbiq edilmişdir.

SAP PR-PO prosesi 2025-ci ildə inteqrasiya edilərək satınalma iş axınlarının təkmilləşdirilməsinə töhfə vermişdir.

Sistem imkanlarının daha da genişləndirilməsi məqsədilə əlavə SAP inteqrasiyalarının 2026-cı ildə həyata keçirilməsi planlaşdırılır.

SATINALMA ANALİTİKASI VƏ SÜNİ İNTELLEKTİN İNTEQRASİYASI

Məlumatlara əsaslanan qərar qəbuletmə proseslərinin gücləndirilməsi məqsədilə SOCAR 2025-ci ilin sentyabr ayında xüsusi Satınalma Analitikası komandasını yaratmışdır. Komanda satınalma üzrə idarəetməni, əməliyyat monitorinqini, əsas fəaliyyət göstəricilərinin (ƏSG) izlənilməsini, proqnozlaşdırmanı və rəhbərlik səviyyəsində qərar qəbuletməni dəstəkləmək məqsədilə standartlaşdırılmış və avtomatlaşdırılmış hesabatlılıq sistemlərinin hazırlanmasına cavabdehdir. Hazırlanan əsas analitik məhsullara aşağıdakı sahələri əhatə edən idarəetmə panelləri və hesabatlar daxildir:

- Ehtiyatların idarə edilməsi;
- Satınalma tələbləri;
- Satınalma (sourcing) fəaliyyətləri;
- Logistika əməliyyatları;
- Müqavilələrin idarə edilməsi;
- Satınalma dövrünün icra göstəriciləri.

Satınalma proseslərinin müddətlərini və əməliyyat səmərəliliyini qiymətləndirmək məqsədilə daha geniş təşəbbüs çərçivəsində Xidmət Səviyyəsi Müqaviləsi (SLA) üzrə monitorinq paneli də tətbiq edilmişdir. SLA-nın formal tətbiqinin 2026-cı ilin may ayından qüvvəyə minməsi nəzərdə tutulur.

SOCAR eyni zamanda süni intellektin satınalma əməliyyatlarına inteqrasiyasına başlamışdır. Satınalma (sourcing) prosesləri və platformadan istifadə ilə bağlı istifadəçilərə dəstək göstərmək məqsədilə e-Tender platformasında süni intellekt əsaslı yardım funksiyaları tətbiq edilmişdir. Bundan əlavə, SOCAR əməkdaşların satınalma siyasətləri, prosedurları və normativ sənədlərdən istifadə etmələrinə dəstək göstərmək məqsədilə süni intellekt əsaslı çatbot həllini hazırlamış və sınaqdan keçirməyə başlamışdır. Bu həllin SOCAR-ın Satınalma üzrə Normativ Sənədləri təsdiqləndikdən sonra istifadəyə verilməsi planlaşdırılır və onun uyğunluq üzrə məlumatlılığın artırılmasına, bilik mübadiləsinə, proseslərin ardıcıllığının təmin edilməsinə və əməliyyat səmərəliliyinin yüksəldilməsinə töhfə verəcəyi gözlənilir.

MATERİALLARIN İDARƏ EDİLMƏSİNİN TRANSFORMASİYASI VƏ LOGİSTİKANIN OPTİMALLAŞDIRILMASI

2025-ci ildə SOCAR təchizat zənciri, ehtiyatların idarə edilməsi və materialların idarə olunması fəaliyyətləri üzrə məlumat keyfiyyətinin, standartlaşdırmanın, idarəetmənin və əməliyyat səmərəliliyinin artırılması məqsədilə Master Data Cleansing (əsas məlumatların təmizlənməsi) təşəbbüsünə başlamışdır. Tətbiq fəaliyyətlərinin və maraqlı tərəflərlə qarşılıqlı əlaqənin əlaqələndirilməsi üçün 2025-ci ilin sentyabr ayında xüsusi funksiyalararası işçi qrupu yaradılmışdır. Tender prosesindən sonra podratçı seçilmiş və layihəyə rəsmi olaraq 2026-cı ilin aprel ayında start verilmişdir.

Təşəbbüs mövcud əsas məlumat bazalarının və sistemlərinin nəzərdən keçirilməsini və təmizlənməsini, idarəetmə yanaşmalarının yenidən qurulmasını və SOCAR müəssisələri üzrə əməliyyat təcrübələrinin uyğunlaşdırılmasını əhatə edir. Təsdiqləmə fəaliyyətlərini və tətbiqin koordinasiyasını dəstəkləmək məqsədilə əməliyyat sahələri üzrə Data Steward-lər, Texniki Ekspertlər və Anbar Dəstəyi nümayəndələri təyin edilmişdir.

SOCAR anbarların idarə edilməsi, ehtiyatların idarə olunması və əsas məlumatların idarə edilməsi proseslərinin modernləşdirilməsinə yönəlmiş daha geniş transformasiya fəaliyyətlərinə başlamışdır. Mövcud metodologiyalar beynəlxalq kataloqlaşdırma və idarəetmə təcrübələrinə uyğun olaraq yenidən işlənmiş və aşağıdakı sahələr üzrə daha mərkəzləşdirilmiş və standartlaşdırılmış nəzarət mexanizmlərinin yaradılmasına yönəldilmişdir:

- Materialların təsnifləşdirilməsi;
- Məlumat keyfiyyətinin idarə edilməsi;
- Təkrarlanmaların qarşısının alınması;
- Həyat dövrünün idarə edilməsi;
- İdarəetmə nəzarət mexanizmləri.

Bu təşəbbüs satınalma, anbar təsərrüfatı, ehtiyatların idarə olunması, analitika, logistika və əsas məlumatların idarə olunması funksiyaları arasında koordinasiyanın gücləndirilməsi vasitəsilə daha inteqrasiya olunmuş materialların idarə edilməsi modelinin formalaşdırılmasını da dəstəkləyir.

Gələcək transformasiya təşəbbüslərinə iş axınlarının avtomatlaşdırılması, ehtiyatların planlaşdırılması, proqnozlaşdırma və analitik qərar qəbuletmə imkanlarının gücləndirilməsi məqsədilə SAP Master Data Governance (MDG) və SAP Integrated Business Planning (IBP) həllərinin tətbiqi daxildir. Bu təşəbbüslər birlikdə SOCAR-ın daha geniş rəqəmsal transformasiya gündəliyini və SAP S/4HANA sisteminə uzunmüddətli hazırlığını dəstəkləyir.

Müqavilələrin idarə olunması və əməliyyat nəzarətinin gücləndirilməsi məqsədilə SOCAR 2025-ci ildə Müqavilələrin İdarə Edilməsi Bölməsini yaratmışdır. Bölmə SOCAR müəssisələri üzrə müqavilələrin inzibatçılığını mərkəzləşdirmək, müqavilələrin monitorinqini təkmilləşdirmək, standart müqavilə şablonlarını tətbiq etmək və gələcək rəqəmsallaşdırma təşəbbüslərini dəstəkləmək məqsədilə yaradılmışdır. Bölmənin yaradılmasından sonra mərkəzləşdirilmiş tenderlər üzrə vahid müqavilə reyestri tətbiq edilmişdir. Hüquq Departamenti ilə əməkdaşlıq çərçivəsində müqavilə şərtlərinin ardıcıllığını artırmaq və satınalma fəaliyyətləri üzrə idarəetmə təcrübələrini gücləndirmək məqsədilə standart müqavilə şablonları hazırlanmışdır.

SOCAR əlavə olaraq aşağıdakı funksiyaları dəstəkləmək məqsədilə Müqavilələrin Həyat Dövrünün İdarə Edilməsi (CLM) həlləri üzrə bazar araşdırmalarına başlamışdır:

- Müqavilələrin mərkəzləşdirilmiş qaydada saxlanılması;
- Avtomatlaşdırılmış təsdiq iş axınları;
- Müqavilələrin rəqəmsal izlənilməsi;
- Süni intellekt dəstəyi ilə müqavilələrin təhlili;
- Hesabatlılıq panelləri.

CLM həllinin pilot tətbiqinin 2026-cı ildə həyata keçirilməsi planlaşdırılır.

Eyni zamanda, SOCAR Satınalma Əməliyyatlarına Dəstək Departamentinin tərkibində Baş Ofisin Logistika komandasını yaradaraq logistika üzrə idarəetmə və çatdırılmaların idarə olunması imkanlarını gücləndirmişdir. Əməliyyatlar üzrə şəffaflığın və çatdırılmalar üzərində nəzarət imkanlarının artırılması məqsədilə aidiyyəti SOCAR müəssisələri üzrə standartlaşdırılmış həftəlik logistika hesabatları və Power BI panelləri tətbiq edilmişdir. Bu alətlər aşağıdakı göstəricilərin monitorinqini dəstəkləyir:

- Çatdırılmaların icra göstəriciləri;
- Gecikmə riskləri;
- İnkoterms şərtlərinin bölgüsü;
- Nəqliyyat fəaliyyətləri;
- Satınalma logistikası üzrə əsas fəaliyyət göstəriciləri (ƏSG-lər).

Əlavə təkmilləşdirmələrə nəqliyyat planlaşdırılmasının optimallaşdırılması, strateji ekspeditor müqavilələrinin bağlanması, çatdırılma ilə bağlı müqavilə müddəalarının təkmilləşdirilməsi və rəqəmsal logistika idarəetmə alətlərinin tətbiqinin genişləndirilməsi daxildir.

TƏCHİZATÇILARIN İDARƏ OLUNMASI VƏ SATINALMA FƏALİYYƏTİ

SOCAR təchizatçıların etik standartlara, idarəetmə prinsiplərinə və davamlı inkişaf məqsədlərinə uyğunluğuna xüsusi önəm verir.

Təchizatçılarla münasibətlər Satınalma Siyasəti, Korrupsiyaya Qarşı Mübarizə Siyasəti və Üçüncü Tərəflər üzrə Due Diligence Standartı ilə tənzimlənir. Təchizatçıların idarə olunmasını və şəffaflığı daha da gücləndirmək məqsədilə SOCAR e-Tender platforması vasitəsilə mərkəzləşdirilmiş təchizatçıların ilkin kvalifikasiya (İK) prosesini tətbiq etmişdir.

Bu proses bütün təchizatçılar üçün standartlaşdırılmış kvalifikasiya meyarlarının tətbiqini nəzərdə tutur və təsdiqlənmiş təchizatçılara vahid Təsdiqlənmiş Təchizatçılar Siyahısı vasitəsilə SOCAR-ın bütün müəssisələri üzrə satınalma imkanlarında iştirak etməyə şərait yaradır.

> Vahid Təsdiqlənmiş Təchizatçılar Siyahısı — vahid meyarlar, vahid qiymətləndirmə, Qrupun bütün müəssisələri üçün.

QİYMƏTLƏNDİRMƏ MEYARLARI

Təchizatçıların qiymətləndirilməsi maliyyə dayanıqlılığı, hüquqi status, əməliyyat potensialı və ESG fəaliyyət göstəricilərini əhatə edən altı əsas istiqamət üzrə aparılır, lakin bununla məhdudlaşmır:

- Maliyyə dayanıqlılığı – ödəmə qabiliyyəti, likvidlik və kredit qabiliyyəti;
- Hüquqi uyğunluq – qanunvericiliyin tələblərinə uyğunluq və sanksiyalar üzrə yoxlamalar;
- Əməliyyat təcrübəsi – əvvəlki fəaliyyət təcrübəsi, istinadlar və icra potensialı;
- Keyfiyyət standartları – ISO 9001 sertifikatı və məhsul/xidmət keyfiyyəti;
- Əməyin mühafizəsi və təhlükəsizlik – təhlükəsizlik göstəriciləri və insident tarixçəsi;
- Ətraf mühit üzrə uyğunluq – ISO 14001 sertifikatı və qüvvədə olan ekoloji qanunvericiliyin tələblərinə uyğunluq.

2025-ci ildə SOCAR ətraf mühit və sosial meyarları özündə əks etdirən 959 təchizatçı üzrə ilkin kvalifikasiya qiymətləndirməsi həyata keçirmişdir.

Qiymətləndirmə prosesi təchizatçılar tərəfindən təqdim olunan sənədlərin və açıqlamaların masaüstü təhlilini əhatə edən strukturlaşdırılmış yanaşma əsasında həyata keçirilir. Bu məlumatlardan uyğunluğun qiymətləndirilməsi və potensial risklərin müəyyənləşdirilməsi məqsədilə istifadə olunur. Zəruri hallarda təchizatçılar fəaliyyət göstərdikləri sənayenin xüsusiyyətlərinə və təqdim etdikləri mal və ya xidmətlərin növünə uyğunlaşdırılmış meyarlar əsasında qiymətləndirilirlər. Bu yanaşma satınalma kateqoriyaları və əməliyyat mühitləri üzrə risk səviyyələrindəki fərqləri nəzərə alır.

UYĞUNLUQ VƏ DAVAMLI TƏKMİLLƏŞDİRMƏ

Təchizatçılar beynəlxalq əmək standartlarına, o cümlədən uşaq əməyinin qadağan olunması tələblərinə əməl etdiklərini təsdiq etməli, həmçinin ISO 14001 sertifikatına malik olmaq və qüvvədə olan ekoloji qanunvericiliyin tələblərinə uyğunluq kimi ətraf mühitin idarə olunması üzrə tələblərə cavab verdiklərini nümayiş etdirməlidirlər.

Davamlı satınalma yanaşmasının daha da gücləndirilməsi məqsədilə SOCAR 2025-ci ildə ISO 20400 Davamlı Satınalma üzrə Təlimata uyğun tətbiq fəaliyyətlərinə başlamışdır. Xarici boşluq (gap) qiymətləndirilməsi aparılmış və satınalma proseslərinə ESG amillərinin daha geniş inteqrasiyasını dəstəkləmək məqsədilə müvafiq fəaliyyət planı hazırlanmışdır.

SOCAR əməkdaşların peşəkar inkişafı, təchizatçılarla qarşılıqlı əməkdaşlığın gücləndirilməsi və proseslərin optimallaşdırılması vasitəsilə təchizat zəncirinin imkanlarını inkişaf etdirməyə davam edir. 2025-ci ildə logistika, kateqoriya idarəçiliyi və satınalma əməliyyatlarını əhatə edən 31 satınalma və təchizat zənciri üzrə təlim keçirilmişdir. Bundan əlavə, Biznes Vahidləri üzrə rəqəmsal bacarıqların gücləndirilməsi məqsədilə e-Tender platforması üzrə ümumilikdə 61 onlayn və əyani təlim sessiyası təşkil edilmişdir.

Yüksək riskli təchizatçılar əməliyyat təcrübələrinin və uyğunluq göstəricilərinin təsdiqlənməsi məqsədilə zəruri hallarda əlavə olaraq yerində yoxlamalara cəlb oluna bilərlər.

2025-ci il üzrə ilkin ixtisas uyğunluğu qiymətləndirilməsi — bal bölgüsü

207

Yüksək riskli təchizatçılar əməliyyat təcrübələrinin və uyğunluq göstəricilərinin yoxlanılması məqsədilə əlavə olaraq yerində (sayt) yoxlamalara cəlb edilə bilər.

BAL DİAPAZONU	TƏCHİZATÇILAR	PAY
76–100 bal ƏLA	69	33%
51–75 bal GÜCLÜ	85	41%
26–50 bal QƏNAƏTBƏXŞ	52	25%
0–25 bal ZƏİF	1	0.5%
CƏMİ	207	100%

14001 Əməliyyat Standartı

20400 Başlanılıb 2025

YERLİ TƏCHİZATÇILARA DƏSTƏK

Azərbaycanın ən iri korporativ alıcılarından biri olaraq SOCAR satınalma fəaliyyəti vasitəsilə ölkənin iqtisadi inkişafının dəstəklənməsində mühüm rol oynayır. Şirkət fəaliyyət istiqamətləri üzrə tələb olunan malların, materialların və xidmətlərin təmin edilməsində yerli təchizatçıların cəlb edilməsinə üstünlük verir. Bu yanaşma yerli sənaye sahələrinin inkişafına, milli təchizat bazasının gücləndirilməsinə və ölkə üzrə məşğulluq imkanlarının yaradılmasına töhfə verir.


Yerli məzmunun təşviqi SOCAR-ın satınalma çərçivəsinə inteqrasiya edilmişdir və satınalma və təchizatçıların seçilməsi prosesləri zamanı nəzərə alınır. Yerli təchizatçıların dəyər zəncirinə inteqrasiyası vasitəsilə SOCAR yalnız təchizat şəbəkəsinin etibarlılığını və dayanıqlılığını artırmır, eyni zamanda Azərbaycanda saxlanılan iqtisadi dəyərin həcmini də yüksəldir.

Yerli satınalmalara sadiqliyi vasitəsilə Şirkət fəaliyyət göstərdiyi regionlarda bizneslərin inkişafını dəstəkləyir, sənaye potensialının artırılmasına və iqtisadi imkanların yaradılmasına töhfə verir. Bu yanaşma SOCAR-ın davamlı inkişaf məqsədləri ilə uyğunlaşır və milli iqtisadi inkişaf prioritetlərinin həyata keçirilməsini dəstəkləyir.


2025-ci ildə SOCAR-ın törəmə müəssisələri üzrə təchizatla bağlı ümumi xərclərin həcmi təxminən 6 376 milyon AZN təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 17% artım deməkdir. Bu məbləğin 2 757 milyon AZN-i malların və materialların satın alınmasına, 3 618 milyon AZN-i isə xidmətlərin alınmasına yönəldilmişdir. Hər iki kateqoriya üzrə xərclər 2024-cü illə müqayisədə artmışdır ki, bu da Şirkətin əməliyyat fəaliyyətlərinin miqyasını və inkişafını əks etdirir.

SOCAR satınalma strategiyasının tərkib hissəsi olaraq yerli mənbələrdən satınalmaya xüsusi diqqət yetirməyə davam etmişdir. 2025-ci ildə təchizat zənciri üzrə ümumi xərclərin 88%-i yerli təchizatçılara yönəldilmişdir. Bu göstərici Şirkətin yerli bizneslərin dəstəklənməsi və milli iqtisadiyyat daxilində dəyər yaradılması istiqamətində davamlı öhdəliyini nümayiş etdirir. Sözügedən göstərici əvvəlki illə müqayisədə 6 faiz bəndi artmışdır.

Şəkil 14. SOCAR Qrupu tərəfindən yerli təchizatçılara xərclərin payı, 2023–2025-ci illər üzrə (%)




Şəkil 15. SOCAR (Azərbaycan) 2025-ci il üzrə mal və materialların satınalınmasının əsas istiqamətləri, min AZN



Xammalın satınalınması	151 831
Material ehtiyatlarının satınalınması	640 173
Əsas aktivlərin satınalınması və təkmilləşdirilməsi	284 251
Digər	1 681 626

Şəkil 16. SOCAR (Azərbaycan) 2025-ci il üzrə xidmətlərin satınalınmasının əsas istiqamətləri, min AZN



Əsas aktivlərin əsaslı təmiri (fondların əsaslı təmiri) üzrə xidmətlər	249 843
Əməliyyat fəaliyyəti üzrə digər xidmətlər	2 273 839
Nəqliyyat xidmətləri	395 294
Təhlükəsizlik xidmətləri	71 136
Sığorta xidmətləri	174 252
Digər	453 795

KEYFİYYƏT TƏMİNATI VƏ LABORATORİYALARIN İDARƏ EDİLMƏSİ

SOCAR 2025-ci ildə biznes və sənaye fəaliyyətləri üzrə ciddi marketinq və keyfiyyət təminatı təcrübələrini davam etdirmiş, əsas məhsullar üzrə tam izləniləbilənliyi və beynəlxalq standartlara uyğunluğu təmin etmişdir. Nümunələrin götürülməsindən hesabatlılığa qədər bütün mərhələlərdə möhkəm izləniləbilənlik sistemləri tətbiq edilmiş və benzin və dizel kimi əsas məhsullar üzrə ASTM (American Society for Testing and Materials) standartlarına uyğunluq qorunmuşdur.

ISO/IEC 17025 standartının tələblərinə uyğunluğu təmin etmək məqsədilə SOCAR yüksək səviyyədə işçi səriştəliliyini qorumuş, laboratoriya avadanlıqlarının mövcudluğunu və etibarlılığını təmin etmişdir. Eyni zamanda, laboratoriyalar "upstream", "midstream" və "downstream" istiqamətlərinin əməliyyatları çərçivəsində xam neft, neft məhsulları, neft-kimya məhsulları və ətraf mühit nümunələri üzrə hərtərəfli sınaq və keyfiyyətə nəzarət fəaliyyətlərini həyata keçirmişdir. Məhsulların buraxılışı dizel yanacağı üzrə EN 590 və benzin üzrə EN 228 standartlarına uyğun olaraq davam etdirilmiş, Jet A1 aviasiya yanacağının istehsalının beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində hazırlıq işləri aparılmış və tam tətbiqin 2026-cı ildən etibarən həyata keçirilməsi nəzərdə tutulmuşdur.

2025-ci ildə SOCAR HAOR Laboratoriyası, Neftqazelmitədqiqatlayihə İnstitutunun Analitik Tədqiqatlar Laboratoriyası və SOCAR Polymer Laboratoriyası akkreditasiya olunmuşdur ki, bu da ISO/IEC 17025 tələblərinə uyğunluğu daha da gücləndirmişdir. SOCAR HAOR Laboratoriyası maye və qaz karbohidrogenləri, eləcə də suyun sınaqları üzrə beynəlxalq müqayisəli sınaqlarda fəal iştirakını davam etdirmiş və bununla məhsul keyfiyyətinin təsdiqlənməsini təmin etmişdir. Laboratoriya Məlumatlarının İdarə Edilməsi Sistemi (LIMS) tam funksional vəziyyətdə saxlanılmış, insan səhvlərinin minimuma endirilməsinə və tam rəqəmsallaşdırılmış müştəri hesabatlarının təqdim edilməsinə imkan yaratmışdır. Məhsul növləri üzrə akkreditasiya etibarlı sınaq nəticələrinin əldə edilməsini və qlobal meyarlarla uyğunluğu təmin edir. Euro 5 Dizel (EN 590) üzrə TURKAK akkreditasiyası qorunub saxlanılmışdır.

2024-cü ildən etibarən SOCAR Polymer Məhsul Keyfiyyəti Laboratoriyası Peşəkarlıq Sınaqları proqramlarında iştirak etmişdir. Laboratoriya PP istehsalı üzrə 4, YSPE istehsalı üzrə isə plyonka nümunələri də daxil olmaqla 10 PS sınağı həyata keçirmişdir. Təqdim edilmiş bütün nəticələr müəyyən edilmiş qəbul meyarlarına uyğun olmuş və qeyri-qənaətbəxş nəticə qeydə alınmamışdır. 2025-ci ildə SOCAR Polymer Məhsul Keyfiyyəti Laboratoriyası ISO/IEC 17025 standartına uyğun olaraq TURKAK tərəfindən uğurla akkreditasiya edilmişdir. Bu akkreditasiya laboratoriyanın səriştəlilik, qərəzsizlik və sınaq və kalibrləmə laboratoriyalarının ardıcıl fəaliyyəti üzrə beynəlxalq tələblərə uyğunluğunu təsdiq edir. Akkreditasiyanın əhatə dairəsinə Ərimə Axını İndeksi (MFR), Nisbi Sıxlıq, Şarpi Zərbə Möhkəmliyi, Sarılıq İndeksi, Dartılma Xüsusiyyətləri və Əyilmə Modulu kimi əsas sınaq parametrləri daxildir.

2017-ci ildən etibarən prosedurlar, avadanlıq məlumat vərəqləri və əlaqəli qeydlər daxil olmaqla ümumilikdə 407 nəzarət olunan sənəd hazırlanmış və tətbiq edilmişdir. Bu sənədlər SOCAR Polymer Məhsul Keyfiyyəti Laboratoriyasında standartlaşdırmanı, izləniləbilənliyi və əməliyyat ardıcıllığını təmin edən möhkəm keyfiyyət idarəetmə çərçivəsinin formalaşdırılmasına xidmət etmişdir. LIMS sistemi ISO/IEC 17025 tələblərinə uyğun olaraq məlumatların nəzarətli idarə edilməsini, insan səhvlərinin minimuma endirilməsini və tam rəqəmsallaşdırılmış müştəri hesabatlarının hazırlanmasını təmin etməyə davam etmişdir.

SOCAR laboratoriyaları qərəzsizlik və məxfiliyi əsas əməliyyat prinsipləri kimi qorumuş, müştəri rəyləri mexanizmləri, risk əsaslı yanaşma, uyğunsuzluqların idarə olunması, daxili və xarici auditlər, həmçinin nümunələrin düzgün saxlanılması və izləniləbilənliyi ilə dəstəklənən effektiv keyfiyyət idarəetmə sistemlərini tətbiq etmişdir.

Marketinq fəaliyyətlərinin və keyfiyyət təminatı təcrübələrinin daha da təkmilləşdirilməsi məqsədilə SOCAR 2025-ci ildə satınalma şəffaflığının və təchizatçılarla qarşılıqlı əlaqələrin gücləndirilməsi istiqamətində fəaliyyətlərini davam etdirmişdir. 2025-ci ildə e-Tender platforması vasitəsilə həyata keçirilən ilkin kvalifikasiya proseslərinin sayı əvvəlki illə müqayisədə iki dəfədən çox artaraq 1 100-dən çox olmuş və nəticədə təchizatçı bazası əhəmiyyətli dərəcədə genişlənmişdir. Təchizatçılar İlkin Kvalifikasiyanın Təşkili və İdarə Edilməsi üzrə Təlimat və iştirakçı təchizatçılar üçün digər müvafiq göstərişlər daxil olmaqla müəyyən edilmiş meyarlar əsasında qiymətləndirilməyə davam etmişdir.

Prosedur ardıcıllığının təmin olunması və keyfiyyət təcrübələrinin gücləndirilməsi məqsədilə “7 Keyfiyyət Aləti” üzrə təlimat tətbiq olunmağa davam etmişdir. Bu təlimat departamentlər üzrə standart metodologiyaların tətbiqini və tanınmış sənaye çərçivələrinə uyğunluğu dəstəkləyir. Laboratoriya davamlı keyfiyyət təkmilləşdirilməsini təmin etmək məqsədilə yoxlama vərəqləri, nəzarət qrafikləri (Shewhart qrafikləri) və histoqramlar kimi əsas alətlərdən fəal istifadə edir.

2025-ci ildə keyfiyyət təminatı çərçivəsində malların, materialların və avadanlıqların qəbulu ilə bağlı 21 müəssisədə ümumilikdə 620 yoxlama həyata keçirilmişdir. Bu keyfiyyətə nəzarət tədbirləri satınalma spesifikasiyalarına uyğunluğun təmin edilməsinə və əməliyyat risklərinin azaldılmasına xidmət etmiş, eyni zamanda məqsədyönlü əməkdaş məlumatlandırma təşəbbüsləri ilə dəstəklənmişdir.

SOCAR sertifikatlaşdırma və beynəlxalq qabaqcıl təcrübələrə uyğunlaşma istiqamətində fəaliyyətini davam etdirmişdir. 2025-ci ildə Qrup daxilində 11 laboratoriya AZS ISO/IEC 17025:2020 standartına uyğun olaraq akkreditasiya olunmuşdur. Bu akkreditasiyalar təşkilatın texniki səriştəsini və beynəlxalq səviyyədə tanınmış sınaq və kalibrləmə standartlarına uyğunluğunu nümayiş etdirir.

Ümumilikdə, metodoloji alətlərin, keyfiyyət mədəniyyətinin və təchizatçıların idarə edilməsinin davamlı təkmilləşdirilməsi nəticəsində SOCAR 2025-ci ildə əməliyyat səmərəliliyini və şəffaflığını daha da artırmışdır. Bu fəaliyyətlər Şirkətin davamlı inkişaf prinsiplərinə və ESG amillərinin fəaliyyətlərinə inteqrasiyasına dair uzunmüddətli öhdəliyini gücləndirir.

KİBERTƏHLÜKƏSİZLİK

KİBERTƏHLÜKƏSİZLİK ÜZRƏ İDARƏETMƏ

SOCAR-da kibertəhlükəsizlik kritik sistemlərin və həssas məlumatların qorunması, eləcə də təhlükəsiz və etibarlı biznes əməliyyatlarının təmin edilməsi məqsədilə müəssisə risklərinin idarə edilməsi və korporativ idarəetmə çərçivəsində idarə olunur. İnformasiya təhlükəsizliyi riskləri ümumi risklərin idarə edilməsi və uyğunluq proseslərinə inteqrasiya edilmiş, rəhbərlik səviyyəsində isə Risk Komitəsi tərəfindən nəzarətdə saxlanılır.

İnformasiya təhlükəsizliyi üzrə ayrıca İdarə Heyəti səviyyəli komitə mövcud olmasa da, kiberrisklərlə bağlı məsuliyyət mövcud idarəetmə strukturu çərçivəsində aydın şəkildə müəyyən edilmişdir. Risk Komitəsi nəzarət funksiyasını həyata keçirir, sahə üzrə ekspertlər isə məlumatlı qərar qəbuletməni dəstəkləyirlər. İnformasiya təhlükəsizliyi üzrə icraedici məsuliyyət Baş texnologiya inzibatçısı (Chief Digitalization Officer – CDO) tərəfindən həyata keçirilir. CDO Qrup üzrə informasiya texnologiyaları və kibertəhlükəsizlik funksiyalarına nəzarət edərək strateji prioritetlərlə əməliyyat fəaliyyətləri arasında uyğunluğu təmin edir.

Əməliyyat səviyyəsində idarəetmə Xəzər İnnovasiya Mərkəzində ISO/IEC 27001 standartına uyğun tətbiq olunan İnformasiya Təhlükəsizliyinin İdarə Edilməsi Sistemi (ISMS) vasitəsilə həyata keçirilir. Baş İnformasiya Təhlükəsizliyi Direktoru (Chief Information Security Officer – CISO) tərəfindən rəhbərlik edilən ISMS Komitəsi informasiya təhlükəsizliyi fəaliyyətlərinin planlaşdırılması, əlaqələndirilməsi və monitorinqinə cavabdehdir. Komitə ildə ən azı iki dəfə toplaşaraq sistemin fəaliyyət göstəricilərini, audit nəticələrini, riskləri və düzəldici tədbirləri nəzərdən keçirir. Bu idarəetmə mexanizmləri məlumat aktivlərinin məxfiliyinin, bütövlüyünün və əlçatanlığının qorunmasını təmin edən daxili siyasətlərlə dəstəklənir. Məlumatların təhlükəsiz idarə olunması üzrə məsuliyyət əməkdaşlar, məlumat sahibləri və proses sahibləri arasında aydın şəkildə bölüşdürülmüş, məlumatların məxfiliyi və rəqəmsal hüquqlar isə qüvvədə olan normativ tələblərə uyğun olaraq təmin edilir.

ƏMƏLİYYATLAR VƏ NƏZARƏT MEXANİZMLƏRİ

İnformasiya idarəetməsi çərçivəsinə uyğun olaraq SOCAR informasiya texnologiyaları mühitində kibertəhlükəsizlik risklərinin idarə edilməsi üçün bir sıra əməliyyat nəzarəti mexanizmləri tətbiq edir. 2025-ci ildə bu mexanizmlər insidentlərə cavab imkanlarının təkmilləşdirilməsi, monitorinq imkanlarının artırılması və əməliyyat səmərəliliyinin yüksəldilməsi istiqamətində daha da gücləndirilmişdir.

Bu təkmilləşdirmələrin bir hissəsi olaraq mərkəzləşdirilmiş monitorinqi və standartlaşdırılmış insident idarəetməsini dəstəkləmək məqsədilə Təhlükəsizlik Orkestrasiya, Avtomatlaşdırma və Reaksiya (Security Orchestration, Automation and Response – SOAR) həlli tətbiq edilmişdir. Müxtəlif mənbələrdən məlumatların toplanması və birləşdirilməsi vasitəsilə sistem avtomatlaşdırılmış cavab tədbirlərinin həyata keçirilməsinə imkan yaradır, nəticədə reaksiya müddətləri azalır və təhlükəsizlik əməliyyatları üzrə koordinasiya güclənir.

SOCAR kibertəhlükəsizlik insidentlərinin müəyyən edilməsi, bildirilməsi və idarə olunması üzrə formal prosedurlar da müəyyən etmişdir. Əməkdaşlar müəyyən edilmiş daxili kanallar vasitəsilə insidentlər, zəifliklər və ya şübhəli fəaliyyətlər barədə məlumat təqdim edə bilirlər ki, bu da potensial təhdidlərin erkən aşkarlanmasına imkan yaradır.

Təqdim edilmiş məlumatlar informasiya təhlükəsizliyi komandaları tərəfindən nəzərdən keçirilir, ciddilik səviyyəsinə uyğun qiymətləndirilir və müəyyən edilmiş insidentlərə cavab prosedurlarına uyğun olaraq idarə olunur. Zəruri hallarda insidentlər müəyyən edilmiş idarəetmə mexanizmləri vasitəsilə eskalasiya edilir, bütün proses ərzində isə məlumatların məxfiliyi qorunur.

Hesabat dövrü ərzində məhdud sayda kibertəhlükəsizlik insidenti qeydə alınmışdır. Bu insidentlərin heç biri əməliyyat fəaliyyətlərinə, maliyyə nəticələrinə və ya maraqlı tərəflərə əhəmiyyətli təsir göstərməmişdir. Müvafiq hallarda əsas səbəblərin aradan qaldırılması və təkrarlanmanın qarşısının alınması məqsədilə düzəldici tədbirlər həyata keçirilmişdir ki, bu da SOCAR-ın kibertəhlükəsizlik nəzarət mühitinin davamlı təkmilləşdirilməsinə töhfə verir.

Bu əməliyyat imkanlarını tamamlayan biznesin fasiləsizliyi və fəlakətlərin bərpası tədbirləri kibertəhlükəsizlik insidentləri və ya digər pozuntular zamanı kritik informasiya sistemlərinin əlçatanlığının və dayanıqlılığının təmin edilməsinə xidmət edir. Bu tədbirlər effektivliyinin qorunması məqsədilə mütəmadi olaraq nəzərdən keçirilir və yenilənir.

Risklərin idarə edilməsini daha da dəstəkləmək məqsədilə informasiya texnologiyaları sistemləri üzrə potensial zəifliklərin müəyyən edilməsi və qiymətləndirilməsi üçün müntəzəm həssaslıq qiymətləndirmələri həyata keçirilir. Qiymətləndirmələrin nəticələri risk əsaslı düzəldici tədbirlər vasitəsilə aradan qaldırılır və beləliklə, risklərin azaldılması tədbirlərinin müəyyən edilmiş risk səviyyəsinə uyğunluğu təmin edilir.

Bundan əlavə, SOCAR informasiya texnologiyaları infrastrukturu və İnformasiya Təhlükəsizliyinin İdarə Edilməsi Sistemi (ISMS) üzrə həm daxili, həm də müstəqil xarici auditlər həyata keçirir. Bu auditlər ISO/IEC 27001 standartına uyğun aparılır, eyni zamanda tətbiq olunan milli qanunvericilik və müvafiq normativ tələblər nəzərə alınır. Auditlər mövcud nəzarət mexanizmlərinin effektivliyinin qiymətləndirilməsinə və tətbiq olunan tələblərə uyğunluğun təmin edilməsinə xidmət edir.



MƏLUMATLILIĞIN ARTIRILMASI VƏ TƏLİMLƏR

Texniki və prosedur nəzarət mexanizmləri ilə yanaşı, SOCAR kibertəhlükəsizlik yanaşmasının əsas komponentlərindən biri kimi məlumatlılığın artırılmasına və təlim fəaliyyətlərinə xüsusi önəm verir. Davamlı olaraq həyata keçirilən təşəbbüslər istifadəçi ilə əlaqəli risklərin azaldılmasına və təşkilat üzrə təhlükəsiz davranışların təşviq edilməsinə yönəlmişdir. Bu təşəbbüslərə müntəzəm fişinq simulyasiyaları, hədəflənmiş təlim sessiyaları və daxili məlumatlandırma kampaniyaları daxildir.

2025-ci ildə SOCAR şirkətləri üzrə informasiya təhlükəsizliyi üzrə məlumatlandırma platforması vasitəsilə sosial mühəndislik, cihaz təhlükəsizliyi, zərərli proqram təminatı və media təhlükəsizliyi kimi mövzuları əhatə edən beş məcburi kibertəhlükəsizlik məlumatlandırma təlimi təyin edilmişdir. Təlim modulundan asılı olaraq, təlimlərə cəlb olunan əməkdaşların sayı 11 462 nəfərdən 13 171 nəfərə qədər dəyişmiş və bununla da Qrup üzrə informasiya təhlükəsizliyi məlumatlılığı fəaliyyətlərində geniş əməkdaş iştirakçılığı təmin edilmişdir.

Bu fəaliyyətlərin nəticəsi olaraq, 2025-ci ildə keçirilmiş fişinq simulyasiyalarının nəticələri əməkdaşların şübhəli fəaliyyətlər barədə məlumat vermə hallarının artdığını, eyni zamanda yüksək riskli davranışların azaldığını göstərmişdir. Hesabat dövrü ərzində SOCAR şirkətləri üzrə çoxsaylı fişinq simulyasiyası kampaniyaları həyata keçirilmişdir.

Bununla yanaşı, il ərzində əməkdaşlarla fişinq, fidyə proqramları, sosial mühəndislik, sosial media fırıldaqçılığı, deepfake hücumları, eləcə də təmiz masa/təmiz ekran prinsipləri ilə bağlı müxtəlif məlumatlandırıcı materiallar və kommunikasiya mesajları paylaşılmışdır. Bu fəaliyyətlər təhlükəsiz davranışların möhkəmləndirilməsinə və davamlı məlumatlandırma təşəbbüslərinin dəstəklənməsinə xidmət etmişdir.

Müəyyən edilmiş boşluqlar üzrə aidiyyəti əməkdaşlara əlavə təlimlər təyin edilir, təkrar uyğunsuzluq halları isə daxili prosedurlara uyğun olaraq idarə olunur. Bu yanaşma məlumatlandırma fəaliyyətlərinin həm çevik, həm də risklərə uyğunlaşdırılmış şəkildə həyata keçirilməsini təmin edir. Ardıcıllığın təmin edilməsi məqsədilə məlumatlandırma tədbirləri işə qəbul proseslərinə inteqrasiya edilmiş və rəqəmsal təlim platformaları vasitəsilə dəstəklənmişdir.

Bundan əlavə, 2025-ci ilin oktyabr ayında həyata keçirilmiş şirkət miqyaslı məlumatlandırma kampaniyası əməkdaşların informasiya təhlükəsizliyi ilə bağlı təşəbbüslərdə iştirak səviyyəsinin artırılmasına töhfə vermişdir. Təlim məzmunları süni intellekt sahəsindəki yeniliklər və inkişaf edən kibertəhdid tendensiyaları da daxil olmaqla, cari risk istiqamətlərini əks etdirmək məqsədilə mütəmadi olaraq yenilənir və onların aktuallığı təmin edilir.

KİBERTƏHLÜKƏSİZLİK YANAŞMASI VƏ GƏLƏCƏK PRİORİTETLƏR

Ümumilikdə, SOCAR-ın kibertəhlükəsizliyə yanaşması sistemlərin etibarlılığının qorunmasına və risklərin strukturlaşdırılmış şəkildə idarə edilməsinə yönəlmişdir. Bu yanaşmaya uyğun olaraq əsas prioritetlərə monitorinq və insidentlərə cavab imkanlarının daha da inkişaf etdirilməsi, avtomatlaşdırma səviyyəsinin artırılması və üçüncü tərəf risklərinin idarə edilməsinin təkmilləşdirilməsi daxildir.

Eyni zamanda, kritik sistemlərin və məlumat axınlarının mühafizəsinin gücləndirilməsinə, beynəlxalq standartlara və tənzimləyici gözləntilərə uyğunluğun qorunmasına əlavə diqqət yetirilir. Bu fəaliyyətlər məlumatlandırma təşəbbüslərinə və daxili nəzarət mexanizmlərinin təkmilləşdirilməsinə yönəlmiş davamlı investisiyalarla dəstəklənir və SOCAR-ın gələcəyə yönəlmiş kibertəhlükəsizlik fəaliyyətlərinin əsasını təşkil edir.

SÜNİ İNTELLEKT TEXNOLOGİYALARININ MƏSULİYYƏTLİ TƏTBİQİ

SOCAR-ın bir sıra müəssisələri öz fəaliyyət sahələri üzrə Süni İntellekt (Sİ) və Generativ Süni İntellekt texnologiyalarının istifadəsi üçün prinsipləri, məsuliyyətləri, idarəetmə mexanizmlərini və nəzarət tədbirlərini müəyyən edən Sİ siyasətlərini hazırlamışdır. Bu siyasətlər süni intellekt texnologiyalarının hüquqi, normativ və daxili tələblərə uyğun olaraq məsuliyyətli, təhlükəsiz və etik şəkildə tətbiq edilməsini təmin etmək məqsədi daşıyır.

Qrup üzrə Sİ idarəetməsi üzrə yanaşmaların daha da gücləndirilməsi və vahid standartların formalaşdırılması məqsədilə SOCAR süni intellekt texnologiyalarının məsuliyyətli tətbiqi və nəzarəti üçün ardıcıl idarəetmə yanaşmasını təmin edəcək Mərkəzləşdirilmiş Sİ İdarəetmə Çərçivəsinin hazırlanmasını həyata keçirir.

Bu yanaşmanın bir hissəsi olaraq, SOCAR Türkiyə təsdiq edilmiş Qəbulolunan İstifadə Siyasəti vasitəsilə süni intellekt və generativ süni intellekt texnologiyalarının istifadəsi üzrə Sİ çərçivəsini formalaşdırmışdır. Siyasət İcraedici Şura tərəfindən təsdiqlənmiş və təşkilat daxilində Sİ texnologiyalarının hüquqi, normativ və daxili tələblərə uyğun olaraq məsuliyyətli, təhlükəsiz və etik tətbiqini təmin etmək məqsədi daşıyır.

Siyasət Sİ texnologiyalarından istifadənin təşkilati dəyərlərə və qüvvədə olan qanunvericiliyə uyğun həyata keçirilməsini tələb edir və ayrı-seçkilik yaradan, yanlış yönləndirici və ya uyğun olmayan məzmunun yaradılmasını və yayılmasını qadağan edir. Eyni zamanda, süni intellekt tərəfindən yaradılan nəticələrdə qərəzlilik və ədalətsiz nəticələrlə bağlı risklərin azaldılmasını hədəfləyir.

Çərçivə məlumatların və sistemlərin qorunmasına yönəlmiş nəzarət mexanizmlərini də əhatə edir. Əməkdaşlar Sİ alətlərindən istifadə zamanı şəxsi, məxfi və kommersiya məlumatlarını diqqətlə idarə etməli, zəruri hallarda məlumatların minimallaşdırılması, maskalanması və anonimləşdirilməsi kimi tədbirlər tətbiq etməlidirlər. Şəxsi məlumatlardan istifadə müvafiq yoxlamalara və məxfilik risklərinin qiymətləndirilməsinə tabedir. Kibertəhlükəsizlik tələblərinə təsdiqlənmiş tətbiqlərdən istifadə, təhlükəsiz autentifikasiya və icazəsiz girişlərin və məlumat sızmalarının qarşısını almaq üçün müəyyən edilmiş təhlükəsizlik nəzarətləri daxildir.

Çərçivə həmçinin idarəetmə və hesabatlılıq tələblərini müəyyən edir. Süni intellekt insan qərarverməsini dəstəkləmək üçün nəzərdə tutulur və onu əvəz etmir; əsas qərarlar insan tərəfindən nəzərdən keçirilməlidir. İstifadədən və ya xarici kommunikasiya məqsədilə paylaşılmadan əvvəl Sİ nəticələri təsdiqlənməlidir.

Sİ istifadəsi üzrə məsuliyyətlər İnformasiya Təhlükəsizliyi, Hüquq, Uyğunluq və İT funksiyaları arasında bölüşdürülmüşdür və siyasətin pozulması və ya yanlış istifadəsi hallarının bildirilməsi üçün mexanizmlər müəyyən edilmişdir. Süni intellektdən istifadə yalnız legitim biznes məqsədləri üçün məhdudlaşdırılır və bu yanaşma məxfilik, təhlükəsizlik, hüquqi və etik standartlara uyğunluğu təmin etməklə yanaşı, yanlış məlumat, əqli mülkiyyət məsələləri və tənzimləyici risklər kimi potensial risklərin idarə edilməsinə imkan yaradır.



ƏTRAF MÜHİTƏ TƏSİRLƏRİN MİNUMUMA ENDİRİLMƏSİ

ƏTRAF MÜHİTİN İDARƏ EDİLMƏSİ

QRUP ÜZRƏ ƏTRAF MÜHİTƏ TƏSİRİN MİNİMUMA ENDİRİLMƏSİNƏ YÖNƏLMİŞ SİSTEMLİ YANAŞMA

100%
İSTEHSAL MÜƏSSİSƏLƏRİ
ƏMİS beynəlxalq standartlara uyğun olaraq sertifikatlaşdırılmışdır

ISO 14001
BAŞ OFİS SERTİFİKATLAŞDIRILMIŞDIR
2025-ci ildə əldə edilmişdir

100%
İSTEHSAL MÜƏSSİSƏLƏRİ
Daxili audit əhatəsi

2025
AUDİT METODOLOGİYASI
SOCAR Prezidenti tərəfindən təsdiq edilmişdir

Ətraf mühitə təsirlərin minimuma endirilməsi SOCAR-ın idarəetmə yanaşmasının əsas elementlərindən biridir və bu element ətraf mühit məsələlərinin Şirkət üzrə idarə olunmasında öz əksini tapır.

Bu yanaşma Şirkət Prezidentinin təsdiq etdiyi 2 təməl bəyanat ilə istiqamətləndirilir.

BƏYANAT · 01
Ətraf Mühitin Mühafizəsi üzrə Hədəflərinə dair Bəyanat

BƏYANAT · 02
Bioloji Müxtəlifliyin Qorunmasına dair Bəyanat

Həmin sənədlər dekarbonizasiya, enerji və təbii resurslardan səmərəli istifadə, daha təmiz texnologiyaların tətbiqi, ekosistemlərin və təbii yaşayış mühitlərinin qorunması ilə bağlı prioritetləri müəyyən edir.

Ətraf mühit prioritetləri, iqlimlə bağlı məsələlər və müvafiq tədbirlərin həyata keçirilməsi üzrə nəzarət icraedici rəhbərlik səviyyəsində təmin olunur ki, bu da ətraf mühit amillərinin SOCAR-ın bütün biznes seqmentləri üzrə strateji planlaşdırma və əməliyyat fəaliyyətlərinə inteqrasiyasını dəstəkləyir.

Enerji Keçidi, Ətraf Mühit və Dekarbonizasiya seqmenti SOCAR-da ətraf mühitin idarə olunması sisteminin tətbiqi və ona nəzarətə cavabdehdir. Bu fəaliyyətlərə ekoloji monitorinq, ekoloji risklərin idarə olunması, qanunvericiliyin tələblərinə uyğunluğa nəzarət və Qrup üzrə ətraf mühitin idarə olunması fəaliyyətlərinin əlaqələndirilməsi daxildir.

Hesabat dövründə ətraf mühitin mühafizəsi ilə bağlı üç pozuntu halı qeydə alınmışdır: infrastruktur işləri ilə əlaqədar ətraf mühitə vurulmuş zərər ("Azneft" İstehsalat Birliyi) üzrə 480 432 AZN (282 607 ABŞ dolları) məbləğində cərimə; icazə verilmiş həcmdən artıq qazıntı işlərinin aparılması ("Azneft" İstehsalat Birliyi) üzrə 123 480 AZN (72 635 ABŞ dolları) məbləğində cərimə və qaz kəməri dəhlizi boyunca bitki örtüyünün icazəsiz təmizlənməsi (Qaz İxrac İdarəsi) üzrə 10 800 AZN (6 353 ABŞ dolları) məbləğində cərimə tətbiq edilmişdir. Ümumi cərimə məbləği 614 712 AZN (361 595 ABŞ dolları) təşkil etmiş və qüvvədə olan qanunvericiliyin tələblərinə uyğun olaraq ödənilmişdir.

SOCAR əməliyyatları üzrə ətraf mühit aspektlərinin və təsirlərinin müəyyən edilməsi, qiymətləndirilməsi, monitorinqi və idarə olunmasına sistemli yanaşmanı təmin etmək məqsədilə Ətraf mühitin idarəetmə sistemini (ƏMİS) tətbiq etmişdir.

ƏMİS beynəlxalq səviyyədə tanınmış ISO 14001:2015 standartına uyğundur və əməliyyatların planlaşdırılması, risklərin qiymətləndirilməsi, monitorinq, fəaliyyətin qiymətləndirilməsi və düzəldici tədbirlərin həyata keçirilməsi proseslərinə inteqrasiyanı dəstəkləyir.

ƏMİS-in effektivliyi daxili nəzarət və xarici qiymətləndirmə mexanizmləri – daxili auditlər və üçüncü tərəf sertifikatlaşdırması vasitəsilə təmin edilir.

SOCAR-ın bütün istehsalat müəssisələri aşağıdakı standart üzrə sertifikatlaşdırılmışdır:

ISO 9001
Keyfiyyət idarəetmə sistemləri

ISO 14001
Ətraf mühitin idarəetmə sistemləri[1]

ISO 45001
Əməyin sağlamlığı və təhlükəsizliyinin idarə edilməsi

2025-ci ildə SOCAR Prezidenti tərəfindən "SOCAR-ın Ətraf Mühit üzrə Audit Metodologiyası" təsdiq edilmişdir. Bu metodologiya müəssisələr üzrə daxili ətraf mühit auditlərinin aparılması üçün standartlaşdırılmış yanaşmanı müəyyən edir.

Təsdiq edilmiş Audit Planına uyğun olaraq, Enerji Keçidi, Ətraf Mühit və Dekarbonizasiya seqmenti və "EKOL Mühəndislik Xidmətləri" QSC şirkətinin iştirakı ilə SOCAR Azərbaycan üzrə 40 müəssisədə daxili ətraf mühit auditləri həyata keçirilmiş və ətraf mühitin idarəetmə sisteminin fəaliyyətinin effektivliyi qiymətləndirilmişdir.

Auditlər aşağıdakı tələblərə uyğunluğun qiymətləndirilməsini əhatə etmişdir:

- ISO 14001:2015 standartının tələbləri
- SOCAR üzrə vahid uyğunluq reyestri
- Vahid ətraf mühit aspektləri reyestri

Müəyyən edilmiş uyğunsuzluqlar müəssisələr tərəfindən aradan qaldırılması və davamlı təkmilləşdirmənin təmin edilməsi məqsədilə hesabatlarda əks etdirilmişdir.

1. Ətraf mühitin idarəetmə sistemi (EMS) üzrə sertifikatlaşdırma akkreditasiya olunmuş müstəqil üçüncü tərəf sertifikatlaşdırma qurumları, əsasən Bureau Veritas və TÜV AUSTRIA tərəfindən aparılmış audit və sertifikatlaşdırma əsasında həyata keçirilmişdir.

ƏTRAF MÜHİTİN İDARƏ OLUNMASI ÜZRƏ TƏŞVİQ MEXANİZMLƏRİ

Ətraf mühitin idarə olunması ekoloji fəaliyyət göstəricilərinin sistemli izlənilməsinə və əməliyyatlar üzrə hesabatlılığın gücləndirilməsinə imkan verən əsas fəaliyyət göstəricilərinin (ƏSG-lərin) hazırlanması və tətbiqi vasitəsilə dəstəklənir. SOCAR Azərbaycan İnvestisiya Holdinqi tərəfindən müəyyən edilmiş və istixana qazı emissiyalarının intensivliyinin ölçülməsinə, eləcə də emissiyaların idarə olunmasının təkmilləşdirilməsinə yönəlmiş korporativ səviyyəli "CO_2 emissiyaları" ƏSG-ni tətbiq etmişdir.

Bu ƏSG Müşahidə Şurası tərəfindən təsdiq edilmiş və Şirkətin ümumi fəaliyyət monitorinqi sisteminə inteqrasiya olunmuşdur. Göstərici SOCAR-ın əsas əməliyyat fəaliyyətləri ilə birbaşa əlaqəli emissiyalara fokuslanır. Surət hissəsində "upstream", "midstream" və "downstream" istiqamətlərinin əməliyyatları üzrə Əhatə 1 və Əhatə 2 emissiyalarını əhatə edən ümumi CO_2 emissiyaları əks olunur, məxrəc hissəsində isə Azərbaycan "upstream" istiqaməti üzrə hasilatı və Türkiyə aktivləri üzrə "downstream" istiqaməti istehsalı daxil olmaqla neft ekvivalenti barellə (BOE) ifadə olunan karbohidrogen hasilatı həcmləri göstərilir. Hesabat dövrü üçün ƏSG üzrə proqnoz göstərici bir BOE üçün 42,19 kq CO_2e təşkil etdiyi halda, faktiki nəticə bir BOE üçün 30,85 kq CO_2e olmuşdur.

Ətraf mühit amillərinin əməkdaşların stimullaşdırma mexanizmlərinə inteqrasiyasının digər nümunəsi olaraq, "SOCAR Trading" artıq üçüncü ildir ki, Xərclərin Bölüşdürülməsi Siyasəti vasitəsilə treyderləri daha aşağı karbonlu daşınma həllərindən istifadə etməyə təşviq edən maliyyə stimullaşdırma təşəbbüsünü tətbiq edir. Bu çərçivə çarter edilmiş daşımaların karbon intensivliyinin Enerji səmərəliliyinin əməliyyat göstəricisi (EEOI) əsasında ölçülməsini və Beynəlxalq Dəniz Təşkilatının (IMO) 2050-ci il üzrə mütləq emissiyaların azaldılması hədəfinə uyğun olan Sea Cargo Charter dekarbonizasiya trayektoriyası ilə uyğunluğunu nəzərə alır.

ƏTRAF MÜHİT MONİTORİNQİ

Monitorinq prosesləri SOCAR-ın ətraf mühitin idarə olunması sisteminin əsas komponentlərindən biridir və əməliyyatlar üzrə uyğunluğun, risklərin idarə edilməsinin və davamlı təkmilləşdirmənin təmin edilməsinə xidmət edir. Ətraf mühit və ekoloji monitorinq neft qaz əməliyyat sahələrini əhatə edən "Ekoloji monitorinq proqramı" çərçivəsində həyata keçirilir. Monitorinq fəaliyyətlərinə ətraf mühit nümunələrinin götürülməsi, laborator təhlillər və ekoloji vəziyyətin qiymətləndirilməsi, eləcə də potensial təsirlərin müəyyən edilməsi məqsədilə sahə səviyyəsində yoxlamalar daxildir. Proqram ixtisaslaşmış qurumlar tərəfindən həyata keçirilən kompleks ekoloji monitorinq və SOCAR-ın əməliyyat bölmələri tərəfindən aparılan müəssisə səviyyəli monitorinqi birləşdirən ikiqat yanaşma əsasında icra olunur.

2025-ci ildə "EKOL Mühəndislik Xidmətləri" QSC şirkətinin iştirakı ilə 62 kompleks ekoloji monitorinq kampaniyası və müəssisə səviyyəsində 383 monitorinq fəaliyyəti həyata keçirilmiş, ümumilikdə 3 587 ətraf mühit nümunəsi toplanaraq təhlil edilmişdir. Monitorinq fəaliyyətləri mərkəzləşdirilmiş qaydada əlaqələndirilir və nəticələr vahid məlumat bazasında toplanır. Monitorinq fəaliyyətlərinə daha strukturlaşdırılmış və gələcəyə yönəlmiş yanaşmanı gücləndirmək məqsədilə 2026–2028-ci illəri əhatə edən orta müddətli "Ekoloji monitorinq proqramı" təsdiq edilmişdir.

Monitorinq nəticələri SOCAR-ın "upstream" istiqaməti üzrə əməliyyatları üzrə sahəyə xas ekoloji şərait və əməliyyat boşluqları barədə məlumat verir. Əsas nəticələr əsasən dəniz və quru mühitlərində uzunmüddətli sənaye təsirləri, tullantıların idarə olunması təcrübələri, lay sularının idarə olunması sistemləri və istehsalat sahələrində infrastrukturun vəziyyəti ilə bağlı olmuşdur. Monitorinqlər nəticəsində tullantıların toplanması, saxlanılması və çeşidlənməsi proseslərində çatışmazlıqlar, çirkab suların idarə olunması ilə bağlı lokal problemlər, həmçinin dənizdə yerləşən əməliyyat sahələrindən götürülmüş dəniz suyu və dib çöküntüsü nümunələrində neft məhsullarının və bəzi çirkləndirici maddələrin yüksək konsentrasiyaları müəyyən edilmişdir. Quruda yerləşən bir sıra istehsalat sahələrində aparılan monitorinqlər zamanı torpaqların deqradasiyası, eroziya proseslərinin intensivləşməsi, bitki örtüyünün sıxlığının azalması, bitki örtüyünün bərpa potensialının zəifləməsi və təbii landşaftların sənaye mühitinə çevrilməsi ilə əlaqədar fauna tərkibində dəyişikliklər müşahidə edilmişdir. Monitorinq nəticələri hasilat aktivlərində məqsədyönlü düzəldici tədbirlərin və ətraf mühitin yaxşılaşdırılması tədbirlərinin həyata keçirilməsinə əsas yaratmışdır.

"Midstream" istiqamətinin əməliyyatları üzrə aparılan ətraf mühit monitorinqləri əsasən atmosferə atılan emissiyalar, səs-küy səviyyələri və su təsərrüfatı infrastrukturu ilə bağlı məsələləri müəyyən etmişdir. Əsas müşahidələrə ayrı-ayrı əməliyyat sahələrində uçucu üzvi birləşmələrin (VOC) yüksək konsentrasiyaları, lokal səs-küy normativlərinin aşılması, habelə dövri su təchizatı və təmizləmə sistemlərinin təkmilləşdirilməsi imkanları daxildir. Monitorinq nəticələri ətraf mühitə təsirlərin azaldılması və sistemlərin etibarlılığının artırılması məqsədilə məqsədyönlü infrastruktur təkmilləşdirmələrinin, əməliyyat nəzarəti tədbirlərinin və ətraf mühitin idarə olunması tədbirlərinin həyata keçirilməsinə əsas yaratmışdır.

"Downstream" istiqamətinin əməliyyatları üzrə aparılan ətraf mühit monitorinqləri əsasən tullantıların idarə olunması təcrübələri, çirkab suların təmizlənməsi sistemləri, sənaye tullantılarının idarə olunması və lokal əməliyyat çirklənməsi ilə bağlı məsələləri müəyyən etmişdir. Əsas müşahidələrə tullantıların çeşidlənməsi təcrübələrinin, çirkab suların təmizlənməsi sistemlərinin fəaliyyətinin, habelə bəzi tullantı axınlarının saxlanılması və idarə olunması proseslərinin təkmilləşdirilməsi imkanları daxildir. Karbamid Zavodunda potensial metan və ammonyak sızmalarının aşkar edilməsi və idarə olunmasını dəstəkləmək məqsədilə metanın aşkarlanması və sızmaların müəyyən edilməsi üçün avadanlıqlar quraşdırılmaqla ətraf mühit monitorinqi imkanları daha da gücləndirilmişdir. Monitorinq nəticələri "downstream" istiqamətinin aktivləri üzrə düzəldici tədbirlərin və davamlı təkmilləşdirmə tədbirlərinin həyata keçirilməsinə əsas yaratmışdır.

Monitorinq fəaliyyətlərinin nəticələri sistemli şəkildə ətraf mühitin idarə olunması proseslərinə inteqrasiya edilir. Müəyyən edilmiş boşluqlar monitorinq sistemlərinin təkmilləşdirilməsi, tullantıların idarə olunması təcrübələrinin gücləndirilməsi və ekoloji infrastrukturun inkişaf etdirilməsi daxil olmaqla məqsədyönlü tədbirlər vasitəsilə aradan qaldırılır. Bu tədbirlər ekoloji risklərin azaldılmasını dəstəkləyir və SOCAR-ın əməliyyatları üzrə ətraf mühit göstəricilərinin davamlı təkmilləşdirilməsinə töhfə verir.

İSTİXANA QAZI EMİSSİYALARININ İDARƏ EDİLMƏSİ

EMİSSİYALARIN ÖLÇÜLMƏSİ TEXNOLOGİYALARI VƏ METODOLOGİYASI

SOCAR istixana effekti yaradan qaz (İEYQ) emissiyalarını GHG Protocol, IPCC AR5 (2014) emissiya əmsalları və ISO 14064-1 daxil olmaqla beynəlxalq səviyyədə tanınmış metodologiya və standartlara uyğun olaraq hesablayır. Eyni zamanda hesabatlılıq BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC) çərçivəsində milli inventar yanaşmaları ilə uyğunlaşdırılır ki, bu da korporativ açıqlamalar ilə ölkə səviyyəli hesabatlılıq arasında ardıcıllığı dəstəkləyir. Şirkət İEYQ emissiyalarının uçotu üçün əməliyyat nəzarəti (operational control) yanaşmasını tətbiq edir və bununla da hesabat verilən emissiyaların həm əməliyyatçı olduğu, həm də əməliyyatçı olmadığı aktivlərdəki payını əks etdirməsini, eyni zamanda dəyər zənciri üzrə əməliyyat məruz qalması və iqlim hədəfləri ilə uyğunluğunu təmin edir. Aktivlərin növündən, əməliyyat şəraitindən və məlumatların mövcudluğundan asılı olaraq SOCAR emissiyaları birbaşa ölçmə və əmsal əsaslı hesablama metodologiyalarının kombinasiyası vasitəsilə müəyyən edir. Bu yanaşma xüsusilə metan emissiyaları üzrə ölçməyə əsaslanan emissiya uçotuna mərhələli keçidi dəstəkləyir.

Emissiyaların ölçülməsi və hesabatlılığı proseslərini dəstəkləmək məqsədilə SOCAR aktivlər üzrə emissiya məlumatlarının sistemli toplanması, təsdiqlənməsi, konsolidasiyası və idarə olunması üçün korporativ səviyyəli MRV (Measurement, Reporting and Verification) çərçivəsi yaratmışdır. Bu çərçivə müxtəlif əməliyyat və monitorinq mənbələrindən emissiya məlumatlarının mərkəzləşdirilmiş emissiya idarəetmə prosesinə inteqrasiyasını dəstəkləyir və dəyər zənciri üzrə açıqlanan məlumatların ardıcıllığını və izləniləbilənliyini gücləndirir. Şirkət emissiyaların idarə olunması sistemlərinin davamlı inkişafı çərçivəsində monitorinq əhatəsini genişləndirməyə və emissiyaların hesablanması metodologiyalarını təkmilləşdirməyə davam edir.

Emissiyaların aşkarlanması və hesablanmasının təkmilləşdirilməsi məqsədilə SOCAR əməliyyatlarında qabaqcıl monitorinq texnologiyalarını tətbiq edir. Bunlara metan emissiyalarının aşkarlanması üçün peyk və dron əsaslı monitorinq, emissiya mənbələrinin müəyyən edilməsi üçün optik qaz görüntüləmə (OGI) texnologiyaları və müəyyən edilmiş sızma nöqtələrində metanın həcminin hesablanması üçün yüksək axınlı ölçmə metodları daxildir. Bu texnologiyalar müxtəlif monitorinq mənbələrindən əldə olunan məlumatları birləşdirərək mərkəzləşdirilmiş təhlil, emissiyaların izlənməsi və əməliyyatlar üzrə emissiyaların dəyişmə dinamikasının müəyyən edilməsini dəstəkləyən Methane AI platforması kimi rəqəmsal həllərlə tamamlanır. Bu platforma vasitəsilə emissiyaların daha dəqiq, birbaşa ölçmələrə əsaslanan və real vaxt rejimində monitorinqinin həyata keçirilməsi təmin edilir.

Bu sistemlər "upstream" istiqaməti üzrə əməliyyat emissiyaların müəyyən edilməsi, monitorinqi və aradan qaldırılması üçün strukturlaşdırılmış yanaşma təmin edən sızmaların aşkarlanması və təmiri proqramı (LDAR) ilə tamamlanır. SOCAR-ın LDAR proqramı "upstream" istiqaməti üzrə əməliyyatları və qaz infrastrukturu üzrə emissiya mənbələrinin müəyyən edilməsi, ölçülməsi və aradan qaldırılmasına yönəlmiş metan idarəetmə sisteminin əsas komponentidir. Qabaqcıl aşkarlama texnologiyalarına və beynəlxalq səviyyədə tanınmış metodologiyalara əsasən həyata keçirilən proqram emissiya mənbələrinin məqsədli şəkildə təmirinə, əməliyyat səmərəliliyinin artırılmasına və emissiyaların azaldılmasına imkan yaradır. Proqram eyni zamanda sertifikatlaşdırılmış "upstream" istiqamətində emissiyalarının azaldılması layihələri vasitəsilə beynəlxalq karbon bazarı mexanizmlərinə uyğun olaraq, həm ekoloji, həm də iqtisadi dəyər yaradan təşəbbüs kimi əhəmiyyətini artırmışdır.


Bununla yanaşı, məlumatların tam dəqiqliyi və müqayisəliliyinin təmin olunması istiqamətində müəyyən çətinliklər qalmaqdadır. Ölçmə metodologiyalarındakı fərqlər, köhnə infrastruktur məhdudiyyətləri və beynəlxalq hesabatlılıq standartlarının inkişafı emissiyaların hesablanmasına təsir göstərməyə davam edir. Bundan əlavə, monitorinq texnologiyalarının təkmilləşdirilməsi və emissiyaların aşkarlanma əhatəsinin genişləndirilməsi zamanla açıqlanan emissiyalarda dəyişikliklərə səbəb ola bilər ki, bu da həm məlumat keyfiyyətinin yaxşılaşmasını, həm də şəffaflığın artmasını əks etdirir.

SOCAR monitorinq əhatəsinin genişləndirilməsi, qabaqcıl texnologiyaların tətbiqi və rəqəmsal imkanların inkişaf etdirilməsi vasitəsilə emissiyaların ölçülməsi sistemini davamlı olaraq təkmilləşdirir və bununla da əməliyyatlar üzrə İEYQ emissiyalarının daha dəqiq, şəffaf formada hesabatlılığını təmin edir.

İLLIK İEYQ EMİSSİYALARI

2025-ci ildə SOCAR-ın ümumi istixana qazı (İQ) emissiyaları 17 080 min ton CO_2 ekvivalenti təşkil etmiş və bu göstərici 2024-cü illə müqayisədə azalmışdır. Qrupun emissiya profilində əsas pay Azərbaycandakı əməliyyatların, xüsusilə neft və qaz hasilatı zamanı yaranan metan emissiyalarının üstünlük təşkil etdiyi "upstream" istiqaməti üzrə fəaliyyətlərinin payına düşmüşdür. Aktivlər üzrə ən yüksək emissiya göstəriciləri 4 592 min ton CO_2 ekvivalenti ilə "Azneft" İstehsalat Birliyinə, 2 987 min ton CO_2 ekvivalenti ilə isə STAR Neft Emalı Zavoduna məxsus olmuşdur.

Şəkil 17. SOCAR Trading üzrə Əhatə 3 İEYQ emissiyaları, min ton CO_2 ekv.



Bu hesabatda açıqlanan ümumi istilik effekti yaradan qazları emissiyaları SOCAR-ın əməliyyatları üzrə Əhatə 1 və Əhatə 2 emissiyalarını əhatə edir. Hazırkı mərhələdə Əhatə 3 emissiyaları yalnız SOCAR Trading üzrə hesablanır və açıqlanır. SOCAR Trading Qrupun gəlirlərinin təxminən 60%-ni formalaşdırır və Qrupun dəyər zənciri emissiyalarının əhəmiyyətli hissəsini təmsil edir.


EMİSSİYALARIN ƏSAS AMİLLƏRI VƏ İLLİK DƏYİŞİKLİKLƏR

2025-ci ildə ümumi İEYQ emissiyalarının illik müqayisədə azalması əsasən SOCAR əməliyyatları üzrə həyata keçirilmiş əməliyyat təkmilləşdirmələri və məqsədyönlü emissiya azaldılması tədbirləri ilə bağlı olmuşdur. Əsas töhfələrdən biri "Azneft" İstehsalat Birliyi, "Azəriqaz" İstehsalat Birliyi və Qaz İxrac İdarəsi üzrə əvvəllər müəyyən edilmiş sızma mənbələrinin aradan qaldırılması olmuşdur ki, nəticədə təxminən 1,23 milyon ton CO_2 ekvivalenti və ya təxminən 44 min ton metan emissiyası azalmışdır. Bu nəticə əsasən SOCAR-ın LDAR proqramının davamlı tətbiqini və genişləndirilməsini əks etdirir və metan emissiyalarının idarə olunması sahəsində mühüm əməliyyat nailiyyəti hesab olunur. Əlavə emissiya azalmaları "Neft Daşları" NQÇİ səmt qazın atmosferə buraxılmasının qarşısını almaq məqsədilə altı müasir kompressor qurğusunun quraşdırılması daxil olmaqla infrastruktur təkmilləşdirmələri vasitəsilə dəstəklənmişdir. Bu tədbirlər qazdan istifadənin səmərəliliyinin artırılmasına və qazın atmosferə birbaşa atılmasının azaldılmasına töhfə vermişdir.


QRUP ÜZRƏ CƏM[1]	ƏHATƏ 1	ƏHATƏ 2	ƏHATƏ DAİRƏSİ
17 080 min ton CO_2ekv	**12 840** min ton CO_2ekv	**4 240** min ton CO_2ekv	**3+1**
2025-ci il üzrə ümumi emissiyalar	Ümumi emissiyaların təxminən 75%-i	Yerləşmə əsaslı · satın alınmış elektrik enerjisi	AZ · TR · GE + digər müəssisələr[2]

Əvvəlki illə müqayisədə emissiyalar "Azneft" İstehsalat Birliyində 21%, Qaz İxrac İdarəsində isə 33% azalmışdır. Metanol Zavodunda və Karbamid Zavodunda da emissiyalar əsasən təbii qazın yandırılmasının azalması nəticəsində müvafiq olaraq 54% və 38% azalmışdır. Bu azalmalar hesabat ili ərzində əməliyyat fəaliyyətinin və emal həcmlərinin artması ilə əlaqədar HAOR və STAR Neft Emalı Zavodu da daxil olmaqla bəzi "downstream" istiqaməti üzrə aktivlərdə emissiyaların təxminən 18% artması ilə qismən ixtisar olunmuşdur.

Şəkil 18. 2025-ci ildə coğrafi bölgü üzrə İEYQ emissiyaları, min ton CO_2 ekv.



Şəkil 19. SOCAR (Azərbaycan) üzrə seqmentlər üzrə İEYQ emissiyaları, 2025, min ton CO_2 ekv.



1. İEYQ emissiyaları Davamlı İnkişaf Hesabatı 2025-in hesabatlılıq sərhədlərinə daxil olan bütün müəssisələr üzrə əməliyyat nəzarəti yanaşması əsasında hesablanmışdır.
2. Digər müəssisələrə aşağıdakılar daxildir: "SOCAR Energy Ukraine" MMC; "SOCAR Energy Holdings AG", o cümlədən "SOCAR Energy Austria GmbH" və "SOCAR Energy Switzerland GmbH"; "SOCAR Trading SA".

ƏHATƏ 1 VƏ ƏHATƏ 2

Şəkil 20. 2023–2025-ci illərdə əsas emissiya mənbələri üzrə Əhatə 1 və Əhatə 2 emissiyalarının dinamikası, min ton CO_2ekv

■ ƏHATƏ 1 EMİSSİYALARI ■ ƏHATƏ 2 EMİSSİYALARI

MÜƏSSİSƏ	2023	2024	2025	3 İLLİK DİNAMİKA
AZE SOCAR (AZƏRBAYCAN)	8 367,5 — S1: 7 112,7 S2: 1 254,8	10 509,1 — S1: 9 590,5 S2: 918,6	9 584,1 — S1: 8 472,4 S2: 1 111,6	2025-ci il 2024-cü illə müqayisədə ▼8,8% **925 min ton**
TR SOCAR TÜRKİYƏ[1]	4 887,1 — S1: 4 377 S2: 510,13	4 316,4 — S1: 3 821,8 S2: 494,6	4 795,3 — S1: 4 212,4 S2: 582,9	2025-ci il 2024-cü illə müqayisədə ▲11,1% **478.9 min ton**
GE SOCAR ENERGY GEORGIA	3 052 — S1: 128,6 S2: 2 924	3 065,7 — S1: 118,7 S2: 2 947	2 667 — S1: 127 S2: 2 540	2025-ci il 2024-cü illə müqayisədə ▼13,0% **398,7 min ton**



1. Bursagaz və Kayserigaz Təbii Qaz Paylayıcı Şirkətlərinin satışından sonra SOCAR Türkiyə üzrə hesabatlılıq əhatə dairəsi dəyişmişdir. Buna uyğun olaraq, 2025-ci il üzrə məlumatlara bu müəssisələr daxil edilməmişdir.

"UPSTREAM" İSTİQAMƏTİ ÜZRƏ METAN İNTENSİVLİYİ

2035-Cİ İLƏDƏK SIFIRA YAXIN EMİSSİYAYA DOĞRU MƏQSƏDYÖNLÜ AZALMA YOLU


"UPSTREAM" İSTİQAMƏTİ CH_4
129,9 min ton CH_4
Ümumi CH_4 emissiyalarının 82%-i (159 min ton)

"AZNEFT" İB
128,3 min ton CH_4
>75%-i qazın atmosferə birbaşa atılması emissiyalarıdır

2025-Cİ İL ÜZRƏ "UPSTREAM" İSTİQAMƏTİ CH_4 İNTENSİVLİYİ
1.4%
Pay iştirakı əsasında

2025-Cİ İL ÜZRƏ "UPSTREAM" İSTİQAMƏTİ CH_4 İNTENSİVLİYİ
2.5%
Əməliyyat nəzarəti əsasında

METAN EMİSSİYALARININ MƏNBƏLƏRİ



- "Upstream" istiqaməti — 130 min ton CH_4 · ümumi metan emissiyalarının 82%-i — **130**
- "Midstream" və "Downstream" istiqamətləri — 29 min ton CH_4 · 18% — **29**

78%

"Azneft" İB-nin (ən yüksək emissiya yaradan aktiv) ümumi İEYQ emissiyalarının **78%-i** metan emissiyaları ilə əlaqədardır ki, bu da metan emissiyalarının azaldılmasını SOCAR-ın dekarbonizasiya yol xəritəsinin əsas istiqamətlərindən birinə çevirir.

"UPSTREAM" İSTİQAMƏTİ ÜZRƏ METAN EMİSSİYALARININ MƏNBƏLƏRİ

>75%

"Azneft" İB üzrə 128,3 min ton CH_4 təşkil edən metan emissiyalarının >75%-i qazın birbaşa atmosferə atılması ilə əlaqədardır.

"Upstream" istiqaməti üzrə metan emissiyaları əsasən qazın atmosferə birbaşa atılmasından və köhnəlmiş infrastruktura malik yetkin "upstream" istiqaməti üzrə aktivlərində, o cümlədən kompressorlar, boru kəmərləri və avadanlıqlardakı sızmalarla əlaqəli nəzarətsiz emissiya mənbələrindən yaranır.

2025-Cİ İL ÜZRƏ AZALTMA TƏDBİRLƏRİNİN TƏSİRİ

44 min ton CH_4

Emissiyaların azaldılması "Azneft" İB, "Azəriqaz" İB və Qaz İxrac İdarəsində həyata keçirilmişdir.

- SIZMALARIN AŞKARLANMASI VƏ ARADAN QALDIRILMASI PROQRAMLARI
- KOMPRESSORLARIN MODERNLƏŞDİRİLMƏSİ
- BORU KƏMƏRLƏRİNİN TƏMİRİ VƏ BƏRPASI

2035-Cİ İLƏ QƏDƏR SIFIRA YAXIN SƏVİYYƏYƏ DOĞRU TRAEKTORİYA

2025 · MÖVCUD SƏVİYYƏ
1.4%
"Upstream" istiqaməti üzrə metan intensivliyi

→

2035 · HƏDƏF
≈0
Sıfıra yaxın intensivlik · kapitalda iştirak payı əsasında

Metan intensivliyi pay iştirakı (equity share) əsasında hesabatlılıq yanaşmasına uyğun olaraq ümumi CH_4 emissiyalarının iştirak payına düşən təbii və səmt qazı hasilatındakı metan kütləsinə nisbəti kimi hesablanır.

YANAŞMA VƏ TƏRƏFDAŞLIQLAR

Metan emissiyaları "upstream" istiqaməti üzrə İEYQ emissiyalarına əhəmiyyətli töhfəsi və yüksək qlobal istiləşmə potensialı nəzərə alınmaqla SOCAR üçün əsas prioritet istiqamətlərdən biridir. Metan emissiyalarının azaldılması məhsul itkilərinin minimuma endirilməsi yolu ilə həm yaxınmüddətli dekarbonizasiya hədəflərinə, həm də əməliyyat səmərəliliyinin artırılmasına xidmət edir.

Metan emissiyaları birbaşa ölçmələr, dron və peyk monitorinqi, həmçinin süni intellekt dəstəyi ilə kəmiyyət qiymətləndirməsi metodologiyaları vasitəsilə hesablanır. Ölçmə texnologiyaları və hesabatlılıq təcrübələri inkişaf etdikcə, məlumatların keyfiyyətinin yüksəlməsi, aşkarlama əhatəsinin genişlənməsi və hesabatlılığın dəqiqliyinin artması nəticəsində açıqlanan metan emissiyalarında zamanla dəyişikliklər baş verə bilər.

OGMP 2.0
NEFT VƏ QAZ ÜZRƏ METAN TƏRƏFDAŞLIĞI

OGCI
NEFT VƏ QAZ İQLİM TƏŞƏBBÜSÜ

AZALTMA ALƏTLƏRİ

- **Sızmaların aşkarlanması və aradan qaldırılması** — Hədəfli bağlama proqramları
- **Texnoloji aktivlərin təkmilləşdirilməsi** — Məcburi ventilyasiyanın azaldılması
- **Təkmilləşdirilmiş monitorinq** — OGI · peyk · dron · süni intellekt
- **Qazın idarə olunmasının optimallaşdırılması** — Sistemin bütövlüyü

"SOCAR QRUP" ÜZRƏ "UPSTREAM" İSTİQAMƏTİ EMİSSİYALARI

"Azneft" İB + Əməliyyat Şirkətləri (ƏŞ)

NEFT HASILATI	TƏBİİ QAZ + SƏMT QAZI	METAN CH_4[1]	CO_2 EMİSSİYALARI	"UPSTREAM" İSTİQAMƏTİ METAN İNTENSİVLİYİ[2]
7,1 mln ton	**7,8 mlrd m³**	**128,7 min ton**	**4,9 mln ton CO_2**	**2,5%**

	Neft Daşları	28 May	N.Nərimanov	Əməliyyat Şirkətləri
Neft	1,2 Mln ton	3 Mln ton	0,4 Mln ton	1,5 Mln ton
Təbii qaz	-	2,5 Mlrd m³	0,97 Mlrd m³	2,9 Mlrd m³
Səmt qazı	0,1 Mlrd m³	1,1 Mlrd m³	0,2 Mlrd m³	-
CH_4	78,4 Min ton	14,7 Min ton	16,3 Min ton	0,44 Min ton
CO_2e	2,4 Mln ton	0,91 Mln ton	0,62 Mln ton	0,31 Mln ton

1. "Azneft" İB-nin Qaz Anbarlarının İstismarı İdarəsi üzrə metan emissiyaları (13,5 min ton CH_4) və İEYQ emissiyaları (0,45 mln ton CO_2e) açıqlanan ümumi emissiyalara daxil edilmiş, lakin ayrıca sətir kimi təqdim edilməmişdir.
2. Təqdim olunan "upstream" istiqaməti üzrə metan intensivliyi əməliyyat nəzarəti (operational control) yanaşması əsasında hesablanmışdır və istismar olunan aktivlərin CH_4 emissiyalarını və hasil edilmiş qazın CH_4 tərkibini əks etdirir.

	Abşeronneft	Bibiheybətneft	Əli Əmirov	Siyəzənneft
Neft	0,69 Mln ton	0,14 Mln ton	0,1 Mln ton	0,04 Mln ton
Təbii qaz	0,01 Mlrd m^3	-	0,01 Mlrd m^3	-
Səmt qazı	0,02 Mlrd m^3	0,02 Mlrd m^3	0,002 Mlrd m^3	0,006 Mlrd m^3
CH_4	4.1 Min ton	0,61 Min ton	0,51 Min ton	0,48 Min ton
CO_2 ekv.	0,15 Mln ton	0,03 Mln ton	0,03 Mln ton	0,03 Mln ton

DEKARBONİZASİYA PROQRAMI

2025-ci ildə SOCAR əməliyyatları üzrə emissiyaların azaldılması yanaşmasını müəyyən edən Qrup üzrə Dekarbonizasiya Yol Xəritəsi hazırlanmışdır. Yol xəritəsi biznes vahidləri üzrə planlaşdırılmış təşəbbüslərin təxmini təsirini özündə əks etdirir və istixana effekti yaradan qaz (İEYQ) emissiyalarının idarə olunmasına strukturlaşdırılmış yanaşmanı nümayiş etdirir. SOCAR-ın dekarbonizasiya fəaliyyəti dörd əsas azaldıcı istiqamət ətrafında formalaşdırılmışdır: enerji səmərəliliyinin artırılması və daha təmiz texnologiyaların tətbiqi, səmt qazından yaranan emissiyaların, o cümlədən qazın məşəldə yandırma və qazın atmosferə birbaşa atılmasının azaldılması, alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, həmçinin İEYQ emissiyalarının ölçülməsi, monitorinqi və hesabatlılığının gücləndirilməsi.

Dekarbonizasiya tədbirləri SOCAR-ın dəyər zəncirinin bütün seqmentləri üzrə həyata keçirilir və hər bir seqmentin spesifik əməliyyat xüsusiyyətlərini əks etdirir. "Upstream" istiqaməti üzrə əməliyyatlarda əsas diqqət səmt qazından yaranan emissiyaların azaldılmasına, diffuz emissiyaların minimuma endirilməsinə və hasilat proseslərinin optimallaşdırılmasına yönəlmişdir. Bu tədbirlər LDAR proqramları, qazın atmosferə birbaşa atılmasının azaldılması üzrə mühəndislik həlləri, həmçinin kompressor və qızdırıcı sistemlərin elektrikləşdirilməsi ilə dəstəklənir. "Midstream" istiqamətində prioritet istiqamətlər boru kəmərlərinin bütövlüyünün gücləndirilməsi və ötürmə itkilərinin azaldılmasıdır. Bu istiqamətdə əsas diqqət LDAR proqramlarının tətbiqinə və sistem etibarlılığının artırılmasına yönəldilmişdir. "Downstream" istiqaməti üzrə əməliyyatlarında isə tədbirlər enerji səmərəliliyinin artırılmasına fokuslanır və bunlara məşəl qazının bərpası sistemləri, qazanxanaların elektrikləşdirilməsi, yanacaq istifadəsinin optimallaşdırılması, neft emalı və neft-kimya müəssisələrində proseslərin təkmilləşdirilməsi, eləcə də karbon tutma texnologiyalarının tətbiqi daxildir.


Bu tədbirlər əməliyyat emissiyalarının əhəmiyyətli hissəsini əhatə etsə də, texnoloji və ya əməliyyat məhdudiyyətləri səbəbindən tam aradan qaldırıla bilməyən qalıq emissiyaların karbon kompensasiyası mexanizmləri vasitəsilə idarə olunacağı nəzərdə tutulur ki, bu da Şirkətin ümumi dekarbonizasiya trayektoriyasını dəstəkləyir.



Enerji səmərəliliyinin artırılması və təmiz texnologiyaların tətbiqi




Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə



Səmt qazı emissiyalarının azaldılması



İEYQ emissiyalarının ölçülməsi və hesabatlılığı imkanlarının təkmilləşdirilməsi




Qaz sızması mənbələrinin aradan qaldırılması

DEKARBONİZASİYA YOL XƏRİTƏSİ

2050-ci ilədək Xalis Sıfır[1] hədəfinə aparan yolumuz bu gün əməliyyat mükəmməlliyinə və uzunmüddətli texnoloji transformasiyaya əsaslanır.

XALİS SIFIRA APARAN YOLUMUZ



Təşəbbüs	2025	2030-cu illər	2040-cı illər
LDAR (Sızmaların aşkarlanması və təmiri)	●●●	●●○	●○○
Qazxaricetmə üzrə Mühəndislik Həlləri	●●●	●●○	●○○
Aktivlərin elektrikləşdirilməsi	○○○	●●●	●●●
Bərpa olunan enerji istehlakının artırılması	●○○	●●○	○○○
Karbonun tutulması, istifadəsi və saxlanılması (CCUS)	○○○	●●●	●●○
Karbon kompensasiyaları (Qalıq emissiyaların neytrallaşdırılması)	○○○	○○○	●○○

Azaltma tədbirlərinin tətbiq intensivliyi (illüstrativ)

○○○	●○○	●●○	●●●
Yoxdur	Aşağı	Orta	Yüksək

1. Dekarbonizasiya yol xəritəsi SOCAR-ın əməliyyat, texnoloji və bazar şəraitinin mövcud qiymətləndirilməsinə əsaslanır. Bu amillər dəyişdikcə emissiyaların baza göstəriciləri, layihə portfeli, icra müddətləri və müvafiq azaldılma həcmləri müvafiq olaraq yenilənə bilər.

ENERJİNİN İDARƏ EDİLMƏSİ VƏ SƏMƏRƏLİLİYİ

SOCAR QRUPU[1] ÜZRƏ ELEKTRİK ENERJİSİ İSTEHLAKI
~2 906 QVt·st
▲ 2024-cü illə müqayisədə 8,6%

BƏRPA OLUNAN ENERJİ İSTEHSALI
132 211 MVt·st
SOCAR Qrupu

SOCAR QRUPU ÜZRƏ TƏBİİ QAZ İSTEHLAKI
~2 375 mln m³
▲ 2024-cü illə müqayisədə 0,3%

ÜMUMİ ENERJİ İSTEHLAKI
~25 796 QVt·st

ENERJİNİN İDARƏ OLUNMASI VƏ ENERJİ SƏMƏRƏLİLİYİ

SOCAR, "upsteam", "midstream", və "downstream" istiqamətləri üzrə fəaliyyətlərində enerji səmərəliliyinin artırılması, əməliyyat itkilərinin azaldılması və alternativ enerji mənbələrinin mərhələli inteqrasiyasını dəstəkləmək məqsədilə enerji istehlakını ətraf mühit və əməliyyat fəaliyyətinin əsas komponenti kimi idarə edir. Enerji istifadəsi neft və qaz əməliyyatlarının xarakteri ilə sıx bağlı olduğundan idarəetmə tədbirləri enerji tutumlu proseslərin optimallaşdırılmasına, avadanlıqların enerji səmərəliliyinin artırılmasına və ümumi əməliyyat nəzarətinin gücləndirilməsinə yönəldilmişdir. Enerjinin idarə olunması təcrübələri texnoloji modernləşdirmə, monitorinq sistemləri, əməliyyat optimallaşdırılması tədbirləri, daxili auditlər enerji qənaəti və səmərəli istifadə üzrə əməkdaş təlimlərinin kombinasiyası vasitəsilə həyata keçirilir.

ENERJİ SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI TƏDBİRLƏRİ

2025-ci ildə SOCAR əməliyyat aktivləri üzrə enerji istifadəsinin səmərəliliyinin artırılmasına yönəlmiş məqsədyönlü tədbirlərin həyata keçirilməsini davam etdirmişdir. Bu tədbirlər avadanlıqların iş göstəricilərinin optimallaşdırılmasına, lazımsız enerji istehlakının azaldılmasına və enerji tutumlu proseslər üzərində nəzarətin gücləndirilməsinə fokuslanmışdır.

Karbamid Zavodunda elektrik qızdırıcılarının fəaliyyətini ətraf mühit temperaturuna uyğun tənzimləyən avtomatlaşdırılmış idarəetmə sistemi tətbiq edilmişdir. Bu sistem isitmə proseslərinin daha dəqiq idarə olunmasına və dəyişən ətraf mühit şəraitində artıq enerji istehlakının azaldılmasına imkan yaradır. Bununla yanaşı, SCADA sisteminin tətbiqi elektrik yükünün paylanması üzərində nəzarəti gücləndirmiş, müəssisə üzrə enerji istifadəsinin səmərəliliyini və etibarlılığını artırmışdır.

"Upstream" istiqaməti üzrə əməliyyatlarda enerji istifadəsinin yaxşılaşdırılması və qazın idarə olunması ilə bağlı itkilərin azaldılması məqsədilə əlavə tədbirlər həyata keçirilmişdir. “Neft Daşları” yatağında səmt qazının məşəldə yandırılmasının qarşısını almaq və onun enerji resursu kimi istifadəsini təmin etmək məqsədilə kompressor qurğuları quraşdırılmışdır. Bu yanaşma mövcud enerji resurslarından daha səmərəli istifadəyə imkan yaratmaqla yanaşı, qazın məşəldə yandırılmasının azalması hesabına emissiyaların azaldılmasına da töhfə verir.

ALTERNATİV VƏ BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİNİN İNKİŞAFI

SOCAR əməliyyatları üzrə alternativ enerji həllərinin tətbiqini genişləndirməyə davam etmiş və əsas diqqəti mövcud infrastruktura bərpa olunan enerji mənbələrinin inteqrasiyasına yönəltmişdir. Bu təşəbbüslər enerji təchizatının şaxələndirilməsini dəstəkləyir və hədəflənən əməliyyat sahələrində ənənəvi enerji mənbələrindən asılılığın azaldılmasına töhfə verir.

2025-ci ildə müxtəlif əməliyyat aktivlərində günəş enerjisi sistemləri tətbiq edilmişdir. Şimal İxrac Boru Kəmərində katod mühafizə stansiyalarının elektrik enerjisi ilə təmin olunması məqsədilə quraşdırılmış günəş panelləri 14 580 kWh elektrik enerjisi istehsal etmişdir. Qazpaylayıcı əməliyyatlarda qazpaylayıcı stansiyalarda və orta təzyiqli qaz kəmərlərində qaz ölçmə avadanlıqlarının enerji tələbatını qarşılamaq məqsədilə günəş panelləri quraşdırılmış və 65 qurğu bu sistem vasitəsilə fəaliyyət göstərmişdir. Bundan əlavə, Geofizika və geologiya İdarəsində 50 günəş enerjisi ilə işləyən işıqlandırma qurğusu quraşdırılmış və bununla da uzaq və ya infrastruktur baxımından məhdud ərazilərdə bərpa olunan enerji istifadəsi dəstəklənmişdir.

Bununla paralel olaraq, SOCAR "downstream" istiqaməti üzrə aktivlər portfeli çərçivəsində daxili bərpa olunan enerji istehsalı güclərinin inkişafını davam etdirmişdir. 2025-ci ildə PETKİM-də fəaliyyət göstərən külək elektrik stansiyaları 132 211 000 kWh elektrik enerjisi istehsal etmişdir ki, bu da daxili bərpa olunan enerji istehsalına mühüm töhfə vermiş və sənaye əməliyyatlarında daha aşağı karbonlu enerji istifadəsinin inteqrasiyasını dəstəkləmişdir.

Aşağı emissiyalı nəqliyyat infrastrukturu sahəsində SOCAR Petroleum yanacaqdoldurma məntəqələrində quraşdırılmış elektrikli nəqliyyat vasitələri üçün enerji doldurma qurğularının sayı 14-ə çatmışdır. Bundan əlavə, azad edilmiş ərazilərdə yerləşən bir yanacaqdoldurma məntəqəsi günəş enerjisi sistemləri vasitəsilə fəaliyyət göstərir ki, bu da yeni infrastruktur layihələrində bərpa olunan enerji həllərinin tətbiqini nümayiş etdirir.

1. Bu hesabatın məqsədləri üçün SOCAR Qrupu üzrə hesabatlılıq əhatə dairəsinə SOCAR (Azərbaycan), SOCAR Türkiyə, SOCAR Energy Georgia, SOCAR Energy Austria, SOCAR Energy Ukraine, SOCAR Energy Switzerland və SOCAR Trading SA daxildir.

Cədvəl 3. SOCAR Qrupu üzrə elektrik enerjisi istehlakı, 2023–2025-ci illər, min kVt·st

Müəssisə	2023	2024	2025	İllik dəyişmə
SOCAR üzrə – cəmi	**2 862 233**	**2 676 168**	**2 905 934**	▲ 8,6%
SOCAR (Azərbaycan)	1 295 521	1 288 334	1 387 379	▲ 7,7%
SOCAR Türkiyə	1 514 448	1 335 102	1 470 454	▲ 10,1%
SOCAR Energy Georgia	27 584	27 803	23 965	▼ 13,8%
SOCAR Energy Ukraine	10 448	10 634	10 210	▼ 4,0%
SOCAR Energy Switzerland	9 776	9 775	9 312	▼ 4,7%
SOCAR Energy Austria	3 936	3 938	4 000	▲ 1,6%
SOCAR Trading	520	582	614	▲ 5,0%

Cədvəl 4. SOCAR Qrupu üzrə elektrik enerjisi intensivliyi göstəricisi, 2023–2025-ci illər, hər işçiyə düşən

Müəssisə	2023	2024	2025	İllik dəyişmə
SOCAR (Azərbaycan)	26,8	26,8	30,68	▲ 14,5%
SOCAR Türkiyə	277,34	234,72	324,89	▲ 38,4%
SOCAR Energy Georgia	6,8	6,39	5,47	▼ 14,4%
SOCAR Energy Ukraine	5,82	5,98	5,79	▼ 3,2%
SOCAR Energy Switzerland	12	12,12	11,37	▼ 6,2%
SOCAR Energy Austria	19,68	18,93	19,42	▲ 2,6%
SOCAR Trading	2,43	2,52	2,45	▼ 2,9%

Cədvəl 5. SOCAR Qrupu üzrə yanacaq istehlakı, 2023–2025-ci illər

SOCAR (Azərbaycan)	2023	2024	2025	İllik dəyişmə
Benzin · ton	5 985,0	5 731,0	5 184,41	▼ 9,5%
Dizel · ton	27 131,0	25 954,0	29 666,82	▲ 14,3%
Təbii qaz · min m³	1 665 528,0	1 742 423,0	1 749 139,40	▲ 0,4%
SOCAR Türkiyə				
Benzin · ton	46,8	49,7	59,6	▲ 19.9%
Dizel · ton	1 287,0	1 357,0	1 094,8	▼ 19.3%
Təbii qaz · min m³	567 713,0	625 535,0	625 808,4	▲ 0,04%
SOCAR Energy Georgia				
Benzin · ton	336	343	338	▼ 1,5%
Dizel · ton	559	587	611	▲ 4,1%
Təbii qaz · min m³	1,5	4	4,3	▲ 7,5%
SOCAR Energy Switzerland				
Dizel · ton	178	173	203	▲ 17,3%
SOCAR Energy Austria				
Benzin · ton	14,7	18,5	17,9	▼ 3,2%
Dizel · ton	142	122,6	131,6	▲ 7,3%
Təbii qaz · min m³	35,6	21,7	21,6	▼ 0,5%
SOCAR Trading				
Benzin, litr	6 475	4 872	6 693	▲ 37,4%
Dizel, litr	4 027	3 617	3 317	▼ 8,3%
SOCAR Energy Ukraine				
Benzin · ton	218	134	130	▼ 3,0%
Dizel · ton	279	257	180	▼ 30,0%
Təbii qaz · min m³	9,5	9,7	12,1	▲ 24,7%

SU EHTİYATLARININ İDARƏ OLUNMASI YANAŞMASI

Su ehtiyatlarının məsuliyyətli idarə olunması SOCAR üçün əsas ekoloji prioritetlərdən biri olaraq qalır. Şirkət korporativ hesabatlılıq tələblərinin gücləndirilməsi, sudan istifadə göstəricilərinin təhlili, həmçinin əməliyyatları üzrə su səmərəliliyinin artırılması və şirin su istehlakının azaldılması imkanlarının müəyyən edilməsi vasitəsilə su ehtiyatlarının idarə olunması yanaşmasını təkmilləşdirir. SOCAR-ın su ehtiyatlarının idarə olunması çərçivəsi su dövriyyəsinin bütün mərhələlərini, o cümlədən suyun götürülməsi, istehlakı, təmizlənməsi, təkrar istifadəsi və axıdılmasını əhatə edir və Ətraf mühitin idarəetmə sisteminə (EMS) inteqrasiya olunmuşdur. Su ehtiyatlarının idarə olunması üzrə tələblər qüvvədə olan qanunvericilik və normativ tələblərə uyğun olaraq tətbiq edilir və monitorinq sistemləri, əməliyyat nəzarəti və fəaliyyət göstəricilərinin davamlı qiymətləndirilməsi ilə dəstəklənir.

Məlumatların keyfiyyətinin və şəffaflığının artırılması məqsədilə SOCAR-ın Baş Ofisi suyun götürülməsi və istehlakı üzrə məlumatların dövlət orqanlarına düzgün təqdim edilməsini təmin etmək üçün əməliyyat aktivləri ilə sıx əməkdaşlıq edir. Beynəlxalq hesabatlılıq standartlarına uyğunluğun təmin edilməsinə, eləcə də şirin su və dəniz suyundan istifadənin ayrıca uçotunun aparılmasına xüsusi diqqət yetirilir. SOCAR uçot təcrübəsində suyun götürülməsi ilə su istehlakı anlayışlarını fərqləndirir və soyutma məqsədləri üçün istifadə olunan dəniz suyunun istifadədən sonra yenidən dəniz mühitinə qaytarıldığını, buna görə də istehlak olunmayan su istifadəsi hesab edildiyini nəzərə alır. 2025-ci ildə xüsusi su hesabatlılığı alətinin tətbiqi əməliyyatlar üzrə su ilə bağlı hesabatlılığın dəqiqliyini, ardıcıllığını və şəffaflığını daha da artırmışdır.

SU SƏMƏRƏLİLİYİ, TƏKRAR İSTİFADƏ VƏ TULLANTI SULARIN İDARƏ OLUNMASI

İqlim və dayanıqlılıq üzrə Lighthouse proqramı çərçivəsində SOCAR əməliyyat aktivləri üzrə sudan istifadə göstəricilərinin hərtərəfli qiymətləndirilməsini həyata keçirmişdir. Qiymətləndirmənin məqsədi su tutumunun yüksək olduğu sahələrin və su səmərəliliyinin artırılması imkanlarının müəyyən edilməsidir. Bu qiymətləndirmə suya tələbatın proqnozlaşdırılmasını, su mənbələrinin imkanlarının qiymətləndirilməsini, su səmərəliliyinin artırılması və suyun təkrar istifadəsi imkanlarının müəyyən edilməsini dəstəkləyir. Eyni zamanda, ayrı-ayrı aktivlərin əməliyyat və texniki xüsusiyyətləri nəzərə alınmaqla aktivlər üzrə su səmərəliliyi hədəflərinin və onların həyata keçirilməsi üzrə yol xəritələrinin hazırlanmasına xidmət edir. Resurs səmərəliliyinin artırılması məqsədilə SOCAR şirin su götürülməsinin azaldılması, suyun təkrar istifadəsi və dövriyyəyə qaytarılmasının artırılması, həmçinin əməliyyatlar üzrə su istehlakının optimallaşdırılması istiqamətində tədbirləri davam etdirir.

Suyun təkrar istifadəsi SOCAR-ın əməliyyat modelinin mühüm tərkib hissəsi olaraq qalır. Şirkət bir neçə obyektə xidmət göstərən mərkəzləşdirilmiş tullantı sularının təmizlənməsi infrastrukturu da daxil olmaqla sənaye simbiozu prinsiplərinin tətbiqi vasitəsilə resurs səmərəliliyini təşviq edir. Bu yanaşma resurslardan daha səmərəli istifadəni təmin edir, ətraf mühitə təsirləri azaldır və əməliyyat səmərəliliyini artırır. SOCAR həmçinin birgə müəssisələr, təchizatçılar və podratçılarla əməkdaşlıq etməklə məsuliyyətli su idarəetməsi təcrübələrinin bütün dəyər zənciri üzrə genişləndirilməsi istiqamətində fəaliyyət göstərir.

Tullantı suları və hasilat suları təmizləmə sistemləri, əməliyyat nəzarəti və axıdılma göstəricilərinin davamlı monitorinqi vasitəsilə idarə olunur. Tullantı sularının axıdılması ekoloji tələblərə əməl olunmasını və su hövzələrinin mühafizəsini təmin etmək məqsədilə akkreditasiya olunmuş daxili laboratoriyalar və müstəqil üçüncü tərəf təşkilatları tərəfindən monitorinq edilir. "Upstream" istiqaməri üzrə əməliyyatlar zamanı yaranan hasilat suları lay təzyiqinin saxlanılması sistemlərinə yenidən vurulur və ya uducu quyular vasitəsilə utilizasiya edilir. SOCAR hasilat sularının yenidən vurulmadan əvvəl ilkin emalına dair vahid tələblərin tətbiqi ilə əməliyyat standartlarını daha da gücləndirir. Hesabat ili ərzində həyata keçirilmiş əlavə tədbirlər nəticəsində hasilat sularının axınları utilizasiya quyularına yönləndirilmiş və bununla da onların Hövsan kanalına axıdılmasının qarşısı alınmışdır.

SU RİSKLƏRİ VƏ DAYANIQLILIQ

Su ilə bağlı risklər SOCAR-ın ətraf mühit və korporativ risklərin idarə olunması prosesləri çərçivəsində qiymətləndirilir. Su istehlakı, tullantı sularının təmizlənməsi, axıdılması və su ehtiyatlarına potensial təsirlərlə bağlı risklər mütəmadi olaraq təhlil edilir, əhəmiyyətli risklər isə Şirkətin Risk Komitəsi də daxil olmaqla müəyyən edilmiş idarəetmə mexanizmləri vasitəsilə eskalasiya edilir. Su və tullantı sularının idarə olunması sahəsində fəaliyyət göstəriciləri 2025-ci ildə təxminən 40 aktiv üzrə aparılmış ətraf mühit auditləri çərçivəsində də qiymətləndirilmiş, əldə olunan nəticələr əməliyyat təcrübələrinin və infrastrukturun davamlı təkmilləşdirilməsi üçün istifadə edilmişdir.

İqlimlə bağlı risklərin qiymətləndirilməsi çərçivəsində SOCAR Abşeron yarımadasında yerləşən əsas əməliyyatlara gələcəkdə yarana biləcək su qıtlığının potensial təsirlərini təhlil etmişdir. SSP2-4.5 və SSP5-8.5 ssenariləri üzrə iqlim proqnozları 2050-ci ilədək su qıtlığının artacağını və il ərzində təxminən 3,6–7,6 ay müddətində su qıtlığı şəraitinin müşahidə olunacağını göstərir. Qiymətləndirmə uzunmüddətli quraqlıq şəraitində neft emalı həcmlərinin azalması və bununla əlaqədar gəlirlər üzrə potensial təsirlərlə bağlı riskləri müəyyən etmiş, nəticələr su dayanıqlılığı tədbirlərinin uzunmüddətli biznes planlaşdırılmasına və uyğunlaşma strategiyalarına inteqrasiyasını dəstəkləmişdir.

SOCAR əməliyyatları üzrə suyun götürülməsi, istehlakı, təkrar istifadəsi, təmizlənməsi və axıdılması sahəsində vahid yanaşmanın formalaşdırılması məqsədilə mərkəzləşdirilmiş Su Ehtiyatlarının İdarə Olunması Metodologiyasının hazırlanmasını davam etdirir. Metodologiya su ilə bağlı əsas fəaliyyət göstəricilərinin (ƏSG) standartlaşdırılmasını, fəaliyyət göstəricilərinin monitorinqinin gücləndirilməsini, eləcə də su ehtiyatlarının idarə olunması məsələlərinin əməliyyat planlaşdırılmasına və investisiya qərarlarının qəbuluna inteqrasiyasını dəstəkləyəcəkdir. Prioritet istiqamətlərə şirin sudan istifadənin minimuma endirilməsi, alternativ su mənbələrindən istifadənin artırılması, ümumi su istehlakının azaldılması, suyun təkrar istifadəsi və dövriyyəyə qaytarılmasının təşviqi, tullantı sularının idarə olunması təcrübələrinin gücləndirilməsi və gələcəkdə yarana biləcək su qıtlığına qarşı dayanıqlılığın artırılması daxildir.

QRUP ÜZRƏ SUYUN İDARƏ EDİLMƏSİ

SUYUN GÖTÜRÜLMƏSİ · İNTENSİVLİK · LAY SULARI · TULLANTI SULARI · QAPALI DÖVRİYYƏ

Cədvəl 6. Suyun götürülməsi — müəssisələr üzrə

2023–2025 · milyon m³

MÜƏSSİSƏ	2023	2024	2025	İllik dəyişmə
SOCAR (Azərbaycan)[1]	57,84	56,03	56,53	▲ 0,9%
SOCAR Türkiyə	23,12	21,98	21,45	▼ 2,4%
SOCAR Energy Georgia	0,13	0,12	0,14	▲ 16,7%
SOCAR Energy Ukraine	0,10	0,10	0,09	▼ 10,0%

Cədvəl 7. Su intensivliyi göstəricisi — hər işçiyə düşən

min m³ / işçi · 2023–2025


MÜƏSSİSƏ	2023	2024	2025	İllik dəyişmə
SOCAR (Azərbaycan)	1,20	1,17	1,25	▲ 6,8%
SOCAR Türkiyə	4,20	3,86	4,74	▲ 22,8%
SOCAR Energy Georgia	0,03	0,03	0,03	0,0%
SOCAR Energy Ukraine	0,06	0,06	0,05	▼ 16,7%

Cədvəl 8. Lay suları

"Azneft" İB	7 320	▲ 9%
Əməliyyat Şirkətləri	17 535,5	▼ 5%
Cəmi – 2025	**24 855,5**	**▼ 1,2%**

Şəkil 21. Tullantı sularının idarə olunması — təmizlənmiş və təmizlənməmiş

m³ · 2025-ci il vurğulanmışdır



Cədvəl 9. Tullantı suları

SOCAR (AZƏRBAYCAN) · MİLYON M³

RESİRKULYASİYA OLUNMUŞ SU		
2023: **274,2**	2024: **310,8**	2025: **200,8**

TƏKRAR İSTİFADƏ OLUNMUŞ SU		
2023: **0,01**	2024: **0,56**	2025: **3,28**

SOCAR suyun götürülməsi və istehlakı üzrə şirin su ilə dəniz suyunun hesabatlılığını tədricən fərqləndirməklə su hesabatlılığının dəqiqliyini artırmağa davam edir. Əməliyyatların miqyası və mürəkkəbliyi nəzərə alınmaqla, bu metodologiyanın tətbiqinin gələcəkdə də davamlı olaraq təkmilləşdirilməsi nəzərdə tutulur.

1. SOCAR (Azərbaycan)
Suyun götürülməsi göstəricisinə şirin su, lay suları, dəniz suyu (soyutma məqsədilə istifadə olunan su daxil olmaqla) və təmizlənmək üçün qəbul edilmiş tullantı suları daxildir. Bununla belə, istehlak göstəricilərinə soyutma sistemlərində istifadə olunan dəniz suyu və təmizlənmək üçün qəbul edilmiş tullantı suları daxil edilmir.

Yoxdur **Su ilə bağlı risklər** 2025-ci ildə əhəmiyyətli biznes təsirləri yaratmamışdır ki, bu da tətbiq olunan idarəetmə təcrübələrinin effektivliyini və əməliyyat sahələrində su resurslarının mövcudluğunu təsdiqləyir.

MATERİALLARDAN İSTİFADƏ, TULLANTILAR VƏ DÖVRİ İQTİSADİYYAT

SOCAR-DA TULLANTILARIN İDARƏ OLUNMASI

SOCAR tullantıların minimuma endirilməsi, çeşidlənməsi, idarə olunması, daşınması, emalı, utilizasiyası və təhlükəli və təhlükəsiz tullantı axınlarının zərərsizləşdirilməsini əhatə edən strukturlaşdırılmış və inteqrasiya olunmuş sistem vasitəsilə əməliyyatları üzrə tullantıları idarə edir.

Bu fəaliyyətlər əməliyyat proseslərinə inteqrasiya edilmiş və mərkəzləşdirilmiş infrastruktur, rəqəmsal monitorinq sistemləri və daxili prosedurlarla dəstəklənmişdir ki, bu da uyğunluğun, ekoloji göstəricilərin və resurs səmərəliliyinin yaxşılaşdırılmasına xidmət edir.

TULLANTILARIN İDARƏ EDİLMƏSİ PLANI

TİEM (Tullantıların İdarə Edilməsi Mərkəzi)

MRV PLATFORMASI

SAP S/4HANA EHS

ƏMƏLİYYATLAR ÜZRƏ TULLANTILARIN İDARƏ OLUNMASI VƏ İNFRASTRUKTUR

Əməliyyat sahələrində yaranan tullantılar mərkəzləşdirilmiş qaydada daşınaraq SOCAR-ın Tullantıların İdarə Edilməsi Mərkəzi və ixtisaslaşmış üçüncü tərəf xidmətləri vasitəsilə idarə olunur. Bu qurumlar qazma tullantıları, hasilat şlamları, neftlə çirklənmiş materiallar və digər əməliyyat tullantıları daxil olmaqla sənaye tullantılarının idarə olunması üçün zəruri infrastrukturu təmin edir.

SOCAR mərkəzləşdirilmiş tullantıların idarə olunması infrastrukturunun inkişaf etdirilməsi və SAP ERP sisteminin EHS Waste Management modulu və MRV platforması daxil olmaqla rəqəmsal həllərin tətbiqi vasitəsilə tullantıların idarə olunması imkanlarını təkmilləşdirməyə davam edir. Bu tədbirlər tullantıların izlənilə bilənliyini gücləndirir, hesabatlılığın dəqiqliyini artırır və daha effektiv ekoloji nəzarəti dəstəkləyir.

Tullantıların yaranmasının azaldılmasına və resurs səmərəliliyinin artırılmasına yönəlmiş korporativ səviyyəli hədəflər hazırda hazırlanır və əməliyyatların və ətraf mühitin idarə olunması planlarına inteqrasiya ediləcəkdir.


TULLANTILARIN AZALDILMASI, ÇEŞİDLƏNMƏSİ VƏ DÖVRİ İQTİSADİYYAT

SOCAR tullantıların idarə olunması sahəsində boşluqları müəyyən etmək məqsədilə hər il daxili ekoloji monitorinq və audit proqramları həyata keçirir və aktivlər səviyyəsində qiymətləndirmələr hazırlayır. Bu boşluqların aradan qaldırılması məqsədilə infrastrukturun təkmilləşdirilməsi, çeşidləmə təcrübələrinin gücləndirilməsi, nəzarət və hesabatlılıq sistemlərinin inkişaf etdirilməsi üzrə məqsədyönlü tədbirlər həyata keçirilir.


Tullantıların idarə olunması təcrübələrində dairəvi iqtisadiyyat və ikinci dərəcəli istifadə yanaşmaları getdikcə daha geniş tətbiq olunur. Tullantıların İdarə Edilməsi Mərkəzində təkrar emal edilə bilən təhlükəsiz tullantılar, o cümlədən plastik və kağız tullantıları sertifikatlaşdırılmış üçüncü tərəf təkrar emal şirkətlərinə təhvil verilir, təhlükəli tullantıların bir hissəsi isə ikinci dərəcəli istifadə və bərpa məqsədilə emal olunur.

Tullantıların emalı, utilizasiyası, bərpası, təkrar emalı və poliqonlara yönləndirilməsinin qarşısının alınması SOCAR-ın əməliyyat, texniki və ekoloji tələblərinə cavab verən müstəqil akkreditasiya olunmuş podratçılar vasitəsilə həyata keçirilir.

Şəkil 22. SOCAR (Azərbaycan) üzrə yaranmış tullantılar, min ton[1,2]



Şəkil 23. SOCAR Türkiyə üzrə yaranmış tullantılar, min ton[3]




1. 2025-ci ildə təhlükəli tullantıların həcmi əsasən neftlə çirklənmiş qumun artması hesabına 105,1 min tona yüksəlmiş, bu artım çən dibi çöküntülərinin həcminin azalması ilə qismən kompensasiya olunmuşdur. Təhlükəsiz tullantılar isə əsasən qara və əlvan metal tullantılarının, şinlərin və kağız tullantılarının artması nəticəsində 70,8 min tona çatmışdır.
2. 2025-ci ildə SOCAR (Azərbaycan) üzrə tullantı intensivliyi hasil edilmiş hər neft ekvivalenti ton (NET) üçün 0,013 ton ümumi yaranmış tullantı təşkil etmişdir.
3. SOCAR Türkiyə üzrə təhlükəsiz tullantıların əhəmiyyətli azalması əsasən hesabat ili ərzində Petkim müəssisəsində qazıntı torpağı və tikinti tullantılarının həcminin azalması ilə əlaqədar olmuşdur.

HAVANIN KEYFİYYƏTİ

SOCAR əməliyyatları üzrə hava emissiyalarının müntəzəm monitorinqini həyata keçirir, əsas hava keyfiyyəti göstəricilərini müəyyən edilmiş ekoloji tələblərə uyğun olaraq izləyir və hesabatlandırır. Emissiyalar üzrə məlumatlar şəffaflığın təmin edilməsi, milli qanunvericiliyin tələblərinə uyğunluğun qorunması və effektiv ekoloji nəzarətin təmin olunması məqsədilə sistemli şəkildə toplanır və təhlil edilir. Monitorinq fəaliyyətlərinin nəticələri hər il aidiyyəti dövlət qurumlarına təqdim olunur.

Uzunmüddətli təhlillərin aparılması və davamlı təkmilləşdirmənin dəstəklənməsi məqsədilə SOCAR əməliyyat fəaliyyətlərini əhatə edən mərkəzləşdirilmiş emissiyalar məlumat bazasını idarə edir. Bu sistem məlumatların vahid şəkildə konsolidasiyasını təmin edir, tendensiyaların və prioritet təkmilləşdirmə istiqamətlərinin müəyyən edilməsini asanlaşdırır və hava emissiyalarının idarə olunması üzrə monitorinq təcrübələrinin beynəlxalq səviyyədə tanınmış yanaşmalarla uyğunlaşdırılmasını dəstəkləyir.

Şəkil 24. SOCAR Qrupu üzrə hava emissiyaları, 2023–2025, min ton



SOCAR (Azərbaycan)
Ümumi hava emissiyaları ikiqat hesablama probleminin aradan qaldırılması məqsədilə əvvəlki üç hesabat ili üzrə yenidən hesablanmışdır. Emissiyaların tərkibi üzrə bölgü dəyişməz qalmışdır.

▲ 3% **SOCAR Türkiyə**
Dəyişiklik əsasən STAR Emalı Zavodunda planlı təmir-dayanma (TA) işləri ilə əlaqədar əməliyyat günlərinin sayındakı fərqlə izah olunur.


SOCAR Energy Georgia
Ümumilikdə, müəssisələr üzrə hava emissiyalarının bölgüsü əvvəlki illərlə müqayisədə ümumən sabit qalmış, hava emissiyalarındakı azalma isə əsasən şirkətin avtonəqliyyat yanacaq sərfiyyatının azalması ilə əlaqədar olmuşdur.

QRUP ÜZRƏ CƏMİ 2025	SOCAR (Azərbaycan) 2025	SOCAR TÜRKİYƏ 2025	DİGƏR MÜƏSSİSƏLƏR[1]
65,9 kt	**61,3 kt**	**3,3 kt**	**1,27 kt**
Genişlənmiş əhatə dairəsi	▼ 2024-cü illə müqayisədə 6.4%	▲ 2024-cü illə müqayisədə 3%	

Şəkil 25. SOCAR Qrupu üzrə hava emissiyalarının strukturu, 2025, %


SOCAR (Azərbaycan)

Bərk hissəciklər	0,2%	Karbohidrogenlər (VOC istisna olmaqla)	72%
Kükürd dioksid	1,6%	Uçucu üzvi birləşmələr (VOC)	14,8%
Azot oksidləri	3,9%	Digər qaz maddələri	1,1%
Karbon monoksid	6,4%		



SOCAR Türkiyə

Kükürd dioksid	20,8%	Karbon monoksid	12,7%
Azot oksidləri	64,9%		



SOCAR Energy Georgia

Kükürd dioksid	78,1%	Karbon monoksid	19,1%
Azot oksidləri	2,7%		



1. Digər müəssisələrə SOCAR Energy Georgia LLC, SOCAR Energy Ukraine LLC, SOCAR Energy Holdings AG, o cümlədən SOCAR Energy Austria GmbH və SOCAR Energy Switzerland GmbH, eləcə də SOCAR Trading SA daxildir.

BİOMÜXTƏLİFLİYİN VƏ EKOSİSTEMLƏRİN QORUNMASI

Biomüxtəlifliyin qorunması SOCAR-ın ətraf mühitin idarə olunmasına yanaşmasının ayrılmaz hissəsidir. 2025-ci ildə SOCAR biomüxtəlifliyin qorunması istiqamətində öhdəliklərini daha da gücləndirmiş, Şirkət Prezidenti tərəfindən təsdiq edilmiş "Biomüxtəlifliyin Qorunması üzrə Bəyanat" çərçivəsində həyata keçirilən tədbirlərin əhatə dairəsini genişləndirmişdir. Bu Bəyanat biomüxtəlifliyə təsirlərin idarə olunması, biomüxtəliflik məsələlərinin əməliyyat fəaliyyətlərinə inteqrasiyası, risklərin qiymətləndirilməsi, habelə qabaqlayıcı və təsir azaldıcı tədbirlərin həyata keçirilməsi prinsiplərini müəyyən edir.

Biomüxtəlifliklə bağlı təsirlər və risklər SOCAR-ın "upstream", "midstream" və "downstream" istiqamətlərin əməliyyatları, o cümlədən qurudakı hasilat sahələri, dəniz obyektləri və akvatoriyalarda həyata keçirilən müntəzəm ekoloji monitorinq fəaliyyətləri vasitəsilə müəyyən edilir və qiymətləndirilir. Monitorinq fəaliyyətlərinə flora və faunanın kompleks ekoloji qiymətləndirilməsi, əməliyyat fəaliyyətlərinin ekosistemlərə təsirinin təhlili və əməliyyat sahələrində ətraf mühitin vəziyyətinin qiymətləndirilməsi daxildir. Monitorinq zamanı bitki örtüyünün taksonomiyası, sıxlığı, ekoloji dayanıqlılıq göstəriciləri və ekosistem indikator növləri qiymətləndirilir. Fauna üzrə tədqiqatlar quşlar (ornitofauna), məməlilər (teriofauna) və sürünənlər (herpetofauna) qrupları üzrə növlərin yayılması və rastgəlmə tezliyini əhatə edir. Əməliyyat sahələrinin eroziyaya həssaslığının, bitki örtüyünün vəziyyətinin və ekoloji dayanıqlığının qiymətləndirilməsi məqsədilə torpaq tədqiqatları da aparılır. Monitorinq nəticələri biomüxtəlifliyə təsirlərin müəyyən edilməsi, sahəyə uyğun idarəetmə tədbirlərinin hazırlanması, reabilitasiya və təsir azaldıcı tədbirlərin istiqamətləndirilməsi üçün istifadə olunur.

TƏSİRLƏR VƏ MƏRUZ QALMA

SOCAR-ın Azərbaycandakı qurudakı və dənizdəki neft-qaz əməliyyatları biomüxtəlifliyə birbaşa və dolayı təsirlər göstərmişdir ki, bu da əsasən hasilat fəaliyyəti və onu dəstəkləyən infrastrukturla əlaqədardır. Bəzi qurudakı əməliyyat sahələrində neft hasilatı infrastrukturu, neftlə çirklənmə və digər sənaye fəaliyyətləri nəticəsində torpaq və bitki örtüyünün pozulması, torpaqların deqradasiyası, eroziya proseslərinin intensivləşməsi, torpaq münbitliyinin lokal azalması və bitki örtüyünün bərpa qabiliyyətinin zəifləməsi müşahidə edilmişdir. Ayrı-ayrı ərazilərdə bu təsirlər bitki örtüyünün seyrəkləşməsinə və növ müxtəlifliyinin nisbətən azalmasına səbəb olmuşdur.

Qurudakı bəzi hasilat sahələrində təbii landşaftların sənaye mühitinə çevrilməsi yerli ekosistemlərin xüsusiyyətlərini dəyişdirmiş və fauna tərkibində dəyişikliklərə səbəb olmuşdur. Nəticədə bəzi növlərin, xüsusilə məməlilər (teriofauna) və sürünənlər (herpetofauna) qruplarına aid populyasiyalarda lokal azalmalar müşahidə edilmişdir. Bu təsirlər əsasən uzunmüddətli neft hasilatı aparılan ərazilər üçün xarakterik olmuşdur.

TƏDBİRLƏR VƏ İDARƏETMƏ YANAŞMALARI

2025-ci ildə SOCAR "Biomüxtəlifliyin Qorunması üzrə Bəyanat" çərçivəsində Azərbaycandakı əməliyyatları üzrə biomüxtəlifliyin idarə olunması tədbirlərini davam etdirmişdir. İldə iki dəfə aparılan biomüxtəliflik monitorinqi və ekoloji qiymətləndirmələrin nəticələri əsasında əməliyyat sahələrinə uyğun təsir azaldıcı tədbirlər, reabilitasiya işləri və biomüxtəlifliyin idarə olunması tədbirləri hazırlanaraq tətbiq edilmişdir.

Pozulmuş ərazilərin bərpası və bitki örtüyünün yenidən formalaşdırılmasını dəstəkləmək məqsədilə torpaqların rekultivasiyası və reabilitasiyası işləri həyata keçirilmişdir. Bu fəaliyyətlər emissiyaların idarə olunması, tullantıların idarə olunması, su ehtiyatlarının idarə olunması və neft dağılmalarının qarşısının alınması istiqamətində həyata keçirilən daha geniş ekoloji idarəetmə tədbirləri ilə tamamlanmış və əməliyyat fəaliyyətlərinin biomüxtəlifliyə təsirinin azaldılmasına töhfə vermişdir.

Əməliyyat sahələrində biomüxtəlifliyin qorunmasına dəstəyin gücləndirilməsi məqsədilə biomüxtəliflik üzrə maarifləndirmə proqramları və ətraf mühitin yaxşılaşdırılmasına yönəlmiş təşəbbüslər də həyata keçirilmişdir.

Hesabat dövründə SOCAR Trading SA nərə balığı və Xəzər qızılbalığı populyasiyalarının qorunması və bərpasına yönəlmiş biomüxtəlifliyin mühafizəsi təşəbbüslərinə dəstək göstərmişdir. Bu fəaliyyətlər Xəzər regionunda su biomüxtəlifliyinin və ekosistemlərin dayanıqlılığının qorunmasına töhfə vermişdir.

Gələcəkdə SOCAR biomüxtəliflik məsələlərinin layihələrin planlaşdırılması və əməliyyat qərarlarının qəbul edilməsi proseslərinə biomüxtəlifliyin qiymətləndirilməsi, Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi (ƏMTQ), biomüxtəliflik üzrə fəaliyyət planlarının hazırlanması və milli qanunvericiliyin tələblərinə, eləcə də müəyyən edilmiş ətraf mühitin idarə olunması prosedurlarına uyğun təsir azaldıcı tədbirlərin həyata keçirilməsi vasitəsilə inteqrasiyasını davam etdirəcəkdir.

TORPAQLA BAĞLI TƏSİRLƏR VƏ NEFT DAĞILMALARININ İDARƏ OLUNMASI

SOCAR torpaqla bağlı ekoloji təsirləri və neft dağılmaları risklərini "upstream", "midstream" və "downstream" istiqamətlərin əməliyyatları üzrə profilaktika, monitorinq, operativ reaksiya və bərpa tədbirlərini birləşdirən strukturlaşdırılmış və inteqrasiya olunmuş yanaşma vasitəsilə idarə edir. Bu yanaşma uzunmüddətli neft-qaz fəaliyyəti nəticəsində yaranmış çirklənmə təsirini, eləcə də infrastrukturun bütövlüyü və hasilat əməliyyatları ilə bağlı davam edən risklərin idarə olunması zərurətini əks etdirir.

SOCAR təbii ehtiyatların qorunmasını və milli ekoloji qanunvericiliyin tələblərinə uyğunluğu ətraf mühitin idarə olunması yanaşmasının əsas tərkib hissəsi hesab edərək məsuliyyətli və dayanıqlı torpaq idarəçiliyinə xüsusi önəm verir. Azərbaycan Respublikasının "Yerin təki haqqında" Qanununa uyğun olaraq, SOCAR yerin təkindən istifadə fəaliyyətlərini mövcud lisenziyalaşdırma və tənzimləyici çərçivə daxilində həyata keçirir. Bu yanaşma yeraltı sərvətlərdən səmərəli və elmi əsaslandırılmış istifadəni təmin etməklə yanaşı, ətraf mühitin çirklənməsi və torpaq deqradasiyası risklərinin minimuma endirilməsinə xidmət edir.

TORPAQ ÇİRKLƏNMƏSİ VƏ REABİLİTASİYA

SOCAR-ın əməliyyat sahələrində torpaqla bağlı təsirlər əsasən neftlə çirklənmiş torpaqlar və lay sularının təsirinə məruz qalmış ərazilərlə əlaqədardır. Bu təsirlər reabilitasiya tədbirlərinin prioritetləşdirilməsi və torpaqların bərpası üzrə effektiv tədbirlərin həyata keçirilməsini dəstəkləmək məqsədilə ətraf mühitin idarə olunması prosesləri çərçivəsində sistemli şəkildə monitorinq edilir və qiymətləndirilir.

"LightHouse" layihəsi çərçivəsində SOCAR neftlə çirklənmiş torpaqların və göllərin rekultivasiyası üzrə plan hazırlamışdır. Layihənin əsas icraçı tərəfi qismində Ekol Mühəndislik Xidmətləri QSC çıxış edir. Layihə daha strukturlaşdırılmış reabilitasiya planlaşdırılmasını dəstəkləmək məqsədilə çirklənmiş ərazilərin müəyyənləşdirilməsi və qiymətləndirilməsinə xüsusi diqqət yetirir.


2025-ci ildə çirklənməyə məruz qalmış torpaqların ümumi qalıq sahəsi 656,8 ha təşkil etmişdir ki, bu da 2024-cü ildəki 819,6 ha göstəricisi ilə müqayisədə 20% azalma deməkdir. Bu göstərici illik çirklənmə səviyyəsini deyil, əvvəlki dövrlərdən miras qalmış çirklənməyə məruz qalan torpaq sahəsini əks etdirir.

AZALMANI ŞƏRTLƏNDİRƏN AMİLLƏR VƏ BƏRPA İŞLƏRİ


Çirklənmiş torpaq sahələrinin azalması əsasən davam etdirilən reabilitasiya işləri və yeni çirklənmələrin qarşısının alınmasına yönəlmiş əməliyyat nəzarəti tədbirləri ilə bağlı olmuşdur.

Bununla yanaşı, hesabat ili ərzində torpaqların bərpası işləri davam etdirilmiş və 2025-ci ildə 78.5 ha torpaq sahəsində rekultivasiya işləri həyata keçirilmişdir. 2024-cü ildə bu göstərici 166.7 ha olmuşdur. Həyata keçirilən tədbirlər ətraf mühitin vəziyyətinin yaxşılaşdırılmasına, torpaqların funksionallığının bərpasına və təsirə məruz qalmış ərazilərdə ekoloji xüsusiyyətlərin yenidən formalaşdırılmasına xidmət etmişdir.

Şəkil 26. SOCAR-da (Azərbaycan) çirklənmiş torpaqlar, 2024–2025, ha



Şəkil 27. SOCAR-da (Azərbaycan) rekultivasiya və reabilitasiya işləri, 2024–2025, ha



▼ 20.0% Çirklənmiş torpaqların ümumi sahəsi 819,5 hektardan 656,8 hektara qədər azalmışdır. Bu nəticə əsasən "LightHouse" layihəsi çərçivəsində həyata keçirilən neftlə çirklənmiş torpaqların reabilitasiyası hesabına əldə olunmuşdur.

▼ 21.0% Neftlə çirklənmiş torpaqların sahəsi EKOL Engineering Services tərəfindən həyata keçirilmiş rekultivasiya işləri nəticəsində 161 ha azalmışdır.

▼ 3.5% Lay sularının təsirinə məruz qalmış torpaqların sahəsi cüzi azalmışdır ki, bu da lay sularının axıdılması üzərində əməliyyat nəzarətinin davam etdirildiyini göstərir.

▼ 53.0% Rekultivasiya olunmuş torpaqların sahəsi hesabat ili ərzində 78.5 ha təşkil etmiş və planlaşdırılmış rekultivasiya proqramına uyğun həyata keçirilmişdir.



NEFT DAĞILMALARININ İDARƏ EDİLMƏSİ

SOCAR Neft Dağılmalarının İdarə Edilməsi Planının tətbiqi əsasında neft dağılmaları ilə bağlı riskləri idarə edir. Plan insan sağlamlığına, ətraf mühitə və dəniz ekosistemlərinə təsirlərin minimuma endirilməsi məqsədilə neft dağılmalarının qarşısının alınması, belə hallara hazırlıq və cavab tədbirlərinin əlaqələndirilmiş şəkildə həyata keçirilməsini təmin edir.

İkiqat əhəmiyyətlilik qiymətləndirilməsi nəticəsində Çirklənmə mövzusunun SOCAR üçün ikiqat əhəmiyyətli mövzu kimi müəyyən edilməsi şirkətin neft dağılmalarının idarə edilməsi və bu sahədə hesabatlılıq təcrübələrinin daha da təkmilləşdirilməsi istiqamətində səylərini təsdiqləmişdir. Cari hesabat ilindən etibarən SOCAR şəffaflığın artırılması və neft dağılmalarının idarə edilməsinin davamlı təkmilləşdirilməsini dəstəkləmək məqsədilə miqyası, mürəkkəbliyi və potensial ekoloji təsirləri səbəbindən genişləndirilmiş cavab tədbirləri tələb edən neft dağılması hadisələri üzrə dağılmış neftin həcmini açıqlayır.

Plan hadisələri onların miqyası, mürəkkəbliyi və potensial ekoloji təsirlərinə uyğun olaraq üç cavab səviyyəsi üzrə təsnif edir. 1-ci səviyyə hadisələri ətraf mühitə minimal təsir göstərən lokal xarakterli hadisələrdir və müəssisə səviyyəsində mövcud resurslardan istifadə edilməklə idarə olunur. 2-ci səviyyə hadisələri daha geniş miqyasa malik olduqları və ya ekoloji cəhətdən həssas ərazilərə yaxın baş verdikləri üçün əlavə korporativ və ixtisaslaşmış cavab imkanlarının cəlb olunmasını tələb edir. 3-cü səviyyə hadisələri isə ətraf mühit üçün potensial əhəmiyyətli nəticələr doğura biləcək iri miqyaslı neft dağılmalarıdır və bu hallarda milli, zərurət yarandıqda isə beynəlxalq cavab resurslarının səfərbər edilməsini tələb edir.

Planın icrası boru kəmərlərinin, saxlama sistemlərinin və texnoloji avadanlıqların müntəzəm monitorinqi, korroziya, sızmalar və infrastrukturun bütövlüyü ilə bağlı risklərin qarşısının alınmasına yönəlmiş profilaktik texniki xidmət tədbirləri, taktiki təlimlər, xüsusi neft dağılmalarına cavab avadanlıqları və təsdiq edilmiş cavab prosedurları ilə dəstəklənir. SOCAR-ın struktur bölmələri mütəmadi olaraq neft dağılmalarına cavab üzrə təlimlər keçirir və aidiyyəti dövlət qurumları ilə birgə təlimlər təşkil edir. Hər bir hadisədən sonra aparılan araşdırmalar əsas səbəblərin müəyyən edilməsinə və müvafiq düzəldici tədbirlərin həyata keçirilməsinə imkan yaradır ki, bu da SOCAR-ın bütün əməliyyatları üzrə əməliyyat nəzarətinin və neft dağılmalarına hazırlıq səviyyəsinin daha da gücləndirilməsinə xidmət edir.

Hesabat ili ərzində SOCAR-ın əməliyyatları üzrə 38 neft dağılması hadisəsi qeydə alınmışdır. Müqayisə üçün, bu göstərici 2024-cü ildə 23, 2023-cü ildə isə 13 olmuşdur. Qeydə alınmış hadisələrin sayındakı artım əsasən SOCAR-ın korporativ hesabatlılıq prinsiplərinə uyğun olaraq hesabatlılıq təcrübələrinin təkmilləşdirilməsi ilə əlaqədardır.

Hesabat ilində qeydə alınmış 38 hadisədən üçü 2-ci səviyyəli cavab tədbirlərinin tətbiqini tələb etmiş və nəticədə ümumilikdə təxminən 956,6 ton neft dağılmışdır. 2-ci səviyyəli hadisələrdən ikisi Neft Daşları–Dübəndi boru kəmərində, biri isə Neft Daşları–Çilov boru kəmərində baş vermişdir. Neft Daşları–Dübəndi boru kəmərində baş vermiş iki hadisə nəticəsində ümumilikdə təxminən 926 ton neft dağılmış, bunun 576 tonu dənizdə, 350 tonu isə quruda qeydə alınmışdır. Neft Daşları–Çilov boru kəmərində baş vermiş hadisə nəticəsində isə təxminən 30,6 ton neft dağılmışdır.

Dənizdə həyata keçirilən cavab tədbirləri neft dağılmalarına cavab və nəticələrinin aradan qaldırılması üzrə qüvvədə olan xidmət müqaviləsi çərçivəsində Fövqəladə Hallar Nazirliyinin Xəzər Hövzə Qəza-Xilasetmə Xidməti ilə əməkdaşlıq şəraitində icra edilmişdir. Quruda həyata keçirilən cavab tədbirlərinə dağılmanın lokallaşdırılması, təxminən 300 ton dağılmış neftin toplanması və çirklənmiş torpağın kənarlaşdırılması daxil olmuşdur.

Bütün hadisələr Neft Dağılmalarının İdarə Edilməsi Planına uyğun olaraq operativ şəkildə lokallaşdırılmış və idarə edilmiş, qanunvericiliyin tələblərinə uyğun olaraq aidiyyəti dövlət orqanlarına müvafiq bildirişlər təqdim edilmiş, hadisələrin araşdırılmasından sonra isə müvafiq düzəldici tədbirlər həyata keçirilmişdir.


İNSANLARA
QAYĞI

SAĞLAMLIQ VƏ ƏMƏYİN TƏHLÜKƏSİZLİYİ

SAĞLAMLIQ VƏ ƏMƏYİN TƏHLÜKƏSİZLİYİN (SƏT) İDARƏETMƏ SİSTEMİNİN GÜCLƏNDİRİLMƏSİ — TƏNZİMLƏYİCİ ÇƏRÇİVƏ, RƏQƏMSALLAŞMA VƏ NƏZARƏT

YANAŞMA

SOCAR əməyin mühafizəsi və təhlükəsizliyi məsələlərini əsas əməliyyat idarəetmə çərçivəsinə inteqrasiya etmişdir. Şirkət bütün fəaliyyətlərin qüvvədə olan qanunvericilik və normativ tələblərə uyğun şəkildə həyata keçirilməsini təmin edir və təhlükəsiz, etibarlı əməliyyatların qorunmasını əsas məqsəd kimi müəyyən edir. İstehsalat prosesləri üzrə işlə bağlı xəsarətlərin, peşə xəstəliklərinin və ətraf mühitə zərərin qarşısının alınması SOCAR-ın əsas prioritetlərindən biri olaraq qalır.

TƏNZİMLƏYİCİ ÇƏRÇİVƏ

2024-cü ildə təsdiq edilmiş “Sağlamlıq və əməyin təhlükəsizliyi strategiyası” sənədinə əsaslanan sağlamlıq və təhlükəsizliyin idarə edilməsi sisteminin inkişafının davamı olaraq, 2025-ci ildə 8 korporativ normativ sənəd hazırlanmışdır. Bunlardan altı prosedur təsdiq edilmiş və onların SOCAR-ın müəssisələrində tətbiqinə başlanılmışdır.

“SOCAR-da baş vermiş hadisələrlə bağlı məlumatın şifahi verilməsinə dair” və “SƏT üzrə hesabatların (gündəlik, aylıq, illik) hazırlanmasına dair” təlimatları yenilənmiş, həmçinin Beynəlxalq Neft və Qaz İstehsalçıları Assosiasiyasının (IOGP) və Amerika Neft İnstitutunun (API) Tövsiyə edilən təcrübə 754 (RP 754) tələblərinə uyğun olaraq, 3-cü səviyyəli hadisələri əhatə edən yeni Proses Təhlükəsizliyi Hadisəsi (PSE) taksonomiyası tətbiq edilmişdir.

- Yükqaldırma Əməliyyatlarının Təhlükəsizliyi
- Enerjinin Təcrid Edilməsi
- Hadisələrin Araşdırılması
- İşin İcrasına İcazə
- Qida Təhlükəsizliyinin İdarə Edilməsi
- Əməliyyatlarda Sağlamlıq və Əməyin Təhlükəsizliyi Risklərinin İdarə Edilməsi
- SOCAR-da Baş vermiş Hadisələrlə Bağlı Məlumatın Şifahi Verilməsi
- Sağlamlıq və Təhlükəsizlik üzrə Hesabatların Hazırlanması

● TƏSDİQ EDİLMİŞ ● YENİLƏNMİŞ

Bundan əlavə, “Podratçıların əməyin təhlükəsizliyi üzrə idarə edilməsi”, “Özünüyoxlama və nəzarət” və “Kimyəvi maddələrin idarə edilməsi” prosedurları hazırlanmış və hazırda təsdiq mərhələsindədir. 2025-ci ildə sağlamlıq və əməyin təhlükəsizliyi funksiyası üzrə BPM (Biznes Proseslərinin Modelləşdirilməsi) prosesi təsdiq edilmişdir. Eyni zamanda, sağlamlıq və əməyin təhlükəsizliyi üzrə əsas fəaliyyət göstəriciləri (sağlamlıq və əməyin təhlükəsizliyi planının icrası və itirilmiş iş vaxtı ilə nəticələnən xəsarətlərin tezlik əmsalı (XTƏ) göstəricisi) SOCAR-ın müəssisə rəhbərləri üçün ƏSG-lərə daxil edilmişdir.

2025-ci il ərzində müəssisələrin SƏT planlarının nəzərdən keçirilməsi və müzakirəsi məqsədilə ilin əvvəlində və ortasında iki genişmiqyaslı seminar keçirilmişdir. Bundan əlavə, elektron sağlamlıq və əməyin təhlükəsizliyi hesabatlılığı (e-Hadisələrin idarə edilməsi) modulunun tətbiqi ilə bağlı koordinasiya görüşü təşkil edilmişdir. Həmçinin, İşin icrasına icazə, enerjinin təcrid edilməsi və yükqaldırma əməliyyatlarının təhlükəsizliyi mövzularında onlayn məlumatlandırma sessiyaları keçirilmiş, bu prosedurların tətbiqinin monitorinqi məqsədilə aylıq görüşlər təşkil edilmişdir.

SƏT SƏNƏDLƏRİ	RƏQƏMSAL LAYİHƏLƏR	TƏLİM	İŞ YERİ İNVEST.
8 təsd.	**5 tətbiq ed.**	**277 990 saat**	**42,99 m AZN**
+3 təsdiq gözləyir	+1 davam edir (e-Risk)	12 233 iştirakçı	Təhlükəsizlik sistemləri

SAĞLAMLIQ VƏ ƏMƏYİN TƏHLÜKƏSİZLİYİ ÜZRƏ RƏQƏMSALLAŞDIRMA LAYİHƏLƏRİ

2025-ci ildə sağlamlıq və əməyin təhlükəsizliyi sahəsində 5 layihə həyata keçirilmiş, 1 yeni layihəyə isə başlanılmışdır. Bu təşəbbüslər Sağlamlıq və Əməyin Təhlükəsizliyi Departamentinin fəaliyyətlərini SOCAR-ın ümumi rəqəmsallaşdırma strategiyası ilə tam inteqrasiya edərək əməyin mühafizəsi və təhlükəsizlik proseslərinin monitorinqini, təhlilini və əməliyyat idarəçiliyini daha da təkmilləşdirir.

01	e-hadisələrin idarə edilməsi SƏT hadisələrinin elektron qaydada bildirilməsi	✓
02	işin icrasına İcazə İşin icrasına icazənin rəqəmsal qaydada verilməsi	✓
03	Dövlət nəzarət orqanı Onlayn monitorinq platforması	✓
04	Biliklərin qiymətləndirilməsi Kompetensiyaların qiymətləndirilməsi platforması	✓
05	Quyular üzrə uyğunsuzluqlar Sənaye təhlükəsizliyi üzrə izləmə sistemi	✓
06	e-risk risklərin idarə edilməsi Qrup üzrə tətbiq olunur	+

✓ TAMAMLANMIŞ + DAVAM EDİR

Yuxarıda qeyd olunan bütün tədbirlər vasitəsilə SOCAR sağlamlıq və əməyin təhlükəsizliyin proaktiv idarə olunmasına sistemli yanaşmasını daha da gücləndirmişdir. Xüsusilə risklərin effektiv idarə olunmasına və əməkdaşların təhlükəsizlik üzrə məsuliyyətləri barədə məlumatlılığının artırılmasına xüsusi diqqət yetirilmişdir. Bu istiqamətlərdə davamlı inkişaf insan həyatının qorunmasına, əməliyyatların dayanıqlılığına və təşkilatın uzunmüddətli davamlılığına töhfə verir.

Bundan əlavə, Sağlamlıq və Əməyin Təhlükəsizliyi Bəyanatının effektiv tətbiqini yoxlamaq məqsədilə SOCAR beynəlxalq və milli səviyyədə akkreditasiya olunmuş müstəqil audit təşkilatlarını cəlb edir. Sertifikatlaşdırılmış baş auditorlar tərəfindən həyata keçirilən bu auditlər sağlamlıq və əməyin təhlükəsizliyin idarə edilməsi sistemlərinin və əməliyyat təcrübələrinin effektivliyini, o cümlədən ISO 45001:2018 standartının tələblərinə uyğunluğu qiymətləndirir. Auditlərin nəticələri şəffaflığın və hesabatlılığın gücləndirilməsinə xidmət edir və Şirkətin sağlamlıq və təhlükəsizliyin idarə edilməsi çərçivəsinin davamlı təkmilləşdirilməsi məqsədilə hazırlanmış illik fəaliyyət planlarına daxil edilir.

TƏLİM VƏ BACARIQLAR

2025-ci ildə sağlamlıq və əməyin təhlükəsizliyi üzrə təlimlər SOCAR-ın risklərin qarşısının alınması və əməkdaşların qorunması sisteminin əsas elementlərindən biri olaraq qalmışdır. Bütün müəssisələr işçi heyətinin bilik və bacarıqlarının artırılması və təhlükəsiz iş təcrübələrinin qorunması məqsədilə təlim proqramları həyata keçirmişdir. 2025-ci ildə SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsi tərəfindən müxtəlif əməyin mühafizəsi və təhlükəsizlik mövzularını əhatə edən ümumilikdə 277 990 saat təlim keçirilmiş və bu təlimlərdə 12 233 nəfər iştirak etmişdir.

Təlim proqramları təhlükələrin müəyyənləşdirilməsi, fövqəladə hallara hazırlıq və daxili təhlükəsizlik prosedurlarına əməl olunması mövzularına fokuslanmışdır. İşə yeni qəbul olunan bütün əməkdaşlar sağlamlıq və əməyin təhlükəsizliyi üzrə məsuliyyətləri əhatə edən məcburi ilkin təlimləri tamamlamışdır. Bununla yanaşı, yüksək riskli vəzifələrdə çalışan əməkdaşlar üçün məlumatlılığın və prosedurlara uyğunluğun qorunması məqsədilə təkrar təlimlər təşkil edilmişdir. Təlim materialları qanunvericilikdəki dəyişiklikləri və hadisələrin araşdırılmasından əldə olunan nəticələri nəzərə almaq üçün mütəmadi olaraq yenilənmişdir.

Fövqəladə halların idarə olunması sahəsində Baş Ofis və SOCAR müəssisələrinin iştirakı ilə aidiyyəti dövlət qurumlarının cəlb olunduğu dörd genişmiqyaslı və əlaqələndirilmiş təlim-məşq rüblük əsasda həyata keçirilmişdir.

Baş Ofisin Sağlamlıq və Əməyin Təhlükəsizliyi Departamenti tərəfindən cəlb edilmiş məsləhətçi sağlamlıq və əməyin təhlükəsizliyi rəhbərləri üçün aşağıdakı istiqamətlər üzrə bacarıqların inkişafına yönəlmiş kouçinq sessiyaları keçirmişdir:

- Qərar qəbuletmə
- Liderlik
- Təhlükəsizlik strategiyası
- Texniki bacarıqlar

İŞ YERİNƏ İNVESTİSİYALAR

TƏHLÜKƏSİZLİYƏ YÖNƏLDİLMİŞ

42 994 848 AZN

SOCAR-ın istehsalat sahələrində iş yerlərinin mühafizəsi sistemlərinin gücləndirilməsinə və ümumi təhlükəsizlik performansının artırılmasına töhfə vermişdir.

2025-ci il ərzində SOCAR-ın istehsalat sahələrində iş şəraitinin yaxşılaşdırılması məqsədilə məqsədyönlü tədbirlər həyata keçirilmişdir. İnfrastruktur, iş yerləri və əməliyyat prosesləri mövcud sağlamlıq və əməyin təhlükəsizliyi standartlarına uyğunlaşdırılmaq üçün nəzərdən keçirilmiş və təkmilləşdirilmişdir. İş yerlərində baş verə biləcək hadisələrin və peşə sağlamlığı risklərinin minimuma endirilməsinə yönəlmiş qabaqlayıcı tədbirlər davamlı şəkildə həyata keçirilmişdir.

İş yerlərinin mühafizə sistemlərinin gücləndirilməsi və ümumi təhlükəsizlik göstəricilərinin yaxşılaşdırılması məqsədilə 42 994 848 AZN vəsait sərf edilmişdir. 2025-ci ildə SOCAR sənaye tələblərinin və əməliyyat şəraitinin inkişafına uyğun olaraq daxili normativ bazasını daha da gücləndirməyə davam etmişdir. Mövcud norma, prosedur və təlimatlar müxtəlif biznes vahidləri üzrə aktuallığının və praktik tətbiq imkanlarının təmin edilməsi məqsədilə yenidən nəzərdən keçirilmiş və yenilənmişdir.

Cədvəl 10. Təsdiq edilmiş təhlükəsizlik qaydaları pozuntularına görə tətbiq edilmiş intizam tədbirləri

Kateqoriya	2025
Xəbərdarlıq alanlar	279
Rəsmi töhmət alanlar	290
Sonuncu xəbərdarlıqla şiddətli töhmət alanlar	64
Əməkhaqqından tutulma tətbiq edilənlər	17
İşdən azad edilənlər	1

TEXNİKİ TƏHLÜKƏSİZLİK TƏDBİRLƏRİ

2025-ci ildə SOCAR iş şəraitinin yaxşılaşdırılması və mövcud təhlükəsizlik standartlarına uyğunluğun təmin edilməsi məqsədilə müəssisələrində texniki təhlükəsizlik tədbirlərini daha da gücləndirmişdir. Yenilənmiş sağlamlıq və əməyin təhlükəsizliyi tələblərinin yerinə yetirilməsi üçün seçilmiş istehsalat sahələrində, binalarda və iş yerlərində modernləşdirmə və yenidənqurma işləri həyata keçirilmişdir. Kritik avadanlıqlar, mexanizmlər və texnoloji sistemlər planlı texniki baxışlara və dövri sınaqlara cəlb edilmişdir.

Bu nəzarət tədbirləri əməliyyat bütövlüyünün təsdiqlənməsi və əməkdaşların təhlükəsizliyinə təsir göstərə biləcək texniki nasazlıqların başvermə ehtimalının azaldılması məqsədilə həyata keçirilmişdir. Aparılmış qiymətləndirmələr istehsalat aktivlərinin etibarlı və təhlükəsiz fəaliyyətini dəstəkləmişdir. Bir sıra müəssisələrdə beynəlxalq standartlara uyğun avtomatlaşdırılmış nəzarət və ölçmə sistemləri tətbiq edilmişdir. Bu sistemlərin inteqrasiyası əl əməyinə əsaslanan proseslərdən asılılığın azalmasına və əməliyyatların fasiləsiz monitorinqinin təmin edilməsinə imkan yaratmışdır. Nəticədə, insan amilindən qaynaqlanan səhvlərin ehtimalı azaldılmış və operativ reaksiya imkanları gücləndirilmişdir ki, bu da ümumi əməliyyat risklərinin aşağı salınmasına töhfə vermişdir. Texniki təkmilləşdirmələrə yönəldilən davamlı investisiyalar SOCAR-ın təhlükəsiz və dayanıqlı əməliyyatların təmin edilməsinə yönəlmiş sistemli yanaşmasının mühüm tərkib hissəsi olaraq qalır.

İŞ ŞƏRAİTİNİN MONİTORİNQİ

SOCAR 2025-ci il ərzində törəmə şirkətləri üzrə təhlükəsiz istehsalat mühitinin təmin edilməsi məqsədilə iş şəraitinin sistemli monitorinqini davam etdirmişdir. Bu fəaliyyətlər risklərin azaldılması tədbirlərini dəstəkləmək məqsədilə ətraf mühit parametrlərinin və əməkdaşların məruz qalma səviyyələrinin qiymətləndirilməsinə yönəlmişdir.

Daxili nəzarət mexanizmlərinin gücləndirilməsi məqsədilə 2025-ci ildə SƏT Departamenti strukturlaşdırılmış özünü-yoxlama prosesi çərçivəsində 11 qurum və 201 iş sahəsində yoxlamalar həyata keçirmiş, əlavə olaraq qida təhlükəsizliyi üzrə 88 iş sahəsində yoxlama aparılmışdır. Baş ofisin SƏT Departamenti həmçinin peşə xəstəliklərinin qarşısının alınması, əməyin mühafizəsinin təmin edilməsi, narkotik və alkoqol istifadəsi hallarının azaldılması, istehsalat xəsarətlərinin və iş yerində qəfil ölüm hallarının qarşısının alınması, həmçinin xəstəlik səbəbilə itirilmiş iş günlərinin azaldılması məqsədilə yaradılmış SOCAR-da peşə sağlamlığına dair tədbirlərin təkmilləşdirilməsi üzrə işçi qrupunun istehsalat sahələrində keçirdiyi yoxlamalarda iştirak etmişdir.

XƏSARƏTLƏR NƏTİCƏSİNDƏ İTİRİLMİŞ İŞ GÜNLƏRİ
1 595

ÜMUMİ İŞLƏNMİŞ SAATLAR
81 220 180

XƏSARƏT ALMA İLƏ NƏTİCƏLƏNƏN HADİSƏLƏR
27

XTƏ (SOCAR müəssisələri)
0,357

ÜÇÜNCÜ TƏRƏF ŞİRKƏTLƏRİNƏ NƏZARƏT

SOCAR öz sahələrində fəaliyyət göstərən podratçıların və digər üçüncü tərəflərin SƏT tələblərinə, eləcə də risklərin idarə edilməsi tədbirlərinə riayət etməsinə nəzarət edir. Hesabat dövründə yeni "Podratçıların təhlükəsizliyinin idarə edilməsi proseduru" hazırlanmış və hazırda təsdiq mərhələsindədir. Eyni ərazidə bir neçə podratçının eyni vaxtda fəaliyyət göstərdiyi hallarda işlərin təhlükəsiz icrasını və qarşılıqlı əlaqədən irəli gələn risklərin idarə edilməsini təmin etmək məqsədilə koordinasiya və nəzarət tədbirləri həyata keçirilmişdir. 2025-ci ilin oktyabr ayında SOCAR Upstream tərəfindən genişmiqyaslı Podratçıların təhlükəsizliyinin idarə edilməsi forumu təşkil edilmiş, forum çərçivəsində əksər podratçı və alt podratçılar bir araya gələrək SƏT təkmilləşdirmə imkanlarını müzakirə etmişlər.

DİGƏR SƏNAYE ŞİRKƏTLƏRİ İLƏ ƏMƏKDAŞLIQ VƏ QARŞILIQLI SAHƏ SƏFƏRLƏRİ

2025-ci il ərzində müxtəlif neft-qaz şirkətləri və təşkilatları ilə SƏT sahəsində birgə təşəbbüslər həyata keçirilmişdir:

- 2025-ci ilin mart ayında SOCAR, KazMunayGas, Tatneft və Uzbekneftegaz arasında sənaye təhlükəsizliyi və fövqəladə hallara hazırlıq sahəsində əməkdaşlığa dair dördtərəfli Anlaşma Memorandumu imzalanmışdır.
- Fövqəladə Hallar Nazirliyi, SOCAR və Azərbaycan Sənaye Təhlükəsizliyi Assosiasiyası arasında sənaye təhlükəsizliyi, SƏT, eləcə də ətraf mühitin mühafizəsi sahələrində əməkdaşlığa dair üçtərəfli Anlaşma memorandumu imzalanmışdır. Memorandumun əsas məqsədi milli sənaye standartlarının təkmilləşdirilməsi və tənzimləyici yanaşmaların gücləndirilməsidir.
- Beynəlxalq Neft və Qaz İstehsalçıları Assosiasiyasının (IOGP) tövsiyələrinə uyğun olaraq təhlükəsizlik standartlarının gücləndirilməsi və əməkdaşlığın genişləndirilməsi istiqamətində fəaliyyətlər uğurla həyata keçirilmişdir.

SƏT Departamentinin nümayəndələri qabaqcıl təcrübənin öyrənilməsi, SƏT standartlarının, risklərin idarə edilməsinin və əməliyyat təhlükəsizliyinin təkmilləşdirilməsi məqsədilə beynəlxalq əməkdaşlıq səfərlərində iştirak etmişlər. Bu fəaliyyətlərə aşağıdakılar daxildir:

- IOGP Təhlükəsizlik komitəsinin iclaslarında iştirak;
- KazMunayGas tərəfindən təşkil olunmuş beynəlxalq tədbirdə iştirak;
- Uzbekneftegaz tərəfindən təşkil olunmuş beynəlxalq forumda iştirak;
- Əməyin mühafizəsi və sağlamlığı sahəsində Beynəlxalq Əmək Təşkilatının (ILO) fundamental konvensiyalarının və digər nəzarət mexanizmlərinin tətbiqinə həsr olunmuş seminarda iştirak;
- Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) tərəfindən təşkil edilmiş "Neft Dağılmalarına cavab tədbirləri və dispersantlardan istifadə üzrə beynəlxalq təcrübə mövzusunda seminarda iştirak.

SƏT GÖSTƏRİCİLƏR VƏ İNSİDENTLƏR

2025-ci il ərzində SOCAR-ın strukturuna daxil olan müəssisələrdə baş vermiş 27 istehsalat qəza hadisəsi nəticəsində ümumilikdə 29 xəsarət halı, o cümlədən bir ölüm hadisəsi qeydə alınmışdır. Bütün hadisələr müəyyən edilmiş prosedurlara uyğun olaraq müvafiq dövlət orqanlarına vaxtında bildirilmiş, qüvvədə olan qanunvericiliyin tələblərinə uyğun şəkildə daxili araşdırmalar aparılmışdır.

Araşdırmaların nəticələrinə əsasən, müəssisələr tərəfindən hadisələrin kök səbəblərinin müəyyən edilməsi, profilaktik tədbirlərin həyata keçirilməsi, əmək şəraitinin yaxşılaşdırılması və maarifləndirmə fəaliyyətlərinin gücləndirilməsi istiqamətində müvafiq tədbirlər görülür. Baş vermiş hadisələrdən əldə olunan təcrübə aidiyyəti struktur bölmələri ilə paylaşılır, daxili araşdırmalar nəticəsində müəyyən edilmiş korrektiv tədbirlərin icrasına isə davamlı nəzarət olunur.

Hesabatlılıq mədəniyyətinin inkişafı nəticəsində "qəzaya səbəb ola biləcək yan keçmə halları" üzrə qeydə alınmış halların sayı beş dəfədən çox artmışdır. Bu halların araşdırılması, eləcə də korrektiv və preventiv tədbirlərin həyata keçirilməsi bir sıra potensial ciddi hadisələrin əvvəlcədən qarşısının alınmasına imkan vermişdir.

Hadisələrin araşdırılması prosedurunun yenilənmiş tələblərinə uyğun olaraq, qəzaya səbəb ola biləcək hallar da daxil olmaqla bütün hadisələrin xətt rəhbərliyi və təyin olunmuş araşdırma komissiyaları tərəfindən hərtərəfli araşdırılmasına, habelə müvafiq korrektiv tədbirlərin həyata keçirilməsinə daha böyük önəm verilmişdir.

Xüsusilə yüksək potensiala malik hadisələrə (cüzi fərqli şəraitdə baş verdiyi təqdirdə ölüm hadisəsi ilə nəticələnə biləcək hadisələrə) xüsusi diqqət yetirilir. Bu hadisələr daha yüksək təşkilati səviyyədə araşdırılır və oxşar hadisələrin təkrarlanmasının qarşısını almaq məqsədilə həyata keçirilmiş tədbirlərin effektivliyinə davamlı nəzarət olunur. Bundan əlavə, bu prosedur çərçivəsində hadisələrin araşdırılması nəticəsində əldə olunan təcrübənin və preventiv tədbirlərin təşkilat daxilində səmərəli şəkildə paylaşılmasını təmin etmək məqsədilə standartlaşdırılmış əldə edilmiş təcrübə prosesi hazırlanmış və tətbiq edilmişdir.

Tamamlanmış araşdırmaların nəticələri əsasında müəssisə səviyyəsində korrektiv və preventiv tədbirlər həyata keçirilmişdir. Bu tədbirlər hadisələrin kök səbəblərinin aradan qaldırılması, onların təkrarlanma ehtimalının azaldılması və iş yerlərində şəraitin daha da yaxşılaşdırılması məqsədilə hazırlanmışdır. Müəyyən edilmiş səbəblər və əldə olunan təcrübə təşkilat daxilində paylaşılmış, razılaşdırılmış tədbirlərin icrasına isə davamlı nəzarət edilmişdir.

Əvvəlki hesabat dövrləri ilə müqayisədə qeydə alınmış hadisələrin sayındakı artım qismən daxili hesabatlılıq təcrübələrinin təkmilləşdirilməsi ilə əlaqədardır. Hesabat ili ərzində həyata keçirilən maarifləndirmə fəaliyyətləri və təşkilati tədbirlər Şirkətin bütün səviyyələrində hadisələrin daha ardıcıl və operativ şəkildə bildirilməsini təşviq etmişdir. Bu inkişaf öz əksini qəzaya səbəb ola biləcək hallar üzrə hesabatlılıqda da tapmış, həmin halların sayı beş dəfədən çox artmışdır. Təhlükəsizlik göstəricilərinin trend təhlili ilə dəstəklənən daha effektiv hesabatlılıq təhlükələrin daha erkən mərhələdə müəyyən edilməsinə və onların daha ciddi hadisələrə çevrilməsindən əvvəl preventiv tədbirlərin görülməsinə imkan yaratmışdır. Gücləndirilmiş hesabatlılıq mədəniyyəti şəffaflığı dəstəkləyir və əməyin mühafizəsi və təhlükəsizlik sahəsində performansın davamlı təkmilləşdirilməsinə töhfə verir.

QRUP ÜZRƏ SƏT GÖSTƏRİCİLƏRİ

SOCAR (AZƏRBAYCAN) · 2024→2025 MÜQAYİSƏSİ · BİRGƏ MÜƏSSİSƏLƏR VƏ XARİCİ NÜMAYƏNDƏLİKLƏR

ÖLÜM HADİSƏLƏRİ
1
▼ 2024-cü illə müqayisədə 50,0%

XƏSARƏT HADİSƏLƏRİ
27
▼ 2024-cü illə müqayisədə 3,6%

İTİRİLMİŞ İŞ GÜNLƏRİ
1 595
▲ 2024-cü illə müqayisədə 45,9%

XTƏ – MÜƏSSİSƏLƏR
0,357
Qrup üzrə göstərici: 0,51 / mln. işlənmiş saat

Cədvəl 11. SƏT göstəriciləri - SOCAR (Azərbaycan)
2024 → 2025 müqayisəsi, illik dəyişiklik təhlili

Göstərici	2023	2024	2025	İllik dəyişiklik
Ümumi xəsarətlərin sayı (ölüm hadisələri daxil olmaqla)	18	28	27	▼ 3,6%
Ölümlə nəticələnən xəsarətlər[1]	2	**2**	**1**	▼ 50,0%
Xəsarət alan işçilərin ümumi sayı	21	29	29	0,0%
Həlak olmuş işçilərin sayı	4	2	1	▼ 50,0%
İtkin düşən şəxslərin sayı	0	0	0	0,0%
Peşə xəstəliklərinin sayı	0	0	0	0,0%
İstehsalat xəsarətləri nəticəsində itirilmiş iş günləri	826	1 093	1 595	▲ 45,9%
İşçilərin orta sayı	48 139	48 340	46 781	▼ 3,2%
Ümumi işlənmiş saatlar	83 131 323	83 529 314	81 220 180	▼ 2,8%
TEZLİK VƏ AĞIRLIQ ƏMSALLARI				
XTƏ — müəssisələr üzrə (1 000 000 işlənmiş saata)	0,253	0,347	0,357	▲ 2,9%
XTƏ — Qrup üzrə (1 000 000 işlənmiş saata)	0,33	0,6	0,51	▼ 15,0%
İtirilmiş iş günləri əmsalı (200 000 işlənmiş saata)	1,99	2,62	3,93	▲ 50,0%
Xəsarətlərin tezlik əmsalı (1 000 işçiyə)	0,37	0,58	0,58	0,0%
Xəsarətlərin ağırlıq əmsalı (bir xəsarət halına düşən itirilmiş iş günləri)	51,63	42,04	61,35	▲ 45,9%

▼ Ölümlə nəticələnən xəsarətlər üzrə 50,0%-lik azalma rəhbərlik səviyyəsində yaxından izlənilir.

▲ Təhlükəsizlik göstəricilərinin monitorinqinin təkmilləşdirilməsi itirilmiş iş günləri (1,093 → 1,595) daxil olmaqla əsas göstəricilər üzrə görünürlüğü artırmış, trend təhlilini, məqsədyönlü profilaktik tədbirləri və təhlükəsizlik sahəsində davamlı təkmilləşməni dəstəkləmişdir

Cədvəl 12. İstehsalat sahələri üzrə itirilmiş iş vaxtı ilə nəticələnən xəsarətlər — 2025
SOCAR (Azərbaycan) · n = 27

İstehsalat sahəsi	Xəsarətlərin sayı
"Azneft" İB	11
Heydər Əliyev adına Neft Emalı Zavodu	5
"Azərikimya" İB	4
Nəqliyyat Departamenti	2
Neft və Qaz Tikinti Tresti	2
"Azəriqaz" İB	1
Təhlükəsizlik Departamenti	1
Qaz Emalı Zavodu	1
Cəmi – 2025	27

Cədvəl 13. Birgə müəssisələr / əməliyyat şirkətləri və xarici nümayəndəliklər
2025: qəzalar və xəsarət göstəriciləri

Göstərici	Birgə müəssisələr / əməliyyat şirkətləri	Xarici nümayəndəliklər
İtirilmiş iş vaxtı ilə nəticələnən xəsarətlər, o cümlədən:	6	25
Ölüm hadisələri	0	0
Xəsarət alanlar	6	25
Həlak olanlar	0	0
Peşə xəstəlikləri	0	0
İtkin düşən şəxslər	0	0
İstehsalat xəsarətləri nəticəsində itirilmiş iş günləri	272	522
Ümumi işlənmiş saatlar	24 164 038	18 249 901

1. Hadisə 2025-ci ildə dənizdə həyata keçirilən qaldırma əməliyyatı zamanı baş vermişdir.
2. Qrup üzrə XTƏ hesablanarkən SOCAR Azərbaycan, SOCAR-ın əməliyyat şirkətləri və birgə müəssisələri, SOCAR Türkiyə, SOCAR Energy Switzerland, SOCAR Trading, SOCAR Energy Austria, SOCAR Energy Georgia və SOCAR Energy Ukraine üzrə məlumatlar nəzərə alınmışdır.

ƏMƏK TƏCRÜBƏLƏRİ VƏ İŞÇİ QÜVVƏSİNİN İDARƏ EDİLMƏSİ

SABİT, ŞƏFFAF VƏ ƏDALƏTLİ İŞ MÜHİTİ — İDARƏETMƏ, İŞÇİ MƏŞĞULLUĞU VƏ İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSİ

DAİMİ ƏMƏK MÜQAVİLƏLƏRİ
~99 %
Hesabat dövründə ümumi işçi qüvvəsinin payı

İŞÇİ DÖVRİYYƏSİ
2,9 %
Kişilər 2,7% · Qadınlar 3,9%

ŞİRKƏTDƏN AYRILANLAR
~1 400
Daxili yerdəyişmələr istisna olmaqla · 2025

ƏMƏKHAQQI SƏVİYYƏSİ
Bərabər
Milli yaşayış minimumu hədlərinə uyğun

ƏMƏK MÜNASİBƏTLƏRİ

SOCAR-ın əmək münasibətlərinə yanaşması əməkdaşların ədalətli rəftar gördüyü, şirkətin inkişaf prosesində fəal iştirak etdiyi, sabit, şəffaf və dəstəkləyici iş mühitinin yaradılmasına əsaslanır. Bu yanaşma təşkilatın ehtiyacları ilə əməkdaşların gözləntiləri arasında balansın qorunmasını təmin edən strukturlaşdırılmış idarəetmə prosesləri vasitəsilə həyata keçirilir və eyni zamanda milli əmək qanunvericiliyinin tələblərinə və müvafiq standartlara uyğunluğu təmin edir.

01 **“Performans və səriştəliliyin idarə edilməsi proseduru” təsdiq edilmişdir.**

02 **“İşçi təcrübələrinin idarə olunması metodologiyası” təsdiq edilmişdir.**

03 **Yeni “İşə qəbul siyasəti” təsdiq edilmişdir.**

04 **Seqment fəaliyyətləri və biznes proseslər üzrə səlahiyyət və məsuliyyətlərin idarə edilməsinə dair sənədlər təsdiq edilmişdir.**

05 **İcraçı rəhbər heyətinin əməkhaqqı və imtiyazlarının tənzimlənməsi prosedurları təsdiq edilmişdir.**

SOCAR-ın əmək münasibətləri və işçi qüvvəsinin idarə olunmasına yanaşması strukturlaşdırılmış insan resursları prosesləri, əməkdaşların iştirak mexanizmləri və davamlı monitorinq təcrübələri ilə dəstəklənən sabit, şəffaf və ədalətli iş mühitinin qorunmasına əsaslanır. Şirkət işçi qüvvəsinin sabitliyini, əməkdaşların rifahını və təşkilati səmərəliliyi dəstəkləmək məqsədilə formal idarəetmə mexanizmlərini insan resurslarının idarəetmə alətləri ilə birləşdirir.

SOCAR-ın əmək münasibətləri sisteminin əsasını təşkilat daxilində qarşılıqlı hörmətin, açıq ünsiyyətin və şəffaflığın təşviq edilməsi təşkil edir. Rəhbərlik və əməkdaşlar arasında müntəzəm qarşılıqlı əlaqə strukturlaşdırılmış görüşlər, daxili kommunikasiya platformaları və əməkdaşlara narahatlıqlarını bildirmək, rəy vermək və iş mühiti ilə bağlı dialoqda iştirak etmək imkanı yaradan müəyyən edilmiş əks əlaqə kanalları vasitəsilə təmin edilir. Formal əmək münasibətləri əməkdaşların hüquqlarını və əmək şəraitini müəyyən edən mexanizmlər vasitəsilə tənzimlənir.

Kollektiv müqavilə əməkhaqqı, iş vaxtı, məzuniyyət qaydaları, mübahisələrin həlli prosedurları və sosial təminatlar daxil olmaqla əsas əmək şərtlərini müəyyən edir. Eyni zamanda, əməliyyat baxımından mümkün olduğu hallarda natamam iş vaxtı ilə məşğulluq da daxil olmaqla çevik məşğulluq formalarını nəzərdə tutur. Kollektiv müqavilə rəhbərlik və əməkdaş nümayəndələri arasında dialoq əsasında hazırlanır və qanunvericiliyin tələblərinə, eləcə də işçi qüvvəsinin gözləntilərinə uyğunluğun təmin edilməsi məqsədilə dövri olaraq nəzərdən keçirilir.

SOCAR həmçinin əməkdaşların maraqlarını təmsil edən və əmək siyasətləri ilə iş şəraiti üzrə müzakirələrdə iştirak edən rəsmi həmkarlar ittifaqları ilə əməkdaşlıq edir.

Bu idarəetmə mexanizmləri əməkdaşların cəlbolunma səviyyəsinin, iş şəraitinin və təşkilati mədəniyyətin davamlı monitorinqini dəstəkləyən alətlərlə tamamlanır. Müntəzəm əməkdaş sorğuları əməkdaşların cəlbolunması, məmnunluğu, iş mühiti dinamikası və təşkilati mədəniyyətlə bağlı göstəricilər üzrə məlumatlar təqdim edir ki, bu da rəhbərliyə tendensiyaları müəyyən etməyə və məqsədyönlü təkmilləşdirmə tədbirləri həyata keçirməyə imkan verir. Daxili kommunikasiya kampaniyaları, rəhbərliklə görüş sessiyaları, funksiyalararası əməkdaşlıq təşəbbüsləri, müxtəliflik, inklüzivlik, gender bərabərliyi və əməkdaşların rifahı ilə bağlı məlumatlandırma proqramları biznes vahidləri arasında koordinasiyanın gücləndirilməsi və inklüziv, hörmətə əsaslanan iş mühitinin formalaşdırılması məqsədilə həyata keçirilir.

Bu təşəbbüslərin effektivliyi iştirak göstəriciləri, əməkdaş rəyləri və sorğu nəticələri vasitəsilə qiymətləndirilir və təşkilati mədəniyyətin və işçi qüvvəsinin dinamikasının daha sistemli təhlilinə töhfə verir.

Əməkdaşların cəlb olunması və əmək münasibətləri prosesləri ilə yanaşı, SOCAR inteqrasiya olunmuş və məlumatlara əsaslanan yanaşmalar vasitəsilə insan resurslarının idarə olunması sistemini daha da gücləndirməyə davam edir. İnsan resursları fəaliyyəti potensial problemlərin vaxtında müəyyən edilməsi və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi məqsədilə risk əsaslı yanaşma ilə müntəzəm təhlil olunur.

Şirkət namizədlərin seçimi prosesinin optimallaşdırılması, seçim mərhələlərinin sadələşdirilməsi və qərar qəbuletmə prosedurlarının təkmilləşdirilməsi yolu ilə işə qəbul proseslərinin səmərəliliyinin və ardıcıllığının artırılmasına diqqət yetirir. Proseslərin monitorinqinin dəstəklənməsi və işə qəbul qərarlarının keyfiyyətinin, ardıcıllığının və şəffaflığının artırılması məqsədilə rəqəmsal alətlər və məlumat əsaslı metodologiyalar getdikcə daha geniş tətbiq olunur.

İşə qəbul prosesi namizədlərin bərabər və ardıcıl qiymətləndirilməsini təmin etməyə yönəlmiş səriştə əsaslı yanaşmaya əsaslanır. İşə qəbul prosedurları dəqiq müəyyən edilmiş vəzifə tələbləri və korporativ standartlar əsasında həyata keçirilir, texniki biliklərlə yanaşı davranış səriştələrinin qiymətləndirilməsi üçün standartlaşdırılmış metodlardan istifadə olunur. Bu yanaşma namizədlərin obyektiv qiymətləndirilməsini təmin edir, seçim proseslərində subyektivliyi azaldır və namizədlərin peşəkar keyfiyyətləri, təcrübəsi, təşkilati dəyərlərə uyğunluğu və vəzifə tələbləri əsasında qiymətləndirilməsinə şərait yaradır. SOCAR həmçinin işə qəbul, daxili mobillik və istedadların idarə olunması prosesləri arasında inteqrasiyanı gücləndirərək insan kapitalının idarə olunması sisteminin daha koordinasiyalı fəaliyyətini, əməliyyat səmərəliliyinin artırılmasını və təşkilat üzrə daha ardıcıl əməkdaş təcrübəsinin formalaşdırılmasını dəstəkləyir.

Bu ümumi çərçivə daxilində SOCAR təşkilati dəyişikliklərin şəffaf və proqnozlaşdırıla bilən şəkildə idarə olunmasını təmin etməyə çalışır. Struktur və ya təşkilati dəyişikliklərin əməkdaşlara təsir göstərə biləcəyi hallarda şirkət həm milli əmək qanunvericiliyinin tələblərinə, həm də Kollektiv müqavilənin müddəalarına əməl edir. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 77-ci maddəsinin “b” bəndinə uyğun olaraq, əməkdaşların məşğulluq vəziyyətinə təsir göstərə biləcək dəyişikliklər zamanı onlara əvvəlcədən məlumat verilir. Bildiriş müddəti əməkdaşın iş stajına əsasən müəyyən edilir və potensial dəyişiklikləri anlamaq və onlara uyğun reaksiya vermək üçün kifayət qədər vaxt təmin edir. Bu yanaşma işçi qüvvəsinin idarə olunmasında şəffaflığı dəstəkləyir və təşkilati dəyişikliklərin ədalətli və ardıcıl şəkildə həyata keçirilməsinə kömək edir.

Əmək münasibətləri və insan kapitalının idarə olunmasına bu strukturlaşdırılmış və inteqrasiya olunmuş yanaşma nəticəsində SOCAR nisbətən sabit işçi qüvvəsi mühitini qoruyub saxlayır. Uzunmüddətli əmək münasibətləri üstünlük təşkil edir və hesabat dövründə daimi əmək müqavilələri ümumi işçi qüvvəsinin təxminən 99%-ni təşkil etmişdir ki, bu da institusional biliklərin qorunmasını və davamlılığın təmin olunmasını dəstəkləyir. Əməkdaş axını da 2025-ci ildə nisbətən aşağı səviyyədə qalmış və ümumi dövriyyə göstəricisi 2,9% təşkil etmişdir. Bu göstərici kişi əməkdaşlar arasında 2,7%, qadın əməkdaşlar arasında isə 3,9% olmuşdur. Hesabat dövründə daxili yerdəyişmələr istisna olmaqla təxminən 1 400 əməkdaş şirkətdən ayrılmışdır. Bu göstəricilər işçi qüvvəsinin dinamikası və əməkdaşların saxlanılması meyillərinin müxtəlif əməkdaş qrupları üzrə davamlı monitorinqini dəstəkləyir.


YERLİ MƏŞĞULLUQ

SOCAR Azərbaycandakı əməliyyatları və beynəlxalq törəmə müəssisələri üzrə yerli işçi qüvvəsinin cəlb edilməsinə xüsusi önəm verir. Azərbaycanda yerli əməkdaşlar Baş Ofis və struktur bölmələri də daxil olmaqla ümumi işçi qüvvəsinin əhəmiyyətli hissəsini təşkil edir. Beynəlxalq əməliyyatlarda da şirkətin törəmə və əməliyyat müəssisələri üzrə yerli məşğulluq təcrübələri tətbiq olunur.

GRI 3: Əhəmiyyətli Mövzular 2021 / GRI 207: Vergi 2019	3-3. Əhəmiyyətli mövzuların idarə edilməsi	Vergi dürüstlüyü	44		11.21.1
	207-1. Vergi yanaşması	Vergi dürüstlüyü	44		11.21.4
	207-2. Vergi sahəsində idarəetmə, nəzarət və risklərin idarə olunması	Vergi dürüstlüyü	44		11.21.5
	207-3. Vergi məsələləri ilə bağlı maraqlı tərəflərlə əlaqə və narahatlıqların idarə olunması	Vergi dürüstlüyü	44		11.21.6
	207-4. Ölkələr üzrə hesabatlılıq	İqtisadi təsir və fəaliyyət; Vergi dürüstlüyü	22; 44	SOCAR hər bir ölkə və müvafiq yurisdiksiya üzrə ödənilmiş mənfəət vergisinə dair məlumatları açıqlayır. Qrup səviyyəsində maliyyə göstəricilərinə dair məlumatlarla hesabatın “İqtisadi təsir və fəaliyyət” bölməsində tanış ola bilərsiniz.	11.21.7

GRI STANDARTLARI	AÇIQLAMALAR	BÖLMƏ	SƏHİFƏ	QEYDLƏR	SEKTOR STANDARTINA İSTİNAD
Materiallar					
GRI 301: Materiallar 2016	301-1. Çəki və ya həcm üzrə istifadə olunan materiallar			Açıqlanmır. SOCAR-ın əsas məhsulları xam neft, təbii qaz, emal olunmuş neft məhsulları və neft-kimya məhsullarıdır. Material sərfiyyatına dair məlumatlar ayrı-ayrı aktivlər səviyyəsində mövcud olsa da, Şirkət hazırda istifadə olunan materialların çəki və ya həcm üzrə ölçülməsi və konsolidasiyası üçün Qrup səviyyəsində vahid sistemə malik deyil.	
	301-2 İstifadə olunan təkrar emal edilmiş xammal və materiallar				
	301-3 Geri toplanmış məhsullar və onların qablaşdırma materialları				
Enerji					
GRI 3: Əhəmiyyətli Mövzular 2021 / GRI 302: Enerji 2016	3-3. Əhəmiyyətli mövzuların idarə edilməsi	Dayanıqlı idarəetmə yanaşması; Enerji idarə edilməsi və səmərəliliyi	31; 71		
	302-1. Təşkilat daxilində enerji istehlakı	Enerji idarə edilməsi və səmərəliliyi; Səmərəlilik göstəriciləri	71-72; 107-108		
	302-2. Təşkilatdan kənarda enerji istehlakı			SOCAR enerji istehlakı barədə məlumatları əməliyyat nəzarəti çərçivəsində açıqlayır. Təşkilatın hüdudlarından kənarda baş verən enerji istehlakı üzrə məlumatlar cari hesabat dövrü üçün konsolidasiya edilmir.	
	302-3. Enerji intensivliyi	Enerji idarə edilməsi və səmərəliliyi; Səmərəlilik göstəriciləri (Ümumi enerji istehlakının intensivliyi)	71-72; 108		
	302-4. Enerji istehlakının azaldılması	Dekarbonizasiya proqramı; Enerji idarə edilməsi və səmərəliliyi	69-70; 71		

GRI STANDARTLARI	AÇIQLAMALAR	BÖLMƏ	SƏHİFƏ	QEYDLƏR	SEKTOR STANDARTINA İSTİNAD
Su və çirkab sular					
GRI 3: Əhəmiyyətli Mövzular 2021	3-3. Əhəmiyyətli mövzuların idarə edilməsi	Qrup üzrə suyun idarə edilməsi	73		11.6.2001
GRI 303: Su və çirkab sular 2018	303-1. Suyun ümumi resurs kimi istifadəsi ilə bağlı qarşılıqlı təsirlər	Qrup üzrə suyun idarə edilməsi	73-74		11.6.2002
	303-2. Su axıdılması ilə bağlı təsirlərin idarə olunması	Qrup üzrə suyun idarə edilməsi	73		11.6.2003
	303-3. Su götürülməsi	Qrup üzrə suyun idarə edilməsi	73-74; 108		11.6.2004
	303-4. Su axıdılması	Qrup üzrə suyun idarə edilməsi	73-74; 109		11.6.2005
	303-5. Su istehlakı	Qrup üzrə suyun idarə edilməsi	73-74; 108-109		11.6.2006
Emissiyalar					
GRI 3: Əhəmiyyətli Mövzular 2021 / GRI 305: Emissiyalar 2016	3-3. Əhəmiyyətli mövzuların idarə edilməsi	Xalis sıfıra doğru yol; İstixana qazı emissiyalarının idarə edilməsi	25-27; 63-68		11.1.1; 11.3.1
	305-1. Birbaşa (Əhatə dairəsi 1) istixana qazı emissiyaları	İstixana qazı emissiyalarının idarə edilməsi ; Səmərəlilik göstəriciləri	63-68; 102-104		
	305-2. Enerji istehlakı ilə bağlı dolayı (Əhatə dairəsi 2) istixana qazı emissiyaları	İstixana qazı emissiyalarının idarə edilməsi ; Səmərəlilik göstəriciləri	63-64; 102-104		

GRI STANDARTLARI	AÇIQLAMALAR	BÖLMƏ	SƏHİFƏ	QEYDLƏR	SEKTOR STANDARTINA İSTİNAD
GRI 3: Əhəmiyyətli Mövzular 2021 / GRI 305: Emissiyalar 2016	305-3. Digər dolayı (Əhatə dairəsi 3) istixana qazı emissiyaları	İstixana qazı emissiyalarının idarə edilməsi ; Səmərəlilik göstəriciləri (SOCAR Trading)	64; 105	Hazırkı mərhələdə Əhatə 3 emissiyaları yalnız SOCAR Trading üzrə hesablanır və açıqlanır. Əhatə 3 emissiyalarının tam həcmdə hesablanması və hesabatlığa daxil edilməsi növbəti hesabat dövrləri üçün planlaşdırılır.	
	305-4. İstixana qazı emissiyalarının intensivliyi	Xalis sıfıra doğru yol; İstixana qazı emissiyalarının idarə edilməsi; Səmərəlilik göstəriciləri	27; 63; 102		
	305-5. İstixana qazı emissiyalarının azaldılması	İstixana qazı emissiyalarının idarə edilməsi; Dekarbonizasiya proqramı	63; 69-70		
	305-6. Ozon qatını dağıdan maddələrin (ODS) emissiyaları			Tətbiq edilmir. SOCAR ozon qatını dağıdan maddələrin emissiyasını həyata keçirmir.	
	305-7. Azot oksidləri (NOx), kükürd oksidləri (SOx) və digər əhəmiyyətli hava emissiyaları	Havanın keyfiyyəti; Səmərəlilik göstəriciləri	76; 105-106		11.3.2002
Çirkab suları və tullantılar					
GRI 3: Əhəmiyyətli Mövzular 2021 / GRI 306: Çirkab suları və tullantılar 2016	3-3. Əhəmiyyətli mövzuların idarə edilməsi	Torpaqla bağlı təsirlər və neft dağılmalarının idarə olunması	78-79		11.8.2001
	306-3. Əhəmiyyətli dağılmalar	Torpaqla bağlı təsirlər və neft dağılmalarının idarə olunması; Səmərəlilik göstəriciləri	79; 111		11.8.2002
Tullantılar					
GRI 3: Əhəmiyyətli Mövzular 2021 / GRI 306: Tullantılar 2020	3-3. Əhəmiyyətli mövzuların idarə edilməsi	Materiallardan istifadə, tullantılar və dairəvi iqtisadiyyat	75		11.5.2001

GRI STANDARTLARI	AÇIQLAMALAR	BÖLMƏ	SƏHİFƏ	QEYDLƏR	SEKTOR STANDARTINA İSTİNAD
GRI 3: Əhəmiyyətli Mövzular 2021 / GRI 306: Tullantılar 2020	306-1. Tullantıların yaranması və tullantılarla bağlı əhəmiyyətli təsirlər	Materiallardan istifadə, tullantılar və dairəvi iqtisadiyyat; Səmərəlilik göstəriciləri	75; 110		11.5.2002
	306-2. Tullantılarla bağlı əhəmiyyətli təsirlərin idarə olunması	Materiallardan istifadə, tullantılar və dairəvi iqtisadiyyat	75		11.5.2003
	306-3. Yaranmış tullantılar	Materiallardan istifadə, tullantılar və dairəvi iqtisadiyyat; Səmərəlilik göstəriciləri	75; 110		11.5.2004
	306-4. Utilizasiyadan kənarlaşdırılmış tullantılar	Materiallardan istifadə, tullantılar və dairəvi iqtisadiyyat; Səmərəlilik göstəriciləri	75; 110		11.5.2005
	306-5. Utilizasiyaya yönləndirilmiş tullantılar	Materiallardan istifadə, tullantılar və dairəvi iqtisadiyyat; Səmərəlilik göstəriciləri	75; 110		11.5.2006
Təchizatçıların ekoloji qiymətləndirilməsi					
GRI 3: Əhəmiyyətli Mövzular 2021 / GRI 308: Təchizatçıların Ekoloji Qiymətləndirilməsi 2016	3-3. Əhəmiyyətli mövzuların idarə edilməsi	Təchizat zəncirində məsuliyyətli yanaşma	53-55		
	308-1. Ekoloji meyarlar əsasında qiymətləndirilmiş yeni təchizatçılar	Təchizat zəncirində məsuliyyətli yanaşma	53-55		
	308-2. Təchizat zəncirində müəyyən edilmiş mənfi ekoloji təsirlər və görülmüş tədbirlər	Təchizat zəncirində məsuliyyətli yanaşma	55	SOCAR təchizatçıların ilkin ixtisaslaşdırılması və qiymətləndirilməsi proseslərinə ətraf mühit meyarlarını inteqrasiya edir. Hesabat ilində yalnız bir təchizatçı aşağı qiymətləndirmə nəticəsi əldə etmişdir.	

GRI STANDARTLARI	AÇIQLAMALAR	BÖLMƏ	SƏHİFƏ	QEYDLƏR	SEKTOR STANDARTINA İSTİNAD
Məşğulluq					
GRI 3: Əhəmiyyətli Mövzular 2021 / GRI 401: Məşğulluq 2016	3-3. Əhəmiyyətli mövzuların idarə edilməsi	Əmək təcrübələri və işçi qüvvəsinin idarə edilməsi	85-87		11.10.2001
	401-1. Yeni işə qəbul olunan işçilər və işçi dövriyyəsi	Əmək təcrübələri və işçi qüvvəsinin idarə edilməsi; Səmərəlilik göstəriciləri	85-87; 117-120		11.10.2002
	401-2. Tam ştatlı işçilərə təqdim olunan, lakin müvəqqəti və ya natamam iş vaxtı ilə çalışan işçilərə təqdim olunmayan müavinətlər	Əməkhaqqı və imtiyazlar; İşçilərin cəlb olunması və rifahı	95; 96		11.10.2003
	401-3. Valideyn məzuniyyəti	Müxtəliflik, bərabərlik və inklüzivlik; Səmərəlilik göstəriciləri	88-89; 128		11.10.4; 11.11.3
Əmək münasibətləri və rəhbərlik–işçi əlaqələri					
GRI 3: Əhəmiyyətli Mövzular 2021 / GRI 402: Əmək Münasibətləri və Rəhbərlik–İşçi Əlaqələri 2016	3-3. Əhəmiyyətli mövzuların idarə edilməsi	Əmək təcrübələri və işçi qüvvəsinin idarə edilməsi	85-87		11.7.2001
	402-1. Əməliyyat dəyişiklikləri ilə bağlı minimum əvvəlcədən bildiriş müddətləri	Əmək təcrübələri və işçi qüvvəsinin idarə edilməsi	85		11.10.5; 11.7.2
Əməyin mühafizəsi və təhlükəsizliyi					
GRI 3: Əhəmiyyətli Mövzular 2021 / GRI 403: Əməyin Mühafizəsi və Təhlükəsizliyinin İdarəetmə Sistemi 2018	3-3. Əhəmiyyətli mövzuların idarə edilməsi	Sağlamlıq və əməyin təhlükəsizliyi	81-83		11.9.2001

GRI STANDARTLARI	AÇIQLAMALAR	BÖLMƏ	SƏHİFƏ	QEYDLƏR	SEKTOR STANDARTINA İSTİNAD
GRI 3: Əhəmiyyətli Mövzular 2021 / GRI 403: Əməyin Mühafizəsi və Təhlükəsizliyinin İdarəetmə Sistemi 2018	403-1. Əməyin mühafizəsi və təhlükəsizliyinin idarəetmə sistemi	Sağlamlıq və əməyin təhlükəsizliyi	81-83		11.9.2002
	403-2. Təhlükələrin müəyyən edilməsi, risklərin qiymətləndirilməsi və hadisələrin araşdırılması	Sağlamlıq və əməyin təhlükəsizliyi	81-83		11.9.2003
	403-3. Peşə sağlamlığı xidmətləri	Sağlamlıq və əməyin təhlükəsizliyi	81-82		11.9.2004
	403-4. Əməyin mühafizəsi və təhlükəsizliyi məsələləri üzrə işçilərin iştirakı, məsləhətləşmə və kommunikasiya	Sağlamlıq və əməyin təhlükəsizliyi	81-83		11.9.2005
	403-5. Əməyin mühafizəsi və təhlükəsizliyi üzrə işçilərin təlimi	Sağlamlıq və əməyin təhlükəsizliyi	81-83		11.9.2006
	403-6. İşçilərin sağlamlığının təşviqi	Sağlamlıq və əməyin təhlükəsizliyi; İşçilərin cəlb olunması və rifahı	82; 96		11.9.2007
	403-7. Biznes əlaqələri ilə birbaşa əlaqəli əməyin mühafizəsi və təhlükəsizliyi təsirlərinin qarşısının alınması və azaldılması	Təchizat zəncirində məsuliyyətli yanaşma; Üçüncü tərəf şirkətlərə nəzarət	53-56; 83		11.9.2008
	403-8. Əməyin mühafizəsi və təhlükəsizliyinin idarəetmə sistemi ilə əhatə olunan işçilər	Sağlamlıq və əməyin təhlükəsizliyi	81-82		11.9.2009
	403-9. Əməklə bağlı xəsarətlər	Sağlamlıq və əməyin təhlükəsizliyi; Səmərəlilik göstəriciləri	83-84; 112-115		11.9.10
	403-10. Əməklə bağlı sağlamlıq pozuntuları	Sağlamlıq və əməyin təhlükəsizliyi; Səmərəlilik göstəriciləri	83-84; 112-115		11.9.11

GRI STANDARTLARI	AÇIQLAMALAR	BÖLMƏ	SƏHİFƏ	QEYDLƏR	SEKTOR STANDARTINA İSTİNAD
Təlim və təhsil					
GRI 3: Əhəmiyyətli Mövzular 2021 / GRI 404: Təlim və təhsil 2016	3-3. Əhəmiyyətli mövzuların idarə edilməsi	Müxtəliflik, bərabərlik və inklüzivlik (Əməkdaşların inkişafı təşəbbüsləri)	90-93		11.10.2001
	404-1. Bir işçiyə düşən orta illik təlim saatları	Səmərəlilik göstəriciləri	121-122		11.10.6; 11.11.4
	404-2. İşçilərin bacarıqlarının inkişaf etdirilməsi və karyera keçidinin dəstəklənməsi proqramları	Müxtəliflik, bərabərlik və inklüzivlik (Əməkdaşların inkişafı təşəbbüsləri)	90		11.7.3; 11.10.7
	404-3. Müntəzəm fəaliyyət və karyera inkişafı qiymətləndirmələrindən keçən işçilərin faizi	Fəaliyyətin idarə olunması və kompensasiyası	94		
Müxtəliflik və bərabər imkanlar					
GRI 3: Əhəmiyyətli Mövzular 2021 / GRI 405: Müxtəliflik və bərabər imkanlar 2016	3-3. Əhəmiyyətli mövzuların idarə edilməsi	Müxtəliflik, bərabərlik və inklüzivlik	88-89		11.11.2001
	405-1. İdarəetmə orqanlarının və işçilərin müxtəlifliyi	İdarəetmə strukturu və nəzarət; Müxtəliflik, bərabərlik və inklüzivlik; Səmərəlilik göstəriciləri	34-35; 88-89; 124		11.11.2005
	405-2. Qadınlar və kişilər üzrə əsas əməkhaqqı və mükafatlandırmanın nisbəti	Səmərəlilik göstəriciləri	129		11.11.2006

GRI STANDARTLARI	AÇIQLAMALAR	BÖLMƏ	SƏHİFƏ	QEYDLƏR	SEKTOR STANDARTINA İSTİNAD
Ayrı-seçkiliyə yol verilməməsi					
GRI 3: Əhəmiyyətli Mövzular 2021 / GRI 406: Ayrı-seçkiliyə yol verilməməsi 2016	3-3. Əhəmiyyətli mövzuların idarə edilməsi	Müxtəliflik, bərabərlik və inklüzivlik	88		11.11.2001
	406-1. Ayrı-seçkilik halları və görülmüş düzəldici tədbirlər	Müxtəliflik, bərabərlik və inklüzivlik	88	SOCAR Müxtəliflik, Bərabərlik və İnklüzivlik çərçivəsi vasitəsilə inklüziv və ayrı-seçkiliyə yol verilməyən iş mühitini təşviq edir. Hesabat ili ərzində ayrı-seçkiliklə bağlı təsdiqlənmiş heç bir hal qeydə alınmamışdır.	11.11.2007
Assosiasiya azadlığı və kollektiv müqavilələr					
GRI 3: Əhəmiyyətli Mövzular 2021 / GRI 407: Assosiasiya azadlığı və kollektiv müqavilələr 2016	3-3. Əhəmiyyətli mövzuların idarə edilməsi	Etik biznes davranışı; Əmək təcrübələri və işçi qüvvəsinin idarə edilməsi; İşçilərin cəlb olunması və rifahı	38; 85; 96		11.13.1
	407-1. Birləşmək azadlığı və kollektiv danışıqlar hüququnun risk altında ola biləcəyi fəaliyyətlər və təchizatçılar	Etik biznes davranışı; Əmək təcrübələri və işçi qüvvəsinin idarə edilməsi; İşçilərin cəlb olunması və rifahı	38; 85; 96	Tətbiq edilmir, çünki SOCAR insan hüquqlarına hörmət prinsiplərinə uyğun fəaliyyət göstərir və bütün əməkdaşları üçün bərabər əsaslarla əmək hüquqlarının təmin edilməsini təmin edir.	11.13.2
Uşaq əməyi					
GRI 3: Əhəmiyyətli Mövzular 2021 / GRI 408: Uşaq əməyi 2016	3-3. Əhəmiyyətli mövzuların idarə edilməsi	Etik biznes davranışı; Təchizat zəncirində məsuliyyətli yanaşma; Əmək təcrübələri və işçi qüvvəsinin idarə edilməsi	38; 55; 85		
	408-1. Uşaq əməyindən istifadə halları baxımından əhəmiyyətli riskə məruz qalan əməliyyatlar və təchizatçılar	Etik biznes davranışı; Təchizat zəncirində məsuliyyətli yanaşma; Əmək təcrübələri və işçi qüvvəsinin idarə edilməsi	38; 55; 85	SOCAR özünün heç bir fəaliyyət istiqamətində uşaq əməyindən istifadə etmir. Təchizatçılardan təchizatçıların ixtisaslandırılması və qiymətləndirilməsi prosesləri çərçivəsində uşaq əməyinin qadağan olunması da daxil olmaqla, beynəlxalq əmək standartlarının tələblərinə riayət etmələri tələb olunur.	

GRI STANDARTLARI	AÇIQLAMALAR	BÖLMƏ	SƏHİFƏ	QEYDLƏR	SEKTOR STANDARTINA İSTİNAD
Məcburi və ya icbari əmək					
GRI 3: Əhəmiyyətli Mövzular 2021 / GRI 409: Məcburi və ya icbari əmək 2016	3-3. Əhəmiyyətli mövzuların idarə edilməsi				11.12.2001
	409-1. Məcburi və ya icbari əmək halları üzrə əhəmiyyətli risk daşıyan fəaliyyətlər və təchizatçılar	Etik biznes davranışı; Təchizat zəncirində məsuliyyətli yanaşma; Əmək təcrübələri və işçi qüvvəsinin idarə edilməsi	38; 55; 85	SOCAR özünün bütün fəaliyyət istiqamətlərində, həm əməkdaşlarının, həm də təchizatçılarının iştirakı ilə məcburi və ya icbari əməyin hər hansı formasına yol vermir.	11.12.2002
Təhlükəsizlik təcrübələri					
GRI 3: Əhəmiyyətli Mövzular 2021 / GRI 410: Təhlükəsizlik təcrübələri 2016	3-3. Əhəmiyyətli mövzuların idarə edilməsi				11.18.1
	410-1. İnsan hüquqları üzrə siyasətlər və ya prosedurlar üzrə təlim keçmiş təhlükəsizlik işçiləri	Etik biznes davranışı; Sağlamlıq və əməyin təhlükəsizliyi	38; 82	Təhlükəsizlik işçilərinin insan hüquqları üzrə siyasətlər və ya prosedurlar üzrə təlimləri haqqında məlumat hazırda ayrıca açıqlanmır. SOCAR-ın insan hüquqlarına dair öhdəlikləri Biznes Etikası və Davranış Məcəlləsi, eləcə də əlaqəli siyasətlər vasitəsilə əməkdaşlara çatdırılır.	11.18.2
Yerli xalqların hüquqları					
GRI 3: Əhəmiyyətli Mövzular 2021 / GRI 411: Yerli Xalqların Hüquqları 2016	3-3. Əhəmiyyətli mövzuların idarə edilməsi				11.17.1
	411-1. Yerli xalqların hüquqlarının pozulması ilə bağlı hallar			Hesabat dövrü ərzində yerli xalqların hüquqlarının pozulması ilə bağlı hər hansı hal müəyyən edilməmişdir. SOCAR-ın əməliyyatları onun fəaliyyətindən əhəmiyyətli dərəcədə təsirlənən yerli xalqların yaşadığı ərazilərdə həyata keçirilmir.	11.17.2

GRI STANDARTLARI	AÇIQLAMALAR	BÖLMƏ	SƏHİFƏ	QEYDLƏR	SEKTOR STANDARTINA İSTİNAD
Yerli icmalar					
GRI 3: Əhəmiyyətli Mövzular 2021 / GRI 413: Yerli icmalar 2016	3-3. Əhəmiyyətli mövzuların idarə edilməsi	Sosial dəyərin yaradılması	98-99		11.15.1
	413-1. Yerli icmaların cəlb edilməsi, təsirlərin qiymətləndirilməsi və inkişaf proqramlarının həyata keçirildiyi fəaliyyətlər	Sosial dəyərin yaradılması	98-99		11.15.2
	413-2. Yerli icmalara faktiki və potensial əhəmiyyətli mənfi təsir göstərən əməliyyatlar	Sosial dəyərin yaradılması	98	SOCAR-ın əməliyyatları yerli icmalara potensial təsirlər göstərə bilər. Bu risklər ətraf mühitin monitorinqi, risklərin idarə edilməsi, fövqəladə hallara hazırlıq, torpaqların bərpası və maraqlı tərəflərin cəlb edilməsi prosesləri vasitəsilə idarə olunur. Hesabat dövrü ərzində yerli icmalara əhəmiyyətli mənfi təsirlər və ya onların hüquqlarının pozulması ilə bağlı hər hansı hal müəyyən edilməmişdir.	11.15.3
Təchizatçıların sosial qiymətləndirilməsi					
GRI 3: Əhəmiyyətli Mövzular 2021 / GRI 414: Təchizatçıların sosial qiymətləndirilməsi 2016	3-3. Əhəmiyyətli mövzuların idarə edilməsi	Təchizat zəncirində məsuliyyətli yanaşma	53-55		11.10.2001
	414-1. Sosial meyarlar əsasında qiymətləndirilmiş yeni təchizatçılar	Təchizat zəncirində məsuliyyətli yanaşma	55		11.10.8; 11.12.3
	414-2. Təchizat zəncirində müəyyən edilmiş mənfi sosial təsirlər və görülmüş tədbirlər	Təchizat zəncirində məsuliyyətli yanaşma	55		11.10.2009

GRI STANDARTLARI	AÇIQLAMALAR	BÖLMƏ	SƏHİFƏ	QEYDLƏR	SEKTOR STANDARTINA İSTİNAD
İctimai siyasət					
GRI 415: İctimai siyasət 2016	415-1. Siyasi məqsədlər üçün edilən ianələr və töhfələr	Etik biznes davranışı	38		11.22.2
Müştərilərin Sağlamlığı və Təhlükəsizliyi					
GRI 3: Əhəmiyyətli Mövzular 2021 / GRI 416: Müştərilərin Sağlamlığı və Təhlükəsizliyi 2016	3-3. Əhəmiyyətli mövzuların idarə edilməsi	Sağlamlıq və əməyin təhlükəsizliyi	83		11.9.2001
	416-1. Məhsul və xidmət kateqoriyalarının sağlamlıq və təhlükəsizlik təsirlərinin qiymətləndirilməsi	Sağlamlıq və əməyin təhlükəsizliyi	83		11.3.2003
	416-2. Məhsul və xidmətlərin sağlamlıq və təhlükəsizlik təsirləri ilə bağlı uyğunsuzluq halları			Şirkətdə müntəzəm həyata keçirilən keyfiyyət auditləri nəticəsində belə hallar qeydə alınmamışdır.	
Müştəri Məxfiliyi					
GRI 3: Əhəmiyyətli Mövzular 2021 / GRI 418: Müştəri Məxfiliyi 2016	3-3. Əhəmiyyətli mövzuların idarə edilməsi	Konfidensial məlumatların və fərdi məlumatların qorunması; Kibertəhlükəsizlik	42; 58		
	418-1 Müştəri məxfiliyinin pozulması və müştəri məlumatlarının itirilməsi ilə bağlı əsaslandırılmış şikayətlər	Konfidensial məlumatların və fərdi məlumatların qorunması; Kibertəhlükəsizlik	42; 58	SOCAR müştəri məlumatlarının məxfiliyinə həssas yanaşır və maraqlı tərəflərlə etimada əsaslanan möhkəm münasibətlərin qurulmasına önəm verir.	

ƏMİNLİK BƏYANNAMƏSİ

Ernst & Young Holdings (CIS) B.V.
Port Baku Towers 1, 9th floor
153 Neftchilar avenue
Baku, AZ1010, Azerbaijan
Tel: +994 12 490 70 20
ey.com/az

Ernst & Yanq Holdinqs (SİAyEs) Bİ.Vİ.
Azərbaycan, AZ1010, Bakı
Neftçilər prospekti 153
Port Baku Towers 1, 9-cu mərtəbə
Tel: +994 12 490 70 20
ey.com/az

Müstəqil Əminlik Bəyannaməsi

İngilis dilində olan orijinal versiyadan tərcümə

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) Rəhbərliyinə

Əhatə dairəsi
Biz Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (bundan sonra "SOCAR") tərəfindən Əminlik Tapşırıqları üzrə Beynəlxalq Standartlara uyğun SOCAR-ın 31 dekabr 2025-ci il tarixində bitən hesabat ilini əhatə edən 2025-ci il üzrə Dayanıqlılıq Hesabatında (bundan sonra "Hesabat") açıqlanan seçilmiş dayanıqlılıq göstəricilərinə (bundan sonra "Mövzu") dair məhdud əminlik tapşırığını (bundan sonra "Tapşırıq") yerinə yetirmək üçün təyin edilmişik.

Mövzu aşağıdakı göstəricilərlə məhdudlaşır:

- İşçilərin cəmi sayı (cins üzrə)
- Kadr axını (%)
- Keçirilmiş cəmi təlim sessiyaları saatı
- İtirilmiş İş Günü ilə Nəticələnən Xəsarət Əmsalı (LTIR) (%)
- Ölümlə Nəticələnən Hadisə Əmsalı (%)
- Əhatə dairəsi 1 emissiyaları (əməliyyat çərçivəsi) (min tCO_{2e})
- Əhatə dairəsi 2 emissiyaları (əməliyyat çərçivəsi) (min tCO_{2e})
- Atmosfer havasına atılmış digər cəmi emissiyalar (min ton)
- Apstrim Əhatə dairəsi 1 emissiyaları intensivliyi (tCO_{2e}/TOE)
- Apstrim metan intensivliyi (əməliyyat çərçivəsi)
- Cəmi enerji sərfiyyatı (ton, min m³, min kVt-saat)
- Cəmi götürülmüş su həcmi (milyon m³)
- Əmələ gəlmiş təhlükəli tullantıların ümumi həcmi (min ton)
- Əmələ gəlmiş təhlükəsiz tullantıların ümumi həcmi (min ton)
- Tullantı intensivliyi (əmələ gəlmiş cəmi tullantı həcmi (ton)/TOE))
- Yerli təchizatçılar üzrə ayrılmış satınalma xərclərinin payı (%)
- Daxil olmuş və həll edilmiş şikayətlərin sayı, şikayət mexanizmlərinin təsviri
- Qanunvericilik və normativ tələblərin pozulması ilə bağlı əhəmiyyətli halların cəmi sayı
- Korrupsiyaya qarşı siyasət və prosedurlar üzrə məlumatlandırma və təlimlər (təlimlərdə iştirak edən işçilərin sayı).

Yuxarıdakı paraqrafda qeyd edilən və tapşırığın əhatə dairəsini müəyyən edən məlumatlar istisna olmaqla, Hesabata daxil edilmiş digər məlumatlar üzrə əminlik prosedurları həyata keçirməmişik və, uyğun olaraq, həmin məlumatlar üzrə hər hansı rəy bildirmirik.

A member firm of Ernst & Young Global Limited

SOCAR tərəfindən tətbiq edilən Meyarlar
Mövzunu hazırlayarkən SOCAR, Hesabatın "Hesabat haqqında" bölməsində qeyd olunduğu kimi, Qlobal Hesabatlılıq Təşəbbüsü (bundan sonra "GRI") və Dayanıqlılıq Uçotu Standartları Şurasının (bundan sonra "SASB") dayanıqlılıq hesabatlılığı standartlarını hesabatlılıq meyarları kimi (bundan sonra "Meyarlar") tətbiq etmişdir.

SOCAR-ın məsuliyyətləri
SOCAR rəhbərliyi Meyarların müəyyən olunması və Mövzunun Meyarlara uyğun olaraq təqdim edilməsi üzrə məsuldur. Bu məsuliyyətə Mövzunun saxtakarlıq və ya xəta səbəbindən yarana biləcək əhəmiyyətli təhriflərdən azad şəkildə hazırlanması məqsədilə daxili nəzarət mexanizmlərinin yaradılması və saxlanılması, müvafiq qeydlərin aparılması, eləcə də lazımi ehtimalların edilməsi daxildir.

EY-ın məsuliyyətləri
Bizim məsuliyyətimiz əldə edilmiş dəlillər əsasında Mövzunun təqdimatına dair rəyin bildirilməsidir.

Tapşırıq *Tarixi Maliyyə Məlumatlarının Auditi və Təhlilindən Başqa Əminlik Tapşırıqları üzrə Beynəlxalq Standart* ("ISAE 3000 (Düzəliş edilmiş)"), eləcə də SOCAR ilə 26.05.2026-cı il tarixində razılaşdırılmış şərtlərə uyğun olaraq həyata keçirilmişdir Bu standartlar Mövzunun Meyarlara uyğun olaraq təqdim edilməsi üçün edilməli olan hər hansı əhəmiyyətli dəyişikliklərdən məlumatlı olub-olmamağımıza dair rəy verilməsi, eləcə də Hesabatın dərc olunması üçün Tapşırığın planlaşdırılması və icrasını tələb edir. Seçilən prosedurların təyinatı, vaxtı və miqyası, saxtakarlıq və ya xəta səbəbindən yarana biləcək əhəmiyyətli təhrif riskinin qiymətləndirilməsi də daxil olmaqla, peşəkar mülahizəmizdən asılıdır.

Əldə edilmiş dəlillərin məhdud əminlik üzrə rəyimizin əsaslandırılması üçün kifayət və münasib olmasına inanırıq.

Müstəqilliyimiz və keyfiyyətin idarə edilməsi
Biz müstəqilliyimizi qoruduğumuzu və Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurası tərəfindən qəbul edilmiş Peşəkar Mühasiblərin Etika Məcəlləsinin tələblərinə əməl etdiyimizi, eləcə də Tapşırığın yerinə yetirilməsi üçün lazımi səriştə və təcrübəyə malik olduğumuzu təsdiqləyirik.

EY, həmçinin, etik tələblərə, peşə standartlarına və tətbiq olunan qanuni və tənzimləyici tələblərə uyğunluqla bağlı siyasət və prosedurlar daxil olmaqla keyfiyyətin idarə edilməsi sisteminin hazırlanması, icrası və tətbiqini tələb edən Keyfiyyətin İdarə Edilməsi üzrə 1 saylı Beynəlxalq Standartı, *Maliyyə Hesabatlarının Auditlərini və ya Təhlillərini, Digər Əminlik və ya Əlaqəli Xidmətlər üzrə Tapşırıqları İcra Edən Şirkətlər üçün Keyfiyyətin İdarə Edilməsini*, tətbiq edir.

İcra edilmiş prosedurların təsviri
Məhdud əminlik tapşırığı çərçivəsində icra edilən prosedurların mahiyyəti və vaxtı fərqlənir və kifayət qədər əminlik tapşırığı ilə müqayisədə əhatə dairəsi daha azdır. Nəticə etibarilə, məhdud əminlik tapşırığı nəticəsində əldə edilən əminlik səviyyəsi kifayət qədər əminlik tapşırığı icra olunduğu təqdirdə əldə oluna biləcək əminlikdən əhəmiyyətli dərəcədə aşağıdır. Prosedurlarımız rəyimizin əsaslandırılması üçün məhdud səviyyədə əminliyin əldə olunması

A member firm of Ernst & Young Global Limited

məqsədilə hazırlanmış və kifayət səviyyədə əminliyin təqdim olunması üçün tələb oluna bilən dəlili təmin etmir. Prosedurlarımızın mahiyyətini və miqyasını müəyyən edərkən rəhbərliyin daxili nəzarətinin effektivliyini nəzərə alsaq da, əminlik tapşırığımız daxili nəzarət sistemlərinə dair əminliyin təqdim olunması üçün hazırlanmamışdır. Prosedurlarımıza nəzarət sisteminin yoxlanması və ya IT sistemləri daxilində məlumatların agregasiyası və ya hesablanması ilə bağlı prosedurların icrası daxil olmamışdır.

Məhdud əminlik tapşırığı ilk növbədə Mövzunun və əlaqəli məlumatların hazırlanması üzrə məsul şəxslərə sorğuların təqdim edilməsi, habelə analitik və digər müvafiq prosedurların tətbiqindən ibarətdir.

Bizim prosedurlara daxil olmuşdur:

- Mövzunun hazırlanmasında iştirak edən SOCAR-ın aidiyyəti struktur bölmələrinin nümayəndələri ilə müsahibələrin keçirilməsi
- Mövzu ilə bağlı əsas kəmiyyət məlumatlarına dair analitik prosedurların aparılması
- SOCAR-ın dayanıqlılıq ilə əlaqəli daxili korporativ sənədlərin təhlili
- Mövzunun nümunə əsaslı yanaşma ilə mənbə məlumatları ilə müqayisəsi
- Mövzunun Hesabatın tərtibatında təqdimatının qiymətləndirilməsi.

Biz, həmçinin, mövcud şəraitdə zəruri hesab etdiyimiz digər prosedurları da həyata keçirmişik.

Rəy
Yerinə yetirdiyimiz prosedurlar və əldə etdiyimiz dəlillərə əsasən, 01.01.2025 – 31.12.2025 dövrü üzrə Mövzuya Meyarlarla uyğunluğun təmin edilməsi üçün edilməli olan hər hansı əhəmiyyətli düzəlişlər barəsində məlumatlı deyilik.

Ernst & Young Holdings (CIS) B.V.

21 iyul, 2026
Bakı, Azərbaycan

A member firm of Ernst & Young Global Limited

HESABATIN ƏSASLARI

HESABATIN HAZIRLANMA ƏSASLARI

Dayanıqlılıq Hesabatı 1 yanvar 2025-ci il – 31 dekabr 2025-ci il dövrünü əhatə etməklə SOCAR üzrə konsolidə edilmiş əsasda hazırlanmış və maliyyə hesabatının əhatə dairəsinə uyğunlaşdırılmışdır. Əks hal ayrıca göstərilmədiyi təqdirdə, hesabatın əhatə dairəsinə daxil edilən törəmə müəssisələr "Hesabat haqqında" bölməsində müəyyən edilmiş müəssisələrlə məhdudlaşır.

Hesabat 2011-ci ildən etibarən hər il dərc olunur və ilkin olaraq Qlobal Hesabatlılıq Təşəbbüsünün (GRI) standartlarına istinadən hazırlanmışdır. Sonrakı mərhələlərdə mühüm mövzuların müəyyənləşdirilməsi və dayanıqlılıq açıqlamalarının hazırlanması məqsədilə SASB təlimatları da hesabatlılıq prosesinə inteqrasiya edilmişdir.

TƏŞKİLATİ HESABATLILIQ SƏRHƏDLƏRİ

Hesabatda təqdim olunan məlumatlar məlumatların əlçatanlığı və mühümlük prinsipləri nəzərə alınmaqla bütün qlobal törəmə müəssisələri əhatə etməyə bilər. Hesabatın əhatə dairəsinə və ya hesabatlılıq yanaşmasına dair hər hansı məhdudiyyət və dəyişikliklər əsas mətn daxilində ayrıca qeyd edilmiş və izah olunmuşdur.

Kənar təminat prosedurları yalnız bu Hesabata əlavə edilmiş təminat bəyanatında göstərilən göstəricilər siyahısı ilə məhdudlaşmışdır.

SOCAR Azərbaycan dayanıqlılıq fəaliyyəti üzrə məlumatların konsolidasiyası üçün əməliyyat nəzarəti yanaşmasını tətbiq edir. Bu yanaşma SOCAR-ın əməliyyat siyasətlərini müəyyən etmək və tətbiq etmək, istehsal proseslərinə tam nəzarət etmək səlahiyyətinə malik olduğu bütün fəaliyyətlərin tam şəkildə hesabatda əks olunmasını təmin edir.

Hesabata daxil edilmiş müəssisələr və fəaliyyətlər

Azərbaycan ərazisində SOCAR-ın nəzarətində olan "upstream", "midstream" və "downstream" istiqamətləri üzrə fəaliyyətləri, o cümlədən:

- Neft emalı, neft-kimya və qaz emalı aktivləri;
- Paylama şəbəkələri, ixrac terminalları və əlaqəli infrastruktur;
- Baş ofis və tədqiqat və inkişaf (R&D) obyektləri.

İstisnalar

- SOCAR tərəfindən idarə olunan və ya idarə olunmayan birgə müəssisələr (BM) və əlaqəli şirkətlər, əks hal ayrıca göstərilmədiyi təqdirdə, əməliyyat sərhədləri üzrə hesabatlılığa daxil edilmir.
- Podratçılar və müvəqqəti fəaliyyətlər üzrə məlumatlar, xüsusi qeyd edilmədiyi halda, hesabatın əhatə dairəsinə daxil edilmir.

MƏLUMAT MƏNBƏLƏRİ VƏ SİSTEMLƏR

Emissiyalar və enerji

Yanacaq sərfiyyatı, elektrik enerjisindən istifadə və istixana qazı emissiyalarına dair məlumatlar obyekt səviyyəsində mövcud olan sistemlərdən, o cümlədən yerində quraşdırılmış sayğaclardan, satınalma sənədlərindən, enerji idarəetmə proqram təminatından və ekoloji qeydiyyat sənədlərindən əldə edilir.

Əməyin mühafizəsi və təhlükəsizlik (ƏMT) və insan resursları

Əməyin mühafizəsi və təhlükəsizlik üzrə məlumatlar daxili insidentlərin izlənməsi sistemi vasitəsilə toplanır, işçilərlə bağlı göstəricilər isə SAP və DEP İnsan Resursları İnformasiya Sistemlərindən əldə olunur.

Tullantıların və suyun idarə olunması

Təhlükəli və təhlükəsiz tullantıların həcmləri SAP EHS modulları vasitəsilə izlənilir və daxili hesabatlar və ya podratçı məlumatları ilə təsdiqlənir. Su götürülməsinə dair məlumatlar sertifikatlaşdırılmış sayğacların göstəriciləri və dövlət hesabat platformaları əsasında formalaşdırılır.

Xərclər və ödənişlər

Material və xidmətlərin satın alınması üzrə xərclər, sosial xərclər və digər ödənişlər SAP sistemində qeydiyyata alınır və həmin sistemdən əldə edilir.

Uyğunluq və müraciət mexanizmləri

Uyğunluq prosedurları, etik davranış qaydalarının pozulması halları, müraciətlərin baxılması və həlli prosesləri, eləcə də uyğunsuzluq və şikayət halları üzrə məlumatlar qüvvədə olan daxili siyasətlərə uyğun olaraq hazırlanmış daxili hesabatlardan əldə edilir.

MƏLUMATLARIN YOXLANILMASI VƏ BƏYANATLAR

Hesabatda yer alan açıqlamalar GRI və SASB standartlarında müəyyən edilmiş tərif və tələblərə uyğun hazırlanmışdır. Mövcud fərqlər və ya məlumat boşluqları indeks cədvəlində açıq şəkildə göstərilmişdir.

Bütün məlumatlar çoxmərhələli yoxlama prosesindən keçmişdir. Bu proses mənbə sənədlərlə (məsələn, hesab-fakturalar, ekoloji hesabatlar, qeydlər və icazələr) tutuşdurma və daxili uyğunluq yoxlamalarını əhatə etmişdir. Müəyyən göstəricilər vaxt məhdudiyyətləri və ya texniki səbəblərlə əlaqədar təxmini və ya yuvarlaqlaşdırılmış formada təqdim edilsə də, tətbiq olunan nəzarət və yoxlama prosedurları məlumatların ümumi düzgünlüyünü təsdiqləyir.

Gələcəyə yönəlmiş bəyanatlar hesabat dövrünün sonuna olan ən son inkişaflar, habelə Şirkətin risk xəritəsində müəyyən edilmiş gözləntilər və qiymətləndirmələr əsasında hazırlanmışdır.

Məhdud təminat əhatəsinə daxil edilmiş göstəricilər ikili mühümlük prinsipi və maraqlı tərəflər üçün əhəmiyyətlilik əsasında seçilmişdir. Təminat prosedurlarına analitik təhlillər, sənədlərin seçmə üsulu ilə yoxlanılması, yenidən hesablamalar və təqdim edilmiş məlumatların hesab-fakturalar, rəhbərliyə təqdim olunan hesabatlar və tənzimləyici orqanlara təqdim edilmiş sənədlər kimi mənbə məlumatlarla uyğunlaşdırılması daxil olmuşdur.

Obyekt səviyyəsində toplanmış məlumatlar mərkəzləşdirilmiş qaydada konsolidasiya edilmiş, müxtəlif müəssisələr və hesabat dövrləri üzrə uyğunluq yoxlamaları həyata keçirilmişdir.

Təminat verilmiş göstəricilər üzrə hesabatlılıq meyarları

Göstərici	Hesablama yanaşması	Fərziyyələr və qiymətləndirmə metodları	Standartlar / Çərçivələr
Əhatə dairəsi 1 üzrə İQ emissiyaları (əməliyyat nəzarəti sərhədləri)	Yanma, məşəldə yandırma, atmosferə buraxılma və sızma emissiyalarının emissiya əmsalları və qlobal istiləşmə potensialı (GWP) göstəricilərindən istifadə etməklə CO_2 ekvivalentinə çevrilməsi	Yanacaq sıxlığı tərkib analizləri əsasında müəyyən edilir; sızmaların aşkarlanması Methane AI aləti ilə dəstəklənir; ölçülməmiş göstəricilər tarixi aktiv məlumatları əsasında qiymətləndirilir	GHG Protocol, IPCC AR5 (2014), ISO 14064-1, GRI 305-1, SASB EM-EP-110a.2, EM-MD-110a.1, EM-RM-110a.1
Əhatə dairəsi 2 üzrə İQ emissiyaları (əməliyyat nəzarəti sərhədləri)	Satın alınmış elektrik enerjisinin istehlakı milli emissiya əmsalına vurulur	Hesablamalar Azərbaycanın UNFCCC-yə təqdim etdiyi 4-cü Milli Məlumatda göstərilən emissiya əmsalı əsasında aparılmışdır	GHG Protocol Scope 2 Guidance, UNFCCC Country Report, GRI 305-2
Digər atmosfer emissiyaları	Peyk əsaslı ölçmə mexanizmləri və daxili hesabat məlumatları	Əməliyyat uyğunluğunun təmin edilməsi və aylıq orta göstəricilər əsasında qiymətləndirmələr	GRI 305-6, GRI 305-7, SASB EM-EP-120a.1, EM-RM-120a.1, EM-MD-120a.1
"Usptream" istiqaməti üzrə Əhatə dairəsi 1 emissiya intensivliyi (əməliyyat nəzarəti sərhədləri)	"Usptream" istiqaməti fəaliyyətləri ilə bağlı mülkiyyətdə olan və ya nəzarət edilən aktivlər üzrə birbaşa İQ emissiyalarının istehsal həcminə bölünməsi	Əhatə dairəsinə yalnız mülkiyyətdə olan və ya idarə olunan obyektlər daxildir; istehsalın bölgüsü enerji tərkibi və ya kütlə əsasında aparılır	GHG Protocol Scope 1 Guidance, ISO 14064-1, GRI 305-4
"Usptream" istiqaməti üzrə metan emissiya intensivliyi (əməliyyat nəzarəti sərhədləri)	Mülkiyyətdə olan və ya idarə olunan "usptream" istiqaməti aktivləri üzrə ümumi metan emissiyalarının qaz hasilatı həcminə bölünməsi	Əhatə dairəsinə yalnız mülkiyyətdə olan və ya idarə olunan "usptream" istiqaməti üzrə obyektləri daxildir; istehsalın bölgüsü enerji tərkibi və ya kütlə əsasında aparılır	GHG Protocol, OGMP 2.0, ISO 14064-1
Enerji istehlakı	Təchizatçı hesab-fakturaları və aylıq sayğac göstəricilərinin konsolidasiyası	Generatorların iş saatları və əvvəlki dövrlərin orta istehlak göstəriciləri əsasında qiymətləndirmələr	GRI 302-1

Təminat verilmiş göstəricilər üzrə hesabatlılıq meyarları

Göstərici	Hesablama yanaşması	Fərziyyələr və qiymətləndirmə metodları	Standartlar / Çərçivələr
Su götürülməsi	Su sayğaclarının göstəriciləri və ya təmizləyici qurğuların qeydləri	Məlumatların natamam və ya mövcud olmadığı hallarda əvvəlki dövrlərin aylıq orta göstəricilərindən istifadə olunur	GRI 303, SASB EM-EP-140a.1, EM-RM-140a.1
Tullantılar	Toplanmış və utilizasiya edilmiş tullantıların çəkisi, utilizasiya üsulu və istehsal vahidinə düşən tullantı intensivliyi	Köçürmə aktları üzrə həcmlər və ya daşınma/saxlama məlumatları əsasında kütlə qiymətləndirmələri	GRI 306, SASB EM-RM-150a.1
Məşğulluq göstəriciləri	SAP sistemindən çıxarılmış məlumatlar və nisbət hesablamaları	İşçi sayı ilin sonundakı məlumatlar əsasında qiymətləndirilir	GRI 401, GRI 402
Təlim saatları	HR sistemlərindən əldə olunan məlumatların konsolidasiyası (əməkdaş üzrə qeydə alınmış saatlar)	Təlim müddəti sessiya üzrə qeydə alındıqda orta iştirak göstəricilərindən istifadə edilir	GRI 404
Əməyin mühafizəsi və təhlükəsizlik göstəriciləri	Hadisə hesabatları, daxili və dövlət qurumlarının məlumatları	Ümumi işlənmiş saatlar və işçi sayı əsasında qiymətləndirmələr	GRI 403, SASB EM-EP-320a.1, EM-RM-320a.1
Satınalma	SAP sistemindən əldə olunan xərclər məlumatları	Verilmiş satınalma sifarişləri və müqavilə öhdəlikləri	GRI 204
Uyğunluq və müraciət mexanizmləri	Uyğunluq yoxlamaları, müraciətlərin idarə olunması və təlim fəaliyyətləri üzrə daxili hesabatlar	Əvvəlki statistik məlumatlar, şirkət əməliyyatları və media monitorinqi əsasında qiymətləndirmələr	GRI 2-25, GRI 2-27, GRI 205-2

TƏMİNAT VERİLƏN GÖSTƏRİCİLƏR ÜZRƏ MƏLUMATLARIN HAZIRLANMASI VƏ ƏSAS HESABLAMALAR

EKOLOJİ GÖSTƏRİCİLƏR

ƏHATƏ DAİRƏSI 1 ÜZRƏ İSTİXANA QAZI EMİSSİYALARI

Əhatə dairəsi 1 emissiyalarına "upstream", "midstream" və "downstream" istiqamətlərin əməliyyatları üzrə yanma, atmosferə buraxılma (venting), məşəldə yandırma (flaring) və sızmalar (fugitive emissions) nəticəsində yaranan birbaşa istixana qazı emissiyaları daxildir.

"Upstream" və "midstream" istiqamətlərində emissiyalar yalnız yanma, atmosferə buraxılma və sızma mənbələri ilə məhdudlaşır. "Midstream" istiqaməti üzrə sızma emissiyalarına çənlər, klapanlar və boru kəmərləri kimi infrastruktur komponentlərindən yaranan emissiyalar da daxildir. "Downstream" istiqaməti üzrə isə bunlarla yanaşı məşəldə yandırma emissiyaları da baş verir.

Bütün aktivlər tərəfindən aylıq ilkin məlumatlar təqdim olunur. Emissiyalar SOCAR-ın tətbiq etdiyi daxili hesablama modeli vasitəsilə hesablanır və IPCC AR5 metodologiyasına uyğun olaraq metan üçün 28 qlobal istiləşmə potensialı (GWP) əmsalı tətbiq edilməklə karbon qazı ekvivalenti (CO_2e) şəklində ifadə olunur.

Emissiyalar aşağıdakı ümumi düstur əsasında hesablanır:

Emissiya miqdarı (ton CO_2e) = Fəaliyyət göstəricisi × Emissiya əmsalı × Qlobal istiləşmə potensialı

Əsas yanma emissiyaları

Yanma mənbələri üzrə giriş məlumatlarına aşağıdakılar daxildir:

- Səmt qazı (Nm^3)
- Təbii qaz (Nm^3)
- Dizel yanacağı (ton)
- Mayeləşdirilmiş neft qazı (LPG)
- Benzin

Kütlənin hesablanması aşağıdakı düstur əsasında aparılır:

Kütlə (kq) = Həcm × Sıxlıq

Sıxlıq göstəriciləri qazın tərkibindən asılı olaraq müəyyən edilir və laborator analizlər və ya standart istinad mənbələri əsasında əldə olunur.

Sızma emissiyaları neft və qaz sistemlərində, o cümlədən çənlər, boru kəmərləri və klapanlar kimi infrastruktur elementlərində baş verən sızmalar əsasında qiymətləndirilir. 2025-ci ilin yanvar ayından etibarən metan emissiyalarının ölçülməsi Methane AI platforması vasitəsilə təkmilləşdirilmişdir. Platforma peyk görüntüləri, mobil ölçmə sistemləri və ekstrapolyasiya modellərini birləşdirərək metan emissiyalarının qiymətləndirilməsinin dəqiqliyini artırır.

ƏHATƏ DAİRƏSİ 2 ÜZRƏ İSTİXANA QAZI EMİSSİYALARI

Əhatə dairəsi 2 emissiyalarına SOCAR-ın fəaliyyətində istifadə olunan satın alınmış elektrik enerjisinin istehsalı nəticəsində yaranan dolayı istixana qazı emissiyaları daxildir. Bu emissiyalar GHG Protocol Scope 2 Guidance sənədinə və Azərbaycan Respublikasının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına (UNFCCC) təqdim etdiyi Dördüncü Milli Məlumatda göstərilən milli emissiya əmsalına uyğun olaraq hesablanmışdır.

Hesablama müəssisə səviyyəsində elektrik enerjisi istehlakı məlumatları əsasında aparılmışdır. Bu məlumatlar aylıq kommunal xidmət hesab-fakturalarından və daxili ölçmə sistemlərindən əldə edilmişdir.

Aşağıdakı düstur tətbiq edilmişdir:

Əhatə dairəsi 2 emissiyaları (ton CO_2e) = Elektrik enerjisi istehlakı × Emissiya əmsalı

Hesabat ili üçün tətbiq olunan emissiya əmsalı Azərbaycan Respublikasının UNFCCC-yə təqdim etdiyi Dördüncü Milli Məlumata uyğun olaraq aşağıdakı kimi müəyyən edilmişdir:

Emissiya əmsalı = 0,53 ton CO_2/MVt·saat

Bu əmsal Azərbaycanın milli elektrik enerjisi qarışığı üzrə orta şəbəkə emissiya intensivliyini əks etdirir.

Aylıq məlumatların natamam olduğu hallarda qiymətləndirmələr oxşar əməliyyat profilinə malik əvvəlki dövrlərin məlumatları əsasında aparılmışdır.

Elektrik enerjisi istehlakı SOCAR-ın nəzarəti altında olan bütün əməliyyat müəssisələri üzrə izlənilmiş və hesabat dövrləri arasında tamlıq və ardıcıllığın təmin edilməsi məqsədilə müvafiq düzəlişlər edilmişdir.

"USPTREAM" İSTİQAMƏTİ ÜZRƏ ƏHATƏ DAİRƏSİ 1 EMİSSİYA İNTENSİVLİYİ

"Usptream" istiqaməti üzrə Əhatə dairəsi 1 emissiya intensivliyi istehsal həcminə nisbətdə yaranan birbaşa istixana qazı emissiyalarının miqdarını göstərir. Bu göstərici əməliyyat nəzarəti altında olan bütün birbaşa emissiyaları – yanacaq yanması, məşəldə yandırma, atmosferə buraxılma və sızmaları əhatə edir və istehsal vahidinə düşən emissiya kimi ifadə olunur.

Bu göstərici emissiya mənbələrini istehsal fəaliyyəti ilə əlaqələndirməklə əməliyyatların karbon səmərəliliyinə dair normallaşdırılmış baxış təqdim edir.

"Usptream" istiqaməti üzrə Əhatə dairəsi 1 emissiya intensivliyi = "Usptream" istiqaməti üzrə ümumi Əhatə dairəsi 1 emissiyaları (ton CO_2e) ÷ "Usptream" istiqaməti üzrə ümumi istehsal həcmi

SOSİAL GÖSTƏRİCİLƏR

İşçilər və podratçılar üzrə əməyin mühafizəsi, təhlükəsizlik və insan kapitalı göstəriciləri ayrıca hesabatlandırılır.

İtirilmiş iş vaxtı ilə nəticələnən xəsarət tezliyi əmsalı və ölüm halları göstəriciləri GRI 403-9 standartının statistik tələblərinə və metodoloji göstərişlərinə uyğun olaraq hesablanır.

ƏMƏYİN MÜHAFİZƏSİ VƏ TƏHLÜKƏSİZLİK

İtirilmiş iş vaxtı ilə nəticələnən xəsarət tezliyi əmsalı

(İtirilmiş iş vaxtı ilə nəticələnən xəsarət hadisələrinin ümumi sayı ÷ Ümumi işlənmiş saatlar) × 200 000

İş Vaxtının İtirilməsi ilə Nəticələnən Xəsarət Tezliyi Əmsalı (XTƏ)

(İtirilmiş iş vaxtı ilə nəticələnən xəsarət hadisələrinin ümumi sayı ÷ Ümumi işlənmiş saatlar) × 1 000 000

Ölüm halları göstəricisi

(Ölüm hallarının sayı ÷ Ümumi işlənmiş saatlar) × 1 000 000 və ya 200 000

İNSAN RESURSLARININ IDARƏ OLUNMASI

İşçi məlumatları gender bölgüsünün düzgünlüyünü təsdiqləmək məqsədilə təminat prosedurlarından keçirilir.

İşçi dövriyyəsi göstəricisi əməkdaş məmnuniyyətinin və Şirkətin insan resurslarının idarə olunması təcrübələrinin effektivliyinin qiymətləndirilməsi məqsədilə hesablanır.

Müəssisələr arasında ardıcıllıq və müqayisəliliyin təmin olunması məqsədilə hər bir müəssisə üzrə işçi dövriyyəsi aşağıdakı standart düstur əsasında hesablanır. Alternativ metodologiyadan istifadə edildiyi hallarda bu metod əsaslandırılmalıdır.

İşçi dövriyyəsi göstəricisi (%)

İşdən çıxmış əməkdaşların sayı ÷ [(Dövrün əvvəlindəki işçi sayı + Dövrün sonundakı işçi sayı) ÷ 2] × 100

İDARƏETMƏ GÖSTƏRİCİLƏRİ

Yerli təchizatçılara yönəldilən satınalma xərcləri (%)

Ölkənin ən iri dövlət şirkətlərindən biri kimi SOCAR üçün yerli təchizatçılara yönəldilən satınalma xərcləri xüsusi əhəmiyyət daşıyır.

Bu məqsədlə SOCAR Azərbaycan üzrə bütün müəssisələrdən məlumatlar toplanır, konsolidasiya edilir və düzgünlüyün, eləcə də ardıcıllığın təmin olunması məqsədilə əvvəlki ilin məlumatları ilə müqayisə olunur.

Məlumat keyfiyyəti üzrə bütün yoxlamalar tamamlandıqdan sonra şirkətlərarası əməliyyatlar istisna olmaqla yerli təchizatçılara yönəldilmiş ümumi xərclər hesablanır və onların material və xidmətlərin satın alınmasına yönəldilmiş ümumi xərclərdəki payı müəyyən edilir.

Yerli təchizatçılara yönəldilən satınalma xərcləri (%) = Yerli təchizatçılara ayrılmış ümumi məbləğ ÷ Satınalma xərcləri üzrə ümumi məbləğ × 100

İXTİSARLAR

İxtisar	Açılışı
AGMR	Qlobal Metan Azaldılması Təşəbbüsü
AI	Süni İntellekt
ASTM	Amerika Sınaq və Materiallar Cəmiyyəti
BEPS	Vergi Bazasının Aşındırılması və Mənfəətin Köçürülməsi
BCM	Biznesin Davamlılığının İdarə Edilməsi
BOE	Neft Ekvivalenti Bareli
BPM	Biznes Proseslərinin Modelləşdirilməsi
BTC	Bakı–Tbilisi–Ceyhan
BU	Biznes Bölməsi
CCUS	Karbonun Tutulması, İstifadəsi və Saxlanılması
CDO	Rəqəmsallaşdırma üzrə Baş Direktor
CHP	Kombinə edilmiş İstilik və Elektrik Enerjisi İstehsalı
CIC	Caspian Innovation Center
CISO	İnformasiya Təhlükəsizliyi üzrə Baş Mütəxəssis
CLM	Müqavilənin Həyat Dövrünün İdarə Edilməsi
CSRD	Korporativ Dayanıqlılıq Hesabatlılığı Direktivi
EEOI	Enerji Səmərəliliyi üzrə Əməliyyat Göstəricisi
EFRAG	Avropa Maliyyə Hesabatlılığı Məsləhətçi Qrupu
EMS	Ətraf Mühitin İdarəetmə Sistemi
ESG	Ətraf Mühit və Sosial İdarəetmə
ESRS	Avropa Dayanıqlılıq Hesabatlılığı Standartları
ETED	Enerji Keçidi, Ətraf Mühit və Dekarbonizasiya
EU	Avropa İttifaqı
GHG	İstixana Qazları
GRI	Qlobal Hesabatlılıq Təşəbbüsü
YSPE	Yüksək Sıxlıqlı Polietilen
IBP	İnteqrə edilmiş Biznes Planlaşdırması
IMO	Beynəlxalq Dəniz Təşkilatı
IOGP	Beynəlxalq Neft və Qaz İstehsalçıları Assosiasiyası
IPCC	İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panel
ISMS	İnformasiya Təhlükəsizliyinin İdarəetmə Sistemi
ISO	Beynəlxalq Standartlaşdırma Təşkilatı

IT	İnformasiya Texnologiyaları
BM	Birgə Müəssisə
ƏSG	Əsas Fəaliyyət Göstəricisi
LDAR	Genişmiqyaslı Sızmaların Aşkarlanması və Aradan Qaldırılması
LIMS	Laboratoriya Məlumatlarının İdarə Edilməsi Sistemi
LTI	İş Vaxtının İtirilməsi ilə Nəticələnən Hadisə
XTƏ	İş Vaxtının İtirilməsi ilə Nəticələnən Xəsarət Tezliyi Əmsalı
MDG	Əsas Məlumatların İdarə Edilməsi
MFR	Ərimə Axını Göstəricisi
MRV	Monitorinq, Hesabatlılıq və Verifikasiya
NDC	Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr
QHT	Qeyri-Hökumət Təşkilatı
eNPS	İşçi Tövsiyə İndeksi
OECD	İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı
OGCI	Neft və Qaz üzrə İqlim Təşəbbüsü
OGDC	Neft və Qazın Dekarbonizasiya Xartiyası
OGMP	Neft və Qaz üzrə Metan Tərəfdaşlığı
SƏT	Sağlamlıq və Əməyin Təhlükəsizliyi
İK	İlkin Kvalifikasiya
PS	Peşəkarlıq Sınaqları
Bİ	İstehsalat Birliyi
R&D	Tədqiqat və İnkişaf
RSİ	Rüblük Strateji İcmallar
RİEK	Risklərin İdarə Edilməsi Komitəsi
RİED	Risklərin İdarə Edilməsi Departamenti
SAP	Sistemlər, Tətbiqlər və Məhsullar
SASB	Dayanıqlılıq Uçotu Standartları Şurası
SCP	Cənubi Qafqaz Boru Kəməri
SDGs	Dayanıqlı İnkişaf Məqsədləri
SLA	Xidmət Səviyyəsi Razılaşması
SOAR	Təhlükəsizlik Orkestrasiya, Avtomatlaşdırma və Cavab Sistemi
SOCAR	Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti
TANAP	Trans-Anadolu Təbii Qaz Boru Kəməri
TAP	Trans-Adriatik Boru Kəməri
TCFD	İqlimlə Əlaqədar Maliyyə Açıqlamaları üzrə İşçi Qrup
TURKAK	Türkiyə Akkreditasiya Agentliyi
UAV	Pilotsuz Uçuş Aparatları
BMT	Birləşmiş Millətlər Təşkilatı
UNFCCC	BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası
WMC	Tullantıların İdarə Edilməsi Mərkəzi

SOCAR

Əlaqə üçün şəxs: Nicat Hənifəyev

Rəis Müavini, ESG Standartlarının Tətbiqi Şöbəsi

Korporativ Maliyyə Departamenti

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti

Azərbaycan Respublikası, Bakı şəhəri, Heydər Əliyev Prospekti, 121, SOCAR Tower, AZ1029.

Tel: (+994 12) 521 00 00
Email: Nicat.Hanifayev@socar.az

Sizin rəyiniz bizim üçün çox dəyərlidir. QR kodu vasitəsilə DİH 2025 Rəylər və Təkliflər Formasından istifadə edə bilərsiniz.